**MİZRAKLI ELMİHAL**

# CƏNNƏT YOLU ELMİHALI

**Muhammməd ibn Qutbuddini İzniki**

**Tərcümə edən:**
**Ramil Xəlilov**

NURLAR
BAKI – 2012

# KƏLİMEYİ TƏNZİH

**"Sübhanəllahi və bi-hamdihi sübhanəllahil-azim".** Bu Kəlmeyi-tənzih **"Məktubat tərcüməsi"** kitabının 307 və 308-ci məktublarında yazılmışdır. Bunu səhər və axşam yüz dəfə oxuyanın günahları əfv olunur. Dərdlərdən qurtulur. Bir daha günah işləməkdən mühafizə olunur.

---

İmamı-Rabbani həzrətləri "**Məktubat"** kitabının 1-ci cild, 275-ci məktubunda buyurur ki:

Sizin bu nemətə qovuşmağınız İslamiyyət bilgilərini öyrətməklə və fiqh hökmlərini yaymaqla olmuşdur. Oralara cəhalət yerləşmişdi və bidətlər yayılmışdı. Allah (cəllə cəlalühü) sevdiklərinin sevgisini sizə ehsan etdi. İslamiyyəti yaymağa sizi vəsilə etdi. Elə isə din bilgilərini öyrətməyə və fiqh əhkamını yaymağa əlinizdən gəldiyi qədər çalışın. Bu ikisi bütün səadətlərin başı, yüksəlmənin vasitəsi və qurtuluşun səbəbidir.

---

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi
DK-586/M saylı 30 dekabr 2011-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

**Müəllif:** Muhammməd ibn Qutbuddini İzniki

**Tərcümə edən:** Ramil Xəlilov

**MİZRAKLI ELMİHAL**

## CƏNNƏT YOLU ELMİHALI

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2012, 184 səh.

ISBN: 978 – 9952 – 460 – 23 – 0

© «NURLAR», 2012

# CƏNNƏT YOLU ELMİHALI

## ÖN SÖZ

Allah (cəllə cələlühü) insanların dünyada və axirətdə məsud olmaları, rahat və dinclik içində olmaları və könüllərini birləşdirib, qardaşcasına yaşamaları və özünə qulluq vəzifələrini necə yerinə yetirə bilmək üçün, onlara Peyğəmbərlər göndərdi (aleyhimüssəlam). İnsanların hər baxımdan üstünləri olan bu seçilmiş şəxslər vasitəsilə qullarına ən doğru yaşamaq yolunu bildirdi. Peyğəmbərlərinin (aleyhimüssalavatü vəttəslimat) ən üstünü və sonuncusu olan Muhamməd əleyhissəlamın dünyanın hər yerində qiyamətə qədər gələcək olan bütün insanların Peyğəmbəri olduğunu bildirdi. Allah (cəllə cələlühü) çox sevdiyi bu Peyğəmbərinə mələk ilə iyirmi üç ildə göndərdiyi "**Qurani-kərim**" adındakı böyük kitabında əmrlərini və qadağalarını bildirdi. Qurani-kərim ərəbcə olduğu üçün və çox incə bilgiləri və ağlın çata bilməyəcəyi şeyləri bildirdiyi üçün Muhamməd əleyhissəlam bu kitabın hamısını, əvvəldən sonuna qədər Əshabına (aleyhimürrıdvan) açıqladı. "**Qurani-kərimi mənim bildirdiyimdən başqa şəkildə açıqlayan kafir olar**" dedi. İslam alimləri (rahimə-hümullahü təala), Peyğəmbərimizin (sallallahü təala aleyhi və səlləm) etdiyi açıqlamaları Əshabi-kiramdan eşidib hər kəsin başa düşə biləcəyi kimi genişləndirdilər və Təfsir kitablarında yazdılar. Bu alimlərə Əhli-sünnət alimləri deyilir. Əhli sünnət alimlərinin (rahiməhümullahi təala), Qurani-kərimin açıqlamalarından və ayrıca olaraq Peyğəmbərimizin (sallallahü təala aleyhi və səlləm) "**Hədisi-şərif**" deyilən sözlərindən istifadə edərək yazdıqları din kitablarına "**Elmihal**" kitabları deyilir. Allahın bildirdiyi "**İslam dini**"ni doğru, sağlam öyrənmək istəyənlərin bu elmihal kitablarını oxumaları lazımdır.

İndi təqdim etdiyimiz "**Cənnət yolu**" elmihalın əsl adı "**Miftah-ul Cənnət**", yəni Cənnət qapısının açarıdır. Hicri qəməri 885 (miladi 1480) ilində Ədirnədə vəfat etmiş Muhamməd ibn Qutbüddini İzniki (rahiməhullahü təala) yazmışdır.

Dərin İslam alimi, seyid Abdülhakim Əfəndi (rahimə-hullahü təala), "**Miftah-ul Cənnət** elmihalının müəllifi saleh bir insan idi, oxuyanlara faydalı olar" buyurmuşdur. Bunun üçün bu kitabı nəşr edirik. Bir neçə yerinə edilən açıqlamalar bu işarəli mötərizə [ ] içinə qoyuldu. Bu açıqlamalar başqa kitablardan seçilərək əlavə edilmişdir. Bunların heç biri şəxsi düşüncələr deyildir. Allah hamımızı pusquda duran islam düşmənlərinin və müsəlman adını daşıyan, hətta din adamı kimi görünən

pozğunnların, məzhəbsizlərin, dini dəyişdirməyə çalışanların tələlərinə düşərək bölünməkdən, parçalanmaqdan qorusun! Hamımızı sevgili Peyğəmbərimizin (sallallahü təala aleyhi və səlləm) yolunda, izində olan "**Əhli sünnət**" məzhəbində birləşdirsin! Bir-birimizi sevməyimizi, köməkləşməmizi nəsib etsin! Amin!

[İnsan bir iş görəcəyi zaman, əvvəla qəlbinə bir hatara (fikir, düşüncə) gəlir. Bunu etmək istəyər. Bu istəyinə "**Niyyət**" deyilir. Bu işi etməsi üçün üzvlərinə (orqanlarına) əmr edər. Əmr verməsinə "**Qəsd, təşəbbüs**" deyilir. Üzvlərin iş görməsinə "**Qəsb**" deyilir. Qəlbin etdiyi işlərə "**əxlaq** (xasiyyət, xarakter)" deyilir. Qəlbə hatara 6 şeydən gələr: Allahdan gələn hataralara "**Vəhy**" deyilir. Vəhy yalnız Peyğəmbərlərin qəlblərinə gəlir. Mələklərin gətirdikləri hataralara "**İlham**" deyilir. İlham Peyğəmbərlərin (aleyhimüssaləvatü vəttəslimat) və saleh müsəlmanların qəlblərinə gəlir. Saleh müsəlmanların verdiyi hataralara **"Nəsihət"** deyilir. Vəhy, ilham və nəsihət daima yaxşı və faydalıdır. Şeytandan gələn hataralara "**Vəsvəsə**", insanın öz nəfsindən gələn hataralara "**Həva",** pis yoldaşların təlqin etdiyi (aşıladığı) hataralara "**Qəflət**" deyilir. Nəsihət hər insana verilir. Vəsvəsə və həva kafirlərin və fasiq (açıq günah işləyən) müsəlmanların qəlblərinə gəlir. İkisi də pis və zərərlidir. Allahın razı olduğu, bəyəndiyi şeylərə "**Yaxşı**" deyilir. Bəyənmədiklərinə "**Yaman**" deyilir. Allah (cəllə cəlalühü) çox mərhəmətli olduğu üçün yaxşı və yaman şeyləri **"Qurani-kərim"**də bildirmişdir. Yaxşıları etməyi əmr etmiş, yamanları qadağan etmişdi. Bu əmr və qadağalara "**Əhkamı-islamiyyə**" deyilir. Bir qəlb, yaxşı yoldaşların nəsihətlərini və ağlı dinləyib, əhkamı-islamiyyəyə tabe olarsa, nurlanır, təmiz olar. Dünyada və axirətdə səadətə, dincliyə qovuşur. Yaman insanların, zındıqların (müsəlman görünüb insanların imanını pozmağa çalışan) insanları qəflətə salan, aldadan sözlərinə, yazılarına və nəfsə, şeytana uyub, əhkamı-islamiyyəyə uymayan qəlb qaralır, pozulur. Nurlu, təmiz qəlb pis yoldaşa, nəfsə, şeytana uymağı sevər. Allah (cəllə cəlalühü) çox mərhəmətli olduğu üçün dünyanın hər yerində yeni doğulmuş uşaqların qəlblərini təmiz olaraq yaradır. Sonradan bunların anaları, ataları və pis yoldaşları korlayır, özləri kimi edirlər.]

| **Miladi il** | **Hicri şəmsi** | **Hicri qəməri** |
|---|---|---|
| **2011** | **1389** | **1432** |

# MÜNDƏRİCAT

**Ön söz** ........................................ **3**
İslamiyyət ........................................ 7
İmanın sıfatları *(xüsusiyyətləri)* ........................................ 12
Sıfatı zatiyyə *(Zatı xüsusiyyətləri)* ........................................ 13
Sıfatı sübutiyyə *(Sübuti xüsusiyyətləri)* ........................................ 14
İmanın bizdə baki *(əbədi)* qalıb, çıxmamasının şərtləri ........................................ 18
İmanın getməsinə səbəb olan şeylər ........................................ 19
Rəsulullahın zövcələri və qazvələri ........................................ 28
İmanın təfsili haqqında ........................................ 29
Küfrə səbəb olan şeylər ........................................ 31
Əhkami-islamiyyə ........................................ 37
İslamın binası ........................................ 41
Namaz bəhsi ........................................ 42
Qüsl bəhsi ........................................ 44
Hayz *(aybaşı)* və Nifas *(doğuşdan gələn qan)* bəhsi ........................................ 49
Dəstəmaz bəhsi, sular haqqında ........................................ 58
Dəstəmazın sünnətləri ........................................ 59
Misvaq haqqında ........................................ 60
Dəstəmazın müstəhəbləri ........................................ 60
Dəstəmazın məkruhları ........................................ 61
Dəstəmazı pozan şeylər ........................................ 61
Dəstəmaz duaları ........................................ 62
Təyəmmüm bəhsi ........................................ 63
İstinca, istibra, istinka ........................................ 67
Namaz necə qılınır ........................................ 69
Azanı Muhammədi ........................................ 71
Namazın vacibləri ........................................ 75
Namazın sünnətləri ........................................ 76
Namazın müstəhəbləri ........................................ 76
Namazın ədəbi ........................................ 77
Namazdan sonra dua ........................................ 78
Namazın məkruhları ........................................ 78
Namazı pozan şeylər ........................................ 80

Camaat ilə namazın fəziləti .......... 83
Namazda imamət .......... 84
Namazda tadili-ərkan .......... 84
Səfərdə namaz .......... 85
İftitah təkbirinin fəzilətləri .......... 87
Cənnəti aliyyat haqqında .......... 88
Qəza namazları .......... 90
Meyit üçün namaz isqatı .......... 94
Cümə namazı haqqında .......... 97
Namaz qılmaq .......... 102
Üzr sahibi olmaq .......... 102
Xəstəlikdə namaz .......... 104
Namazın əhəmiyyəti .......... 106
Zəkat vermək .......... 113
Oruc bəhsi .......... 121
Qurban bəhsi .......... 126
Həcc bəhsi .......... 126
Əlli dörd fərz .......... 128
Günahı kəbair (böyük günahlar) haqqında .......... 131
Övrət yerləri və qadınların örtünməsi .......... 134
Möminin xüsusiyyətləri .......... 140
Gözəl əxlaq haqında .......... 142
Əshabın fəziləti .......... 143
Təam bəhsi .......... 146
Evlənmək haqqında .......... 149
Cənazənin təchiz, təkfin və dəfni haqqında .......... 154
Ölüm halları haqqında .......... 156
Məsumların ölümü haqqında .......... 160
Müsəlman qadınların ölümü haqqında .......... 161
Məzlum, səbrli və qərib olanların ölümü haqqında. Şəhidlər .......... 163
Kafirlərin ölümü haqqında .......... 164
Qəbir ziyarəti və Qurani-kərim oxumaq .......... 167
Üçüncü cild, 9-cu məktub .......... 170
Üçüncü cild, 84-cü məktub .......... 171
Cənnət Yolu Elmihal kitabının son sözü .......... 172
Hilyəi Səadət .......... 175

# CƏNNƏT YOLU ELMİHALI

**Əlhamdu lilləhilləzi cəalənə minət-talibinə və lililmi minər-raqibinə vəs-salətu vəs-səlamu alə Muhammədinil ləzi ərsələhu rahmətən lil-aləminə və alə Əlihi və Əshabihi əcmain.**

## İSLAMİYYƏT
## ALLAH VARDIR VƏ BİRDİR

Allah (cəllə cələlühü) bütün varlıqları yaratdı. Hər şey yox idi. Yalnız Allah var idi. O, həmişə vardır. Sonradan var olmuş deyildir. Öncədən var olmasaydı, Onu var edən bir qüvvənin mövcud olması lazım olardı. Çünki var olmayan bir şeyi yaradacaq qüvvə olmazsa, o şey var ola bilməz. Onu yaradan qüvvə sahibi həmişə var idisə, onda Allah (cəllə cələlühü) bu qüvvə sahibi olan sonsuz varlıqdır. Yox, əgər bu yaradıcı qüvvə sahibi də sonradan var olmuşdursa, onu da var edənin mövcud olması lazım olar. Beləcə, sonsuz sayda var edicilərin olması lazım gələr. Bu isə var edicilərin bir başlanğıcının olmaması deməkdir. İlk var edicinin olmaması, onun var edəcəklərinin də olmaması deməkdir. Var edici var olmadıqda, yoxdan var edilmiş olan bu gördüyümüz və ya eşitdiyimiz maddə və ruh aləminin də olmaması lazımdır. Maddələr və ruhlar var olduqları üçün bunların yalnız bir yaradıcılarının da olması və həmişə var olması lazımdır.

Allah (cəllə cələlühü) hər şeyin özülü olan bəsit cisimləri, ruhları və mələkləri öncədən yaratdı. Bəsit cisimlər indi element adlanır. Bu gün 105 növ elementin var olduğu bilinir. Allah (cəllə cələlühü) hər maddəni, hər cismi bu 105 elementdən yaratmışdır və yaratmaqdadır. Dəmir, kükürd, karbon, oksigen qazı, xlor qazı bir elementdir. Allah bu elementləri neçə milyon il öncə yaratmış olduğunu bildirmədi. Bunlardan meydana gələn yerləri, göyləri və canlıları da nə vaxt yaratmağa başladığını bildirmədi. Canlı, cansız hər şeyin bəlli bir ömrü vardır. Zamanı gəldikdə yaratmaqda, ömrü bitincə yox etməkdədir. Bir şeyi yoxdan var etdiyi kimi, bir şeydən yavaş-yavaş və ya birdən-birə başqa bir şeyi yaratmaqda, birincisi yox olmaqda, yenisi var olmaqdadır.

Allah (cəllə cələlühü) ilk insanı cansız maddələrdən və ruhdan meydana gətirdi. Bundan əvvəl insan yox idi. Heyvanlar, otlar, cin və mələklər bu ilk insandan daha əvvəl yaradıldı. Bu ilk insanın adı Adəm (aleyhissalatü vəssəlam) idi. Bundan Həvva adında bir qadın da yaratdı. Bütün insanlar bu ikisindən yarandı. Hər heyvandan da öz cinsləri törədi. Canlı və cansız hər şeyin hər zaman dəyişdiyini görürük. Kadim olan, yəni başlanğıcı olmayan şey isə

heç dəyişmir. Fiziki hadisələrdə maddələrin halları, formaları dəyişir. Kimyəvi reaksiyalarda tərkibi və quruluşu dəyişir. Cisimlər yox olub, başqa cisimlər hasil olur. Nüvə reaksiyalarında element yox olaraq enerjiyə çevrilir. Hər şeyin bir-birindən hasil olması, sonsuzdan baş verə bilməz, yoxdan var edilmiş ilk maddələrdən hasil olmaları lazımdır. Çünki sonsuz, başlanğıcı olmayan deməkdir.

İslam düşmənləri müsəlmanların övladlarını aldatmaq üçün fənn adamı cildinə girir, insanların meymundan yaradıldığını deyirlər. Darvin adındakı ingilis doktorunun belə söylədiyini deyirlər. Bunlar yalan deyirlər. Darvin belə bir şey söyləməyib. O, canlılar arasında həyat mücadiləsini izah etmişdir. **"Növlərin mənşəyi"** adlı kitabında o, canlıların mühitə uyğunlaşdığını, buna görə də kiçik dəyişikliklərə məruz qaldığını yazır. O, bir cinsin başqa cinsə döndüyünü deməmişdir. İngilis elm birliyinin 1980-cı ildə Salfordda təşkil etdiyi iclasda Svansea Universitetinin dosenti Prof. Con Dyurant demişdir: "Darvinin insanın mənşəyi ilə əlaqədar fikirləri müasir əfsanə oldu. Bu əfsanə elmi və ictimai inkişafımıza zərərdən başqa bir şey vermədi. Təkamül nağılları elmi araşdırmalara məhv edici bir təsir göstərdi. Təhrifə, lazımsız münaqişələrə və elmin böyük ölçüdə sui-istifadəsinə yol açdı. İndi Darvinin nəzəriyyəsi, tikiş yerlərindən partlamış, yerinə acınacaqlı və səhv düşüncə yığını qalmışdır". Prof. Dyurantın öz vətəndaşı haqqında söylədiyi bu sözlər Darvinçilərə elm tərəfindən verilən ən maraqlı cavablardan biridir. Günümüzdə təkamül nəzəriyyəsinin müxtəlif səviyyəli insanlara bildirmək istənilməsinin əsl səbəbi ideologiyadır, elm deyildir. Bu nəzəriyyə materialist fəlsəfənin yeridilməsi üçün bir vasitə olaraq işlədilir. İnsan, meymundan əmələ gəldi, sözü elmi söz deyil. Darvinin də sözü deyil. Elmdən xəbəri olmayan cahil islam düşmənlərinin yalanlarıdır. Elm adamları bu cür cahilcə, axmaq söz söyləməz. Universitetdən diplom alan bir kimsə zövqlü və əyləncəli həyata başlayıb, öz elmi sahəsində işləməzsə, oxuduqlarını da unudarsa, bu şəxs elm adamı ola bilməz. Üstəlik islama düşmənçilik edərək, yalan və səhv sözlərini, yazılarını elm olaraq yaymağa başlayarsa, cəmiyyət üçün zərərli, alçaq, xain bir mikroba çevrilər. Onun diplomu, vəzifəsi bir göstəriş, gəncləri ovlayan bir tələdir. Yalanlarını, iftiralarını elm olaraq yayan fənn təqlidçilərinə "**fənn fırıldaqçıları"** deyilir. Onlara aldanmaq olmaz.

Allah insanların dünyada rahat, dinclik içində yaşamaqlarını, axirətdə də sonsuz səadətə qovuşmaqlarını istəyır. Bunun üçün səadətə səbəb olan faydalı şeyləri əmr etdi. Fəlakətə səbəb olan zərərli şeyləri qadağan etdi. İstər dindar, istər dinsiz, istər inanan, istər inanmayan hər hansı bir şəxs bilərək və ya bilməyərək, əhkami-islamiyyəyə, yəni Allahın əmrlərinə və qadağalarına tabe olduqca dünyada rahat və hüzur içində yaşayar. Bu, faydalı dərman istifadə edən hər kəsin dərddən, sıxıntıdan qurtulması kimidir. Dinsiz, imansız bir çox şəxsin və millətlərin müəyyən işlərində müvəffə-

qiyyət əldə etməsi Qurani-kərimin əhkamına uyğun olaraq işlədikləri üçündür. Qurani-kərimə uyaraq axirətdə sonsuz səadətə qovuşa bilmək üçün isə ona inanaraq tabe olmaq lazımdır.

Allahın birinci əmri "***İman***" etməkdir. Birinci qadağan etdiyi şey isə "***Küfr***"dür. İman, Muhamməd əleyhissəlamın Allahın son Peyğəmbəri olduğuna inanmaqdır. Allah Ona əmr və qadağalarını ərəbcə "***Vəhy***" etmişdir. Yəni, bir mələk vasitəsi ilə bildirmiş, O da bunların hamısını insanlara çatdırmışdır. Allah (cəllə cələlühü) ərəbcə, bir mələk vasitəsi ilə bildirdiklərinə "***Qurani-kərim***" deyilir. Qurani-kərimin bütünlüklə yazıldığı kitaba *"**Mushaf**"* deyilir. Qurani-kərim Muhamməd əleyhissəlamın sözü deyil, Allah kəlamıdır. Heç bir insan o şəkildə düzgün söyləyə bilməz. Qurani-kərimdə bildirilənlərin hamısına "***İslamiyyət***" deyilir. Bunların hamısına qəlbdən inanan insana "***Mömin***" və "***Müsəlman***" deyilir. Onlardan birini belə bəyənməməyə imansızlıq, yəni "***Küfr***" (Allaha düşmən olmaq) deyilir. Qiyamətə, cinin, mələklərin var olduqlarına, Adəm Peyğəmbərin (aleyhissalatü vəssəlam) bütün insanların atası olduğuna və ilk Peyğəmbər olduğuna inanmaq yalnız qəlbdən olmalıdır. Bunlara "***İman***", "***Etiqad***" və "***Akaid***" (imani əsaslar, inanclar) bilgiləri deyilir. Bədən və qəlb ilə ediləcək və çəkiniləcək şeylərə isə həm inanmaq, həm də əməl etmək lazımdır. Bunlara "***Əhkami islamiyyə***" bilgiləri deyilir. Bunlara inanmaq iman olur. Bunlara əməl etmək isə "***İbadət***" olur. Niyyət edərək əhkami islamiyyəyə uymağa ibadət etmək deyilir. Allahın əmrlərinə və qadağalarına "***Əhkami islamiyyə***" və "***Əhkami ilahiyyə***" deyilir. Əmr edilənlərə "***Fərz***", qadağan edilənlərə "***Haram***" deyilir. Göründüyü kimi, ibadətlərin vəzifə olduğuna inanmayan, əhəmiyyət verməyən "***Kafir***" (Allaha düşmən) olur. Bunlara inanıb, lakin əməl etməyən kafir olmaz. Buna "***Fasiq***" (günahkar) deyilir. İslam bilgilərinə iman edib, əlindən gəldiyi qədər əməl edən möminə "***Saleh müsəlman***" (yaxşı insan) deyilir. Allahın razılığını, sevgisini qazanmaq üçün islamiyyətə uyan və bir mürşidi (doğru yol göstərən, dini rəhbər) sevən müsəlmana "***Saleh***" deyilir. Allahın rızasını (razılığını), sevgisini qazanmış olana "***Arif***" və ya "***Vəli***" deyilir. Başqalarının da bu sevgini qazanmalarına vasitə olan Vəliyə "***Mürşid***" deyilir. Bu mübarək, seçilmiş insanların hamısına "***Sadiq***" deyilir. Bunların hamısı salehdir. Saleh mömin Cəhənnəmə heç getməyəcəkdir. Kafir əlbəttə ki, Cəhənnəmə gedəcək, Cəhənnəmdən heç çıxmayacaq, sonsuz əzab görəcəkdir. Kafir iman edərsə, bütün günahları o an bağışlanır. Fasiq tövbə edib, ibadətləri yerinə yetirməyə başlayarsa, Cəhənnəmə girməyəcək, saleh mömin kimi birbaşa Cənnətə gedəcəkdir. Tövbə etməzsə, ya şəfaət ilə və ya səbəbsiz bağışlanılıb birbaşa Cənnətə gedəcək, yaxud Cəhənnəmdə günahları qədər yandıqdan sonra Cənnətə girəcəkdir.

Qurani-kərim o zamanki insanların danışdığı ərəb dilinə uyğun olaraq gəlmişdir və nəzm şəklindədir. Yəni şer kimi, düzgündür. Ərəb dilinin incəlikləri ilə doludur. Bədi, Bəyan, Məani və Bəlağat* elmlərinin bütün incəliklərinə uyğundur. Buna görə də anlamaq çox çətindir. Ərəb dilinin incəliklərini bilməyən şəxs ərəbcə oxuyub, yazsa belə, Qurani-kərimi yaxşı anlaya bilməz. Bu incəlikləri bilənlər belə, anlaya bilməmiş, çox yerlərini Peyğəmbər əfəndimiz izah etmişdir. Rəsulullahın (sallallahü aleyhi və səlləm) bu açıqlamalarına "***Hədisi-şərif***" deyilir. Əshabi-kiram (rıdvanullahi təala aleyhim əcmain) Peyğəmbərimizdən (sallallahü təala aleyhi və səlləm) eşidib öyrəndiklərini gənclərə bildirmişdirlər. Zaman keçdikcə qəlblər qaralmış, xüsusən də yeni müsəlman olanlar Qurani-kərimdən öz qüsurlu ağılları və dar düşüncələri ilə məna çıxartmağa cürət etmiş, Peyğəmbər əfəndimizin bildirdiklərinə uymayan şeylər anlamışdırlar. İslam düşmənləri də bu bölünməni, parçalanmanı qızışdırmış, beləcə 72 cür səhv, yalnış inanc meydana gəlmişdir. Bu cür yalnış inanan müsəlmanlara "***Bidət əhli***" və ya "***Dəlalət əhli***" deyilir. 72 bidət qrupundan olanların hamısı əlbəttə ki, Cəhənnəmə girəcək. Lakin mömin olduqları üçün orada əbədi qalmayacaq, çıxaraq Cənnətə girəcəklər. İnancı Qurani-kərimdə və Hədisi-şəriflərdə açıqca bildirilmiş bilgilərə uyğun gəlməyənin imanı gedər. Bunlara "***Mülhid***" deyilir. Mülhid özünü müsəlman hesab edir.

Etiqad bilgilərini, yəni inanılması lazım olan din bilgilərini Əshabi-kiramdan (rıdvanullahi təala aleyhim əcmain) doğru olaraq öyrənib kitablara yazan islam alimlərinə "***Əhli sünnət***" alimləri deyilir (rahmətullahi təala aleyhim əcmain). Bunlar, dörd məzhəbin birində ictihad dərəcəsinə yüksəlmiş olan alimlərdir. Bu alimlər Qurani-kərimin mənasını öz ağılları və düşüncələri ilə anlamağa cürət etməmiş, yalnız Əshabi-kiramdan öyrəndiklərinə inanmışdırlar. Öz anladıqlarına uymamış, Peyğəmbərimizin bildirdiyi doğru yolu yaymışdırlar. Osmanlı dövləti müsəlman idi və Əhli sünnət etiqadında idi.

Yuxarıda bildirilənlərdən aydın olur və bir çox qiymətli kitablar yazır ki, dünyada və axirətdə fəlakətlərdən qurtulmaq, rahat və məsud yaşamaq üçün ilk öncə Əhli sünnət alimlərinin (rahmətullahi təala aleyhim əcmain) bildirdikləri kimi iman etmək, yəni öyrənmək və hamısına inanmaq lazımdır. Əhli sünnət etiqadında olmayan şəxs ya bidət əhli, ya da Mülhid, yəni kafir olur. İmanı, yəni etiqadı doğru olan mömininin ikinci vəzifəsi saleh olmaqdır. Yəni Allahın rızasını, sevgisini qazanmaqdır. Bunun üçün qəlblə və bədənlə əməl olunması və çəkinilməsi əmr olunan islam bilgilərini öy-

---

* Bədi- söz və məna ilə bağlı bəzi sənətlərlə sözün bəzədilməsini öyrənən elm; Bəlağat-sözü düzgün və yerində söyləməyi öyrədən elm; Bəyan-Bəlağat elminin həqiqət, məcaz, kinayə, bənzətmə kimi mövzularından bəhs edən elm; Məani-sözün yerində işlədilməsindən, hala, vəziyyətə görə uğrayacağı dəyişikliklərdən bəhs edən elmdir.

rənib, bunlara uyğun yaşamaq lazımdır. Başqa sözlə, ibadət etmək lazımdır. Əhli sünnət alimləri (rahimə-hümullahü təala) ibadət bilgilərini anladarkən dörd yerə ayrıldılar. Beləliklə, dörd "***Məzhəb***" meydana gəldi. Aralarındakı ayrılıqlar az və mühüm olmayan işlərdə olduğu üçün, həmçinin imanlarında birləşdikləri üçün bir-birlərini sevər və sayarlar. Hər bir müsəlmanın bu dörd məzhəbdən birinə görə ibadət etməsi lazımdır. Bu dörd məzhəbdən birinə uymayanın Əhli sünnətdən ayrılacağı Tahtavinin "***Dürr-ül-muxtar***" kitabının haşiyəsindəki "Zəbayih" qismində yazılmışdır.

Döyüşdə əsir alınan və ya sülh vaxtı hər hansı bir kafir "mən müsəlman oldum" deyincə, buna inanılır. Lakin bu şəxsin ***İmanın altı şərtini*** dərhal öyrənməsi və bunlara inanması lazımdır. Sonra fərzləri və haramları sırası gəlincə və imkan tapdıqca dərhal öyrənməli və bu öyrəndiklərinə uymalıdır. Öyrənməsə və ya öyrəndiklərindən birinə belə əhəmiyyət verməyib, əməl etməzsə, Allahın dininə əhəmiyyət verməmiş olar, imanı gedər. Belə imanı getmiş şəxsə "***Mürtəd***" deyilir. Din adamı şəklinə girib, müsəlmanları aldadan mürtədlərə ***"Zındıq"*** deyilir. Bir kimsə dünya mənfəətlərində aldanmayıb, lakin islamı hərtərəfli öyrənmədən, müsəlmanlığı bilmədən həddi-buluğa çatmışdırsa, onun mürtəd hökmündə olacağı "***Siyəri Kəbir şərhi***" tərcüməsinin 116-cı səhifəsində və "***Dürr-ül-muxtar***" da kafirin nikahı sonunda yazılmışdır. "***Dürr-ül-muxtar***" da kafirin nikahı sonunda deyilir ki, nikahlı müsəlman bir qız həddi-buluğa çatdığı zaman müsəlmanlığı bilməzsə, nikahı pozulur, [yəni mürtəd olur]. Ona Allahın (cəllə cəlölühü) sıfatlarını (xüsusiyyətləri) bildirmək lazımdır. O da təkrar etməli və bunlara inandım deməlidir. İbni Abidin (rahimə-hullahü təala) bunu izah edərkən deyir: "Qız uşaq ikən ata və anasına tabe olaraq müsəlmandır. Həddi-buluğa çatdıqda ana və atasının dininə tabe olması davam etməz. İslamiyyəti bilmədən buluğ yaşına çatarsa, mürtəd olar. İman ediləcək şeyləri eşidib, bunlara inanmayan kimsə Kəlmeyi-təvhid söyləsə, yəni "***Lə iləhə illəllah Muhamməd-dün rasülullah***" desə, müsəlman olmaz. "Aməntü billəhi..." duasındakı altı şeyə inanan və Allahın əmr və qadağalarını qəbul etdim deyən şəxs müsəlman olur". Buradan aydın olur ki, hər müsəlman öz övladına "Aməntü billəhi və Məlaikətihi və Kütübihi və Rusülihi vəl Yəvmil-əxiri və bil Qadəri xayrihi və şərrihi minallahi təala vəl-bəasü bəadəl məvti haqqun Əşhədü ən Lə iləhə illəllah və Əşhədü ənnə Muhamməden abdühü və rasulühü" duasını əzbərlətməli və mənasını öyrətməlidir. Uşaq bu altı şeyi və islamiyyətin əmr və qadağalarından birini öyrənməz, inandığını söyləməzsə, həddi-buluğa çatdıqda müsəlman olmaz, mürtəd olar. Buna görə də övladlarımızın mürtəd yetişməməsi üçün çox diqqətli olmalıyıq. Onlara hələ uşaq ikən imanı, islamı, dəstəmazı, qüslü, namazı öyrətməliyik! Ananın və atanın birinci vəzifəsi övladını müsəlman olaraq yetişdirməkdir.

“**Dürər və Qurər**” kitabında deyilir: “Mürtəd olan kişiyə müsəlman ol, deyilir. Şübhə etdiyi şeylər anladılır. Vaxt istəsə, üç gün həbs olunar. Tövbə edərsə, qəbul edilər. Tövbə etməzsə, hakim tərəfindən öldürülər. Mürtəd olan qadın isə öldürülməz, müsəlman olana qədər həbs olunar. Dar-ül-hərbə (yəni müsəlman olmayan ölkəyə) qaçarsa, orada cariyə olmaz. Əsir alınarsa, cariyə olar. Mürtəd olduqda nikahı pozular. Bütün malları mülkündən çıxar. Yenidən müsəlman olarsa, malları təkrar onun mülkü olar. Öldükdə və ya Dar-ül-hərbə qaçdıqda (və ya Dar-ül-hərbdə mürtəd olduqda), onun mülkü müsəlman varisinə qalır. [Varisi yoxdursa, Beyt-ül-maldan (dövlət xəzinəsindən) haqqı olanlara qalır] Mürtəd mürtədə varis ola bilməz. Mürtəd ikən qazandıqları mülkü olmaz. Müsəlmanlara qənimət olar. Alış-veriş, kirayə sözləşmələri və hədiyyə verməsi batil olar. Yenidən müsəlman olarsa, səhih halına dönər. Əvvəlki ibadətlərini qəza etməz, yalnız təkrar həccə getməsi lazım olar”. İmandan sonra ilk öyrənilməsi lazım olan şey dəstəmaz almaq, qüsl və namazdır.

***İmanın altı şərti bunlardır***: Allahın var olduğuna, bir olduğuna və sıfatlarına (xüsusiyyətlərinə) inanmaq; Mələklərə; Peyğəmbərlərə; Kitablara; Axirətdə olan şeylərə; Qəza və Təqdirə iman. İrəlidə bunları ayrı-ayrı açıqlayacağıq.

Xülasə, qəlb və bədən ilə islamiyyətin əmr və qadağalarına tabe olmalı, qəlb qəflətdən oyanıq olmalıdır. Qəlbi oyanıq olmayan [yəni Allahın varlığını, böyüklüyünü, Cənnət nemətlərini və Cəhənnəm atəşinin şiddətini xatırlamayan, düşünməyən] şəxsin bədəninin islamiyyətə uyması çətin olur. Fiqh alimləri fitvaları bildirirlər. Bunların yerinə yetirilməsini asanlaşdırmaq Allah adamlarının işidir. Bədənin islamiyyətə sevərək və asanlıqla tabe olması üçün qəlbin təmiz olması lazımdır. Lakin yalnız qəlbin təmiz olmasına, əxlaqın gözəl olmasına əhəmiyyət verib, bədənin islamiyyətə uymasına əhəmiyyət verməyən kimsə **“mülhiddir”** (dinsiz). Bunun nəfsinin parlaması ilə hasil olan “qeybdən xəbər vermək, xəstələri oxuyub-üfləyib sağaltmaq” kimi adətdən kənar uğurları “***İstidrac***” olub, özünü və ona uyanları Cəhənnəmə sürükləyər. Qəlbin və nəfsin təmiz, itaətkar olmasının əlaməti, bədənin islamiyyətə sevərək tabe olmasıdır. Hiss orqanlarını və bədənini islamiyyətə tabe etdirməyənlərin “*Qəlbim təmizdir, sən qəlbimə bax*!” demələri boş sözdür. Bu cür söyləməklə, onlar özlərini və ətrafındakıları aldadırlar.

## İMANIN SIFATLARI (XÜSUSİYYƏTLƏRİ)

Əhli sünnət alimləri deyir ki, imanın sıfatları altıdır:

**AMƏNTÜ BİLLƏHİ**: Mən Allahü azım-üş-şanın varlığına və birliyinə inandım, iman etdim.

Allahü azım-üş-şan vardır və birdir.

Şəriki və naziri yoxdur (Ortağı və bənzəri yoxdur).

Məkandan münəzzihdir (Bir yerdə deyildir).

Kəmal sıfatları vardır.

Nöqsan sıfatlardan təmizdir. Onda yoxdur.

Kəmal sıfatlar Allahü azım-üş-şanda olur. Nöqsan sıfatlar isə, bizlərdə olur.

Bizlərdə olan nöqsan sıfatlar əlsiz-ayaqsız, gözsüz olmaq, xəstəlik və sağlamlıq, yemək, içmək və bunlara oxşar bir çox şeylərdir.

Allahü azım-üş-şanda olan sıfatlar, yeri, göyü, o cümlədən havada, suda, yer üzündə və torpaq altında yaşamaqda olan müxtəlif məxluqları yaratması; ağlımıza gələn və acizliyimiz səbəbi ilə bəzilərinin ağlına gəlməyən bir çox məxluqları hər an varlıqda saxlaması; bütün məxluqatın ruzisini verməsi və başqa kəmal sıfatlardır. Qadiri mütləqdir. Hər varlıq Allahü azım-üş-şanın kamal sıfatlarından bir əsərdir.

Allahü azım-üş-şan haqqında bilməli olduğumuz vacib sıfatlar iyirmi ikidir. İyirmi iki də muhal sıfatları vardır.

Vacib-lazım deməkdir. Bu sıfatlar Allahü azım-üş-şanda vardır. Muhal olanlar isə yoxdur. Muhal – vacibin ziddidir. Var ola bilməz, deməkdir.

Allahü azım-üş-şan haqqında bilməli olduğumuz sıfatı-nəfsiyyə birdir : **Vücud**, yəni var olmaqdır.

Allahü azım-üş-şanın var olmasının birbaşa dəlili Allahın (cəllə cələlühü) **"İnnəni ənəllahü"** kəlamıdır. Ağıla uyğun dəlil, bu aləmləri xəlq edən (yoxdan var edən) bir xaliq (yaradan), əlbəttə mövcuddur, əlbəttə vardır. Mövcud olmamaq muhaldır.

Sıfatı-nəfsiyyə demək – zat, onsuz və O, zatsız təsəvvür oluna və düşünülə bilməz, deməkdir.

## SİFATI-ZATİYYƏ (Zatı xüsusiyyətlər)

Allahü azım-üş-şan haqqında bizim bilməli olduğumuz sıfatı-zatiyyə beşdir. Bunlara "**Üluhiyyət sıfatları**" deyilir.

***1. Qıdəm***. Allahü azım-üş-şanın varlığının əvvəli olmamaq.

***2. Bəka***. Allahü azım-üş-şanın varlığının sonu olmamaq. Buna vacib-ül-vücud deyilir. Birbaşa dəlil Allahü azım-üş-şanın Hadid surəsində üçüncü ayəti-kərimənsidir. Ağıla uyğun dəlil, varlığının əvvəli və axırı olsa, sonradan var olmuş olub, aciz və naqis olardı. Aciz və naqis olan başqasını yarada bilməz. Bu, Allahü azım-üş-şan haqqında muhaldır.

***3. Qiyam bi-nəfsihi***. Allahü azım-üş-şan zatında, sıfatlarında və işlərində heç kimə möhtac deyildir. Birbaşa dəlil Muhamməd (əleyhissəlam) surəsinin son ayəti kərimənsidir. Ağıla uyğun dəlil, bu sıfatlar Onda olmamış olsa, aciz və naqis olardı. Bu isə Allahü azım-üş-şan haqqında muhaldır.

***4. Müxaləfətün lil-havadis***. Allahü azım-üş-şan zatında və sıfatında heç kimə bənzəməz. Birbaşa dəlil, Allahü azım-üş-şanın Şura surəsindəki

on birinci ayəti kərimısidir. Ağıla uyğun dəlil, bu sıfatlar Onda olmamış olsa, aciz və naqis olardı. Bu isə Allahü azım-üş-şanın haqqında muhaldır.

***5. Vəhdaniyyət***. Allahü azım-üş-şanın zatında, sıfatında və işlərində şəriki və bənzəri yoxdur. Birbaşa dəlil, Allahın İxlas surəsindəki birinci ayəti kərimısidir. Ağıla uyğun dəlil, əgər ortağı olsa, aləm yox olardı. Biri bir şeyi yaratmağı, digəri yaratmamağı istəyərdi.

[Alimlərin çoxusuna görə "**Vücud**", yəni var olmaq da ayrıca bir sıfatdır. Beləcə, sıfatı-zatiyyə altı olur.]

## SİFATI-SÜBUTİYYƏ (Sübuti xüsusiyyətlər)

Allahü azım-üş-şan haqqında bizim bilməli olduğumuz sıfatı-sübutiyyə səkkizdir: Həyat, elm, səm, basar, iradə, qüdrət, kəlam, təkvin.

***1. Həyat***. Allahü azım-üş-şan diridir. Birbaşa dəlil, Allahü azım-üş-şanın Bəqərə surəsindəki 255-ci ayəti kərimısinin baş qismidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şan diri olmasa, bu məxluqat vücuda gəlməzdi.

***2. Elm***. Allahü azım-üş-şanın bilməsi, deməkdir. Birbaşa dəlil, Allahü azım-üş-şanın Haşr surəsindəki 22-ci ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın bilməsi olmasa, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***3. Səm***. Allahü azım-üş-şanın eşitməsi, deməkdir. Birbaşa dəlil, Allahü azım-üş-şanın İsra surəsindəki birinci ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın eşitməsi olmasa, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***4. Basar***. Allahü azım-üş-şanın görməsi deməkdir. Birbaşa dəlil, Allahü azım-üş-şanın yenə İsra surəsindəki birinci ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın görməsi olmasa, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***5. İradə***. Allahü azım-üş-şanın istəməsi deməkdir. Onun istədiyi olur. O istəməzsə, heç bir şey olmaz. Varlıqları istəmiş, yaratmışdır. Birbaşa dəlil, Allahü azım-üş-şanın İbrahim surəsindəki 27-ci ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın istəməsi olmasa, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***6. Qüdrət***. Allahü azım-üş-şanın hər şeyə gücünün yetməsi deməkdir. Birbaşa dəlil, Allahü azım-üş-şanın Ali İmran surəsindəki 165-ci ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın əgər gücü yetməsə, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***7. Kəlam***. Allahü azım-üş-şanın söyləməsi. Birbaşa dəlil, Allahü azım-üş-şanın Nisa surəsindəki 164-cü ayəti kərimısidir. Ağıla uyğun dəlil, Allahü azım-üş-şanın söyləməsi olmasa, aciz və naqis olardı. Aciz və naqis olmaq, Onun haqqında muhaldır.

***8. Təkvin** (yaratmaq).* Allahü azım-üş-şan xaliqdir, yaradandır. Hər şeyi yaradan, yoxdan var edən Odur. Ondan qeyri yaradan yoxdur. Birbaşa dəlil, Allahü azım-üş-şanın Zümər surəsindəki 62-ci ayəti kərimədsidir. Ağıla uyğun dəlil, yerlərdə və göylərdə qeyri-adi məxluqatı vardır və cümləsini yaradan odur. Ondan başqası üçün "yaratdı" demək küfrdür. İnsan heç bir şey yarada bilməz.

Allahü azım-üş-şan haqqında bilməli olduğumuz sıfatı-mənəviyyə səkkizdir: Hayyün, Alimün, Səmiun, Basirun, Müridün, Qadirün, Mütəkəllimün, Mükəvvinün.

Bu sıfatı şəriflərin mənaları bunlardır:

***1. Hayyun,*** Allahü azım-üş-şan diridir.

***2. Səmiun,*** Allahü azım-üş-şan eşidəndir.

***3. Basirun,*** Allahü azım-üş-şan görəndir.

***4. Müridün,*** Allahü azım-üş-şan diləyəndir.

***5. Alimün,*** Allahü azım-üş-şan biləndir.

***6. Qadirün,*** Allahü azım-üş-şan gücü yetəndir.

*7.* ***Mütəkəllimün,*** Allahü azım-üş-şan söyləyəndir.

***8. Mükəvvinün,*** Allah (cəllə cəlalühü) hər şeyi xəlq edəndir.

Allahü təala haqqında muhal olan sıfatlar bunların ziddidir.

**VƏ MƏLƏİKƏTİHİ**: Mən, Allahü azım-üş-şanın mələklərinə inandım, iman etdim. Allahü azım-üş-şanın mələkləri vardır, onları nurdan xəlq etmişdir. Cisimdirlər (burada cisim demək-fizika kitablarında bildirilən cisim deyildir). Yeməzlər və içməzlər. Onlarda erkəklik və dişilik olmaz. Göydən yerə enərlər və yerdən göyə qalxarlar. Bir haldan başqa hala girərlər. Göz açıb yumacaq qədər Allahü azım-üş-şana asi olmazlar və bizim kimi günah işləməzlər. Onların içində Allahü təalaya yaxın olanlar və Peyğəmbərlər vardır.

Hamısından fəzilətlisi Cəbrail, Mikail, İsrafil, Əzrail aleyhimüssəlamdır. Bu dördü, bütün mələklərin Peyğəmbərləridir. Onların hər birini Allahü azım-üş-şan bir vəzifəyə təyin etmişdir. Qiyamətə qədər başqa bir xidmətə keçməzlər.

**VƏ KÜTÜBİHİ**: Mən, Allahü azım-üş-şanın kitablarına inandım, iman etdim.

Allahü azım-üş-şanın kitabları vardır. Bunlar, Qurani-kərimdə bildirilən 104 kitabdır. 100-ü kiçik kitabdır. Bunlara "suhuf" deyilir. 4-ü böyük kitabdır. **Tövrat**, həzrəti Musa "əlehissəlam"a, **Zəbur**, həzrəti Davud "əleyhissəlama", **İncil**, həzrəti İsa əleyhissəlama, **Qurani-kərim** bizim Peyğəmbərimiz Muhamməd əleyhissəlama nazil olmuşdur. Bu gün yəhudilərin və xristianların oxuduqları **Tövrat** və **İncil** haqqında "**Cavab verə bilmədi**" kitabında geniş məlumat vardır.

Yüz suhufdan on suhufu həzrəti Adəm əleyhissəlama, əlli suhufu Şit əleyhissəlama, otuz suhufu İdris əleyhissəlama, on suhufu İbrahim əleyhissəlama enmişdir. Bunların hamısını Cəbrail əleyhissəlam endirmişdir. Bunlardan sonra Quranı azım-üş-şan nazil olmuşdur. Quranı azım-üş-şan az-az, ayət-ayət, iyirmi üç ildə nazil olmuşdur. Hökmü qiyamətə qədər qüvvədədir. Nəsh olmaqdan (qüvvədən düşməkdən) və dəyişdirilməklə təhrif olunmaqdan (insanların dəyişdirməsindən) qorunmuşdur.

**VƏ RUSÜLİHİ:** Mən, Allahü azım-üş-şanın Peyğəmbərlərinə (aleyhimüssaləvatü vəttəslimat) iman etdim.

Allahü azım-üş-şanın Peygəmbərləri vardır (aleyhimüssaləvatü vəttəslimat). Peyğəmbərlərin hamısı insandır. Əvvəli Adəm əleyhissəlam və axırı bizim Peyğəmbərimiz Muhamməd Mustafadır (sallallahü təala aleyhi və səlləm). Bu ikisinin arasında çox Peyğəmbər (aleyhimüssaləvatü vəttəslimat) gəlmiş və keçmişdir. Onların sayını Allahü azım-üş-şan bilir.

Peyğəmbərlər (aleyhimüssaləvatü vəttəslimat) haqqında bizim bilməli olduğumuz sıfatlar beşdir: Sidq, Əmanət, Təbliğ, İsmət, Fətanət.

1. ***Sidq***. Bütün Peyğəmbərlər (aleyhimüssaləvatü vəttəslimat) sözlərində sadiq olurlar. Hər sözləri doğrudur.

2. ***Əmanət***. Onlar əmanətə xəyanət etməzlər.

3. ***Təbliğ***. Onlar Allahü azım-üş-şanın əmrinin və qadağalarının hamısını bilib, ümmətlərinə bildirir və çatdırırdılar.

4. ***İsmət***. Böyük və kiçik, bütün günahlardan təmizdirlər. Heç günah işləməzlər. İnsanlardan məsum olan yalnız Peyğəmbərlərdir (aleyhimüssəlam). [Bunlardan başqasına məsum deyənlər Rafizilərdir].

5. ***Fətanət***. Bütün Peyğəmbərlər (aleyhimüssaləvatü vəttəslimat) digər insanlardan daha ağıllıdırlar.

Peyğəmbərlər (aleyhimüssaləvatü vəttəslimat) üçün caiz olan sıfatlar beşdir: Onlar yeyir, içir, xəstələnir, ölür, dünyalarını dəyişirlər. Dünyaya məhəbbət etməzlər.

Quranı azım-üş-şanda ismi-şərifləri bildirilən 28 Peyğəmbərdir. Bunları bilmək hər kəsə vacibdir, dedilər.

**Peyğəmbərlərin adları** (aleyhimüssaləvatü vəttəslimat) :

**Adəm, İdris, Nuh, Şis [Şit], Hud, Salih, Lut, İbrahim, İsmail, İshaq, Yaqub, Yusif, Şüeyb, Musa, Harun, Davud, Süleyman, Yunis, İlyas, Əlyəsa, Zül-kifil, Eyyub, Zəkəriyyə, Yəhya, İsa, Muhamməddir** “saləvatullahi alə nəbiyyinə və aleyhim”. Üzeyr, Loğman və Zülqarneyn üçün ixtilaf olundu. Bunlara və Xızır əleyhissəlama alimlərdən bəzisi nəbi, bəziləri isə vəli dedilər. Məktubatı Masumiyyənin 36-cı məktubunda Xızırın Peyğəmbər olduğunu bildirən xəbərin qüvvətli olduğu yazılmışdır. 182-ci məktubda deyilir: Xızır əleyhissəlamın insan şəklində görünməsi və bəzi işlər görməsi Onun həyatda olduğunu göstərmir. Allahü təala

Onun və bir çox Peyğəmbərin, vəlinin ruhlarının insan şəklində görünməsinə izn vermirşdir. Onları görmək həyatda olduqlarını göstərmir.

Bundan başqa biz: “İlk Peyğəmbər olan həzrəti Adəm əleyhissəlamın zürriyyətindənəm (soyundanam), axır zaman Peyğəmbəri Muhamməd (aleyhissalatü vəssəlam) dinindən və ümmətindənəm, əlhamdülilləh” deməliyik. Vəhhabilər Adəm əleyhissəlamın Peyğəmbər olduğuna inanmırlar. Buna görə və müsəlmanlara müşrik dedikləri üçün kafir olurlar.

**VƏL-YƏVMİL-ƏXIRİ**: Mən, qiyamət gününə inandım, iman etdim. Çünki Allahü təala xəbər vermişdir. Qiyamət günü qəbirdən qalxınca başlar. Cənnətə və ya Cəhənnəmə gedincəyə qədər davam edər. Hamımız ölüb, yenə diriləcəyik. Cənnət və Cəhənnəm, mizan (tərəzi), sırat körpüsü, haşr (toplanmaq), nəşr (Cənnətə və Cəhənnəmə paylanmaq), qəbir əzabı, münkər və nəkir adındakı iki mələyin qəbirdə sualı haqqdır və olacaqdır.

**VƏ BİL-QADƏRİ XAYRİHİ VƏ ŞƏRRİHİ MİNƏLLAHİ TƏALA**: Xeyir və şər, olmuş və olacaq şeylərin hamısı Allahü azım-üş-şanın təqdiri ilə, yəni əzəldə bilməsi, istəməsi, vaxtları gəlincə yaratması ilə və lövh-il mahfuza yazmasıyla olduğuna inandım, iman etdim. Qəlbimdə əsla şəkk və şübhə yoxdur.

**Əşhədü ən lə iləhə illəllah və əşhədü ənnə Muhammədən abdühü və rasulüh**.

Etiqadda (yəni inanılacaq şeylərdə) məzhəbim “**Əhli sünnət vəl cəmaat**” məzhəbidir. Mən, bu məzhəbdənəm.

[Əshabi-kiramın (aleyhimürrıdvan) hamısını sevənlərə “**Əhli sünnət**” deyilir. Əshabi-kiramın hamısı alim və adil idi. İnsanların əfəndisinin (sallallahü aleyhi və səlləm) söhbətində, xidmətində iştirak etmiş və Ona yardımçı olmuşdurlar. Söhbətdə ən az iştirak edən belə, Əshabi-kiramdan olmayan ən yüksək Vəlidən daha yüksəkdir. O islam günəşinin, O Allahü Əshabi-kiramın həbibinin söhbətində hasil olan hallar, o mübarək nəfəslərinin və nəzərlərinin təsiri ilə zühur edən kəmallar, o hüzura, o yaxınlıq səadətinə qovuşa bilməyənlərə nəsib olmamışdır. Əshabi-kiramın hamısı (rıdvanullahi təala aleyhim əcmain) hələ ilk söhbətdə nəfslərinə uymaqdan qurtulmuşdurlar. Hamısını sevməyimiz əmr olunub. “**Şir-atül İslam**” şərhinin ilk səhifələrində yazılır: “Əshabi-kiramın (aleyhimürrıdvan) hamısı haqqında mümkün olduğu qədər yaxşı danışın, onların heç birini əsla təhqir etməyin.” 72 firqəyə gəlincə, kimi ifrata vararaq həddini aşdı, kimi əksinə, haqqlarını vermədi, kimi ağıla güvəndi, kimi fəlsəfəyə və qədim yunan filosoflarına aldandı. Beləliklə, dini-islamda olmayan, hətta qadağan olan şeyləri etdilər. Bidətə sarıldılar. Sünnəti, yəni islamiyyəti tərk etdilər. Əbu Bəkiri Sıddıq, Həzrəti Ömər (radıyallahü anhüma) kimi Əshabi-kiramın (aleyhimürrıdvan) icma ilə ən üstün olanlarını, hətta Peyğəmbər əfəndimizi (əleyhissəlam) belə gözü götürməyənlər zühur etdi. Peyğəmbər

əfəndimizin meraca bədəni və ruhu ilə bərabər aparıldığını inkar edənlər törədi.

Çox təəccüblüdür ki, zamanımızda da islam alimi olaraq tanınan, lakin 72 firqənin ən zərərlisi olan "**İsmailiyyə**" mövqeyindən çıxış edən zavallılar mövcuddur. Peyğəmbər əfəndimizin (əleyhissəlam) analarının və atalarının kafir olduğunu və Peyğəmbər əfəndimizin (əleyhissəlam) nübüvvəti təbliğ etmədən öncə bütlərə qurban kəsdiyini söyləyərək, dəlil olaraq da bəzi yalnış kitabları göstərərək, azdıran yazılarla saf gəncləri aldatmağa, zəhərləməyə çalışırlar. Beləcə, onların məqsədi, islam dinini baltalamaq, gənclərin imanını oğurlamaq, onları küfrə batırmaq olduğu aşkarca anlaşılır. Hədisi-şərifdə: "**Qurani-kərimə öz ağlı ilə məna verən kafir olur**", buyruldu. Din alimləri ədəbli idilər. Diqqətli danışar və yazardılar. Səhv bir şey söyləmiyim deyə çox düşünürdülər. Düşünmədən danışmaq, islamiyyəti "**Ədilləi şəriyyə**"dən, yəni dörd ana mənbədən qaynaqlanmayaraq, öz səhv fikirləri ilə anlatmağa cürət etmək nəinki bir islam aliminin, hətta hər hansı bir müsəlmanın belə görəcəyi iş deyil. Peyğəmbərimizin (sallallahü aleyhi və səlləm) və Əshabi-kiramın (rıdvanullahi təala aleyhim əcmain) böyüklüyünü anlamayan cahillərin, etiqadı zədələyən, dağıdan sözlərini və yazılarını öldürən zəhər bilməliyik.

Farsca misranın tərcüməsi:

**İmanıma zərər vuracaqlarından qorxub, söyüd yarpağı kimi titrəyirəm.**

Allah (cəllə cəlalühü) qəlblərimizdə sevdiklərinin sevgisini artırsın. Düşmənlərini sevmək fəlakətinə salmasın. Bir qəlbdə iman olmasının əlaməti, Allahın sevdiklərini sevmək, sevmədiklərini sevməməkdir.]

Əməldə məzhəb dörddür: İmamı-azam, imamı-Şafi, imamı-Malik, imamı-Əhməd ibn Hanbəlin (rahmətullahi aleyhim) məzhəbləri.

Bu dörd məzhəbdən hər hansı birini təqlid etmək lazımdır. Dördünün də məzhəbi haqdır, doğrudur. Dördü də Əhli-sünnətdir. Biz, İmamı-azam məzhəbindənik. Bu məzhəbdə olanlara "**Hənəfi**" deyilir. İmamı-azam məzhəbi savabdır, doğrudur. Xəta olması ehtimalı da vardır. Digər üç məzhəb xətadır. Savab olması ehtimalı da vardır, deyirik.

**İMANIN BİZDƏ BAKİ** (əbədi) **QALİB, ÇİXMAMASININ ŞƏRTİ VƏ SƏBƏBİ ALTIDIR**:

1. Biz, qeybə iman etdik. Bizim imanımız qeybədir, zahirə deyildir. Belə ki, Allahü azım-üş-şanı gözümüzlə görmədik, lakin görmüş kimi inandıq, iman etdik. Bunda əsla şübhəmiz yoxdur.

2. Yerdə və göydə, insanda, cində, mələklərdə və Peyğəmbərlərdə (aleyhimüssəlevatü vəttəslimat) qeybi bilən yoxdur. Qeybi ancaq Allahü azım-üş-şan bilir və istədiklərinə bildirir. [Qeyb demək, duyğu orqanları ilə

və ya hesab, təcrübə ilə anlaşılmayan deməkdir. Qeybi ancaq Onun bildirdikləri bilir.]

3. Haramı haram bilib, etiqad etmək.

4. Halalı halal bilib, etiqad etmək.

5. Allahü azım-üş-şanın əzabından əmin olmayıb, daima qorxmaq.

6. Hər nə qədər günahkar olsa da, Allahü azım-üş-şanın rəhmətindən ümid kəsməmək.

Kimdəsə bu şərtlərdən biri olmayıb, beşi olsa, yaxud beşi olmayıb, biri olsa, o şəxsin imanı və islamı səhih deyildir.

## İNDİ İMANI OLDUĞU HALDA, GƏLƏCƏKDƏ İMANIN GETMƏSİNƏ SƏBƏB OLAN ŞEYLƏR QIRX ƏDƏDDİR:

1. Bidət sahibi olmaq. Yəni etiqadı səhv olmaq. [Əhli sünnət alimlərinin bildirdiyi doğru etiqaddan çox az da olsa ayrılan, yolunu azmış müsəlman və ya kafir olar. İnanması zəruri olan şeyə inanmazsa, o an kafir olur. İnanması zəruri olmayan şeyi inkar etmək "**Bidət**" və ya "**Dəlalət**"dir. Son nəfəsdə imansız getməyə səbəb olur.]

2. Zəif iman, yəni əməlsiz iman.

3. Doqquz əzasını doğru yoldan çıxarmaq.

4. Böyük günah işləməyə davam etmək. [Bunun üçün, içki içməməli, müsəlman xanımlar və qızlar başı, saçı, baldır və biləklərini naməhrəm kişilərə göstərməməlidirlər.]

5. Neməti-islama şükür etməmək.

6. Axirətə imansız getməkdən qorxmamaq.

7. Zülm etmək.

8. Sünnət üzrə oxunan azanı-Muhammədiyə qulaq asmamaq. [Bu cür oxunan azana qiymət verməzsə, o an kafir olar.]

9. Ana-ataya asi olmaq. Onların islamiyyətə uyğun olan, mübah olan əmrlərini sərt sözlə rədd etmək.

10. Doğru olsa belə, çox and içmək.

11. Namazda, rükuda, qiyamda, iki səcdədə və səcdə arası oturuşda tadili-ərkana əməl etməmək. Tadili-ərkan, tamamən, yəni heç hərəkət etmədən sübhanallah deyəcək qədər gözləmək.

12. Namazı əhəmiyyətsiz sayıb, öyrənməyə və övladlarına öyrətməyə dəyər verməmək və namaz qılanlara mane olmaq.

13. Şərab və çoxu sərxoş edən hər içkini az da olsa içmək. [pivə içmək də haramdır.]

14. Möminlərə əziyyət vermək.

15. Yalan yerə övliya kimi görünüb, din bilgiləri satmaq. Əhli sünnət bilgilərini öyrənməyib, özünü din adamı, xətib olaraq tanıtmaq. [Belə ya-

lançıların yazdıqları uydurma din kitablarını oxumaq, nitqlərini və xütbələrini dinləmək olmaz.]

16. Günahını unutmaq, ona əhəmiyyət verməmək.

17. Kibirli olmaq, yəni özünü bəyənmək.

18. Ucb - özündən razılıq, yəni elmim və əməlim çoxdur, demək.

19. Münafiqlik, ikiüzlülük.

20. Həsəd etmək, din qardaşını gözü götürməmək.

21. Hökümətin və ustadının islamiyyətə müxalif olmayan sözünə əməl etməmək. Müxalif olan əmrlərinə qarşı çıxmaq.

22. Bir şəxsi sınaqdan keçirmədən, ona yaxşı demək.

23. Yalanda israr etmək.

24. Din alimlərindən qaçmaq. [Əhli sünnət alimlərinin kitablarını oxumamaq.]

25. Bığlarını sünnət miqdarından artıq uzatmaq.

26. Kişilərin ipək geyinməsi. Süni ipək caizdir.

27. Qeybət etməkdə israr etmək.

28. Kafir də olsa, qonşusuna əziyyət vermək.

29. Dünya işləri üçün çox qəzəblənmək.

30. Riba, faiz almaq və vermək.

31. Öyünmək üçün paltarının qollarını və ətəklərini çox uzatmaq.

32. Sehirbazlıq, cadu etmək.

33. Müsəlman və saleh olan məhrəm qohumlarını ziyarət etməmək.

34. Allahın sevdiyi bir insanı sevməmək və islamiyyəti yıxmaq üçün çalışanları sevmək.

35. Mömin qardaşına üç gündən artıq kin tutmaq.

36. Zinaya davam etmək.

37. Livata edib, tövbə etməmək. Livata, kişinin kişi ilə cinsi əlaqəsidir. Kişilərin cinsi orqanlarına zəkər, qadınların cinsi orqanlarına fərc deyilir.

38. Azanı din kitablarının bildirdikləri vaxtlarda, sünnətə uyğun oxumamaq və sünnətə uyğun oxunan azanı eşitdikdə, hörmət etməmək.

39. Münkəri, yəni haram işləyəni görüb, gücü yetdiyi halda şirin dil ilə mane olmamaq.

40. Xanımın, qızının və nəsihət vermək haqqına sahib olduğu qadınların başı, qolları, ayaqları açıq, bəzəkli, ətirli çölə çıxmasına və pis insanlarla görüşməsinə razı olmaq.

Peyğəmbərlərin Allahü azım-üş-şandan gətirdiyi şeyləri dil ilə qəbul və qəlb ilə təsdiq etməyə "**İman**" deyilir. Muhamməd əleyhissəlama iman etməyə və bildirdiklərinə əməl etməyə "**İslamiyyət**" deyilir.

**Din və Millət**, ikisi birdir. Peyğəmbərlərin Allahü azım-üş-şandan etiqada, yəni inanmağa aid gətirdiyi şeylərə **din və millət** deyilir.

Peyğəmbərimizin (sallallahü təala aleyhi və səlləm) Haqq təaladan əmələ, işə aid gətirdiyi şeylərə "**İslamiyyət**" və ya "**Əhkami islamiyyə**" deyilir.

İmanı icmali, yəni qısaca inanmaq kafidir. Təfsil etmək, yəni imanı ətraflı bilmək mütləq deyildir. Mukallidin, (inanılması lazım olan şeyləri araşdırmadan, inanmadan anasından, atasından eşidərək iman edən) başa düşmədən inananın imanı səhihdir. Lakin bəzi yerlərdə təfsil də lazımdır.

**İman üç cürdür**: İmanı təqlidi, İmanı istidlali, İmanı həqiqi.

***İmanı təqlidi*** - fərzi, vacibi, sünnəti, müstəhəbi bilməz, ata-anasından eşitdiyi kimi inanar və gördüyü kimi ibadət edər. Bu kimi insanların imanından qorxulur.

***İmanı istidlali***, fərzi, vacibi, sünnəti, müstəhəbi və haramı bilir, islamiyyətə uyur. İnanılacaq şeyləri həm bilir, həm bildirir. Ustaddan, elmihal kitabından öyrənmiş, bunun kimi insanların imanı qüvvətlidir.

***İmanı həqiqi***. Cümlə aləm bir yerə gəlsə, Rəbbi inkar etsələr, o etməz. Və qəlbinə əsla şəkk-şübhə gəlməz. Onun imanı ənbiya (Peyğəmbərlər) imanı kimidir. Belə iman digər iki imandan daha üstündür.

İslamiyyət əhkamı əmələ aiddir. İmana aid deyildir. Yalnız iman ilə Cənnətə girmək olar. Lakin yalnız əməl ilə Cənnətə girmək olmaz. Əməlsiz iman məqbuldur. Amma imansız əməl məqbul deyildir. İmanı olmayanların etdikləri ibadətlər, xeyirli işlər, sədəqələr qiyamətdə heç bir işə yaramaz. İman başqasına hədiyyə verilə bilməz, amma əməlin savabı verilər. İman vəsiyyət edilməz. Amma özü üçün müəyyən əməllərin edilməsi vəsiyyət edilər. Əməli tərk edən kafir olmaz, lakin imanı tərk edən və əmələ qiymət verməyən kafir olar. Üzrlü səbəbi olandan, aciz olandan əməl əfv olunur. İman heç kimdən əfv olunmur.

Cəmi Nəbilərin ümmətlərinə bildirdikləri iman birdir. Ancaq əhkamlarında, dinlərində, əməllərində ixtilaf, fərq vardır.

**İman iki növdür**: İmanı hılki, İmanı kəsbi.

***İmanı hılki***, əhdi misaq vaxtında qulların **"BƏLİ"** deməsidir. (Allahü təala, Adəm əleyhissəlamı yaradarkən, qiyamətə qədər bütün nəslini zərrələr halında onun belindən çıxarıb, "Mən sizin Rəbbiniz deyiləmmi?", buyurduğunda, onlar: "Bəli! Sən Rəbbimizsən!", deyə söz verdilər. Buna Əhdi-misaq deyilir.)

***İmanı kəsbi***, həddi-buluğa çatdıqdan sonra edilən imandır. Bütün möminlərin imanı birdir, əməlləri bir deyildir.

İman, fərzi daimdir (həmişə fərzdir). Əməl isə, vaxtı gəldikdə fərz olur. İman, kafirə və müsəlmana fərzdir, əməlsə, yalnız müsəlmana fərzdir.

Bundan başqa, iman səkkiz növdür:

**İmanı mətbu-** mələklərin imanıdır.

**İmanı məsum-** Nəbilərin imanıdır.

**İmanı məqbul-** möminlərin imanıdır.

**İmanı məvkuf-** əhli bidətin yanlış imanıdır.

**İmanı mərdud-** münafiqlərin göstərdikləri yalan imandır.

**İmanı təqlidi-** ata-anasından eşidib, ustaddan öyrənməmiş şəxsin imanıdır. Bunun kimi insanların imanları zəif olub, bir gün getməsindən qorxulur.

**İmanı istidlali-** islamiyyəti dəlillərlə anlayaraq biləndir. Onun imanı qüvvətlidir.

**İmanı həqiqi-** hər kəs Rəbbini inkar etsə, o inkar etməz və qəlbinə əsla şübhə gəlməz.

**İmanın hökmü üçdür.** İmanı olanın:

1-Boynu qılıncdan qurtular;

2-Malı cizyədən və xəracdan* qurtular;

3-Cəsədi Cəhənnəmdə davamlı olaraq yanmaqdan qurtular.

**"Aməntü billahi..."**, buna sıfatı iman və mumənun bih və zatı iman, əsli iman da deyilir.

İman etmənin lazım olduğu vaxt ikidir: ağıllı olmaq və həddi-buluğa çatmaq.

İmanın səbəbi ikidir: Aləmin yaradılması və Qurani azım-üş-şanın enməsi.

Dəlil ikidir: dəlili ağıl, yəni ağla, təcrübəyə əsaslanan dəlillər və dəlili nəql, yəni dini dəlillər.

**İmanın rüknü, yəni əsası ikidir**: ikrarün bil-lisan, yəni dil ilə qəbul etmək və tasdiqun bil-cenan, yəni qəlblə təsdiq etmək. Bunların da iki şərti var, belə ki, qəlbdə şəkk olmamalı, dil isə nə söylədiyini bilməlidir.

İman məxluqdurmu? Allahü azım-üş-şanın hidayəti olması baxımından, qeyri məxluqdur. Amma qulun təsdiq və qəbul etməsi baxımından məxluqdur.

İman cəmi, yəni bir bütündürmü, yoxsa, təfriq, yəni dağınıqdırmı? Qəlbdə cəmdir, əzada dağınıqdır.

**Yakin**, Allahü azım-üş-şanın zatını kəmalı ilə bilməkdir.

**Havf,** Allahü azım-üş-şandan qorxmaqdır.

**Rəca,** Allahü azım-üş-şanın rəhmətindən ümüdünü kəsməməkdir.

**Muhabbətullah,** Allahı və Rəsulunu (sallallahü təala aleyhi və səlləm), dini islamı və möminləri sevməkdir.

**Həya,** Allahdan və Rəsulundan (sallallahü təala aleyhi və səlləm) utanmaqdır.

**Təvəkkül,** bütün işlərini Allahü təalaya tapşırmaqdır. Bir işə başlarkən, Ona güvənməkdir.

İman, islam və ihsan nə deməkdir?

**İman,** Muhamməd əleyhissəlamın bildirdiklərinə inanmağa deyilir.

---

* cizyə-İslam dövlətində, qeyri müsəlman vətəndaşlardan malının və canının qorunması qarşılığında alınan vergi; xərac- müsəlman olmayan vətəndaşlardan alınan torpaq vergisi.

**İslam,** Allahü azım-üş-şanın əmrlərini yerinə yetirib, qadağalarından çəkinməyə deyilir.

**İhsan,** Allahü azım-üş-şanı görürmüş kimi ibadət etməyə deyilir.

**İman**, hərfi mənada mütləq təsdiq etməyə, islamiyyətdə isə altı şeyi təsdiq edib inanmağa deyilir.

**Mərifət,** Allahü azım-üş-şanı kəmal xüsusiyyətləri ilə vəsf etmək və nöqsan sıfatlardan təmiz bilməkdir.

**Təvhid,** Allahü azım-üş-şanın birliyini qəbul etmək və Ona heç kimi şərik qoşmamaqdır.

**İslamiyyət (Əhkami islamiyyə),** Allahü azım-üş-şanın əmrləri və qadağaları deməkdir.

**Din və millət,** inanılması lazım olan şeylərdə ölənə qədər səbat etməkdir.

İman beş şeylə qorunur:

1-Yaxın;

2-İxlas.

3- Fərzləri yerinə yetirmək və haramlardan çəkinmək;

4- Sünnətə sarılmaq;

5- Ədəbə riayət etmək.

Hər kim bu beş şeyi qorusa, imanını qorumuş olar. Bunlardan hətta birini tərk etsə, düşmən qalib olar. İmanın düşməni dörddür: sağda pis dost, solda nəfsin həvəsi (istəkləri), öndə dünyaya düşgün olmaq və arxada şeytan. Bu dörd şey insanın imanını almağa çalışır. Pis dost, təkcə insanın malını, pulunu, dünyasını almağa çalışanlar deyil. Dostların ən pisi, ən zərərlisi, insanın dinini, imanını, ədəbini, həyasını, əxlaqını pozmağa çalışanlar, bu yolla dünyasına və axirətinə, əbədi səadətinə hücum edənlərdir. İmanımızı, Allahın bu düşmənlərin şərindən və islam düşmənlərinin aldatmasından qorusun!

“**Kəlmeyi tövhid**”in, yəni **Lə iləhə illəllah** kəliməsinin mənası, ibadətə layiq olan Allahü azım-üş-şandan başqa bir zat yoxdur. Ancaq Allahü azım-üş-şandır. O, həmişə vardır və birdir. Şəriki (ortağı) və bənzəri yoxdur. Zamansız və məkansızdır.

**“Muhamməddün rasulüllah**”ın mənası, həzrəti Muhamməd Mustafa (sallallahü təala aleyhi və səlləm) Allahü azım-üş-şanın qulu və haqq rəsuludur. Biz Onun ümmətiyik, əlhamdulilləh.

**Kəlmeyi tövhidin səkkiz adı var:**

1. Kəlmeyi şəhadət.
2. Kəlmeyi tövhid.
3. Kəlmeyi ixlas.
4. Kəlmeyi təqva.
5. Kəlmeyi tayyibə.
6. Davətül haqq.

7. Urvətülvüsqa.

8. Kəlmeyi səmərət-ül-Cənnət.

İxlasın şərti, niyyət etmək və mənasını bilmək, təzim ilə oxumaqdır.

Zikr edən şəxsin dörd şeyə ehtiyacı vardır: təsdiq, təzim, xəlvət, hörmət.

Təsdiqi tərk edən, münafiqdir. Təzimi tərk edən, bidət sahibidir. Xəlvəti tərk edən riyakardır, göstəriş edər. Hörməti tərk edən, fasiqdir (günahkar). Əgər inkar edərsə, kafir olar.

Zikr üç növdür:

1. Zikri-avam. Bu cahillərin zikridir.
2. Zikri-havas. Bu alimlərin zikridir.
3. Zikri-əhas. Bu ənbiya zikridir.

Zikr edən əzalar üçdür:

1. Dil ilə zikr. Yəni, kəlimeyi-şəhadət söyləmək.
2. Təvhid, təsbih və Qurani-kərim oxumaq.
3. Qəlb ilə zikr.

Qəlbin zikri üç növdür:

1. Allahü azım-üş-şanın xüsusiyyətlərinə dəlalət edən dəlilləri, əlamətləri düşünmək, zikr etmək.
2. Əhkami islamiyyənin dəlillərini düşünmək.
3. Məxluqların sirrini düşünmək.

Təfsir alimləri Bəqərə surəsinin 152-ci ayəti-kəriməsini təfsir edərək deyirlər: Allahü azım-üş-şan buyurur: "**Qullarım! Siz məni itaətlə zikr etsəniz, mən də sizi rəhmətlə zikr edərəm. Və əgər siz məni dua ilə zikr etsəniz, mən də sizi razılıqla zikr edərəm. Və əgər siz məni itaət ilə zikr etsəniz, mən də sizi naimim** [Cənnətim] **ilə zikr edərəm. Və əgər siz məni tənhalarda zikr etsəniz, mən də sizi cəmiyyəti kübrada** [məhşərdə] **zikr edərəm. Və əgər siz məni yoxluqda zikr etsəniz, mən də sizi yardımımla zikr edərəm. Və əgər siz məni razılıqla zikr etsəniz, mən də sizi hidayətlə zikr edərəm. Və əgər siz məni sidq və ixlas ilə zikr etsəniz, mən də sizi nicat** [qurtulmaq] **ilə zikr edərəm. Və əgər siz məni fatihəi-şərifə ilə və fatihəi-şərifənin içindəki rübubiyyət* ilə zikr etsəniz, mən də sizi rəhmətimlə zikr edərəm.**"

Zikr etməyin yüzə qədər faydası olduğunu alimlər bildirmişdir. Bunların bəzisini qeyd edək:

Zikr edəndən Allahü azım-üş-şan razı olur. Mələklər razı olar. Şeytan qəmlənər. Qəlbi yumşaq olar. İbadətə səy göstərər. Qəlbindən qəm yox olar. Qəlbi genişlənər. Üzü nurlu olar. Şücaət, cəsurluq sahibi olar. Allah sevgisinə nail olar. Ona Allahın elmindən qapı açılar. Övliyadan feyz alar. Səksənə qədər gözəl əxlaqı cəm etmiş olar.

* rübubiyyət-Cənabı Haqqın hər zaman, hər yerdə, hər məxluqa, möhtac olduğu şeyləri verməsi.

“**Əşhədü ənnə Muhammədən abdühü və Rasulüh**” kəlməsinin məna şərifi odur ki, axır zaman Peyğəmbəri Muhamməd Mustafa (sallallahü təala aleyhi və səlləm) həzrətləri Allahü azım-üş-şannın həm qulu, həm Rəsuludur.

Peyğəmbər yeyərdi, içərdi. Xanımlarla nikah bağlardı. Oğulları və qızları olmuşdur. Hamısı həzrəti Xədicədən (radıyallahü anhə) olmuşdur. Yalnız İbrahim, Mariya adlı cariyədən olmuşdur. Süddən kəsilmədən vəfat etmişdir. Fatimədən (radıyallahü anhə) başqa digər bütün övladları özündən əvvəl vəfat etmişdir. Həzrəti Həsən və həzrəti Hüseyn, həzrəti Əlinin və həzrəti Fatimənin (radıyallahü anhüm) uşaqlarıdır. Bütün qızlarının içində həzrəti Fatimə daha fəzilətlidir. Və Rəsulullah (sallallahü təala aleyhi və səlləm) həzrətlərinin sevimlisidir.

Rəsuli əkrəmin (sallallahü təala aleyhi və səlləm) on bir xanımı vardı: həzrəti Xədicə, Səvdə, Aişə, Hafsa, Ümmi Sələmə, Ümmi Habibə, Zeynəb binti Cahş, Zeynəb binti Huzeymə, Məymunə, Cüveyriyyə, Safiyyə “radıyallahü anhünnə”.

İnsana və cinlərə, haqqı və batili, haram və halalı, dünyanın fani və axirətin əbədi olduğunu, dinin elmihalını təlim etmək üçün gəlmiş haqq Peyğəmbərdir (sallallahü təala aleyhi və səlləm).

“**ƏDİLLƏİ-ŞƏRİYYƏ**” dörddür: **Kitab, Sünnət, İcmai ümmət, Qiyasi müctəhid**. Alimlər din bilgilərini bu dörd mənbədən almışdır. ***Kitab***, Allahü azım-üş-şanın kəlamına deyilir. ***Sünnət,*** qavli Rəsul, yəni Peyğəmbərin sözü, feli Rəsul, yəni Peyğəmbərin əməli, taqriri Rəsul, yəni Peyğəmbərin bildirdikləridir. ***İcmai-ümmət***, bir əsrdə yaşamış müctəhidlərin, məsələn Əshabi-kiramın (radıyallahü təala anhüm) və ya dörd məzhəbin bir mövzuda söz birliyi ilə razılaşmasıdır. ***Qiyas***, müctəhidlərin bir şeyi başqa bir şeyə bənzətməsinə deyilir.

*Məzhəb hərfi mənada yol deməkdir. Bizim iki yolumuz vardır: biri etiqad yolu, digəri əməl (iş) yolu.*

Etiqad yolunda imamımız, yəni bələdçimiz **Əbu Mənsur Matürididir** (rahimə-hullahü təala). Onun yoluna “**Əhli sünnət**” deyilir. Əməl yolunda bələdçimiz imam azam **Əbu Hənifədir** (rahimə-hullahü təala). Onun yoluna “**Hənəfi məzhəbi**” deyilir.

Əbu Mansur Matüridinin adı Muhamməd, atasının adı Muhamməd, babasının adı Muhamməd və müəlliminin adı Əbu Nasri İyadidir (rahiməhumullahü təala).

Əbu Nasri İyadinin müəllimi Əbu Bəkri Cürcani, onun müəllimi Əbu Süleyman Cürcani, onun da müəllimi Əbu Yusif və imam Muhamməd Şeybanidir. Bu ikisinin müəllimi imam azam Əbu Hənifədir (rahimə-hullahü təala). Göründüyü kimi həm etiqadda məzhəbimizin, həm də əməldə məzhəbimizin başı İmam azamdır.

Bütün insanların üç imamı vardır ki, bunları bilmək fərzdir. Əmrləri və qadağaları verən imamımız Qurani azım-üş-şandır. Bunları, yəni islamiyyəti bildirən imamımız Rəsulullah (sallallahü aleyhi və səlləm) həzrətləridir. Bunları zor gücü ilə etdirən imamımız, Rəsulullahı təmsil edən müsəlman dövlət rəisidir.

İmamı Azamın müəllimi Hammad, Hammadın müəllimi İbrahim Nəhai, onun müəllimi Əlkamə ibn Qeys və dayısıdır. Onun da müəllimi Abdullah ibn Məsuddur (rahimə-hümullahü təala). O isə Rəsulullahdan (sallallahü aleyhi və səlləm) öyrənmişdir.

Rəsulullah əleyhissəlam Cəbrail əleyhissəlamdan bilgi almışdır. Cəbrail əleyhissəlama Allahü sübhanəhü və təala həzrətləri əmr etmişdir.

Allahü azım-üş-şan Adəm oğluna dörd nemət vermişdir: *Ağıl, İman, Həya* və *Fel*, yəni əməli saleh.

Duaların və hər hansı bir əməlin qəbul olunmasının şərti və səbəbi beşdir: *İman, Elm, Niyyət, Hülus*, yəni ixlas və *Qul haqqının olmaması*. İlk öncə Əhli sünnət etiqadında olmaq, sonra ediləcək ibadətin doğru olmasının şərtlərini bilmək lazımdır.

[Bir əməlin, ibadətin səhih olması başqadır, qəbul olması başqadır. İbadətlərin səhih olması üçün özlərinə məxsus şərtləri, fərzləri vardır. Bunlardan biri nöqsan olarsa, o ibadət səhih olmaz. O ibadət yerinə yetirilməmiş olur. Cəzasından, əzabından qurtulmaq olmur. Səhih olan, lakin qəbul olmayan ibadət üçün əzab verilməsə də, o ibadətin savabına qovuşmaq olmur. İbadətin qəbul olması üçün öncə səhih olması, sonra yuxarıda qeyd olunan beş şərtin olması lazımdır. Qul haqqı da bu şərtlərə daxildir]. İmam Rabbani (rahimə-hüllahü təala) ikinci cildin 87-ci məktubunda deyir ki: "Bir şəxs, Peyğəmbərin əməli kimi əməl etsə, lakin üzərində çox az da olsa qul borcu olsa, onu ödəmədikcə Cənnətə girə bilməz". [Duaları da qəbul olmaz.]

İbn Hacəri Məkki (rahimə-hullahü təala) "**Zəvacir**" kitabında 187-ci günahı anladarkən deyir ki: Bəqərə surəsinin 188-ci ayəsində **"Ey möminlər! Bir-birinizin mallarını batil yoldan yeməyin!"** buyruldu. Batil yol, faiz, qumar, qəsb, oğurluq, hiylə, xəyanət, yalançı şahidlik, yalandan and içərək aldatmaqdır. Hədisi-şəriflərdə: "**Halal yeyən, fərzlərə əməl edib haramlardan çəkinən və insanlara zərər verməyən bir müsəlman Cənnətə gedəcəkdir**", "**Haram ilə bəslənən bədən atəşdə yanar**", "**Şərindən, zərərindən əmin olunmayan kimsənin dini, namazları, zəkatları ona fayda verməz**", "**Üzərindəki cilbabı haramdan gəlmiş olan adamın namazları qəbul olmaz**" buyruldu. [Cilbab, qadınların geniş baş örtüyü deməkdir. Kişilərin uzun köynəklərinə də deyilir. Cilbab, qadınların iki parçadan geydikləri çarşab deməkdir deyənlərə görə, hədisi-şərifdə kişilərin də bu çarşabı geydikləri bildirilmiş olur. Bu cür söyləməyin doğru olmadığı, cahilcə və gülünc bir inanış olduğu meydandadır]. 200-cü gü-

nahdakı hədisi-şərifdə: “**Hiyləylə mal satan bizdən deyildir. Gedəcəyi yer Cəhənnəmdir**” buyruldu. İki yüz onuncu günahdakı hədisdə: “**Çox namaz qılan, oruc tutan, sədəqə verən, lakin dili ilə qonşularını incidənin gedəcəyi yer Cəhənnəmdir**” buyruldu. Kafir olan qonşusunu da incitməmək, ona da yaxşılıq etmək lazımdır. Üç yüz on üçüncü günahdakı hədisdə: “**Sülh zamanı bir kafiri haqsız öldürən Cənnətə girməyəcəkdir**”, “**İki müsəlman dünya mənfəətləri üçün döyüşüncə, ölən də, öldürən də Cəhənnəmə gedəcəkdir**” və üç yüz on yeddinci günahdakı hədisdə:: “**İnsanlara zülm edən, Qiyamətdə bunun əzabını çəkəcəkdir**” buyruldu. Qeyri müsəlmanlara zülm etmək də belədir. Üç yüz əllinci günahdakı hədisdə: “**Üç kimsənin duası şübhəsiz qəbul olar: məzlumun, müsafirin və ata-ananın**”, “**Kafir olsa da, məzlumun bəd duası rədd edilməz**”. Dörd yüz ikinci günahdakı hədisdə: “**Kafir olan yoldaşını öldürən də bizdən deyildir**”, dörd yüz doqquzuncu günahdakı hədisdə: “**Günahlar içində əzabı ən tez veriləcək olan, hökümətinə üsyan etməkdir**” buyruldu. “**Zəvacir**”dən tərcümə tamam oldu.

Ey müsəlman! Allahın rizasına qovuşmağı və əməllərinin qəbul olmasını istəyirsənsə, yuxarıda bildirilən Hədisi-şərifləri qəlbinə yaz! İstər müsəlman olsun, istərsə də kafir olsun, heç kəsin malına, canına, namusuna təcavüz etmə! Heç kəsi incitmə! Hər kəsin haqqını ödə! Kişinin boşadığı qadına mehr pulunu ödəməsi də qul haqqıdır. Ödəməzsə, dünyada və axirətdə cəzası çox şiddətli olar. Qul haqqının ən mühümü və əzabı ən çox olanı, əqrabasına və əmri altında olanlara din bilgisi öyrətməyi tərk etməkdir. Onların və bütün insanların din bilgisi öyrənmələrinə və ibadətlərini yerinə yetirmələrinə işgəncə edərək və ya aldadaraq mane olanın kafir olduğu, islam düşməni olduğu anlaşılır. Bidət sahiblərinin, məzhəbsizlərin sözləri, yazıları ilə Əhli sünnət bilgilərini dəyişdirməsi, dini, imanı pozması da belədir. Hökumətə, qanunlara qarşı çıxma! Vergilərini ödə! Hökumət zalım, günahkar olsa belə, hökumətə üsyan etmənin günah olduğu “**Bəriqa**”da yazılmışdır. Dar-ül-hərbdə, yəni kafir ölkələrində də qanunlara, əməllərə qarşı çıxma! Fitnə çıxarma! İslama təcavüz edənlərlə, bidət sahibləri ilə və məzhəbsizlərlə dostluq etmə! Onların kitablarını, qəzetlərini oxuma! Radiolarını, televizorlarını evinə salma! Sözünü dinləyənlərə “Əmri maruf” et! Yəni gülər üzlə, şirin dil ilə nəsihət et! Heç kimlə münaqişə etmə! Gözəl əxlaqın ilə islam dininin şanını, şərəfini hər kəsə göstər!

İbni Abidin (rahimə-hullahü təala) birinci cilddə deyir ki, “Sev’əteyn (yəni ön və arxa ədəb yeri) dörd məzhəbdə də qəliz övrətdir. Bunları örtmək, söz birliyi ilə fərzdir. Örtməyə əhəmiyyət verməyən kafir olur. Dizi açıq olan kişiyə, onu örtməsi üçün əmri-maruf edilir. Yəni xoş sözlə nəsihət edilir. İnad edərsə, susmaq lazımdır. Bud hissəsi açıq olan inad edərsə, sərt söyləmək lazımdır. Sev’əteyni açıq olan inad edərsə, hakimə söyləyə-

rək, zor gücü ilə [döyərək, həbs edərək] örtdürülür. Başqa kişinin övrət yerinə baxmağın günahı da bu sıra ilə artar". Qadınların əllərindən və üzlərindən başqa bütün vücudlarını, ayaqlarını, qollarını, saçlarını yad kişilərə və kafir qadınlara göstərməmələri dörd məzhəbdə də fərzdir. Şafidə üzlərini də göstərməmələri də fərzdir. Özləri, ataları və ya ərləri buna əhəmiyyət verməzsə, kafir olarlar. Oğlanların baldırları, ayaqları, qızlarınsa, başları, qolları açıq oyun oynamaları və bunları seyr etmək böyük günahdır. Müsəlman sərbəst vaxtlarını oyun ilə, faydasız şeylərlə hədər etməməli, elm öyrənməklə, namaz qılmaqla qiymətləndirməlidir. "**Kimyai-səadət**"də deyilir ki, "Qadınların, qızların başı, saçı, qolları, ayaqları açıq çölə çıxmaları haram olduğu kimi, incə, bəzəkli, dar, xoş ətirli paltarla örtülü çıxmaları da haramdır. Bu cür çıxmalarına izn verən, razı olan, bəyənən anası, atası, əri və qardaşı da onun günahına və əzabına ortaq olurlar". Yəni Cəhənnəmdə birlikdə yanacaqlar. Əgər tövbə edərlərsə, əfv olunar, yanmazlar. Allah (cəllə cəlalühü) tövbə edənləri sevər.

## ZƏVCAT VƏ QAZƏVATİ PEYĞƏMBƏRİ

Rəsulullah (sallallahü aleyhi və səlləm) qırx yaşında ikən Cəbrail adlı mələk gələrək, Peyğəmbər olduğunu Ona bildirdi. O da Peyğəmbər olduğunu üç il sonra Məkkə şəhərində elan etdi. Bu ilə **"Bisət"** ili deyilir. İyirmi yeddi dəfə cihad etdi. Doqquzunda sıravi olaraq hücum etdi. On səkkizində baş komandir oldu. Dörd oğlan, dörd qız övladı, on bir zövcəsi, on iki əmisi, altı bibisi vardı. İyirmi beş yaşında Xədicətül-kübra ilə nikah bağladı. Əlli yaşında ikən, Xədicətül-kübranın vəfatından bir il sonra Allahın əmri ilə Əbu Bəkrin (radıyallahü anh) qızı Aişə ilə nikahlandı. Altmış üç yaşında ikən Mədinədə onun məscidə bitişik olan otağında vəfat etdi. Bu otağa dəfn edildi. Əbu Bəkir ilə Ömər (radıyallahü anhümə) də bu otaqdadır. Məscid genişləndirilərək otaq məscidin içinə salındı. Məkkədəki Qureyş kafirlərinin rəisi olan Əbu Süfyan ibn Hərbin qızı Ümmi Həbibəni yeddinci ildə nikahladı. Əbu Süfyan Müaviyyənin (radıyallahü anh) atasıdır. Məkkənin fəthində iman etdi. Üçüncü ildə Ömərin (radıyallahü anh) qızı Hafsanı nikahladı. Hicrətin beşinci ilində Bəni Müstalaq qəbiləsindən əsirlər arasındakı rəislərinin qızı Cüveyriyəni satın alıb azad edərək nikahladı. Ümmi Sələmə, Səvdə, Zeynəb binti Hüzeymə, Məymunə və Safiyyəni (radıyallahü təala anhünnə) dini səbəblərlə nikahladı. Bibisinin qızı Zeynəb ilə nikahını Allahü təala bağladı.

Cəbrail əleyhissəlam iyirmi dörd min dəfə gəlmişdir. Əlli iki yaşında Rəsulullah miraca çıxarıldı. Əlli üç yaşında Məkkədən Mədinəyə hicrət etdi. Səvr dağındakı mağarada Əbu Bəkirlə üç gecə qalıb, bazar ertəsi gecəsi yola çıxdılar. Bir həftə yol gedib, sentyabrın iyirmisi, bazar ertəsi günü Mədinənin Kuba kəndinə gəldilər. Cümə günü Mədinəyə girdilər.

Hicrətin ikinci ilində Ramazan ayında Cümə günü Bədr qəzası oldu. İslam ordusu üç yüz on üç nəfər olub, bunlardan səkkizi başqa yerlərdə vəzifəli idi. Qureyşlilər min nəfər idi. On üç əshab şəhid oldu. Əbu Cəhl və yetmiş kafir öldürüldü.

Hicrətin üçüncü ilində Şəvval ayında Uhud qəzası oldu. İslam əsgərləri yeddi yüz nəfər, kafir ordusu üç min nəfər idi. Əshabi-kiramdan yetmiş nəfər şəhid oldu. Uhud qəzasından dörd ay sonra Nəcd xalqına islama dəvət üçün yetmiş gənc göndərildi. “**Biri Məunə**” deyilən yerdə hücum edib, iki əshabdan başqa hamısını şəhid etdilər.

Hicrətin beşinci ilində Xəndək qəzası oldu. Kafirlər on min nəfər, müsəlmanlar üç min nəfər idi. Mədinəni mühasirəyə aldılar. Müsəlmanlar Mədinə ətrafında xəndək qazmışdılar. Yeddinci ildəki Haybər qəzasından bir il əvvəl Hübeydiyyədə “**Biət-ürrıdvan**” edildi. “**Mutə savaşı**” Rum sezarı Herakliyüs ilə edilən cihaddır. Müsəlmanlar üç min nəfər idi. Rum ordusu yüz min nəfər idi. Cəfər Təyyar (radıyallahü anh), bu müharibədə şəhid oldu. Xalid ibn Vəlid müharibəni qazandı. Səkkizinci ildə Məkkə fəth edildi. **Hüneyn**, məşhur, böyük savaşdır, zəfərlə nəticələndi. **Haybər,** yəhudilərin məşhur qalasıdır. Rəsulullah Həzrəti Əlini göndərərək, fəth olundu. Rəsulullaha burada zəhərli yemək ikram etdilər, yemədi. Bir qəzadan dönərkən, Həzrəti Aişəyə çirkin iftira edildi. Rəsulullah çox üzüldü. Ayəti kərimə gələrək, iftiranın yalan olduğu aydın oldu. Taif zəfəri də məşhurdur.

## İMANIN TƏFSİLİ HAQQINDA

İmanın təfsili on ikidir: Rəbbim, Allahdır. Dəlilim, Bəqərə surəsinin 163-cü ayəti kərimədidir. Nəbim, həzrəti Muhamməd əleyhissəlamdır. Dəlilim, Fəth surəsindəki 28 və 29-cu ayəti kərimələrdir. Dinim, dini islamdır. Dəlilim, Allahü azım-üş-şanın Ali İmran surəsindəki 19-cu ayəti kəriməsidir. Kitabım, Qurani azım-üş-şandır. Dəlilim, Bəqərə surəsinin 2-ci ayəti kəriməsidir. Qibləm, Kəbəi şərifdir. Dəlilim, Bəqərə surəsinin 144-cü ayəti kəriməsidir.

Etiqadda məzhəbim “**Əhli sünnət vəl-cəmaətdir**”. Dəlilim, Ənam surəsinin 153-cü ayəti kəriməsidir.

Zürriyyətim, hazrəti Adəm zürriyyətindəndir. Dəlilim, Əraf surəsinin 172-ci ayəti kəriməsidir.

Millətim, milləti islamdır. Dəlilim, Allahü azım-üş-şanın Həcc surəsinin 78-ci ayəti kəriməsidir.

Ümməti Muhamməddənəm. Dəlilim, Allahü azım-üş-şanın Ali İmran surəsinin 110-cu ayəti kəriməsidir.

Haqq mömünəm. Dəlilim, Ənfal surəsinin 4-cü ayəti kəriməsidir. Əlhamdülilləhi alət-təvfiqıhi vəstəğfirullahə min külli taqsirin.

Beş səbəb ilə elm əməldən daha üstündür. Belə ki, elm mətbudur, yəni ona tabe olunandır, əməl isə ona tabedir. Elm lazımdır. Əməl isə gərəklidir. Elm yalnız olduğu halda fayda verə bilir, əməl isə elmsiz fayda verə bilməz.

Elm ağıldan üstündür. Belə ki, elm əbədidir, ağıl isə müvəqqətidir.

İnsanın zinəti, ixlasladır. İxlasın zinəti, iman ilədir. İmanın zinəti, Cənnət ilədir. Cənnətin zinəti, huri və qılmanlar ilədir. Və cəmalullahı müşahidə ilədir.

Əməl imandan bir hissə olsaydı, adətli (aybaşılı) qadınlara vaxt namazı bağışlanmazdı. Belə ki, iman bağışlanmır.

Ömründə bir kərə şəhadət gətirmək fərzdir. Bunun dəlili, Muhamməd surəsinin 19-cu ayəti kəriməsidir.

Kəlmeyi-şəhadət gətirmənin dörd şərti vardır: Dil ilə söyləyərkən, qəlbin də iştirakı. Mənasını bilmək. Səmimi qəlblə söyləmək. Hörmət ilə söyləmək.

Şəhadət gətirmənin 130-a qədər faydası vardır. Amma dörd şeydən biri olarsa, faydası yoxdur. O dörd şey: şirk, şəkk-sübhə, təşbeh (bənzətmək) və tatil. Şirk, Allahü azım-üş-şanın zatında bir şeyi ortaq qoşmağa deyilir. Şəkk-şübhə, dində şübhələnməyə, şəkk gətirməyə deyilir. Təşbeh, Allahı bir məxluqa bənzətməyə deyilir. Tatil, "Allah aləmə qarışmaz, hər şey vaxtı gəldikdə öz-özünə olur", söyləməyə deyilir.

130 faydanın 30-u bu yerlərdə zikr olunmuşdur: beşi dünyada, beşi ölərkən, beşi qəbirdə, beşi Arasatda, beşi Cəhənnəmdə, beşi Cənnətdə.

Dünyada olan beş fayda:

1. Adı gözəl çağırılır.
2. Əhkami islamiyyə ona fərz olur.
3. Boynu qılıncdan qurtulur.
4. Allahü azım-üş-şan ondan razı olur.
5. Bütün möminlər onu sevər.

Ölərkən olan beş fayda:

1.Əzrail (əleyhissəlam) ona gözəl şəkildə gəlir.
2.Yağdan qıl çəkər kimi ruhunu alar.
3.Cənnət ətirləri gələr.
4.İlliyinə, yəni Cənnətin ən yüksək dərəcəsinə çıxar, müjdəçi mələklər gələr.
5.Mərhaba, ya mömin! Sən Cənnətliksən, deyilər.

Qəbirdə olan beş fayda:

1.Qəbiri geniş olar.
2.Münkər və Nəkir gözəl surətdə gələr.
3.Bir mələk ona bilmədiyini öyrədər.
4.Allahü azım-üş-şan bilmədiyini xatırladar.
5.Cənnətdəki yerini görər.

Arasatda olan beş fayda:

1.Sual və hesabı asan olar.

2.Kitabı sağından verilər.
3.Mizanda (tərəzi) savabı ağır gələr.
4.Arşı-rəhman altında kölgələnər.
5.Sıratı ildırım kimi keçər.
Cəhənnəmdə olan beş fayda:
1.Cəhənnəmə girərsə, Cəhənnəm əhli kimi gözləri göy olmaz.
2.Şeytanı ilə toqquşmaz.
3.Əllərinə atəşdən qandal, boğazına zəncir vurulmaz.
4.Hamim suyundan içirilməz.
5.Əbədi cəhənnəmdə qalmaz.
Cənnətdə olan beş fayda:
1.Bütün mələklər ona salam verər.
2.Siddiqlərlə dost olar.
3.Əbədi Cənnətdə qalar.
4.Allah ondan razı olar.
5.Allahü təalanın simasını görər.

[Kadı-zadə Əhməd əfəndi, “**Fəraid-ül-fəvaid**” adlı “**Əməntü şərhi**” kitabında deyir: Cəhənnəm yeddi təbəqədir. Bir-birinin altındadırlar. Hər təbəqənin atəşi üstündəkilərdən daha şiddətlidir. Günahı əfv edilməmiş olan möminlər birinci təbəqədə, günahları qədər yanıb, sonra Cəhənnəmdən çıxarılaraq Cənnətə aparılacaqlar. Digər altı təbəqədə müxtəlif kafirlər əbədi yanacaqlar. Əzabı ən şiddətli olan yeddinci təbəqəsində münafiqlər yanacaqdır. Bunlar, dilləri ilə islamiyyəti mədh edib, qəlbləri ilə inanmayan ikiüzlü kafirlərdir. Kafirlər yanıb kül olunca, təkrar yaradılaraq, yenidən yanacaqlar, əbədi olaraq, belə yanacaqlar. Cənnət və Cəhənnəm hazırda mövcuddur. Bəzi alimlərə görə, Cəhənnəmin harada olduğu məlum deyildir. Bəzilərinə görə, yeddi qat yerin altındadır. Onların bu sözləri, Yer kürəsinin içində olmadığını göstərir. Yer kürəsi, günəş və bütün ulduzlar, birinci səma (göy) içində olduqlarına görə, yer üzünün harasında olarsaq olaq, yeddi qat yerin altında səma vardır. Cəhənnəmin yeddi qat səmadan birində olduğu başa düşülür.]

## KÜFRƏ SƏBƏB OLAN ŞEYLƏR

Küfr (Allaha düşmən olmaq) üç növdür: küfri inadi, küfri cəhli, küfri hökmi.

Küfri inadi, Əbu Cəhl, Firon, Nəmrud və Şəddad küfrü kimi, dini, imanı bilərək inanmamaqdır. Bunlar Cəhənnəmlikdir, demək caizdir.

Küfri cəhli, kafirlərin avamına deyilir. Bunlar, bu dinin haqq olduğunu bilir və azanı-Muhammədi oxunarkən eşidirlər, lakin gəl müsəlman ol desən, biz ata-anamızdan belə gördük, belə də gedəcəyik, deyərlər.

Küfri hökmi, təzim, yəni hörmət olunacaq yerdə təhqir, təhqir olunacaq yerdə isə hörmət etməkdir.

Allahü azım-üş-şanın Övliyasını, Ənbiyasını və Uləmasını (alimlər), onların sözlərini, fiqh kitablarını və fitvalarını təzim etmək yerinə təhqir etmək küfrdür. Kafirlərin dini ayinlərini bəyənmək, zərurət olmadan zünnar taxmaq və keşişlərə məxsus olan başlıq, səlib (bir-birinə dik bitişdirilmiş iki çubuq, xaç) kimi küfr əlamətlərindən istifadə etmək və onları bəyənmək küfrdür.

Küfrün yeddi zərəri vardır: insanın dini və nikahı gedər. Onun kəsdiyi heyvan yeyilməz. Halal yoldaşıyla əlaqəsi zina olar. Onu öldürmək vacib olar. Cənnət ondan uzaqlaşar. Cəhənnəm ona yaxınlaşar. O halda ölərsə, cənazə namazı qılınmaz.

Bir şəxs öz razılığı ilə, "Filan şey filan şəxsdədir və ya onda yoxdur, əks halda kafir olum, yəhudi olum", deyə and içsə, o şey o şəxsdə olsa da, olmasa da, and içən şəxs öz razılığı ilə küfr etmiş olur. İmanının və nikahının yenilənməsi lazımdır.

Zina, faiz, yalan kimi hər dində haram olan bir şey üçün, "kaş ki, halal olaydı, mən də edərdim", demək küfrdür.

Peyğəmbərlərə (aleyhimüssaləvatü vəttəslimat) inandım, amma Adəm əleyhissəlamın Peyğəmbər olduğunu bilmirəm, deyən kafir olur. Həzrəti Muhamməddin (əleyhissəlam) axır zaman Peyğəmbəri olduğunu bilməyən kafir olur.

Bir şəxs, "Peyğəmbərlərin (aleyhimüssaləvatü vəttəslimat) dediyi doğrudursa, biz qurtulduq", desə kafir olar. Birgivi mərhum buyurur ki, "Bu söz şübhəylə söylənsə küfrdür. Əgər ilzam yolu ilə söylənsə, küfr deyildir."

Bir şəxsə, gəl namaz qıl desələr, o da qılmıram desə, kafir olur. Amma məqsədi, sənin sözünlə qılmaram, Allah əmri ilə qılaram deməkdirsə, kafir olmaz.

Bir şəxsə dırnaqlarını kəs, çünki Rəsulullahın (sallallahü təala aleyhi və səlləm) sünnəsidir desələr, o da kəsmərəm desə, kafir olar. Digər sünnələr də belədir. Xüsusilə də məşhur olan və qüvvətli xəbərlə sübut olunan sünnələr. Məsələn, misvak kimi. Mərhum Birgivi buyurur ki, bir şəxs bu sözü, sünnətliyini inkar məqsədiylə desə kafir olar. Məqsədi sənin əmrinlə deyil, Rəsulullahın sünnəti olduğu üçün edərəm, deməkdirsə küfr deyildir.

[Yusif Kardavi **"Əl-halalü vəl-haramü fil-İslam"** kitabının dördüncü nəşrinin 81-ci səhifəsində deyir ki, **"Buxari"**dəki Hədisi-şərifdə: **"Müşriklərə müxalifət edin! Saqqalınızı uzadın, bığınızı qısaldın!"**, buyruldu. Bu Hədisi-şərif, saqqalı qazımağı və bir tutamdan az etməyi qadağan etməkdədir. Atəşə tapınanlar saqqallarını kəsirdilər. Qırxanlar da olurdu. Hədisi-şərifdə, bunlara müxalifət etməyimiz əmr olundu. Fiqh alimlərinin bəzisinə görə, bu Hədisi-şərif saqqal uzatmağın vacib olduğunu, saqqal qırxmağınsa haram olduğunu göstərir. Onlar arasında İbni Teymiyyə, saqqalı kəsməyə

qarşı çox kəskin yazmaqdadır. Bəzi alimlər isə saqqal uzatmağın adət olduğunu, ibadət olmadığını bildirdi. Fəth kitabı, üzrsüz saqqal qırxmağın məkruh olduğunu yazır. Doğrusu da budur. Bu Hədisi-şərifin saqqal uzatmağın vacib olduğunu göstərdiyini söyləmək düzgün deyil. Çünki **"Buxari"**də yazılmış Hədisi-şərifdə, **"Yəhudilər və xristianlar** (saçlarını, saqqallarını) **boyamırlar. Siz onlara müxalifət edin!"**, yəni siz boyayın, buyruldu. Bu Hədisi-şərif, saç və saqqal boyamağın vacib olduğunu göstərmir. Müstəhəb olduğunu göstərir. Çünki Əshabi-kiramın bəzisi boyadı, çoxu boyamadı. Vacib olsaydı, hamısı boyayardı. Saqqal uzatmağı əmr edən Hədisi-şərif də bu cür olub, saqqal uzatmağın vacib olduğunu deyil, müstəhəb olduğunu bildirməkdədir. İslam alimlərindən heç birinin saqqalını qırxdığı xəbər verilmədi. Çünki onların zamanında saqqal saxlamaq adət idi. Müsəlmanların adətlərinə uymamaq, şöhrət olar, məkruh olar. Fitnəyə səbəb olarsa, haram olar.] Kardavidən tərcümə tamamlandı. Kardavi, kitabının ön sözündə, dörd məzhəbin fiqh bilgilərini bir-birlərinə qarışdırdığını, tək bir məzhəbi təqlid etməyin doğru olmadığını yazır. Beləcə, Əhli sünnət alimlərinin yolundan ayrılır. Bununla belə, Kardavinin saqqal haqqındakı yazısı, hənəfi məzhəbinin rəyini açıqladığı üçün, sənəd olaraq istifadə edilməsi uyğun görüldü. Abdülhaki Dəhləvi həzrətləri, **"Əşiat-ül-ləməat"**ın üçüncü cildində deyir ki: "İslam alimləri, saç, saqqal boyamaqda, olduqları yerin adətinə uymuşdurlar. Çünki [caiz olan, mübah olan işlərdə] olduğu yerin adətinə uymamaq şöhrətə səbəb olur. Bu isə məkruhdur". Muhamməd Hadimi (rahiməhüllahü təala) **"Bəriqa"** kitabında deyir ki, "Hədisi-şərifdə: **"Bığı qısa, saqqalı uzun saxlayın!**, buyruldu. Bunun üçün saqqalı qırxmaq, kəsmək və sünnət miqdarından qısa saxlamaq qadağan olundu. Saqqalı bir qəbzə, bir tutam uzatmaq sünnətdir, bir tutamdan qısa saxlamaq caiz deyildir. Bir tutamdan artığını kəsmək də sünnətdir". Bir tutam, dodaq kənarından, dörd barmaq eni qədər uzun olmaq deməkdir. Sünnət olan, hətta mübah olan şeyi sultan əmr edərsə, buna əməl etmək vacib olur. Sultanın və bütün müsəlmanların əməl etməsi, əmr deməkdir. Belə yerlərdə saqqalı bir tutam uzatmaq vacibdir. Bir tutamdan qısa saxlamaq və ya qırxmaq, vacibi tərk etmək olur. Bu isə tahrimən məkruhdur. Lakin qeyri müsəlman ölkədə olan və ya zülm görməmək, yaşama vəsaitlərindən məhrum olmamaq üçün, yaxud əmri maruf edə bilmək, müsəlmanlara və islamiyyətə xidmət edə bilmək, dinini, namusunu qoruya bilmək üçün saqqalını qırxmaq caiz, hətta lazım olur. Üzrsüz olaraq qısaltmaq və qırxmaq məkruhdur. Bir tutamdan qısa saqqal saxlayaraq, bununla da sünnətə əməl etdiyinə inanmaq bidətdir, sünnəti dəyişdirməkdir. Belə bidət etmək, adam öldürməkdən daha böyük günahdır.]

Ağıllı və həddi-buluğa çatmış bir qız və bir oğlanı nikahlasalar və onlardan imanın şərtləri soruşulduqda bilməsələr, onlar müsəlman deyildir.

Onlara iman ediləcək şeyləri öyrədib, sonra nikahlarını yenidən bağlasalar, nikahları səhih olar. (Əlli dörd fərz bölməsinə baxın!)

Bir şəxs bığlarını qırxdıqda, yanındakı, bir işə yaramadı desə, deyənin küfründən qorxulur. Belə ki, bığları qısaltmaq sünnətdir. Sünnətə qiymət verməmiş olur.

Bir şəxs, başdan ayağa ipək geyinsə, başqa biri bu halına mübarək olsun, desə, küfründən qorxulur.

Bir şəxs, qibləyə qarşı ayağını uzadıb yatmaq, tüpürmək və ya qibləyə qarşı sidiyə getmək kimi bir məkruh iş görsə, ona, bu etdiklərin məkruhdur, etmə, desələr, o isə, hər günahımız bu qədər olsaydı, desə, məkruhu önəmsiz bir şey saydığı üçün küfründən qorxulur.

Bir şəxsin xidmətçisi qapıdan içəri girərkən əfəndisinə salam versə, başqa biri ona, "sus, ədəbsiz, əfəndiyə salam vermək olarmı?!", desə, deyən şəxs kafir olur. Amma məqsədi, ədəb qaydalarını öyrətmək və "salamı qəlbən vermək lazımdır", deməkdirsə, küfr olmadığı aydın görünür.

Bir şəxs digərinin iştirakı olmadan bir söz desə, yanındakı, qeybət etmə desə, həmin şəxs də, bu elə bir şey deyil ki, desə, bu hərəkəti ilə haramı bəyəndiyi, pisləmədiyi üçün kafir olur.

Allah mənə Cənnət verərsə, sənsiz Cənnətə girmərəm; filan şəxslə Cənnətə girməyim əmr olunsa, girmərəm; Allah mənə Cənnət verərsə, istəmərəm, lakin üzünü görməyi istəyərəm, kimi sözlər küfrdür. Kimsə iman artar və azalar desə, küfrdür. Birgivi buyurur ki, "**Mümənün bih**" etibarıyla artar və azalar desə, küfrdür. Amma yakin, sidq etibarıyla desə küfr olmaz. Çünki Müctəhidlərdən bir çoxu imanın ziyadə və nöqsan olmasını söyləmişdirlər.

Qiblə ikidir, biri Kəbə, digəri Qüdsdür, demək küfrdür. Birgivi buyurur ki, Hal-hazırda belə söyləmək küfrdür. Amma əvvəl Beyti müqəddəs qiblə idi, sonra qiblə Kəbə oldu, demək küfr deyil.

Bir şəxs bir alimi söysə, bu hərəkəti səbəbsizdirsə, onun küfründən qorxulur.

Kafirlərin ibadətlərinə, islamiyyətə uymayan işlərinə gözəl demək, bu cür etiqad etmək küfrdür.

Yemək yeyərkən danışmamaq atəşpərəstlərin gözəl adətlərindəndir, deyən və ya qadının adət halında onunla yaxınlıq etməmək məcusilərin yaxşı adətidir, deyən kafir olur.

Bir şəxsdən, sən möminsən, deyə soruşulsa, o da, inşaallah desə və məqsədini açıqlaya bilməsə, küfrdür.

Övladı ölən şəxsə, Allahü təalaya sənin oğlun gərək idi, deyən kafir olur.

Qadın belinə qara ip bağlasa, soruşanlara, bu zünnardır desə, kafir olur, ərinə haram olur.

Haram təam yedikdə Bismillah deyən kafir olur. Birgivi həzrətləri buyurur ki, “Haram li-aynihi olarsa [şərab, murdar, ölmüş heyvan əti və ya o heyvanın yağı kimi] kafir olur. Çünki bunların özləri haramdır. İsmullahı, yəni, Allahın adını kiçiltmiş olur. Amma haram li-aynihi olduğunu bilməsi lazımdır. İmamlarımızdan rəvayət olunmuşdur ki, bir şəxs təam oğrayıb yeyərkən, Bismillah desə, kafir olmaz. Çünki təamın özü haram deyil, oğurlamaq haramdır”.

Bir şəxs digərinə bəddua edərək, Allahü təala sənin canını küfr ilə alsın desə, kafir olmasında alimlər ixtilaf etmişlər. Belə ki, öz küfrünə razı olmaq, söz birliyi ilə küfrdür. Amma başqasının küfrünə razı olmaq bəzilərinə görə küfrdür. Bəzilərinə görə isə kafir olmasını istəyərək söyləmək küfrdür, lakin zülm və günahlarından ötrü, əzabı daimi və şiddətli olsun deyə söyləmək küfr deyil. Birgivi (rahimə hullahü təala) buyurur ki, bu söz daha doğrudur. Belə ki, Qurani azımda Həzrəti Musa əleyhissəlamın hekayəsində buna dəlil vardır.

Bir şəxs, Allah bilir ki, filan işi görmədim, desə, halbuki o işi gördüyünü bilsə, kafir olur. Haqq təala həzrətlərinə cehli mürekkəb (Allaha cahil yerinə qoymaq olur) isnad etmiş olur.

Bir şəxs bir qadını [şahidsiz] nikahlasa, o ər və arvad, Allah və Peyğəmbər şahidimizdir desələr, hər ikisi kafir olur. Belə ki, Peyğəmbərimiz (sallallahü təala aleyhi və səlləm) diri ikən qeybi bilməzdi. Qeybi bilir demək, küfrdür.

Mən, oğurlananları və qeyb olanları bilirəm, deyən və ona inanan kafir olur. Mənə cin xəbər verir desə, yenə kafir olur. Peyğəmbərlər və cinlər qeybi bilməzlər. Qeybi ancaq Allahü təala və Onun bildirdikləri bilir.

Allaha and içmək istəyən birinə, mən sənin Allaha and içməyini istəmirəm. Talaqa (boşanma), şərəfə, namusa and verməyini istəyirəm deyən, kafir olar.

Bir şəxsə, sənin üzün mənə can alıcı kimidir deyən kafir olur. Belə ki, can alıcı bir ulu mələkdir.

Namaz qılmamaq xoş işdir deyən, kafir olur. Birinə namaz qılmaq təklif olunsa, o da, namaz qılmaq mənə çətindir desə, kafir olur.

Allah göydə mənim şahidimdir deyən, kafir olur. Belə ki, Allahü təalaya məkan istinad etmiş olur. Allahü təala, məkandan münəzzəhdir. Allah baba deyən də kafir olur.

Bir şəxs, Rəsulullah (sallallahü təala aleyhi və səlləm) yemək yedikdən sonra mübarək barmağını yalardı desə, digəri, bu iş tərbiyəsizlikdir desə, kafir olur.

Ruzi Allahdandır, lakin quldan da hərəkət gərəkdir demək, şirkdir. Belə ki, qulun hərəkəti də Allahdandır.

İki kafir müqayisə edildiyi zaman bu kafir digər kafirdən yaxşıdır demək, küfr olar. Buna yol verməmək üçün bu kafir digər kafirdən pisdir demək lazımdır.

Kafir olmaq, xəyanət etməkdən yaxşıdır, deyən kafir olur.

Bir şəxs haram maldan sədəqə verib, savab umsa, alan kasıb haram olduğunu bilərək, Allah qəbul etsin desə, verən də amin desə, hər ikisi də kafir olur.

"Elm məclisində nə işim var; alimlərin dediyini eləməyə kimin gücü çatar?", deyən və ya fitvanı yerə atan, din adamlarının sözü nəyə yarar deyən, kafir olur.

Bir şəxs, düşməninə qazıya gedək desə, o isə, polis aparmasa getmərəm və ya mən islamiyyəti nə bilim, desə kafir olur.

Bir şəxs küfr söyləsə, bir başqası da gülsə, gülən də kafir olur. Gülməyi zəruri olarsa, kafir olmaz.

Bir şəxs, Allahdan boş yer yoxdur (yəni hər yer Allahla doludur) və ya Allahü təala göydədir desə, kafir olur.

Şeyxlərin ruhları həmişə hazırdır, bilirlər deyən, kafir olur. Hazır olar desə, küfr olmaz.

İslamiyyəti bilmirəm və ya istəmirəm deyən kafir olur.

Bir şəxs, Adəm əleyhissəlam buğda yeməsəydi, biz Cəhənnəmlik olmazdıq, deyən kafir olur. Amma biz dünyada olmazdıq desə, küfründə ixtilaf edilmişdir.

Adəm əleyhissəlam parça toxuyurdu, deyildikdə, bir şəxs, onda biz çuvalçı oğullarıyıq desə, kafir olur.

Kiçik günah işləyən birinə tövbə et deyilsə, o da nə etdim ki, tövbə edim desə, kafir olur.

Bir şəxsə, gəl islam aliminə gedək, fiqh, elmihal kitabını oxuyub öyrənək desə, o da mən elmi neyləyirəm desə, kafir olur. Belə ki, elmə dəyər vermir. Təfsir və fiqh kitablarına hörmətsizlik edən, bunları bəyənməyən, pisləyən şəxs kafir olur. Dörd məzhəbdən birinin alimlərinin yazmış olduqları bu qiymətli kitabları təhqir edən azğın kafirlərə "fənn fırıldağı" və "zındık" deyilir.

Kimin zürriyyətindənsən, kimin millətindənsən, etiqadda məzhəbinin imamı kimdir, əməldə məzhəbinin imamı kimdir, suallarına cavab verə bilməyən kafir olur.

Bir qəti harama,- şərab, donuz əti kimi - halaldır deyən və ya qəti halala haramdır deyən kafir olur. [Tütünə haram demək təhlükəlidir.]

Bütün dinlərdə haram olan, halal edilməsi hikmətə zidd olan bir şeyin halal olmasını arzu etmək küfrdür. Məsələn, zina, livata (insanla arxadan əlaqə), qarnı doyduqdan sonra təam yemək, faiz almaq və vermək belə haramlardandır. Şərabın halal olmasını istəmək küfr deyildir. Çünki şərab hər dində

haram deyildir. Qurani azım-üş-şanı söz və lətifə arası işlətmək küfrdür. Yəhya adlı birinə “**Ya Yəhya! Huz-il-kitabə**” deyən kafir olur. Qurani-kərimlə lağ etmiş olur. Çalğı, oyun, musiqi arasında Quran oxumaq da belədir.

Bir şeyi çox görən ”**Ma halakallah**” desə, mənasını bilməsə kafir olur.

Bir şəxs, indi səni söymərəm, söyməyin adını günah qoyublar desə, təhlükəlidir.

Bir şəxs, Cəbrail buzovu kimi çıl-çılpaq olmusan desə, təhlükəlidir. Mələklə istehza etmiş olar.

Allahü təbarəkə və təaladan başqa bir şeyə and içmək haramdır. Haram işləyən mürtəd və kafir olmaz. Əgər ayətlə təsbit olunmuş harama halal desə kafir olur.

Oğlunun başı üçün, başım üçün sözlərinə vallahi və ya billahi sözünü əlavə etməyin, məsələn vallahi oğlumun başı üçün deməyin, küfr olmasından qorxulur.

---

Allahü azım-üş-şanın adəti belədir ki, hər şeyi səbəblə yaradır. Bir şeyə qovuşmaq üçün onun yaradılmasına səbəb olan şeyi etmək lazımdır. Hər şeyin yaradılmasında müştərək olan mənəvi səbəb, sədəqə vermək, 70 dəfə “**Əstəğfirullah min külli mə kərihallah**” duasını oxumaqdır. Bu iki mənəvi səbəb maddi səbəbləri tapmağa da yardım edər.

## ƏHKAMİ İSLAMİYYƏ

İslam dininin bildirdiyi əmrlərə və qadağalara “**Əhkami islamiyyə**” və ya “**İslamiyyət**” deyilir. Əhkami islamiyyə səkkizdir: Fərz, vacib, sünnət, müstəhəb, mübah, haram, məkruh, müfsid.

**Fərz**, Allahü azım-üş-şanın əməl edilməsini ayəti kərimə ilə açıqca və qəti olaraq əmr etdiyi şeylərə deyilir. İnanmayan, əhəmiyyət verməyən kafir olur. İman, Quran, dəstamaz almaq, namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həccə getmək, cünüblükdən qüsl etmək və s. fərzdir.

Fərz üç növdür. **Fərzi daim**, **fərzi müvəqqət**, **fərzi aləl-kifayə**. *Fərzi daim* “**Aməntü billəhi**”ni sonuna qədər əzbərləyib, mənasını bilib və inanıb daimi etiqad etməyə deyilir. *Fərzi müvəqqət*, əməlin vaxtı gəldikdə icra etdiyimiz fərz olan əməllərə deyilir. Beş vaxt namaz qılmaq, Ramazanı şərif ayında oruc tutmaq, sənətinə və ticarətinə lazım olan din və fənn bilgilərini öyrənmək belə fərzlərdəndir. *Fərzi aləl-kifayə*, müsəlmanlardan bir neçəsinin və ya sadəcə birinin icra etməsi ilə digərlərinin məsuliyyətdən qurtulduğu fərzlərdir. Verilən salamın cavabını söyləmək, cənazə namazı qılmaq, cənazəni yumaq, sarf və navh (ərəb dilinin qramatikasının incəliklərini öyrənmək), Qurani-kərimin hamısını əzbərləyib hafiz olmaq, cihad etmək, sənətinə və ticarətinə lazım olandan artıq din və fənn bilgilərini öyrənmək belə fərzlərdəndir.

Bir fərz içində beş fərz vardır. Bu fərzlər: **elmi fərz**, **əməli fərz, miqdari fərz, etiqadi fərz, ixlasi fərz, inkari fərzdir**. İnkari fərz küfrdür.

**Vacib**, icra edilməsi fərz kimi qəti olan əmrlərə deyilir. Bu əmrin Qurani-kərimdəki dəlili fərz qədər açıq deyildir. Şübhəli olan bir dəlil ilə bəlli olur. Vacib olduğuna inanmayan kafir olmaz. Lakin icra etməyən Cəhənnəm əzabına layiq olar. Məsələn, Vitr namazını və bayram namazını qılmaq, imkanlı olduqda qurban kəsmək, fitrə (sədəqəi fitr) vermək, vitr namazında kunut duasını oxumaq, səcdə ayəsi oxunduqda tilavət səcdəsi etmək vacibdir. Vacib içində dörd vacib və bir fərz vardır: elmi vacib, əməli vacib, miqdari vacib, etiqadi vacib, ixlasi fərz. Fərzin və vacibin riyası (göstəriş üçün edilməsi) haramdır.

**Sünnət**, Rəsulullah (sallallahü aleyhi və səlləm) həzrətlərinin bir və ya iki kərə tərk etdiyi ibadətlərdir. Sünnəti tərk edənə əzab olmaz. Lakin üzrsüz və davamlı tərk edən savabından məhrum olmağa layiq olar. Məsələn, azan oxumaq, iqamə gətirmək, camaat ilə namaz qılmaq, dəstamaz alarkən misvak işlətmək, evləndiyi gecə yemək ikram etmək, uşağını sünnət etdirmək. Sünnət üç növdür: **sünnəti müəkkədə, sünnəti qeyri müəkkədə, sünnəti aləl kifayə.**

Sünnəti müəkkədə olanlar: Sübh namazının sünnəti, zöhr namazının ilk və son sünnətləri, məğrib namazının sünnəti, İşa namazının son iki rükət sünnəti belədir. Sübh namazının sünnətinə vacib deyən alimlər də vardır. Bu sünnətlər əsla üzrsüz tərk olunmaz. Bəyənməyən kafir olur.

Sünnəti qeyri müəkkədə, ikindi namazının sünnəti və İşa namazının ilk sünnəti belədir. Bunlar çox vaxt tərk edilsə bir şey olmaz. Amma üzrsüz olaraq tamamilə tərk edilsə, şəfaətdən məhrum olmağa səbəb olar.

[”**Haləbi**”də və “**Quduri**”də deyilir ki, ibadətlər “**Fəraiz**” və “**Fədail**” olmaqla iki yerə bölünür. Fərz və vacib olmayan ibadətlərə “**Fədail**” və ya “**Nafilə ibadət**” deyilir. Beş vaxt namazın sünnətləri nafilə ibadətdir və fərzlərdəki qüsurları tamamlayır. Sünnət namazlar qılınmayan fərz namaz yerinə keçməz. Sünnət qılmaq fərzi tərk edəni Cəhənnəmdən qurtarmaz. Fərzi üzrsüz tərk edənin qıldığı sünnət səhih olmaz. Səhih olan [qüsursuz qılınan] sünnətə niyyət etmək lazımdır. Niyyət edilməzsə, sünnət savabı qazanılmaz. Bunun üçün illərlə namaz qılmayanlar, dörd vaxt namazın sünnətlərini qılarkən, həm o vaxtın ilk qəzaya qalmış fərzini qəza etməyə, həm də o vaxtın sünnətini əda etməyə niyyət etməlidir. Belə niyyət etdikdə həm qəza, həm də sünnət qılmış olur. Sünnəti tərk etmiş olmur.]

*Sünnəti aləl-kifayə*, beş-on nəfərdən birinin icra etməsi ilə digər müsəlmanları məsuliyyətdən azad edən sünnətlərə deyilir. Salam vermək və itikafa girmək, dinimizə uyğun olan işlərə başlarkən bəsmələ söyləmək belə sünnətlərdəndir.

Əgər bir insan yeməyin əvvəlində Bəsmələi şərifəni söyləməsə, üç zərəri vardır:

1. Şeytan onunla birlikdə təam yeyər.
2. Yediyi təam bədəninə xəstəlik olar.
3. Yeməkdə bərəkət olmaz.

Bəsmələ söyləsə, üç faydası olar:

1. Şeytan yediyinə ortaq olmaz.
2. Təam bədəninə şəfa olar.
3. Təamda bərəkət olar. [Yeməyə başlarkən Bəsmələ unudulsa, xatırlandığı zaman söylənməlidir.]

**Müstəhəb**, Peyğəmbər əfəndimizin ömründə bir-iki dəfə də olsa etdiyi xüsuslardır. Sünnəti qeyri müəkkədə hökmündədir. Müstəhəbə əməl etməyənə əzab, eləcə də şəfaətdən məhrum qalmaq yoxdur. Lakin əməl edənə çox savab verilir. Məsələn, nafilə namaz qılmaq, nafilə oruc tutmaq, nafilə həccə və urməyə getmək, nafilə sədəqə vermək və s.

**Mübah**, əməl edilməsi əmr olunmayan və qadağan da edilməyən şeylərə deyilir. Mübahın yaxşı niyyətlə icra olunmasına, savab, pis niyyətlə icra olunmasına, əzab vardır. Tərk edilsə günah olmaz. Yatmaq, gəzmək, oturmaq, halal olan çeşidli yeməklər yemək, ev almaq, halal olmaq şərtiylə müxtəlif cür paltar geymək və s. mübahdır.

**Haram,** Allahü azım-üş-şanın Qurani-kərimdə açıqca qadağan etdiyi şeylərdir. Harama əhəmiyyət verməyən, inanmayan kafir olur. İnandığı halda haram işləyən kafir olmur, fasiq (günahkar) olur. [İbni Abidin (rahimə-hullahü təala) imamlığı anladarkən buyurur ki, "Fasiq imamın arxasında namaz qılmaq olmaz. Fasiq, şərab içmək, zina etmək, faiz yemək kimi böyük günahları işləyənə deyilir. [Kiçik günaha davam etmək də böyük günahdır.] Birdən çox məsciddə Cümə namazı qılınan yerlərdə, fasiq xətibin arxasında Cümə namazı qılmaq olmaz. İmamı saleh olan məsciddə qılmaq lazımdır. Fasiqin işinə xələl gətirmək, təhqir etmək vacibdir. Fasiq çox alim olsa da onu imam etmək olmaz. Onu imam etmək, ona hörmət etmək olar. Fasiqin də, məzhəbsizin də imam olmasına izn vermək hər zaman tahrimən məkruhdur. Haramlardan çəkinməyə **"Təqva"** deyilir. Halal və ya haram olduğu şübhəli olan şeylərdən çəkinməyə **"Vəra"** deyilir. Şübhəli bir şey etməmək üçün hər halalı tərk etməyə **"Zühd"** deyilir. Qeyri müsəlman ölkəsində imana gələnin, müsəlman ölkəsinə hicrət etməsi vacibdir"].

Haram iki növdür: **Haram li-aynihi** və **Haram li-qayrihi**. *Haram li-aynihi*, özü haram olub, hər zaman haramdır. Adam öldürmək, zina və livata etmək, şərab və hər növ spirtli içkilər içmək, yalan danışmaq, oğurluq etmək, qumar oynamaq, donuz əti, qan və leş yemək, qadınların, qızların başı, qolu, ayaqları açıq çölə çıxmaları haram olub, böyük günahdır. Bir şəxs bu günahları işləyərkən Bəsmələi-şərifə desə və ya halal olduğuna etiqad etsə, yəni Allahın haram etməsinə əhəmiyyət verməsə, kafir olar. Bunların haram olduğuna ina-

nıb, Allahdan, əzabından qorxaraq işləsə, kafir olmaz. Lakin Cəhənnəm əzabına layiq olar. Əgər israr edib tövbəsiz ölərsə, imansız getməyə səbəb olar.

Haram li-qayrihi, özü haram olmasa da, başqalarının haqlarından dolayı, haram yoldan əldə edildiyi üçün haram olur. Məsələn, bir insanın bağına girib, sahibinin icazəsi olmadan meyvəsini dərib yemək, ev əşyasını və pulunu oğurlayıb xərcləmək və s. Bunları edərkən Bəsmələ söyləyən və ya bunlara halal deyən kafir olmaz. Bir insanda bir arpa ağırlığında haqsız olan mal varsa, qiyamət günü Allahü azım-üş-şan o insandan, camaat ilə qılınmış yeddi yüz rükət qəbul olunmuş namazın savabını alıb, haqq sahibinə verəcək. Haramın hər iki növündən çəkinmək, ibadət etməkdən daha savabdır.

**Məkruh**, Allahü azım-üş-şanın və Muhamməd əleyhissəlamın bəyənmədiyi və ibadətlərin savabını yox edən şeylərə deyilir. Məkruh iki növdür: Kərahəti təhrimiyyə və Kərahəti tənzihiyyə.

Kərahəti təhrimiyyə, vacibin tərkidir. Harama yaxın olan məkruhdur. Tahrimən məkruhu qəsdən işləyən günahkar və Cəhənnəm əzabına layiq olur. Namazda vacibləri tərk edənin, tahrimən məkruh işləyənin, o namazı iadə, yəni yenidən qılınması vacibdir. Əgər səhvən işlərsə, səcdəi-səhv edər. Namazın iadəsinə ehtiyac qalmaz.

Kərahəti tənzihiyyə, sünnətin tərkidir. Halala yaxındır. Tənzihən məkruh işləyənə əzab verilməz. Lakin israr edərsə, savabdan məhrum qalmağa layiq olar. Məsələn, at ətini, pişik və siçan artığını yemək, şərab hazırlayana üzüm satmaq və s.

**Müfsid**, Əməlləri təməlindən yox etməyə deyilir. İmanı və namazı, nikahı, həcci, zəkatı, alış və satışı pozmaq.

[Fərzlərə, vaciblərə və sünnətlərə əməl edən və haramdan, məkruhdan çəkinən müsəlmana axirətdə "**Əcr**", yəni savab-qarşılıq veriləcək. Haramlara, məkruhlara yol verən və fərzləri, vacibləri tərk edən müsəlmana "**Günah**" yazılacaq. Haramdan çəkinməyin savabı, fərzə əməl etməyin savabından qat-qat çoxdur. Bir fərzin savabı, bir məkruhdan çəkinmənin savabından çoxdur. Məkruhdan çəkinmənin savabı isə, sünnətin savabından çoxdur. Mübahlar içərisində Allahü təalanın sevdiklərinə **"Xeyrat**" və **"Həsənət"** deyilir. Bunlara əməl edənə savab verilsə də, bu savab sünnət savabından azdır. Savab veriləcəyini bilərək əməl etməyə **"Qurbət"** deyilir.

Allah qullarına rəhm etdiyi üçün, rahatlıq və səadət mənbəyi olan dinləri göndərdi. Dinlərin sonuncusu Muhamməd əleyhissəlamın dinidir. Digər dinlər pis insanlar tərəfindən dəyişdirilmişdir. İstər müsəlman olsun, istərsə də kafir, hər hansı bir insan bilərək və ya bilmədən bu dinə uyğun yaşasa, dünyada heç çətinlik çəkməz. Dinclik və sevinc içində yaşayar. Hal hazırda Avropada və Amerikada bu dinə uyğun işləyən kafirlər belədir. Lakin kafirlərə axirətdə savab və mükafat verilməyəcək. Bu cür işləyən əgər müsəlmandırsa və islamiyyətə uymağa niyyət edərsə, axirətdə də əbədi səadətə qovuşacaqdır.]

## İSLAMIN BİNASI

İslamın binası beşdir. Yəni islam beş şey üzərində qurulmuşdur. Birincisi, Kəlmeyi-şəhadət gətirmək və mənasını öyrənib, inanmaq. İkincisi, hər gün vaxtı keçmədən beş vaxt namaz qılmaq. Üçüncüsü, Ramazanı şərifdə hər gün oruc tutmaq. Dördüncüsü, əgər fərz oldusa, ildə bir dəfə zəkat və uşr vermək. Beşincisi, gücü yetənin ömründə bir dəfə həccə getməsi. [Allahü təalanın bu beş əmrini yerinə yetirməyə və haramlardan çəkinməyə **"İbadət etmək"** deyilir. Vücub və əda şərtlərinə malik olmayanın və həccə gedənin yenidən getməsi nafilə ibadətdir. Bidət və haram işləməyə səbəb olan nafilə ibadəti yerinə yetirmək caiz deyil. İmamı Rabbani (quddisə sirruh), 29, 123 və 124-cü məktublarında və **"Məqaməti Məzhəriyyə"**nin 26-cı məktubunda nafilə həccə və ömrəyə getməyə izn verməmişdir. **"Nəşr-ül-məhasin"**də, makamati aşərədən, yəni on məqamdan zühd (təqva) məqamını bildirərkən deyir ki, "Böyük alim və Vəli imam Nəvəviyə, hər sünnətə riayət edirsən, lakin böyük sünnət olan nikahı tərk edirsən- deyildikdə, O, bir sünnəti edərkən bir çox haram işləməkdən qorxuram, deyə buyurdu". İmam Yəhya Nəvəvi 676-cı ildə Şam şəhərində vəfat etmişdir. Pakistanda **"Camiai habibiyyə"** universitetinin dekanı, müdərris Həbib-ür-rəhman 1401-ci [miladi 1981] ildə həccə getdikdə, vəhhabi imamın mikrofon ilə namaz qıldığını görüb, namazlarını ayrı qıldığı üçün əllərinə qandal taxılaraq həbs edilmişdir. Səbəbi soruşulduqda, imamın mikrofon ilə namaz qıldırması caiz deyildir, demişdir. Həcc etməsinə mane olunaraq, geri göndərilmişdir.

Dünyanın harasında olursa olsun, hər insana ilk öncə lazım olan şey, dinini, imanını öyrənməkdir. Din, əvvəllər islam alimlərindən asanlıqla öyrənilirdi. İndi axır zaman olduğu üçün, heç bir yerdə həqiqi din alimi qalmamışdır. Cahillər, ingilislərə satılmış axmaqlar, din adamı olaraq hər tərəfə yayılıb. İndi dini, imanı doğru olaraq öyrənmək üçün tək çarə, Əhli sünnət alimlərinin kitablarını oxumaqdır. Bu kitabları tapmaq, Allahü təalanın böyük bir ehsanıdır. İslam düşmənləri gəncləri aldatmaq üçün yararsız din kitabları yayırlar. Həqiqi din kitabı tapıb oxumaq çox çətin olmuşdur. Gənclər müxtəlif oyunlara aludə olub, həqiqi kitab tapmaqdan və oxumaqdan məhrum edilməkdədirlər. Bir çox gəncin oyundan başqa bir şey düşünmədiyini görürük. Bu xəstəlik gənclər arasında yayılmaqdadır. Müsəlman ana-ataların uşaqlarını bu xəstəlikdən qorumaları çox vacibdir. Bunun üçün uşaqlarına dini öyrətmələri və kitab oxumağa alışdırmaları lazımdır. Bəzi dostlarımızın uşaqlarının zərərli oyunları oynamaqdan yemək yeməyi belə unutduqlarını görürük. Bu cür uşaqların, məktəb kitablarını belə oxuyub sinif bitirmələri imkansızdır. Ana-ataların uşaqlarına hakim olmaları, kitab oxumağa alışdırmaları lazımdır. Bunun üçün "**İslam əxlaqı**" kitabını oxumaq lazımdır. Bu kitabı oxuyan dinini, imanını öyrəndiyi kimi, islam düşmənləri-

nin necə çalışdıqlarını da anlayacaqlar. Ata-analar bu vəzifələrini yerinə yetirməzlərsə, dinsiz, imansız bir gənclik hasil olaraq vətənimizə, millətimizə çox zərər verəcəkdir.

Müsəlman ata-anaların diqqət etməli olduqları çox mühüm bir məsələ də "Sətri övrət" məsələsidir. Zərərli oyunları oynayanlar arasında dizlərindən qasıqlarına qədər açıq-saçıq gəncləri görürük. İslam dinində övrət yerlərini örtmək mühüm fərzdir. Buna əhəmiyyət verməyən, imanını itirə bilər. Müsəlmanlar namazlarına çox savab qazanmaq və dəyərli nəsihətlər dinləmək üçün məscidlərə gedirlər. Məscidə getmək bu səbəblə olmasa belə, çox savabdır. Övrət yerləri açıq olanların getdiyi yer məscid deyil, fısq (günah) məclisi olar. Fısq məclisinə getməyin haram olduğu bütün kitablarda yazılmışdır. Açıq-saçıq geyinənlərin getdiyi məscidlərə gedən, fısq məclisinə getmiş olub, günaha batar. Savab qazanmaq və nəsihət dinləmək üçün bu tərzdə məscidlərə gedən şəxs savab deyil, günah qazanır. Övrət yerləri açıq olanlar məscidə gedərkən, müsəlmanların günaha batmalarına səbəb olurlar. Övrət yerini açmaq böyük günah olduğu kimi, belə gəzənlərə baxmaq da böyük günahdır. Ona görə də bu şəkildə məscidlərə gedən müsəlmanlar savab deyil, günah qazanaraq, Allahın qəzəbinə səbəb olmaqdadırlar.

## NAMAZ BƏHSİ

Namazın fərzləri on ikidir: yeddisi namaz xaricində, beşi namazın daxilində.

Namaz xaricində olan fərzlər: Hadəsdən təharət, nəcasətdən təharət, sətri övrət, istiqbali qiblə, vaxt, niyyət, iftitah təkbiri. Namaz daxilində olan fərzlər: Qiyam, qiraət, hər rükətdə bir rüku, iki səcdə, qadəi axirədə təşəhhüd miqdarı oturmaq. Namazın içindəki fərzlərə **"Rükn"** deyilir. Səcdədə alnı və ayaq barmaqlarını yerə qoymaq fərzdir.

Hadəsdən təharət, dəstəmaz yoxdursa, dəstəmaz almaq, cünub olduqda qüsl almaq, dəstəmaz və qüsl lazım olduqda su tapılmazsa, təyəmmüm etməyə deyilir. Hadəsdən təharət üç şeylə tamamlanır:

İstincaya (təharətlənmək) və istibraya (sidiyin tamamını çıxartmaq) diqqət etmək, yuma və başa məsh etmə zamanı fərz olan yerlərdə islanmamış yer qoymamaq.

Nəcasətdən təharət üç şeylə tamamlanır: 1) Namaz qılarkən geydiyi paltarını nəcasətdən təmizləmək, 2) Namaz qılarkən bədənini pak etmək, 3) Namaz qıldığı yeri pak etmək.[Spirtli mayələr üçün əlli dörd fərzin sonuna baxın.]

Sətri övrət üç şeylə tamamlanır: 1) Hənəfi məzhəbində kişilərin göbəklərindən dizləri altına qədər olan əzalarını örtməsi. Kişilərin namazda ayaqlarını örtməsinin sünnət olduğu "Səadəti Əbədiyyə" kitabında yazılmışdır. 2) Qadınların üz, əl və bir rəvayətə görə ayaqlarından başqa bütün bədənlərini örtmələri. 3) Cariyə olan qadınların arxalarını və sinələrindən

dizlərinin altına kimi olan əzalarını örtmələri. [Başı, qolları, ayaqları açıq gəzən və ya dar, incə şeylə örtünən qadınlar və bunlara baxan kişilər haram işləmiş olurlar. Haram olduğuna əhəmiyyət verməyən imansız olur, mürtəd olur.]

İstiqbali qiblə üç şeylə tamamlanır: 1) Qibləyə dönmək, 2) Namazın sonuna qədər sinəsini qiblədən çevirməmək, 3) Allahü azım-üş-şanın divanı-mənəvisində zəlil olmaq.

Vaxt üç şeylə tamamlanır: 1) Namazın əvvəl vaxtını bilmək, 2) Namazın axır vaxtını bilmək, 3) Namazı məkruh vaxta saxlamamaq.

Niyyət, qıldığı namazın fərz, vacib, sünnət və ya müstəhəb olduğunu bilməklə və qəlbindən keçirməklə, dünya işlərini qəlbindən çıxarmaqla tamamlanır. Vitr namazını qılmaq İmam azama görə vacib, iki imama görə, maliki və şafi məzhəblərinə görə sünnətdir. [Maliki məzhəbini təqlid edənin, çətinlik olduğu zaman vitr namazını tərk etməsi caizdir.]

İftitah təkbiri, kişilərin əllərini qulağına qaldırması, qəlbən oyanıq və hazır olması ilə tamamlanır.

Qiyam üç şeylə tamamlanır: 1) Qibləyə qarşı ayaq üstə durmaq, 2) Səcdə yerinə baxmaq, 3) Qiyamda olarkən iki tərəfə yellənməməklə.

Qiraət üç şeylə tamamlanır: 1) Ucadan oxunarsa, eşidiləcək qədər səslə oxumaqla, gizli oxunarsa, özü eşidəcək qədər hərfləri düzgün olaraq oxumaqla, 2) Qurani-kərimin mənasını düşünməklə, 3) Təcvidə uyğun oxumaq. [Namaza qalxarkən söylənən təkbiri, namaz içində oxunan hər şeyi və azanı ərəbcə oxumaq lazımdır. Bunların ərəbcəsini, dinini bilən və məzhəbinin elmihal kitabına uyan hafizdən öyrənmək lazımdır. Latın hərfləri ilə yazılmış Qurani-kərim doğru oxuna bilməz. Qüsurlu və səhv olar. Qurani-kərim təfsiri (açıqlama) oluna bilər, lakin tərcümə oluna bilməz. Dinsizlərin, məzhəbsizlərin türkcə Quran dedikləri kitablar doğru deyil, səhv və pozulmuşdur. Hər müsəlman Qurani-kərim kursuna gedib islam hərflərini öyrənərək, Qurani-kərimi və duaları doğru oxumalıdır. Bu cür doğru oxunaraq qılınan namaz qəbul olar. **“Tərqib-üs-salat”**da deyilir ki, “Bir şəxsin namazda oxuduğu, doqquz alimə görə səhv olsa, bir alimə görə doğru olsa, onun namazına yanlış demək olmaz.”]

Rüku üç şeylə tamamlanır: 1) Rükuda qibləyə qarşı tam əyilmək, 2) Bel ilə başı bərabər tutmaq, 3) Tumaninət üzrə [qəlbən əmin olmaq] durmaqla.

Səcdə üç şeylə tamamlanır: 1) Səcdəyə sünnətə uyğun getmək, 2) Alınla burnu qibləyə qarşı yerə qoymaq, 3) Tumaninət üzrə olmaqla. [Sağlam bir şəxsin 25 santimetrə qədər yüksəyə səcdə etməsi caiz olsa da, məkruhdur. Çünki Peyğəmbərimiz və Əshabi-kiramdan heç biri yüksək yerə səcdə etməyib. Daha yüksəyə səcdə edilərsə, namaz pozular].

Qadəi axirə, yəni son oturuş üç şeylə tamamlanır: 1) Kişilər, sağ ayağını dik qoyub, sol ayağı üstünə oturmaqla, qadınlar, budlarını yerə qoyub, ayaqlarını sağ tərəfindən çıxarmaqla, 2) Təhiyyəti təzimlə (hörmət)

oxumaqla, 3) Son oturuşda salavat və dualar oxumaqla. Namazdan sonra oxunacaq dualar "Namazın ədəbi" bəhsində yazılmışdır.

## QÜSL BƏHSİ

Qüslün fərzi hənəfidə üç, malikidə beş, şafidə iki, hanbəlidə birdir. Hənəfidə:

1-Bir dəfə ağıza su almaq. Dişlərin arasını və diş diblərini islatmaq fərzdir. [Hənəfi məzhəbində olan şəxs, zərurət olmadan plomb və qapaq qoya bilməzlər. Taxma diş qoydurmaq olar, qüsl alarkən onları çıxarıb altını yumaq lazımdır. Zərurət olarsa, plomb və qapaq qoydurmaq caizdir. Lakin qüsl, dəstəmaz alarkən və namaza durarkən "Şafi və ya maliki məzhəbini təqlid edirəm" deyə niyyət etmək lazımdır.]

2-Bir dəfə buruna su vermək.

3-Bir dəfə bütün bədəni yumaq. Bədənin isladılmasında çətinlik olmayan yerlərini yumaq fərzdir. Bədənin bir yeri zəruri bir səbəblə, yəni insanın özü etmədiyi, yaradılışında mövcud olan hər hansı bir səbəblə isladıla bilməzsə, əfv olunur, qüsl səhih olur.

**"Dürr-ül-muxtar"**da deyilir ki, dişlər arasında və ya dişin dibində qalan yemək qüslün səhih olmasına mane olmur. Fitva belədir. Çünki onların altı islanır. Diş arasında qalan maddə qatı olduqda, mane olunduğu deyilir. Doğru olan da budur. İbni Abidin (rahimə-hullahü təala) bunu izah edərkən buyurur ki, **"Xülasə"** kitabında da mane olmadığı yazılıb. Çünki su axıcı olduğu üçün yeməyin altına sızır. Suyun sızmadığı anlaşılarsa, bu alimlərə görə də qüsl səhih olmur. **"Hilyə"** kitabı bunu açıq bildirir. Dişdə qalan şey ağızda əzilərək qatılaşmışdırsa, suyu sızdırmayacağı üçün qüsl səhih olmur. Çünki burada zərurət yoxdur. [Yəni öz-özünə hasil olan bir şey deyildir. Bunları təmizləməkdə çətinlik də yoxdur].

**"Hələbii saqir"**də deyilir: Bir şəxsin dişləri arasında çörək, yemək və başqa artıqlar var ikən, qüsl alsa, fitvalara görə altına su keçmədiyini zənn etsə belə, qüslu səhih olur. Çünki su axıcı olduğu üçün altına keçir. Belə fitva verildiyi **"Xülasə"**də yazılmışdır. Bəzi alimlərə görə, dişdə qalan maddə qatıdırsa, qüsl caiz olmaz. "**Zahirə"** kitabında da belə yazılmışdır. Doğru olan da budur. Çünki altına su keçmir, zərurət və çətinlik də yoxdur.

**"Dürr-ül-müntəqa"**da deyilir: Diş dibində yemək artığı var ikən qüsl edən şəxsin qüslu səhih olur. Olmaz deyənlər də vardır. Ehtiyatlı olaraq, yemək artıqlarını əvvəlcədən çıxarmaq lazımdır. **"Mərak-il-fələh"**in **"Tahtavi"** haşiyəsində deyilir: Diş dibində və ya dişlərin arasında yemək artığı qalmışdırsa, qüsl səhih olur. Çünki su axıcı olduğu üçün hər yerə sızır. Artıqlar çeynənərək sərtləşibsə, qüslə mane olur. **"Fəth-ül-qadir"**də də belə yazılıb.

**"Bəhr-ür-raik"**də deyilir: Diş dibində və ya dişlərin arasında yemək qalmışdırsa, qüsl səhih olur. Çünki su lətif, yəni axıcı olduğu üçün hər ye-

rə sızır. **“Təcnis”**də də bu cür yazılmışdır. Sədr-üş-şəhid Hüsaməddin deyir ki, qüsl səhih olmaz, artıqları çıxarıb, dişin içindən su axıtmaq lazımdır. Çıxarıb altını yumaq tədbirli olar.

**“Fətavai Hindiyyə”**də deyilir: “Diş çuxurunda və ya dişləri arasında yemək artığı qalanın qüslü səhihdir” sözü daha doğrudur. **“Zahidi”**də də belə yazılıb. Lakin artığı çıxarıb diş dibinə su axıtmaq daha ehtiyatlı olar. **“Kadihan”**da deyilir: Dişlərində yemək artığı qalanın qüslünün tam olmayacağı **“Nətifi”**də yazılmışdır. Bu artıqları çıxarıb altını yumaq lazımdır.

**“Əl-məcmuat-üz-zühdiyyə”**də deyilir: İstər az, istərsə də çox olsun, dişlərin arasında qalan təam qırıntısı qatı xəmir kimi olub, suyun nüfuzuna (keçməsinə) mane olarsa, qüslə da mane olur. **“Hələbi”**də də belə yazılmışdır. “Yemək artıqlarını çıxarmaqda çətinlik yoxdur. Plomb və qapaq isə çıxarıla bilməz. Çıxarılmasında çətinlik vardır” demək düzgün deyil. Düzdür, çətinlik var. Amma insanın etdiyi bir şey çətinliyə səbəb olarsa, başqa məzhəbi təqlid etmək üçün üzrlü səbəb olar, fərzi tərk etmək üçün səbəb ola bilməz. Fərzin tərk edilməsi üçün başqa məzhəbin təqlid edilə bilməməsi və bu halda zərurət və çətinliyin eyni zamanda mövcud olması lazımdır. ”Diş plombu və qapaq, diş ağrısının qarşısını almaq və dişi tələf olmaqdan qorumaq üçündür. Buna görə zərurət olmurmu?”, soruşulsa, cavabında deyərik ki, zərurət olması üçün, başqa məzhəbi təqlid edə bilməmək şərtdir.

“Qüsl alarkən, dişlərin yuyulması hökmü, qapaq və plombun zahirinə keçər” sözü, islamiyyətə uyğun söz deyil. Tahtavi **“İmdad”** haşiyəsində deyir: “Dəstəmaz aldıqdan sonra məst geyinənin dəstəmazı pozulduqda, dəstəmazın pozulması ayaqlara deyil, məstlərə keçir”. Dini kitabların yalnız dəstəmaz alarkən və yalnız məst üçün söylədikləri bu sözü, diş qapağı və qüsl almaq üçün söyləmək, özbaşına uydurma fitva verməkdir. Plomb və qapaq olan dişi sıx saqqala bənzətmək də doğru deyil. Çünki dəstəmaz alarkən sıx saqqalın dibini yumaq məcburi olmasa da, qüsldə onun altındakı dərini də yumaq fərzdir. “Dəstəmaz alarkən sıx saqqalın altındakı dərini yumaq fərz olmadığı üçün, qüsldə da onun yuyulması fərz olmaz”, deyən şəxs qüsl alarkən sıx saqqalın altını yumaz. Beləliklə də onun və ona inananların qüslləri və dolayısı ilə namazları səhih olmaz.

Qapaq və plombu ayaqdakı çata qoyulan mərhəmə yaxud yara və sınıq üzərinə qoyulan sarğı taxtasına, gips sarğılarına bənzətmək də din kitablarına uyğun deyildir. Çünki onları yara və qırıq üzərindən çıxarmaq çətin və ya zərərli olduqda, başqa məzhəbi təqlid etmək imkanı yoxdur. Bu üç səbəbə görə, onların altını yumaq hökmü qüvvədən düşür.

Şiddətli ağrı verən çürük dişi çıxarmaq, onun yerinə çıxarıla bilən süni diş, yaxud yarım və ya bütün damaqlı diş qoydurmaq istəməyib, plomb və ya qapaq qoydurmaqda insan sərbəst olduğu üçün, plomb, qapaq və ya körpü deyilən sabit diş qoydurmaq zərurət hesab olunmur. Zərurət olduğunu söyləmək, altları-

nın islanmasının qüvvədən düşməsinə səbəb ola bilməz. Çünki bu zaman başqa məzhəbi təqlid etmək mümkündür. Zərurətin olduğunu deyərək, Şafii və ya Maliki məzhəbini təqlid edənlərlə alay etməyə heç kimin haqqı yoxdur.

İnsanı bir şey etməyə məcbur edən səmavi səbəbə, yəni insanın əlində olmayan səbəbə **“Zərurət”** deyilir. İslamiyyətin əmr və ya qadağan etməsi, şiddətli ağrı, bir üzvün və ya həyatın tələf olma təhlükəsi, başqa bir şey edə bilməmək məcburiyyəti zərurətdir. Bir fərzə mane ola biləcək və ya bir haram işləməyə səbəb ola biləcək bir şeyin qarşısını almağın çətin, əziyyətli olmasına **“Hərac”** deyilir. Allahın əmrlərinə və qadağalarına **“Əhkami- islamiyyə”** deyilir. Əhkami-islamiyyədən bir hökm yerinə yetirilən zaman, yəni bir əmr icra olunarkən və ya bir qadağan olunmuş işi etməkdən çəkinərkən öz məzhəbinin alimlərinin məşhur, seçilmiş sözlərinə uymaq lazımdır. İnsanın etdiyi müəyyən bir şey üzündən, alimlərin bu sözlərinə uymaqda çətinlik olarsa, seçilməmiş, zəif sözlərinə uymaq lazımdır. Buna uymaqda da çətinlik olarsa, bu hökm başqa məzhəbi təqlid edərək icra olunur. Başqa məzhəbi təqlid etməkdə də çətinlik olarsa, həraca, yəni çətinliyə səbəb olan şeyin edilməsində zərurət olub olmamasına baxılır:

1-Həraca səbəb olan şeyin edilməsində zərurət mövcud olduğu zaman, o fərzi icra etmək qüvvəsini itirir.

2-Həraca səbəb olan şeyin edilməsində zərurət yoxdursa [dırnaq boyası kimi] və ya zərurət olduğu zaman, bir neçə şey edilə bildiyi halda hərac, çətinlik mövcud olan şey edilərsə, o ibadət səhih olmaz. Çətinlik olmayan şeyi edərək o fərzi yerinə yetirmək lazımdır. Zərurət olsa da, olmasa da, yalnız hərac, çətinlik mövcud olduğu üçün, başqa məzhəbin təqlid ediləcəyi **“Fətavəl-hadisiyyə”**də, “**Xülasat-üt-təhqiq**”də, Tahtavinin (rahimə-hullahü təala) **“Mərak-il-fələh”** haşiyəsində və molla Xəlil Əsirdinin (rahimə-hullahü təala) **”Mafüvat”** kitabında yazılmışdır. Molla Xəlil 1259-cu [m. 1843] ildə vəfat etmişdir.

Ağrıyan, çürüyən dişini çıxararaq, taxma protez və ya damaqlı diş qoydurmaq istəməyib, plomb və ya qapaq qoyduran bir hənəfi, qüsl alarkən Şafii və ya Maliki məzhəbini təqlid etməlidir. Çünki bu iki məzhəbdə qüsl alarkən ağız və burnu yumaq fərz deyildir. Şafii və ya Maliki məzhəbini təqlid etmək çox asandır. Qüsldə, dəstəmazda və namaza başlayarkən və ya unutduğu halda namazdan sonra, xatırladığı zaman Şafii və ya Maliki məzhəbini təqlid etməyə niyyət etmək, yəni qəlbdən keçirmək lazımdır. Bu zaman qüslün, dəstəmazın və namazın Şafii və ya Maliki məzhəbinə görə səhih olmaları lazımdır. Bir şəxsin qüsl, dəstəmaz və namazının Şafii məzhəbinə görə doğru olması üçün, bu şəxs, dərisi, nikah bağlaması əbədi haram olan on səkkiz qadından başqa bir qadının dərisinə dəydiyi zaman, əlinin içi özünün ön və arxa övrət yerinə dəydiyi zaman dəstəmaz almalı, imam arxasında səssizcə Fatihə oxumalıdır. Maliki məzhəbini təqlid etmək üçün **“Səa-**

**dəti Əbədiyyə”** kitabının 146-cı və 158-ci səhifələrinə baxın! Başqa məzhəbi təqlid etmək, məzhəb dəyişdirmək deyildir. Təqlid edən bir hənəfi, hənəfi məzhəbindən çıxmış olmur. Yalnız o ibadətin, yəni qüsl, dəstəmaz və namazın, uyduğu məzhəbdəki fərzlərinə və müfsidlərinə (pozan şeylər) tabe olur. Vaciblərdə, məkruhlarda və sünnətlərdə öz məzhəbinə tabe olur.

Əhməd Tahtavi (rahimə-hullahü təala) **“Mərak-il-fələh”** haşiyəsində deyir: “Başqa məzhəblərdəki bir imama uymağın doğru olması üçün, uyanın məzhəbinə görə, namazı pozan bir şeyin o imamda olmaması, əgər varsa, uyanın bunu bilməməsi lazımdır. Güvənilən söz budur. İkinci fikrə görə, imamın öz məzhəbinə görə namazı doğru olarsa, uyanın məzhəbinə görə doğru olmadığı görülsə belə, o imama uymaq səhihdir”. İbni Abidində də belə yazılmışdır. Tahtavinin və İbni Abidinin (rahimə-hümullahü təala) bu sözlərindən aydın olur ki, diş qapağı və plombu olmayan hənəfinin, qapaq və plombu olan imama uymasının doğru olub olmaması haqqında alimlərin iki müxtəlif hökmü var: Birinci hökmə görə, dişində plombu, qapağı olmayan hənəfinin, plombu, dış qapağı olan imama uyması doğru deyil. Çünki bu imamın namazı Hənəfi məzhəbinə görə doğru deyil. İkinci hökmə görə, bu imam, Şafii və ya Maliki məzhəbini təqlid edirsə, diş qapağı və plombu olmayan hənəfinin ona uyması səhihdir. İmam Hinduvani “(rahmətullahi aleyh) belə ictihad etmişdir. Maliki məzhəbi də belədir. Diş qapağı və plombu olan saleh bir imamın maliki və ya şafii məzhəbini təqlid etmədiyi bilinmədikcə, plombu olmayan hənəfilər də bu imama uymalıdır. Ondan, maliki və ya şafii məzhəbini təqlid edib etmədiyini soruşmaq, araşdırmaq caiz deyildir. Bu ikinci hökm, hər nə qədər zəif olsa da, çətinlik olduğu zaman zəif hökm ilə əməl etmək lazım olduğu yuxarıda qeyd olunmuşdur. Fitnəyə mane olmaq üçün də zəif hökm ilə əməl edilməli olduğu **“Hadika”**da yazılmışdır. Məzhəblərə qiymət verməyib, fiqh kitablarına uyğun ibadət etməyən şəxsin Əhli sünnət olmadığı aydın olur. Əhli sünnət olmayan da ya bidət sahibidir, ya da imanı getmiş, mürtəd olmuşdur. Biz, diş qapağı, plomb qoymayın, demirik. Bunları qoydurmuş qardaşlarımızın ibadətlərinin qəbul olması üçün yol göstəririk.

Qüsl on beş növdür: Beşi fərz, beşi vacib, dördü sünnət, biri müstəhəb. Fərz olan qüsl: qadın hayz (aybaşı) və nifasdan (zahılıq) kəsildikdə, kişi cima etdikdə, yəni qadınla yaxınlıq etdikdə, şəhvətlə məni axarsa, ihtilam olub (yuxuda cünub olmaq) yatağında və ya paltarında məni görərsə qılmadığı namazın vaxtı çıxmadan öncə qüsl etmək fərzdir.

Vacib olanlar: meyiti yumaq, həddi-buluğa çatmamış bir şəxsin həddi-buluğa çatdıqda qüsl alması, bir yerdə yatmış ər və arvadın arasında görülmüş məninin hansınınki olduğu bilinmədikdə ikisinin də qüsl alması, bir şəxsin üzərinə məni bulaşdıqda və onun nə zamandan olduğu bilinmə-

dikdə və bir qadın dünyaya uşaq gətirdikdə qan gəlməsə belə, qüsl alması. (Qan gəlsə, qüsl fərz olur).

Sünnət olanlar: Cümə günü üçün, bayram günləri üçün, ihram vaxtına niyyətlə olursa olsun, Ərafata çıxmazdan əvvəl qüsl almaq. Müstəhəb qüsl, bir kafirin imana gəldikdə aldığı qüsldür (küfr halında ikən cünub idisə, qüsl fərz olur, cünub deyil idisə müstəhəb olur).

Qüslün haramı üçdür:

1-Kişilərin kişilərə və qadınların qadınlara qüsl vaxtı göbəkdən dizin altına qədər olan yerlərini göstərmələri.

2-Müsəlman qadınların qüsl edərkən kafir qadınlara görünməsi (digər vaxtlarda da bu hökm belədir).

3-Suyu israf etmək.

Qüslün sünnətləri hənəfidə on üçdür:

1-Su ilə istinca etmək. Yəni ön cinsiyyət üzvünü və arxa övrət yerini yumaq.

2-Əlləri biləklərə qədər yumaq.

3-Bədəndə nəcasət varsa, təmizləmək.

4-Ağıza su alıb çalxalamaq (məzməzə) və buruna su vermək (istinşaq). Ağızda və burunda iynə ucu qədər islanmayan yer qalarsa, qüsl səhih olmaz. Əvvəldə namaz dəstəmazı almaq.

5-Qüsl üçün niyyət etmək.

6-Hər əzanı suyu tökərkən ovuşdurmaq.

7-Əvvəlcə başa, sonra sağ çiyinə, sonra da sol çiyinə üç dəfə su tökmək.

8-Əl və ayaq barmaqlarını hilallamaq. Yəni barmaq aralarını islatmaq.

9-Önünü və arxasını qibləyə döndərməmək.

10-Qüsl edərkən dünya kəlamı söyləməmək.

11-Məzməzə və istinşaqı üç dəfə etmək.

12-Hər əzada sağdan başlamaq.

13-Qüsl etdiyi yerdə sidik toplanırsa, sidiyə getməmək.

Bu saydıqlarımızdan başqa sünnətlər də vardır.

**"Əl-fıkhü aləl-məzahib-il-ərbəa"**da deyilir: "Cünub olan kişi və qadının qüsl almadan əvvəl, dəstəmazsız edilməsi caiz olmayan, islam dininin əmr etdiyi ibadət və əməllərdən birini etməsi dörd məzhəbdə də haramdır. Məsələn, cünub ikən fərz və ya nafilə namaz qılmaq halal deyil. Su tapmadıqda və ya xəstəlik kimi bir səbəblə su işlədə bilmədikdə, təyəmmüm etmək lazımdır. Cünub ikən fərz və ya nafilə oruc tutmaq səhihdir. Qurani-kərimi tutmaq və ya oxumaq haramdır. Qurani-kərimi dəstəmazsız tutmaq da halal deyil. Məscidə girmək haramdır. Düşməndən qorunmaq üçün və ya bir hökm çıxarmaq üçün, bir-iki qısa ayət oxumaq, məsciddən vedrə, ip, su götürmək üçün və ya başqa yol tapmadığı üçün

girib dərhal çıxmaq caizdir. Dua niyyəti ilə bir qısa ayət, məsələn Bəsmələ oxumaq olar. Məscidə girmədən öncə təyəmmüm etmək lazımdır.”

## TÖVHİD DUASI

**Ya Allah, ya Allah. Lə iləhə illəllah Muhammədün Rasulullah. Ya Rahmən, ya Rahim, ya afuvvü ya Kərim, fafü anni vərhamni ya ərhamərrahimin! Təvəffəni muslimən və əlhiqni bissalihin. Allahümməğfirli və li-abai və ümməhati və li abai və ümməhati zəvcəti və li-əcdadi və cəddati və li-əbnai və bənati və li-ihvəti və əhavati və li-amami və ammati və li-ahvali və halati və li-üstazi Abdülhakimi Arvasi və li kaaffətil mümininə vəl-müminat. (rahmətullahi təala aleyhim əcmain).**

## HAYZ (aybaşı) VƏ NİFAS (doğuşdan gələn qan) BƏHSİ

Hayz müddətinin ən azı üç gün, ən çoxu on gündür. Nifas müddətinin aşağı həddi yoxdur. Nə vaxt qan kəsilsə, qüsl alıb namaz qılmaq və oruc tutmaq lazımdır. Ən çoxu qırx gündür. Əgər hayz qanı üç gündən tez kəsilsə, hayz zənn edib namazını qılmayan qəza edər. Qüsl lazım olmaz. Əgər üç gün tamam olduqda kəsilsə, qüsl alıb vaxt namazını qılar. On gün tamam olduqda, kəsilsə də, kəsilməsə də, qüsl alıb namazını qılar. Nifasın qırx günü tamam olduqda, qüsl edər, qan kəsilsə də, kəsilməsə də qılar. Hayz və nifas günlərində istər sarı, istər bulanıq olsun, hər cür axıntı qan hökmündədir.

Hayzın on günü və ya nifasın qırx günü ərzində, bir-iki gün qan gəlməsə, kəsildiyini sanaraq, qüsl alıb orucunu tutan, sonra yenə bu müddət ərzində qan gəlsə, o orucları qəza etməlidir. Kəsildikdə yenə qüsl almaq lazımdır. Əgər adətindən əvvəl kəsilsə, lakin üç gün keçmiş olsa, qüsl edib namaz qılmaq lazımdır. Lakin adət müddəti bitməyənə qədər əri ilə cima (cinsi əlaqə) edə bilməz. Nifas da belədir. Əgər adət müddətindən sonra, lakin on gün və ya daha az gün ərzində kəsilsə, hamısı hayz sayılır. Əgər on gün tamam olduqdan sonra kəsilməsə, adətindən sonrakı günlər hayz sayılmır, o günlərin namazları qəza edilməlidir. Nifasın qırx günü də hayzın on günü kimidir.

Ramazanda dan yeri ağardıqdan sonra bir qadında hayz və nifas kəsilsə, o gün yeyib içməkdən özünü saxlamalıdır. Lakin həmin gün oruc sayılmır. Qəza etmək lazımdır. Əgər dan yeri ağardıqdan sonra qan gəlsə, əsr namazından sonra görsə belə, o gün gizli yeyib içməlidir. Ümumiyyətlə, bir qadından qan gəlsə, namaz və orucu saxlamalıdır. Əgər bu qan üç gün olmadan kəsilərsə, namazın son vaxtına qədər gözləməli, qan gəlsə, namaz qılmamalı, gəlməsə dəstəmaz alıb namazını qılmalıdır. Əgər yenə də qan gəlsə, namazı saxlamalıdır. Bu dəfə də qan kəsilsə, namazın son vaxtına kimi gözləməli, gəlməzsə, dəstəmaz alıb namazını qılmalıdır. Üç günə kimi belə davam etsə, qüsl lazım deyil, yalnız dəstəmaz kifayət edər. Qan üç gündən sonra kəsilsə, yenə namazın axırına qədər gözləməli, gəl-

məsə qüsl alıb namazını qılmalı, gəlsə, namazı dayandırmalıdır. Müqayisə üzrə, on gün keçdikdən sonra, qüsl alıb namazını qılmalıdır, qan gəlsə belə. Nifas da belədir, lakin hər kəsiləndə qüsl almaq lazımdır. Bir gündə kəsilsə də. Ramazanda əgər dan yeri ağarmadan kəsilsə, niyyət edib oruc tutmaq lazımdır. Əgər zöhrə qədər və ya əsrdən sonra yenə qan gələrsə, o gün oruc sayılmır. O günün qəzası tutulmalıdır.

Qadın düşük doğarsa, barmağı, saçı, ağzı və ya burnu bəlli olarsa, tam uşaq doğmuş kimi olur. Əgər heç bir yeri bəlli olmazsa, nifas olmaz. Lakin üç gün və ya daha artıq qan axarsa, hayz olur. Əgər hayzın kəsilməsindən on beş gün və ya daha artıq vaxt keçdikdən sonra uşaq düşsə, lakin qan üç gündən az müddətdə kəsilsə və ya hayz kəsildikdən on beş gün keçməmişdirsə, hayz hesab olunmur. Burun qanı kimidir. Namazı qılmaq və orucu tutmaq lazımdır. Əri ilə də yaxınlıq etməzdən öncə qüsl lazım deyildir.

[Böyük islam alimi Muhamməd Birgivi (rahmətullahi aleyh), qadınların hayz və nifas hallarını hənəfi məzhəbinə görə bildirən **“Zuhr-ül-mütəəhhilin”** adlı çox dəyərli bir kitab yazmışdır. Kitab ərəbcədir. Allaməi Şami seyyid Muhamməd Əmin ibni Abidin (rahimə-hullahü təala), bu kitabı genişləndirərək, **“Mənhəl-ül-varidin”** adını vermişdir. İmam Birgivi 981-ci [m. 1573] ildə taun xəstəliyindən vəfat etmişdir. Anadoluda Ödemişin Birgi qəsəbəsindədir. İbni Abidin 1252-ci [m. 1836] ildə Şam şəhərində vəfat etmişdir. **“Mənhəl”**də deyilir ki, hər müsəlman kişi və qadının elmihal öyrənməsinin fərz olduğunu fiqh alimləri sözbirliyi ilə bildirmişdir. Ona görə, qadınların və ərlərinin hayz və nifas bilgilərini öyrənmələri lazımdır. Ərləri qadınlarına öyrətməli, özləri bilmirsə, bilən qadınlardan öyrənmələrinə icazə verməlidir. Əri icazə verməyən qadının, ərindən icazəsiz gedib öyrənməsi lazımdır. Qadınlara məxsus olan bu bilgi indi unudulmuş, bilən din adamı demək olar ki, qalmamışdır. Zamanın din adamları hayz, nifas və istihazə (təmiz qan) qanlarını ayıra bilmirlər. Bunları geniş izah edən kitabları yoxdur. Kitabı olan da oxumaqda və anlamaqda acizdir. Çünki bu bilgiləri anlamaq çətindir. Halbuki, dəstəmaz, namaz, Qurani-kərim, oruc, həcc, həddi-buluğa çatmaq, evlənmək, boşanmaq, qadının iddət müddəti, istibra və bu kimi bir çox dini məsələlər üçün qan bilgilərini öyrənmək lazımdır. Bu bilgini yaxşı anlaya bilmək üçün ömrümün yarısını sərf etdim. Öyrəndiklərimi din qardaşlarıma qısa və aydın şəkildə anlatmağa çalışacağam:

“**Hayz**”, səkkiz yaşına çatmış sağlam bir qızdan və adət zamanının son dəqiqəsindən tam təmizlik keçən qadından gələn və ən az üç gün davam edən qana deyilir. Buna, “**Səhih qan**” da deyilir. Adət zamanından sonra başlayan on beş və ya daha çox gün ərzində heç qan gəlməzsə, əvvəli və sonrası hayz günləri olarsa, bu təmiz günlərə “**Səhih təmizlik**” deyilir. On beş və ya daha çox təmiz gündən əvvəl və ya sonra, yaxud iki sə-

hih təmizlik arasında fasid (batil) qan günləri olarsa, bu günlərin hamısına "**Hökmi təmizlik**" və ya "**Fasid təmizlik**" (səhih olmayan təmizlik) deyilir. Qan gəlməyən on beş gündən az günlərə də "**Fasid təmizlik**" deyilir. Səhih təmizliyə və hökmü təmizliyə **"Tam təmizlik"** deyilir. Tam təmizlikdən əvvəl və sonra görülüb, üç gün davam edən qanlar iki ayrı hayz olur. Ağdan başqa hər rəngə və bulanıq olana Hayz qanı deyilir.

Bir qız hayz görməyə başladığı andan yetkin, yəni həddi-buluğa çatmış olur. Yəni qadın olur. Qan gəldiyi andan kəsildiyi günə qədər olan günlərin sayına "**Adət zamanı**" (aybaşı günləri) deyilir. Adət zamanı yəni aybaşı günləri müddəti ən çox on gün, ən az üç gündür. Şafii və Hanbəli məzhəblərində ən çoxu on beş, ən azı bir gündür.

Hayz qanının durmadan axması mütləq deyildir. İlk gələn qan kəsilib, bir neçə gün sonra təkrar gələrsə, aradakı üç gündən az olan təmizlik müddətində sözbirliyi ilə durmadan axmış kimi qəbul edilir. Üç gün və daha çox davam edən təmizlik, Hayzin onuncu günündən əvvəl bitərsə, imam Muhəmmədin (rahimə-hullahü təala) imam azam Əbu Hənifədən (rahimə-hullahü təala) rəvayət etdiyinə görə on gün ərzində davamlı axdığı qəbul edilir. İmam Muhammədin bildirdiyi başqa bir rəvayət də vardır. imam Əbu Yusifə (rahimə-hullahü təala) görə isə on beşinci gündən əvvəl bitən bütün təmizlik günlərində davamlı axdığı qəbul edilir. Bir qız bir gün qan, sonra on dörd gün təmizlik, sonra bir gün qan görsə və bir qadın bir gün qan, on gün təmizlik və bir gün qan görsə, və ya üç gün qan, beş gün təmizlik və bir gün qan görsə, imam Əbu Yusifə görə qızın ilk on günü hayz olur. Birinci qadının adət günü qədəri hayz olub, sonrakı günlərin hamısı istihazə olur. İkinci qadında doqquz günün hamısı hayz olur. İmam Muhammədin (rahimə-hullahü təala) birinci rəvayətinə görə yalnız ikinci qadının doqquz günü hayz olur. İkinci rəvayətinə görə yalnız ikinci qadının ilk üç günü hayz olub, digərləri hayz olmaz. Biz, kitabımızı "**Mültəqa**"dan tərcümə edərək, aşağıdakı bilgilərin hamısını imam Muhammədin birinci rəvayətinə görə yazdıq. Bir gün, tam 24 saat deməkdir. Evlənməmiş bakirə qadınların yalnız hayz zamanında, evli olanların isə hər zaman kürsüf adlanan bezdən və ya pambıqdan istifadə etməsi və ona ətir vurması müstəhəbdir. Kürsüfün hamısını cinsiyyət orqanının daxilinə tam salmaq məkruhdur. Parça üzərində aylarla hər gün qan ləkəsi görən qız, ilk on gün hayzlı, sonra iyirmi gün istihazəli qəbul edilir. "**İstimrar**" (davam edən) deyilən bu qan, kəsilənə qədər bu cür davam edər. Bir qız, üç gün qan görüb, bir gün görməsə, sonra bir gün görsə, iki gün görməsə, bir gün yenə görüb, bir gün görməsə, yenə bir gün görsə, bu on günün hamısı hayz olur. Hər ay, bir gün qan görsə, bir gün görməsə, bu minvalla on gün bir gündən bir görsə, gördüyü günlərdə namazı və orucu tərk edər. Ertəsi günlərdə qüsl alıb, namazlarını qılar [Məsaili şərhi viqayə]. Üç gündən, yəni 72 saatdan beş dəqiqə belə az olan, yeni başlayan

üçün on gündən çox davam etdikdə, onuncu gündən sonra; yeni olmayanlarda adətdən çox olub, on günü də keçdikdə, adətdən sonrakı günlərdə gəlmiş olan; hamilə və ayisə [yaşlı] qadınlardan, doqquz yaşından kiçik qızlardan gələn qanlar hayz deyil. Buna, "**İstihazə**" və ya **"Fasid qan"** deyilir. Qadın 55 yaşlarında "**Ayisə**" olur. Aybaşı müddəti beş gün olan, günəşin yarısı doğunca qan görüb, on birinci səhər günəşin üçdə ikisi doğarkən qan kəsilsə, yəni on günü bir neçə dəqiqə keçmiş olsa, aybaşı müddəti sayılan beş gündən sonra gələnlər istihazə olur. Çünki günəşin doğma zamanının altıda biri qədər on günü və on gecəni keçmişdir. On gün tamam olduqda qüsl alıb, aybaşıdan sonrakı günlərdə qılmadığı namazları qəza edər.

İstihazə günlərindəki qadın, sidiyini saxlaya bilməyən və ya davamlı olaraq burnu qanayan şəxs kimi üzr sahibi olur. Namaz qılması və oruc tutması lazımdır və qan gələrkən belə, cinsi əlaqə caiz olur.

İmam Muhammədin bir sözünə görə, bir qız ömründə ilk dəfə olaraq bir gün qan görsə, sonra səkkiz gün görməsə və onuncu gün yenə görsə, on günün hamısı hayz olur. Lakin bir gün görsə, doqquz gün görməsə, on birinci gün yenə görsə heç biri hayz olmaz. Qan görülən iki gün istihazə olur. Çünki onuncu gündən sonra görülən qandan əvvəlki təmizlik günlərinin hayz sayılmadığı yuxarıda bildirilmişdi. Onuncu və on birinci günlər qan görsə, aradakı təmizliklər də on gün hayz sayılaraq on günə hayz, on birinci günü istihazə olur.

İstihazə qanı xəstəlik əlamətidir. Uzun zaman axması təhlükəli ola bilər. Həkimə müraciət etmək lazımdır. Qardaş qanı "Sanqdraqon" deyilən qırmızı saqqızı yumurlanıb, səhər-axşam bir qramı su ilə udulsa, qanı kəsər. Gündə beş qram içilə bilər. Bir qadının hayz və təmizlik müddəti çox vaxt hər ay eyni gün sayında olur. Bir ay dedikdə, bir hayzın başlanğıcından ikinci hayzın başlanğıcına qədər keçən müddət deməkdir. Hər qadının öz hayz və təmizlik günlərinin sayını və saatını, yəni aybaşı müddətini əzbərləməsi lazımdır. Aybaşı müddəti çox vaxt dəyişmir. Dəyişərsə, yeni hayz və təmizlik günlərini əzbərləmək lazımdır.

Aybaşı müddətinin dəyişməsini "**Mənhəl**" kitabı belə izah edir: Qadın əvvəlki aybaşısının vaxtına və gün sayına uyğun qan görsə, hayzının dəyişmədiyi aydın olur. Əvvəlkinə uyğun gəlməsə, hayzın dəyişdiyi anlaşılır ki, bunun növləri aşağıda bildirilmişdir. Bir dəfə uyğun gəlməsə, aybaşının dəyişdiyi qəbul edilir. Fitva da belədir. Aybaşısı beş gün olan, səhih təmizlikdən sonra altı gün qan görsə, bu altı gün yeni hayz müddəti olur. Təmiz günlərin də sayı dəyişir. O da dəyişdikdə, aybaşının vaxtı dəyişmiş olur. Aybaşısı beş gün qan və iyirmi beş gün təmizlik olan qadın, sonradan üç gün qan və iyirmi beş gün təmizlik görsə, yaxud beş gün qan və iyirmi üç gün təmizlik görsə, birincisində qan, ikincisində təmizlik sayı dəyişmiş olur. Bunun kimi, on günü keçərək fasid olan qan olarsa və bunun sondan üç və daha çox günü əvvəlki aybaşı günləri ilə üst-üstə düşər-

sə, əvvəlki aybaşının qalan son hissəsi yeni səhih təmizliklə üst-üstə düşərsə, aybaşı günləri ilə üst-üstə düşən günlər yeni aybaşı olur. Aybaşı müddəti dəyişmiş olur. Aybaşısı beş gün olduqda təmizlik sayı bitmədən yeddi gün əvvəl qan gəlsə və on bir gün davam etsə, bu qan on günü keçdiyi üçün fasid qandır. Bunun üç gündən artığı, yəni dörd günü əvvəlki aybaşı günləri içində olmaqda, əvvəlki aybaşının artan bir günü yeni səhih təmizlik içində olmaqdadır. Aybaşının müddəti dəyişməmiş, sayı dörd olmuşdur. Bu iki halda aybaşının dəyişməsini daha da açıqlayaq:

Əvvəlki sayından fərqli olan sonrakı qan günləri on gündən artıq olsa və onun üç və ya daha artıq günü əvvəlki aybaşı günləri içində olmazsa, aybaşının zamanı dəyişir. Sayı dəyişməyib, ilk görüldüyü gündən başlayar. Aybaşı müddəti beş gün olan qadın sonrakı ayda bu beş gündə heç qan görməyib və ya əvvəldən üç günündə görməyib, sonra on bir gün görsə, ilk görünən gündən başlayaraq, hayzı beş gün olub, vaxtı dəyişmiş olur. Üç və ya daha artıq qan günləri əvvəlki aybaşı günləri içində olarsa, yalnız bu günlər hayz olub, qalanı istihazə olur. Aybaşı müddətindən beş gün əvvəl qan görsə, aybaşı vaxtında görməsə və aybaşı müddətindən sonra bir gün görsə, aradakı beş təmiz gün imam Əbu Yusifə görə hayz olub, aybaşısı dəyişməz. Aybaşının son üç günü və sonra səkkiz gün qan görsə, onun ilk üç günü hayz olub, sayı dəyişmiş olur. Sonrakı qan günləri on günü keçməzsə və sonra səhih təmizlik olarsa, hamısı hayz olur. Sonrakı təmizlik fasid olsa, aybaşı dəyişməz. Aybaşı müddəti beş gün olan, altı gün qan, sonra on dörd gün təmizlik və bir gün qan görsə, aybaşısı dəyişməz. Yuxarıda bildirilənlərin yaxşı başa düşülməsi üçün aybaşı müddəti beş gün hayz və əlli beş gün təmizlik olan qadın üzərində on bir misal verək:

1-Bu qadın, beş gün hayz, on beş gün təmizlik və on bir gün qan görərsə, aybaşı qanı əlli beş gün sonra olduğu üçün qan əvvəlki aybaşı müddəti ilə üst-üstə düşməz. Aybaşının müddəti dəyişər, sayı dəyişməz. On bir günün ilk beşı də hayz olar.

2-Beş qan, qırx altı təmizlik və on bir qan olarsa, on bir günün son ikisi əvvəlki aybaşı müddəti içində olsa da, üçdən az olduğuna görə aybaşının sayı dəyişmir, yalnız vaxtı dəyişir.

3-Beş qan, qırx səkkiz təmizlik, on iki qan olsa, on iki günün yeddisi təmizlik və beşi aybaşı müddəti içində olub, heç dəyişiklik olmaz.

4-Beş qan, əlli dörd təmizlik, bir qan, on dörd təmizlik, bir qan olsa, ortadakı bir qan günü təmizliyin son günü olur. On dörd gün nakis (əskik, qüsurlu) təmizlik olduğundan qan günləri olur, onun əvvəlki beş günü hayz olur. Aybaşının müddəti və sayı dəyişmir.

5-Beş qan, əlli yeddi təmizlik, üç qan, on dörd təmizlik, bir qan olsa, üç qan aybaşı müddətindədir. Bundan sonrakı on dörd gün qan sayılıb, on bir günü ötdüyü üçün aybaşının yalnız sayı dəyişir.

6-Beş qan, əlli beş təmizlik, doqquz qan olsa, doqquz gündən sonra səhih təmizlik olarsa, doqquz gün hayz olur. Yalnız sayı dəyişir. Aybaşı vaxtında da, sonra da üç gündən çox gün vardır.

7-Beş qan, əlli təmizlik, on qan olsa, on gün hayzdır. Təmizlik müddəti əlli olmuşdur. Qan günləri aybaşı vaxtında və sayındadır.

8-Beş qan, əlli dörd təmizlik, səkkiz qan olsa, səkkiz gün Hayz olub, üç gündən artığı aybaşı müddəti içindədir. Hayz və təmizlik sayı bir gün dəyişmişdir.

9-Beş qan, əlli təmizlik, yeddi qan olsa, yeddi gün Hayz olub, bundan hayz miqdarı aybaşıdan öncə, üç gündən azı aybaşının içindədir. Hayzın vaxtı və sayı, təmizliyin isə yalnız sayı dəyişmişdir.

10-Beş qan, əlli səkkiz təmizlik, üç qan olsa, üç gün yenə Hayz olub, bunun iki günü aybaşı günlərinin içində, biri isə sonradır. Hayzın sayı və vaxtı, təmizliyin isə sayı dəyişmişdir.

11-Beş qan, altımış dörd təmizlik, yeddi və ya on bir qan olsa, birincisində yeddi gün Hayz olub, sayı və zamanı dəyişmişdir. İkinci halda on bir günün əvvəlindən beş günü Hayz olub, altı günü istihazə olur. Aybaşının yalnız vaxtı dəyişir. Sayı on günü keçdiyi üçün dəyişmir. Təmizliyin sayı dəyişir.

İmam Fahruddin Osman Zeylai (rahimə hullahü təala) "Təbyin-ül-hakaik" kitabında və Əhməd Şilbinin (rahimə-hullahü təala) haşiyəsində deyilir ki: "Qadın, aybaşısından bir gün əvvəl qan, on gün təmizlik, bir gün qan görsə, imam Əbu Yusifə görə (rahimə-hullahü təala) qan görmədiyi on gün ilə hayz başlayıb, adətə qədər davam edər. Yeni hayzın ilk və son günləri qansız olur. Çünki aybaşı müddətindən öncə və on gündən sonra qan görülmüş olub, aradakı fasid təmizlik qan sayılmaqdadır. İmam Muhammədə görə (rahimə-hullahü təala) bunun heç bir günü hayz olmaz. Aybaşısı beş gün qan və iyirmi beş gün təmizlik olan qadın:

1-Bir gün əvvəlcə qanlı, bir gün təmiz olsa, sonra qan davam etsə və on günü keçsə, Əbu Yusifə görə beş gün hayz olur. Əvvəlki və sonrakı günlər istihazə olur. İmam Muhammədə görə, aybaşısı ilə üst-üstə düşən üç qanlı gün hayz olur. Bunlar da aybaşının ikinci, üçüncü, və dördüncü günləridir. Çünki aybaşının birinci günü qan görülməmişdir. Qan gələn günlərin beşinci günü isə aybaşıdan kənardır.

2-Aybaşının birinci günü qan gəlsə, sonra bir gün təmizlik olsa, sonra qan davam edərək on günü ötsə, söz birliyi ilə beş gün hayz sayılır. Çünki ilk və son günlər qan gəlmişdir.

3-Aybaşının ilk üç günü qan gəlsə, digər iki gün təmiz olsa, sonra qan davam edərək on günü ötsə, Əbu Yusifə görə aybaşı müddəti olan beş gün hayzdır. İmam Muhammədə görə aybaşının ilk üç günü hayzdır. Çünki imam Muhammədə görə hayzın ilk və son günlərində qanın olması lazımdır."

"Bahr" və "Dürr-ül-müntəqa"da deyilir ki, qan aybaşı müddətini ötüb, on gündən əvvəl kəsilərsə, kəsildikdən sonra on beş gün ərzində heç gəlməzsə, artıq gəldiyi günlərin hayz olduğu söz birliyi ilə bildirildi. Bu təqdirdə, aybaşı günü dəyişmiş olur. On beş gün və gecə içində bir dəfə qan gələrsə, aybaşı müddətini aşmış olanlar hayz deyil, istihazə olar. İstihazə olduqları anlaşıldıqda, o günlərdə qılınmayan namazlar qəza edilər. Aybaşı müddətindən sonra və on gündən öncə kəsildiyi namaz vaxtının sonu yaxınlaşana qədər gözləmək müstəhəbdir. Sonra qüsl alıb o vaxtın namazı qılınır. Bundan sonra cinsi əlaqə caiz olur. Namaz vaxtının sonunu gözləyərkən qüsl və namaz qaçırılarsa, namaz vaxtı çıxdıqda, qüslsüz cinsi əlaqə caiz olur.

Qızda ilk olaraq və qadında aybaşısından on beş gün sonra görülən qan üç gündən tez kəsildikdə, namaz vaxtının sonu yaxınlaşana qədər gözləmək lazımdır. Sonra qüsl almadan yalnız dəstəmaz alınıb, o namaz qılınmalı və əvvəl qılınmayanlar qəza edilməlidir. O namazı qıldıqdan sonra yenə qan gələrsə, namaz qılınmaz, yenə kəsilərsə, vaxtın sonuna doğru yalnız dəstəmaz alınıb o namaz qılınar və qılınmayanlar varsa, qəza edilər. Üç gün tamam olana qədər belə davam edər. Lakin qüsl alınsa belə, cinsi əlaqə halal olmaz.

Qan gəlməsi üç günü keçərsə, aybaşı müddətindən əvvəl kəsildikdə, aybaşı vaxtı keçənə qədər qüsl alınsa belə, cinsi əlaqə halal olmaz. Lakin namaz vaxtının sonuna qədər qan ləkəsi görülməzsə, qüsl alınıb o namaz qılınar. Qılınmayanlar qəza edilər, oruc tutular. Qan kəsildiyi gündən sonra on beş gün ərzində heç gəlməzsə, kəsildiyi gün yeni aybaşının sonu olur. Lakin qan yenə başlarsa, namazı saxlamalı, tutmuş olduğu orucu Ramazandan sonra qəza etməlidir. Qan dayanarsa, yenə namaz vaxtının sonuna yaxın qüsl alıb namaz qılınar, oruc tutular. On gün belə davam edər. On gündən sonra qan gəlsə də təkrar qüsl alınmadan namaz qılınar və qüsldən əvvəl cinsi əlaqə halal olar. Lakin cinsi əlaqədən əvvəl qüsl almaq müstəhəbdir. Dan yeri ağarmadan əvvəl qan kəsilsə, dan yerinin ağarmasına yalnız qüsl alıb paltarını geyəcək qədər vaxt qalsa, "Allahü Əkbər" deyəcək qədər əlavə vaxt qalmasa, o günün orucu tutular. Lakin İşa namazını qəza etmək lazım olmaz. Təkbiri söyləyəcək qədər də zaman olarsa, İşanı qəza etmək də lazımdır. İftardan əvvəl hayz başlarsa, oruc pozulur. Ramazandan sonra qəza etmək lazımdır. Namaz içində hayz başlarsa, namaz pozulur. Təmizləndikdə fərz namaz qəza edilmir, nafilə edilir. Dan yeri ağardıqdan sonra oyandıqda bezində qan görən o anda hayzlı olur. Oyandıqda bezini təmiz görənin yatarkən hayzı bitmişdir. Hər ikisinə İşa namazını qılmaq fərzdir. Çünki namazın fərz olması vaxtının son dəqiqəsində təmiz olmağa bağlıdır. Vaxt namazını qılmadan öncə hayzı başlayan, bu namazı qəza etməz.

İki hayz arasında "Tam təmizlik" olmalıdır. Bu tam təmizlik "Səhih təmizlik"dirsə, əvvəlki və sonrakı qanların ayrı iki hayz olduqları söz birliyi ilə bildirildi. On günlük hayz müddəti içində qan gələn günlər arasında

olan təmizlik günləri hayz qəbul edilir, on gündən sonrakı istihazəli günlər isə təmiz qəbul edilir. Bir qız üç gün qan görüb sonra on beş gün kəsilsə, sonra bir gün qan, bir gün təmizlik, daha sonra üç gün qan görsə, qan görülən ilk və son üç günlər iki ayrı hayz olur. Çünki aybaşısı üç gün olduğundan, ikinci hayz aradakı bir günlük qandan başlaya bilməz. Bu bir gün əvvəlki tam təmizliyi fasid edər. Molla Husrəv (rahimə-hullahü təala) "Qurər"inin şərhində deyir ki: "Bir qız, bir gün qan, on dörd gün təmizlik, bir gün qan, səkkiz gün təmizlik, bir gün qan, yeddi gün təmizlik, iki gün qan, üç gün təmizlik, bir gün qan, üç gün təmizlik, bir gün qan, iki gün təmizlik, bir gün qan görsə, imam Muhammədə görə (rahimə-hullahü təala) bu qırx beş gündən yalnız on dörd gündən sonrakı on gün hayz olub, digərləri istihazə olar." Çünki bu on gündən sonra tam təmizlik olmadığı üçün yeni hayz başlaya bilməz. Sonrakı təmiz günlər hayz zamanında olmadıqları üçün davamlı axan kimi qəbul edilə bilməz. "İmam Əbu Yusifə görə (rahimə-hullahü təala) isə ilk on gün və iki tərəfi təmizlik olan dördüncü on gün hayz olur." Çünki sonrakı fasid təmizlik günləri imam Əbu Yusifə görə davamlı axdı qəbul edilir. Aşağıdakı birinci maddəyə görə, on gün hayzdan sonra iyirmi gün təmizlik, sonra on gün [dördüncü on gün] hayz olur.

On beş gün içində heç təmiz gün olmadan qan **"İstimrar"**, (yəni durmadan davam etmək) edərsə, aybaşıya görə hesablanır. Yəni aybaşıdan sonra başlayaraq, əvvəlki ay içindəki təmizlik günü qədər təmizlik və sonra aybaşı qədər hayz qəbul edilir.

İstimrar qızda olarsa, "Mənhəl-ül-varidin" risaləsində bunun dörd cür olduğu bildirilmişdir:

1-Görülən qan istimrar edərsə, ilk on gün hayz, sonra iyirmi gün təmiz qəbul edilir.

2-Qız səhih qan və səhih təmizlik gördükdən sonra istimrar edərsə, bu qız aybaşısı bəlli olan qadın olur. Məsələn, beş gün qan görsə, sonra qırx gün təmiz olsa, istimrar başladıqdan beş gün hayz, sonra qırx gün təmiz qəbul edilir. Qan kəsilənə qədər belə davam edir.

3-Fasid qan və fasid təmizlik görərsə, heç biri aybaşı qəbul edilmir. Təmizlik on beş gündən az olduğu üçün fasiddirsə, ilk görülən qan istimrar etmiş kimi qəbul edilir. On bir gün qan və on dörd gün təmiz olsa, sonra istimrar etsə, birinci qan on günü keçdiyi üçün fasiddir. On birinci və istimrarın ilk beş qan günləri təmizlik günləri olub, bu beşinci gündən sonra on gün hayz, iyirmi gün təmizlik olmaq üzrə davam edir. Təmizlik tam olub, qanlı gün qarışdığı üçün fasid olarsa, belə fasid təmizlik ilə qan günlərinin cəmi otuzu keçməzsə,yenə ilk qan istimrar etmiş kimi qəbul edilir. On bir gün qan və on beş gün təmizlikdən sonra istmrar etməsi də bu cürdür. On altı günün ilk günü qanlı olduğu üçün fasid təmizlikdir. İstimrarın ilk dörd günü təmizlik olur. Cəmi otuzu aşarsa, ilk on gün hayz

olub, sonra istimrara qədər olan günlərin hamısı təmiz qəbul edilib, istimrardan sonra on gün hayz, iyirmi gün təmiz olaraq davam edər. On bir gün qan, sonra iyirmi gün təmizlikdən sonra istimrar etmək də bura aiddir.

4-Səhih qan və fasid təmizlik görərsə, səhih qan günləri aybaşı olur. Sonra otuz günə qədər təmizlik qəbul edilir. Məsələn, beş gün qan və on dörd gün təmizlikdən sonra istimrar etsə, ilk beş gün qan və bundan sonra iyirmi beş gün təmiz olur. Bu iyirmi beş günü tamamlamaq üçün istimrarın ilk on bir günü təmiz qəbul edilir. Bundan sonra beş günü hayz, iyirmi beş günü təmiz olaraq davam edir. Bunun kimi üç gün qan, on beş gün təmizlik, bir gün qan və sonra on beş gün təmizlikdən sonra istimrar etsə, ilk üç gün səhih qan və sonra istimrara qədər olan günlərin hamısı fasid təmizlik olub, üç gün hayz, sonra otuz bir gün təmiz olur. İstimrar zamanında isə üç gün hayz, sonra iyirmi yeddi gün təmiz olaraq davam edir. İkinci təmizlik on dörd gün olsaydı, imam Əbu Yusifə görə davamlı axan kimi qəbul ediləcəyindən, bunun ilk iki günü də hayz, sonra on beş gün təmizlik olmaqla davam edir. Çünki ilk üç gün qan və on beş gün təmizlik səhih olduqları üçün aybaşı qəbul edilirlər.

Aybaşı vaxtını unudan qadına **“Muhayyirə”** və ya **“Dallə”** deyilir.

**“Nifas”**, zahılıq deməkdir. Əlləri, ayaqları, başı bəlli olan uşaq düşükdə gələn qan da nifasdır. Nifas müddətinin azı yoxdur. Qan kəsildiyi vaxt qüsl alınıb namaza başlanır. Lakin aybaşı müddəti qədər gün keçmədən cinsi əlaqəyə girmək olmaz. Ən çox müddəti qırx gündür. Qırx gün tamam olduqda qan kəsilməsə də qüsl alınıb namaza başlanır. Qırx gündən sonra gələn qan istihazə olur. Birinci uşaqda iyirmi beş gündə təmizlənən qadının nifas müddəti iyirmi beş gün olur. Bu qadının ikinci uşağında qırx beş gün qan gəlsə, nifası iyirmi beş gün sayılıb, iyirmi günü istihazə hesab olunur. İyirmi günlük namazlarını qəza edər. Bu halda nifas gününü də yadda saxlamaq lazımdır. İkinci uşaqda qan qırx gündən əvvəl, məsələn, otuz beş gündə kəsilərsə, bunun hamısı nifas olur və nifas müddəti iyirmi beş gündən otuz beş günə dəyişmiş olur.

Ramazanda sahurdan [yəni dan yeri sökülәndən] sonra hayzdan və ya nifasdan kəsilən, o gün yeməz, içməz. Lakin o günü qəza edər. Hayz və nifas sahurdan sonra başlarsa, əsrdən sonra da olsa, həmin gün yeyər, içər.

Hayz və nifas günlərində namaz, oruc, məscidə girmək, Qurani-kərim oxumaq və tutmaq, təvaf, cima (cinsi əlaqə) dörd məzhəbdə də haramdır. Bu günlərdə tutulmayan oruclar qəza edilir, namazlar isə qəza edilmir, əfv edilir. Hər namaz vaxtında dəstəmaz alıb, səccadə üzərində o namazı qılacaq vaxt qədər oturub, zikr, təsbeh edən ən yaxşı qıldığı bir namazın savabını qazanar.

**“Cevhərə”** kitabında buyrulur ki, qadın hayz başladığını ərinə bildirməlidir. Əri soruşduqda bildirməzsə, böyük günah olar. Təmiz ikən hayz

başladığını da deməsi böyük günahdır. Peyğəmbərimiz (sallallahü aleyhi və səlləm): **"Hayzın başladığını və bitdiyini ərindən gizlədən qadın məlundur"** buyurmuşdur. İstər hayzlı, istərsə də təmiz ikən qadına arxadan (anal) yaxınlaşmaq haramdır. Böyük günahdır. Zövcəsinə belə yaxınlaşan məlundur. Kişinin kişi ilə əlaqəsi daha böyük günahdır. Buna **"Livata"** deyilir. Ənbiya surəsində də livata haqqında **"pis işdir"** buyurulur. Kadizadənin "Birqivi" şərhində Peyğəmbərimiz (sallallahü aleyhi və səlləm) **"Lut qövmü kimi livata edənləri günah işləyərkən yaxalasanız, ikisini də öldürün"** buyurdu. Bəzi alimlər hər ikisinin də yandırmaq lazım olduğunu dedi. Livata edənlərin hər ikisi cünub olur. İmalə edildikdə cünub olmasa da, oruc pozulur. (Feyziyyə)]

Namaz vaxtı içində namaz qılmadan əvvəl qadında aybaşı başlarsa, o vaxtın namazını qəza etmək lazım deyil. [**"Səadəti Əbədiyyə"** kitabında qüsl mövzusunu oxuyun!]

## DƏSTƏMAZ HAQQINDA

Dəstəmazın fərzləri hənəfidə dörd, malikidə yeddi, şafidə və hanbəlidə altıdır. Hənəfidə:

1. Üzü yumaq.
2. Qolları dirsəklərlə birlikdə yumaq.
3. Başın dörddə bir hissəsini məsh etmək.
4. Ayaqları topuq sümükləri ilə birlikdə yumaq.

Dəstəmaz dörd növdür: fərz, vacib, sünnət, məndub (müstəhəb).

Fərz olan dəstəmaz dörddür: Mushafı-şərifi tuta bilmək üçün, beş vaxt namaz qılmaq üçün, cənazə namazı qılmaq üçün və tilavət səcdəsi etmək üçün alınan dəstəmaz.

Vacib dəstəmaz: ziyarət təvafı etmək üçün alınan dəstəmaz.

Sünnət dəstəmaz: əzbərdən Quran oxumaq üçün, qəbiristan ziyarəti üçün və qüsldən əvvəl alınan dəstəmaz.

Məndub (müstəhəb) olan dəstəmaz: yatdıqda, yuxudan oyandıqda, yalan və qeybət etdikdə, şəhvətə səbəb olan musiqi dinlədikdə, bu şeylərə tövbə və istiğfar edib alınan dəstəmaz.

Elm məclisinə gedərkən dəstəmazlı getmək, dəstəmaz aldıqdan sonra dəstəmazsız caiz olmayan bir əməl işlədikdə [məsələn, namaz qıldıqda] dəstəmazlı ikən yenidən dəstəmaz almaq məndubdur. Əgər belə bir əməl işlənməyibsə, dəstəmazlı ikən təkrar dəstəmaz almaq məkruhdur.

## SULAR HAQQINDA

Sular dörd növdür: mai-mütləq, mai-muqayyəd, mai-məşkük, mai-müstaməl.

1-Mai-mütləq - yağış, dəniz, axar bulaq və quyu suyudur. Bu sular murdar olan şeyi pak edər. Necə istəsən istifadə etmək olar.

2-Mai-muqayyəd, yemiş, qarpız, çiçək suyu və bu kimi sular. Bu sular murdar şeyi pak edər, lakin qüsl və dəstəmaz üçün istifadə olunmaz.

3-Mai-məşkük, uzunqulağın və anası uzunqulaq olan qatırın içdiyi suyun artığına deyilir. Bu su ilə həm dəstəmaz, həm də qüsl almaq caizdir.

4-Mai-müstaməlin yerə düşən su və ya bədəndən ayrılan su olması ba-rədə fikir ayrılığı mövcuddur. Doğru olan, bədəndən ayrılan su olmasıdır. Bu barədə də üç qavl (söz, hökm) vardır. İmam Azama görə (rahimə-hullahü təala) qaba nəcasətdir. İmam Əbu Yusifə görə (rahimə-hullahü təala) yüngül nəcasətdir. İmam Muhamməda görə (rahimə-hullahü təala) pakdır. Doğru olan da budur.

Dəstəmazın vacibliyinin doqquz şərti var:

1. Müsəlman olmaq.
2. Həddi-buluğa çatmaq.
3. Ağıllı olmaq.
4. Dəstəmazsız olmaq.
5. Dəstəmaz suyunun pak olması.
6. Dəstəmaz almağa gücü yetmək.
7. Hayzlı olmamaq.
8. Nifazlı olmamaq.
9. Dəstəmazın, hər namaz vaxtı içində alınması. [Bu şərt üzrlü olanlara aiddir.]

**DƏSTƏMAZIN SÜNNƏTLƏRİ:** İyirmi beşə qədər sünnət vardır.

1. Əuzü oxumaq.
2. Bəsmələ oxumaq.
3. Əlləri yumaq.
4. Barmaqların arasını hilallamaq.
5. Ağıza su almaq.
6. Buruna su çəkmək.
7. Niyyət etmək. Hənəfidə üzü yuyarkən niyyət etmək fərz deyil, sünnətdir. Şafidə fərzdir. Malikidə əlləri yuyarkən fərzdir.
8. Qibləyə dönmək.
9. Saqqalı hilallamaq. [əgər sıxdırsa]
10. Saqqalı məsh etmək.
11. Sağ tərəfdən başlamaq.
12. Sol əlin kiçik barmağı ilə sağ ayağın kiçik barmağının altından başlayaraq, sırayla barmaqların arasını hilallamaq.
13. Başa məsh etmək.
14. Başı islatdığı su ilə boynu və qulaqları məsh etmək.
15. Tərtibə, yəni sıralamaya riayət etmək.

16. Əzaları ara vermədən yumaq.
17. Başa məsh edərkən öndən başlamaq.
18. Misvakdan istifadə etmək.
19. Gözün kənarına və qaşlara suyu çatdırmaq.
20. Yuyulan yerləri ovmaq.
21. Dəstəmazı yüksək yerdə durub almaq.
22. Dəstəmaz üzvlərini üç dəfə yumaq.
23. Dəstəmaz aldıqdan sonra dəstəmaz qabını dolu saxlamaq.
24. Dəstəmaz alarkən dünya kəlamı söyləməmək.
25. Həmişə bu niyyətdə olmaq.

## MİSVAQ HAQQINDA

Misvaqdan istifadə etməyin on beş faydası var. Bunlar, **"Siracül-vəhhac"**dan götürülərək, aşağıda bildirilmişdir:

1. Ölərkən şəhadət kəlməsini söyləməyə səbəb olur.
2. Diş ətlərini möhkəmləndirir.
3. Bəlğəmi yox edir.
4. Ödü qovur.
5. Ağız ağrısını aparır.
6. Ağız qoxusunu yox edir.
7. Allahü təala misvaqdan istifadə edən insandan razı olur.
8. Baş damarlarını qüvvətləndirir.
9. Şeytan qəmlənir.
10. Gözlər nurlanır.
11. Misvaq işlədən insanın xeyir və həsənəti (yaxşı əməlləri) çox olur.
12. Sünnətlə əməl etmiş olur.
13. Ağız pak olur.
14. Fasih-ul-lisan, yəni gözəl danışan olur.
15. Misvaqlı qılınan iki rükət namazın savabı, misvaqsız qılınan yetmiş rükət namazın savabından çoxdur.

**DƏSTƏMAZIN MÜSTƏHƏBLƏRİ.** Altısı bunlardır:

1. Qəlbdə edilən niyyəti dillə söyləməmək.
2. Qulağı məsh etdikdən sonra qalan su ilə boynu məsh etmək.
3. Ayaqları qibləyə qarşı yumamaq.
4. Mümkün olarsa, dəstəmazdan artıq qalan suyu qibləyə qarşı ayaq üstə içmək.
5. Dəstəmazdan sonra paltarına bir az su çiləmək.
6. Pak və təmiz bir bezlə qurulanmaq.

İbni Abidin dəstəmazı pozan şeylərdən bəhs edərkən deyir ki: "Öz məzhəbində məkruh olmayan bir şey, başqa məzhəbdə fərzdirsə, onu et-

mək müstəhəbdir". İmam Rabbani 286-cı məktubda deyir ki: "Maliki məzhəbində dəstəmaz əzasını ovmaq fərz olduğu üçün mütləq ovmalıyıq". İbni Abidin rici talaqı (geri dönülə bilən boşanma) izah edərkən deyir: "Hənəfi məzhəbində olanın maliki məzhəbini təqlid etməsi daha yaxşıdır. Çünki imam Malik imam Azamın tələbəsi kimidir. Müəyyən bir məsələ ilə bağlı hənəfi məzhəbində bir fikir olmadığı zaman, hənəfi alimləri maliki məzhəbinə görə fitva vermişdirlər. Məzhəblər içində hənəfiyə ən yaxın olanı maliki məzhəbidir."

**DƏSTƏMAZIN MƏKRUHLARI.** On səkkizi bunlardır:

1. Üzə suyu çox vurmaq.
2. Dəstəmaz aldığı suya üfürmək.
3. Əzaları üç dəfədən az yumaq.
4. Əzaları üç dəfədən çox yumaq.
5. Dəstəmaz aldığı suya tüpürmək.
6. Suyun içinə fınxırmaq.
7. Qarqara edərkən boğaza su qaçırmaq.
8. Arxası qibləyə durmaq.
9. Gözü yummaq.
10. Gözü çox açmaq.
11. Soldan başlamaq.
12. Sağ əllə burnu təmizləmək.
13. Sol əllə ağza su almaq.
14. Sol əllə burna su çəkmək.
15. Ayağı yerə vurmaq.
16. Günəşdə isinmiş su ilə dəstəmaz almaq.
17. Mai müstəməldən ehtiyat etməmək.
18. Dünya kəlamı söyləmək.

**DƏSTƏMAZI POZAN ŞEYLƏR:**

1. Arxadan çıxanlar.
2. Öndən çıxanlar.
3. Qurd və kiçik daş kimilər öndən və arxadan çıxarsa.
4. İmalə etdirmək.
5. Qadınlar doğum yerinə dərman axıtdıqda, dərman geri gələrsə.
6. Qulağa tökülən dərman ağızdan çıxarsa dəstəmaz pozulur. [Qulaqdan və ya burundan çıxsa, pozulmur. **"Hindiyyə"**.]
7. Sidik yoluna pambıq qoyulduqda, islanıb düşmüş olsa. [Pambığın bir hissəsi çöldə qalıb, bayır tərəfi quru olsa, düşmədikcə pozulmaz.]
8. Pambıq düşsə və bayırda qalan hissəsi islanmış olsa.

9. Ağız dolusu qusmaq. Bəlğəm qusmaq, çox olsa da pozmaz. Yatan insanın ağzından gələn su, sarı da olsa, təmizdir.

10. Xəstəlik səbəbi ilə gözdən yaş axması pozur. Ağlamaqla, soğan kimi şeylərin təsiri ilə gözdən yaş axdıqda pozulmur.

11. Burundan gələn qan, irin, sarı su burun dəliyindən xaricə çıxmasa da pozur. Burundan axan selik murdar deyildir, pozmur.

12. Tüpürdükdə, tüpürcəkdə görülən qan çox olarsa.

13. Bir şeyi dişlədikdə, dişlədiyi yerdə qan olarsa və ağız, diş qana batarsa dəstəmaz pozulur. Batmazsa pozulmur.

14. Bir yerdən qan çıxsa və az da olsa dağılsa, hənəfidə pozulur. Maliki və şafidə pozulmur.

15. Çılpaq heyvan üzərində dalğın şəkildə yataraq, yoxuş aşağı endikdə.

16. Dəstəmaz alıb-almamaqda şübhə edilsə və daha çox alınmadığı zənn edilsə.

17. Kişilər xanımları ilə çılpaq olaraq qucaqlaşsa.

18. Dəstəmaz əzalarından birini yumaq unudulsa və hansı biri olduğu bilinməsə.

19. Bədənin bir yerində olan qabardan öz-özünə və ya sıxdıqda irin, qan və sarı su çıxsa.

20. Bədənin hər hansı bir yerində yara varsa, yaranın ortasına sarı su, qan, irin kimi nəcs maye yığılıb, bədənin sağlam yerinə və ya üstündəki pambığa, sarğıya bulaşıbsa, dəstəmaz pozulur. Yaradan, çibandan çıxan rəngsiz su dəstəmazı pozmur, deyildi. Qoturluq, çiçək [və ekzema] xəstəliyi olanların bu qavlə uyması caizdir.

21. Bir yerə söykənib yatdıqda, söykənilən şey götürüldüyü halda yıxılma ehtimalı olarsa.

22. Rüku və səcdəsi olan namazlarda özü və yanındakı eşidəcək dərəcədə gülmək. Əgər yalnız özü eşidəcək qədər gülərsə, yalnız namaz pozulur, dəstəmaz pozulmur.

23. Bir şəxsin ürək keçməsi tutsa, yaxud huşunu itirsə.

24. Qulaqdan irin, sarı su, qan gəlsə və qüsldə yuyulması vacib olan yerə qədər axsa.

## DƏSTƏMAZ DUALARI

Dəstəmaz almağa başlarkən: **“Bismilləhil-azım vəl-hamdü lilləhi alə dinil-islam və alə təvfiqil-iman əlhamdülilləhilləzi cəaləl-məə tahüran və cəaləl islamə nuran”** deyilir.

Ağıza su aldıqda: **“Allahümməsqini min havdi nəbiyyikə kəsən lə əzməu bəadəhu əbədən”**.

Buruna su çəkdikdə: **“Allahümmə ərihni raihatəl-Cənnəti vərzüqni min nəimiha və lə türihni raihatən-nari”**.

Üzü yuduqda: **“Allahümmə bəyyid vəchi bi-nurikə yəvmə təbyəddü vücühü əvliyəikə və lə tüsəvvid vəchi bi zünubi yəvmə təsvəddü vücühü əadaaikə”**.

Sağ qolu yuduqda: **“Allahümmə əatini kitabi bi-yəmini və hasibni hisabən yəsiran”**.

Sol qolu yuduqda: **“Allahümmə lə tüatini kitabi bişiməli və lə min vərai zahri və lə tühasibni hisabən şədidən”**.

Başa məsh etdikdə: **“Allahümmə harrim şəari və bəşəri alənnər və əzilləni təhtə zılli Arşikə yəvmə lə zıllə illə zıllükə”**.

Qulaqlara məsh etdikdə: **“Allahümmə-calni minəlləzinə yəstəmiunəl-qavlə fə-yəttəbiunə əhsənəh”**.

Boyuna məsh etdikdə: **“Allahümmə əatiq raqabəti minənnari vahfaz minəs-səlasili** vəl ağlal”

Sağ ayağı yuduqda: **“Allahümmə səbbit qadəməyyə aləssırati yəvmə təzillü fihil-aqdəm”**.

Sol ayağı yuduqda: **“Allahümmə lə tatrud qadəməyyə aləssırati yəvmə tatrudü küllü aqdəmi əadaikə. Allahümməcal səayi məşküran və zənbi məğfuran və aməli məqbulən və ticarəti lən təburə”**.

Dəstəmaz bitdikdən sonra: **“Allahümməcalni minəttəvvabinə vəcalni minəl-mütətahhirinə vəc-alni min ibadikəs-salihinə vəc-alni minəlləzinə lə havfün aleyhim və lə hüm yəhzənün”**.

Sonra səmaya baxaraq: **“Sübhanəkəllahümmə və bi hamdik əşhədü əl lə iləhə illə əntə vəhdəkə lə şərikə ləkə və ənnə Muhammədən abdükə və rasulükə”** deyilir.

Bundan sonra bir və ya iki, yaxud da üç dəfə əvvəlində “Bəsmələ” oxumaqla **“İnnə ənzəlnə”** surəsini oxumaq lazımdır.

Hər kəs lazım olan din bilgilərini öyrənməli və ailəsinə, uşaqlarına öyrətməlidir. Çünki qiyamətdə övrətlər ərlərindən sual olunacaqlar.

## TƏYƏMMÜM BƏHSİ

Hənəfi məzhəbində təyəmmüm vaxt girmədən də səhih olur. Digər üç məzhəbdə olmaz. Dəstəmaz almaq üçün lazım olan təyəmmüm ilə qüsl almaq üçün lazım olan təyəmmüm eynidir. Yalnız niyyətləri fərqlənir. Buna görə də bu iki təyəmmümdən biri digərinin yerinə işlənə bilməz. Təyəmmümün fərzi üçdür:

1. Niyyət etmək- bu şərtdir.
2. Əlləri pak torpağa vurub, üzə sürtərək məsh etmək.
3. Əlləri bir daha torpağa vurub, öncə sol əl ilə sağ qolun və sonra sağ əl ilə sol qolun hər tərəfini məsh etmək.

Təyəmmümün fərz olduğuna sübut, Nisa surəsinin 43-cü və Maidə surəsinin 6-cı ayələridir. Malikidə və şafidə təyəmmüm namaz vaxtından əvvəl caiz deyildir və bir təyəmmüm ilə birdən artıq fərz qılına bilməz.

Altı şeylə təyəmmüm etmək caiz deyildir. Yalnız bu şeylərin üstündə torpaq tozu olarsa, caizdir. O şeylər bunlardır: dəmir, tunc, qalay, mis, gümüş, qızıl və bütün metallar. İstidən əriyən bu metallardan, istidə yumşalan şüşədən və üzəri örtülmüş farfordan başqa, hər şeylə təyəmmüm etmək caizdir. Lakin torpaq cinsindən olması şərtdir.

Bir torpaq sidiyə batmış, sonra qurumuşdursa, orada namaz qılmaq olar. Lakin o yerdən təyəmmüm etmək olmaz.

Təyəmmüm edə bilmək üçün suyu axtarmaq, axtarıb tapa bilməmək, bir müsəlman və adil şəxsdən soruşmaq və o şəxsin saleh biri olması şərtdir.

Təyəmmümün şərtləri beşdir:

1. Niyyət etmək.
2. Məsh etmək.
3. Təyəmmüm edilən şeyin torpaq cinsindən olması. Torpaq cinsindən olmazsa, üzərində torpaq tozu olması lazımdır.
4. Torpağın olduğu yerin və ya tozun pak olması.
5. Sudan istifadə etmək üçün həqiqətən və ya hökmən qüvvətin, gücün olmaması. [Xəstəlikdən sonra qollardakı və ayaqlardakı halsızlıq da üzrlü səbəbdir. Yaşlı adamlardakı halsızlıq da bura aiddir. Bunlar namazlarını oturaraq qılar.]

Təyəmmümün sünnəti yeddidir:

1. Bəsmələ demək.
2. Əlləri pak torpağa vurmaq.
3. Əlləri torpağın olduğu şeyin üzərində bir dəfə irəli və geri çəkmək.
4. Barmaqları açmaq.
5. İki əli bir-birinə vuraraq silkələmək.
6. İlk olaraq üzü məsh etmək.
7. Qolların dirsəklərlə bərabər hər yerini məsh etmək.

Su axtarmağın dörd şərti var:

1. Yaşadığı məkan abad olarsa.
2. Suyun olduğu barədə xəbər verilsə.
3. Suyun olduğuna daha çox ehtimal olarsa.
4. Qorxulu, təhlükəli məkan deyilsə.

Bir şəxs su tapsa, lakin suyun tapıldığı yer bir mildən uzaqdadırsa, təyəmmüm caizdir. Bir mildən azdırsa və namaz vaxtı keçməyəcəksə, təyəmmüm etmək caiz deyil. [Bir mil, dörd min arşın, yəni Hənəfi məzhəbinə görə 0,48 x 4000 = 1920 metr yoldur.]

Bir şəxs, su axtarsa və tapmadıqda təyəmmüm edib namazı qıldıqdan sonra suyu görsə, namazını iadə edərmi? Bu ixtilaflıdır. Doğru olan, qıldığı namazını iadə etməz.

Bir şəxs islansa, amma dəstəmaz almağa su tapmasa, təyəmmüm etməyə də yer tapmasa, bir az palçığı qurudub, onunla təyəmmüm edər. Bir

neçə şəxs təyəmmüm etsə, onlardan yalnız biri suyu görsə, hamısının təyəmmümü pozulur.

Bir şəxs bir az su gətirsə, içinizdən biriniz dəstəmaz alın, desə, hamısının təyəmmümü pozulur. Amma hamınız dəstəmaz alın desə, halbuki gətirilən su yalnız bir nəfərə kifayət etsə, hamısının təyəmmümü səhih olur.

Bir şəxs cünub olsa, heç yerdə su tapmayıb, yalnız məsciddə tapsa, qüsl üçün təyəmmüm edər və sonra suyu gətirmək üçün məscidə girər. Amma məscidə girdikdə su tapmasa, namaz üçün başqa təyəmmüm lazım olar.

Bir şəxs məsciddə oturarkən ihtilam (yatarkən yuxuda cünub olmaq) olsa, təyəmmüm edər və sonra məsciddən çıxar.

Bir şəxsin əlləri kəsik olsa, o, təyəmmüm edə bilər. Lakin o şəxsin istinca* edəcək kimsəsi vardırsa, o, istincadan azad olmur. Əgər yoxdursa, istincadan azad olur.

Həm əlləri, həm ayaqları kəsik olan iki imama (imam Azam ilə tələbəsi imam Muhamməde) görə namazdan azad olur. İmam Əbu Yusifə görə namazını qılmalıdır.

Cümə namazında təyəmmüm caiz deyildir. Yəni dəstəmaz almaq üçün vaxt az olub, Cümə namazı qaçırıla bilər deyə, tez təyəmmüm etmək caiz deyildir. [Cümə namazı zöhr namazının yerinə qılındığı üçün.] Nəbiz* deyilən xurma suyu ilə dəstəmaz almağın caiz olmadığı **"Dürr-ül-muxtar"**da yazılmışdır.

Bir şəxs yolda ihtilam olsa, təyəmmüm edib sübh namazını qılar, zöhr namazına qədər gedər, əsrnin vaxtı yaxınlaşıb, zöhrün vaxtı çıxan zamanda təyəmmüm edərək zöhrü qılar. Bu şəxs əsrdən sonra su tapsa, sübh və zöhr namazlarını yenidən qılarmı? Bu məsələdə alimlərin fikir ayrılığı mövcuddur. Bəzilərinə görə təzədən qılar, bəzilərinə görə isə qılmaz. Bu məsələ tərtib sahibi olan insanlara söylənməsi ehtimaldır.

Bir şəxsin mindiyi heyvanda su olsa, o heyvanı itirsə, təyəmmüm edib namazını qılar. Namaz qılarkən heyvanın səsini eşitsə, dəstəmazı pozular.

Bir şəxs heyvan üzərində olsa, düşdüyündə yoldaşları onu gözləməsə, atın üzərində ikən təyəmmüm edər və namazını ima ilə qılar.

Yol qorxuludursa və ya hava soyuq olsa, qüsl alarkən, xəstələnmək ehtimalı çoxdursa, təyəmmümlə namaz qılmaq olar.

Yola çıxanın çantasında kirəmit və ya kərpic götürməsi lazımdır. Bələki, təyəmmüm etməli olsa, ətrafda hər yer yaşdırsa, o zaman kərpiclə təyəmmüm edib, namazını qılar.

Bir şəxs bayram namazına durduqda dəstəmazı pozulsa, əgər yenidən dəstəmaz alarsa bayram namazına çatmayacağını bilsə, yaxud çox izdiham olmasından qorxsa, təyəmmüm edərək namaza dura bilər. Bu qavl

---

* istinca-pislikdən, nəcasətdən təmizlənmək.
* Nəbiz -xurma və quru üzümdən düzəldilən içki.

İmam Azama görədir. Digər iki imama (İmam Əbu Yusif və İmam Muhamməd) görə isə dəstəmaz almaq lazımdır.

[**"Mərak-il-fəlah"**ın Tahtavi haşiyəsində deyilir: "Xəstəlik, təyəmmüm etmək üçün üzrlü səbəbdir. Sağlam adamın, dəstəmaz alarsa xəstələnəcəyindən qorxması üzrlü səbəb deyil. Sağlam insan oruc tutduqda xəstə olacağından qorxarsa, qəzaya verməsi caizdir, deyən alimlər, xəstə olmaqdan qorxanın təyəmmüm etməsi caizdir, dedilər. Xəstəlik dörd növdür: su zərər verərsə, hərəkət etmək zərər verərsə, insan özü sudan istifadə edə bilməzsə, təyəmmüm edə bilməzsə. Zərər vermək insanın özünün çox zənn etməsi ilə və ya müsəlman, ədalətli və mütəxəssis bir həkimin söyləməsi ilə aydın olur. Ədalətli biri olmadıqda, günah işlədiyi açıq bəlli olmayan təbibin sözü də qəbul edilir. Özü suyu işlədə bilməyən, dəstəmaz aldıracaq adam tapmazsa, təyəmmüm edə bilər. Uşağı, xidmətçisi və ya başqa dəstəmaz aldıracaq adamı varsa, bunlar dəstəmaz aldırmalıdır. Belə adamı yoxdursa, təyəmmüm edə bilər. İmam azama görə, pulla adam tutması lazım deyil. Təyəmmüm də edə bilməyən namazını qəzaya buraxar. Ər və arvad bir-birlərinin dəstəmazına, namazına yardım etməyə məcbur deyillərsə də, ərin zövcəsindən yardım istəməsi lazımdır. Şəhər, kənd xaricində olub isti su tapa bilməyən şəxs, soyuq su ilə qüsl alarkən xəstələnəcəyindən qorxarsa, təyəmmüm edər. Şəhər içində də belə olduğuna fitva verildi. Dəstəmaz və qüsl əzasının yarıdan çoxu yaradırsa, təyəmmüm etmək lazımdır. Əzaların yarısı yaradırsa, sağlam yerləri yumaq, yara olan yerləri isə məsh etmək lazımdır. Məsh yaraya zərər verərsə, sarğı üzərinə məsh etmək lazımdır. Bu da zərərli olarsa, heç məsh edilməz. Başında xəstəlik olana məsh zərər verərsə, məshdən azad olur. İki əli və iki ayağının yuyulması fərz olan yerləri kəsik olan şəxsin üzü də yaradırsa, təyəmmüm edə bilməyəcəyinə görə namazı dəstəmazsız qılar və iadə etməz, yəni yenidən qılmaz. Üzü sağlamdırsa, üzünü başqasına yudurtmalıdır. Yardım edəcək adamı yoxdursa, üzünü torpağa sürtməlidir. Sağlam adamın bir əli şikəst, yaralı, kəsik, çolaqdırsa, digər əli ilə dəstəmaz almalıdır. İki əli də belədirsə, əlini, üzünü torpağa sürtməlidir. Yaranın, çibanın, qırığın üstünə, müalicə və zərərdən qorumaq məqsədilə sarılan sarğı və ya taxta, maz, gips açılıb yara yuyula və məsh edilə bilməzsə, bunların üzərinə və arada qalan sağlam cild üzərinə məsh edilir. İmkan olarsa, bu sarğılar çıxarılaraq yara üzərinə məsh edilməli və sağlam dəri yuyulmalıdır. Bunların dəstəmazlı olaraq sarılması və bəlli müddəti yoxdur. Sağlam ayağı yuyub, digərindəki sarğıya məsh etmək caizdir. Yara sağalmadan üzərindəki sarğı düşərsə, dəstəmaz pozulmaz. Məsh etdikdən sonra məsh edilən şey dəyişdirilsə də, dəstəmaz pozulmaz. Dırnaq qırılsa və ya yara olsa, üzərinə və ya ayaqdakı çatlayan yerə qoyulan mazı qaldırmaq zərərli olarsa, zərurət olduğundan mazın üstü yuyulur. Yumaq zərərli olarsa, məsh edilir. Bu da zərər verərsə, məsh də edilməz. [Digər üç

məzhəbdə də belə olduğu üçün, başqa məzhəbi təqlidə imkan yoxdur.] Bu mazın sarğı lövhəsi kimi olduğu İbni Abidində yazılmışdır. Lakin diş doldurmaq və plomblamaq belə deyildir. Çünki malikini və ya şafini təqlid etmək mümkündür. Özü səbəb olmayaraq ağlını və ya huşunu itirən, üstündən altı namaz vaxtı keçərsə, ağlı yerinə gələnə qədər qıla bilmədiyi namazları qəza etməz. Xəstə, ima (eyham) ilə də qıla bilmədiyi namazların, sayı nə qədər olursa olsun, ödənməsi üçün vəsiyyət edə bilməz. Yaxşılaşarsa, hamısını qəza edər.]

İbni Abidin (rahmətullahi aleyh) deyir: "Sağlam insanın dəstəmaz üzvlərini başqasının yuması, məsh etməsi məkruhdur. Başqasının dəstəmaz suyu gətirməsi və dəstəmaz alana su tökməsi caizdir. Xəstə, paltarını və yatağını batırırsa, yaxud bunları dəyişdirmək çətin olursa, nəcs olduqları halda namazlarını qılar. Sarğı taxtaları, plastırlar, mərhəmlər altlarındakı yara sağaldıqdan sonra düşərlərsə, dəstəmaz pozulur. Yara sağalar, lakin üstündəkilər düşməzsə, zərər vermədən qaldırıla bilərlərsə, dəstəmaz və qüsl yenə pozulur.

Allah sevdiklərinə, günahlarını bağışlamaq və ya Cənnətdəki nemətlərini artırmaq üçün dərdlər, xəstəliklər verir. İbadətləri zəhmətli, sıxıntılı olur. Bunun qarşılığında, dünya işlərində rahatlıq, yüngüllük və ruzilərinə bərəkət verir. İbadət etməyənlərə rahatlıq, bərəkət vermir. Bunlar zəhmət çəkərək, hiylə və xəyanət edərək çox qazanıb, məmnunluq və səfa içində yaşasalar da, bu məmnunluqları çox çəkməz. Qısa müddətdən sonra xəstəxanalarda, həbsxanalarda sürünərlər. Axirətdəki əzabları da çox şiddətli olar."

*Kimsəyə əbədi deyil mülkü dünya simuzər,*
*Bir xarab olmuş qəlbi təmir etməkdir hünər.*
*Buna fani dünya deyərlər, durmayıb daim dönər.*
*Adəm oğlu bir fənərdir, aqibət bir gün sönər!*

## İSTİNCA, İSTİBRA, İSTİNKA

İstinca, su ilə məlum yeri yumaqdır. İstibra, sidiyə getdikdən sonra sidik kisəsinin yaşlığı gedənə qədər, istər gəzişərək, istərsə də digər yolla vaxt keçirməyə deyilir. İstinka, pak olduğuna dair qəlbdə şübhə qalmamasına deyilir.

İstinca altı növdür:

1) Fərz-paltarında, bədənində və namaz qılacağı yerdə bir dirhəmdən artıq nəcasət olsa, su ilə təmizləmək fərzdir. Bunun kimi, qüsl edərkən də istinca fərzdir. [Burada bir dirhəm, bir miskal deməkdir ki, bu da 4,8 qramdır.]

2) Vacib-paltarında və namaz qılacağı yerdə bir dirhəm miqdarı nəcasət olarsa, təmizləmək vacibdir.

3) Bir dirhəmdən az olsa, təmizləmək sünnətdir.

4) Müstəhəb-çox az olan nəcasəti təmizləmək müstəhəbdir.

5) Bir kimsə arxa yeri yaş ikən yel qaçırsa, o yeri yumaq məndubdur (bəyəniləndir).

6) Bir kimsə, o yeri quru ikən yel qaçırsa, o yeri yuması bidətdir.

İstincanın sünnətləri: daş və ya torpaq ilə təmizlənmək və bundan sonra su ilə yuyunmaq sünnətdir.

Əgər daş və torpaq ilə nəcasət yaxşı təmizlənməyib, dirhəmdən artıq qalarsa, yaxud dirhəmdən çox olaraq, arxa yerin ətrafına bulaşıbsa, suyla yumaq fərzdir. Bundan sonra pak bir bezlə silməli, bez yoxdursa, əllə qurulanmalıdır.

İstincanın bir müstəhəbi var: daşın sayı tək olmalıdır, yəni ya üç, ya beş, ya da yeddi.

[Sidiyini saxlaya bilməyən adamın paltarına sidik bulaşmaması üçün 12x12sm böyüklükdə parçanın bir ucu bir az bükülüb, bura yarım metrə qədər ipin bir ucu bağlanır. Parça cinsiyyət orqanının ucuna örtülür. İp parçanın üstündən, yəni cinsiyyət orqanının üzərinə bir dəfə sarılır. Sarğıya yaxın yer iki qat edilib, qatlı yer sarğının altına keçirilərək, dartılıb sıxılır. Sərbəst ucuna bir düyün vurularaq, sancaqla alt paltarına bərkidilir. Sidiyə gedən zaman, sancaq çıxarılır, ip dartılınca düyün dərhal açılır və bez çıxır. Bəzi yaşlı insanlarda orqan kiçildiyindən, üzərinə bez sarımaq olmur. Onlar cinsiyyət üzvünü və xayaları kiçik neylon torbaya qoyub ağzını bağlamalıdırlar. Sidik qaçıran, lakin üzrlü olmayan hənəfi məzhəbindəki şəxs, dəstəmaz almağa, qüslə və namaza başlayarkən maliki məzhəbini təqlid etməyə niyyət edər. Camiul-əzhər mədrəsəsinin müəllimlərindən Abdürrəhman Cəziri (1384cü ildə vəfat etmişdir) "(rahmətullahi aleyh)in rəhbərliyi altında olan Misir alimlərinin hazırladıqları **"Kitab-ül-fıkh aləl-məzahibil-ərbəa"**da deyilir ki: "Maliki məzhəbində ikinci qavlə görə, xəstədə, yaşlıda dəstəmazı pozacaq bir şey meydana gələrsə, dərhal üzrlü olur və dəstəmazı pozulmur. Harac halında olan, yəni çətinliyi olan hənəfi və şafilər bu qavli təqlid edirlər". Namaz içində sidik qaçıran hənəfi, imkanı olmadığı zaman malikinin bu sözünü təqlid edər. Niyyət edərək namazına üzrlü olaraq davam edər.]

---

Abdülxaliq Qoncdüvani "rahmətullahi təala aleyh" **"Vəsiyyətnamə"** kitabında deyir: "Sənə vəsiyyət edirəm, ey oğul ki, hər halında elm, ədəb və təqvalı ol! İslam alimlərinin kitablarını oxu! Fiqh və hədis öyrən! Cahil təriqətçilərdən uzaq ol! Şöhrətpərəst olma! Şöhrətdə afət, bəla vardır! Çox sima* eyləmə! Çox sima, qəlbdə nifaq edir, qəlbi öldürür. Simanı inkar da etmə ki, böyüklərin çoxu sima etmişdirlər. Aslandan qaçan kimi cahillərdən qaç! Bidət sahibi, yolunu azmış və dünyaya düşkün olanlarla dostluq etmə! Halal ye!

* sima-bir və ya bir neçə nəfərin çalğısız, alətsiz, musiqi pərdələrinə uydurmadan oxuduqları dini, imanı qüvvətləndirən və əxlaqı gözəlləşdirən şerləri, qəsidələri, ilahiləri və mövludləri dinləmək.

Çox gülmə! Qəhqəhə ilə gülmək qəlbi öldürür! Hər kəsə şəfqət və mərhəmət göstər! Heç kəsə xor baxma! Heç kəslə münaqişə, mücadilə etmə! Heç kəsdən heç nə istəmə! Təsəvvüf böyüklərini təhqir etmə! Onları inkar edən fəlakətə düşər! Mayan fiqh, evin məscid olsun!") Pəncərə şüşəsi bunun zamanında kəşf edildi.

## NAMAZ NECƏ QILINIR

Namaza dörd şeylə girilir: fərz, vacib, sünnət və müstəhəb. Hənəfi məzhəbində əlləri qulaq səviyyəsinə qaldırmaq, əllərin içini qibləyə yönəltmək sünnət; kişilərin baş barmağını qulağın yumşaq yerinə toxundurması, qadınların əllərini çiyinlərinə qaldırması müstəhəb; **"Allahü əkbər"** demək isə fərzdir. Təkbir gətirdikdən sonra əlləri bağlamaq, sağ əli sol əlin üstünə qoymaq, kişilərin əllərini göbəkdən aşağı, qadınların isə sinəsinə qoyması sünnətdir. Kişilərin sol əlin biləyini tutması müstəhəbdir.

Namazda istər imam, istər imama uyan, istərsə də tək qılanın **"Sübhanəkə"** duasını oxuması sünnətdir. Həm imam olanın, həm də yalnız qılanın Əuzü oxuması, Bəsmələ oxuması sünnət, Fatihəi şərifə oxuması vacib, Fatihədən sonra üç ayə, yaxud üç ayə qədər uzun bir ayə oxuması vacib, sünnətlərin və vitrin hər rükətində, tək qıldıqda fərzlərin iki rükətində ayaq üstə Qurani-kərimdən bir ayə oxumaq fərzdir.

Rükuda belini əymək fərz, üç dəfə **"Sübhanəllah"** deyəcək qədər gözləmək vacib, üç dəfə **"Sübhanə rabbiyəl azım"** demək sünnət, beş və ya yeddi dəfə demək müstəhəbdir. Rükudan qiyama durduqda və iki səcdə arasında oturduqda bir dəfə **"Sübhanəllah"** deyəcək qədər gözləmək İmam Əbu Yusifə görə fərz, imam Azama və imam Muhamməd görə vacibdir. Bəziləri sünnət desələr də, doğru olan vacibdir.

Səcdədə başı səcdəyə qoymaq fərz, üç dəfə **"Sübhanəllah"** deyəcək qədər gözləmək vacib, üç dəfə **"Sübhanə rabbiyəl alə"** demək sünnət, beş və ya yeddi dəfə demək müstəhəbdir. İbni Abidin (rahimə-hullahü təala) deyir ki: "Səcdə edərkən əvvəlcə iki diz, sonra iki əl, sonra burun, sonra alın yerə qoyulur. Baş barmaqlar qulaqlar hizasında olur. Şafidə əllər çiyin hizasına qoyulur. Ayaqların ən azı bir barmağını yerə qoymaq fərzdir. Yer sərt olmalı, baş içəri girməməlidir. Yerə sərilmiş xalça, həsir, buğda və arpa sərtdir. Yerdə duran masa, divan, maşın da yer sayılır. Heyvanın üstü və heyvan üstündə olan yəhər və bənzərləri yer sayılmır. Yelləncək və ağaclara, dirəklərə bağlanaraq havada duran parça, xalça, həsir də yer sayılmır. Düyü, darı, kətan toxumu kimi sürüşkən şeylər üzərinə səcdə etmək düzgün deyil. Çuval içində olsalar səhih olar. Səcdə yeri dizlərin qoyulduğu yerdən yarım arşın, yəni 12 barmaq eni (25sm) yüksək olduqda namaz səhih olsada məkruhdur. Səcdədə dirsəklər bədəndən, qarın da budlardan aralı tutulur. Ayaq barmaqlarının ucları Qibləyə doğru qoyu-

lur. Rükuya əyilərkən topuq sümüklərini bir-birinə yapışdırmaq sünnətdir və səcdədə də bitişik tutulur.

Qadın namaza durarkən əllərini çiyinlərinə qədər qaldırır. Əllərini qolun kənar hissəsindən qırağa çıxarmır. Sağ ovucu sol əli üzərində olaraq sinəsi üstünə qoyur. Rükuda az əyilir. Belini başı ilə düz tutmur. Rükuda və səcdədə barmaqlarını açmır, bir-birinə bitişik tutur. Əllərini dizləri üzərinə qoyur. Dizlərini bükür, onları tutmur. Səcdədə qollarını qarnına yaxın olaraq yerə sərir. Qarnını budlarına bitişdirir. Təşəhhüddə ayaqlarını sağa çıxararaq yerə oturur. Əl barmaqlarının ucu dizlərinə uzanır. (Kişilər də dizlərini tutmaz). Barmaqları bir-birinə yapışıq olur. Öz aralarında və ya kişilərin camaatı arasında imam ilə qılmaları məkruhdur. Cümə və bayram namazı qılması fərz deyildir. Qurban bayramında fərz namazlardan sonra **“Təkbiri təşrik”**i səssiz oxuyurlar. Sübh namazını gec qılması müstəhəb deyil. Namazlarda yüksək səslə oxumazlar.” İbni Abidindən tərcümə tamamlandı. Haməvi (rahimə-hullahü təala) **“Eşbah”** şərhində deyir ki: “Qadınların başlarındakı tüklərini qırxmaqla və ya kəsməklə, yaxud da dərmanla yox etmələri tahrimən məkruhdur. (Kişilərə bənzətməmək şərti ilə saçlarını qulaqlara qədər qısaltmalarının caiz olduğu anlaşılır). Qadının azan və iqamə oxuması məkruhdur. Zövcü və ya məhrəmi yanında olmadan səfərə çıxa bilməz. Həcdə başını açmaz. Safa ilə Mərvə arasında üzrlü ikən də “say” (yeddi dəfə dolanmaq) edər. Təvafı Kəbədən uzaq olaraq yerinə yetirər. Xütbə oxumaz. Çünki səsinin övrət olması səhihdir. Həcdə məst geyər. Qadın cənazə daşımaz. Mürtəd olarsa, öldürülməz. Qisas mübahisələrində şahidliyi qəbul edilməz. Məsciddə itikaf (bir yerə çəkilib yalnız ibadət etmək) etməz. Əlləri və ayaqlarını xına ilə boyaması caizdir. [Dırnaq boyası istifadə etməz.] Mirasda, şahidlikdə və kasıb qohuma nəfəqə (yaşayış üçün ehtiyac) verməkdə kişinin yarısıdır. Muhsinə (ədəb və əxlaqlı) qadın məhkəməyə çağrılmaz. Hakim və ya vəkili onun evinə gedər. Gənc qadın yad kişiyə salam, başsağlığı verməz, asqırana bir şey söyləməz və özünə söyləndikdə cavab verməz. Yad kişiylə bir otaqda tək qalmaz”. Haməvidən tərcümə tamamlandı.

Namazda birinci oturuş (kadəi ülə) vacib, ikinci oturuş (kadəi axirə) fərzdir. Son oturuşda təhiyyat oxumaq vacibdir.

Fərzlərin, vaciblərin, zöhr namazının ilk sünnətlərinin, Cümə namazının ilk və son sünnətinin ikinci (son) oturuşunda, digər namazların hər oturuşunda (əsr və İşa namazlarının dörd rükət sünnətləri kimi) salavat dualarını oxumaq sünnətdir. Salam vermək vacib, salamlarda iki çiyinə baxmaq sünnət, diqqətlə baxmaq müstəhəbdir.

Namazın kamillik dərəcəsinə çatmasının şərti haramlardan uzaq olmaq, huşu, təqva, mala-yanini tərk etmək, tərki-kəsəl və ibdaddır. Huşu – Allahü azım-üş-şandan qorxmaq; təqva - doqquz əzasını haramdan və məkruhdan qorumaq; malayanini tərk demək, dünyasına və axirətinə yara-

mayan söhbəti və işi tərk etmək; tərki-kəsəl - namaz hərəkətlərini yerinə gətirməkdə tənbəllik etməyi tərk etmək; ibdad – azanı-Muhamməadi oxunduğu zaman hər işi təxirə salıb camaata qoşulmağa deyilir.

Namazda riayət edilməsi çox əhəmiyyətli olan altı şey vardır: ixlas, təfəkkür, havf, rəca, rüyəti- təqsir, mücahədə.

İxlas - əməllərini yalnız Allah rızası üçün yerinə yetirməyə; təfəkkür - namazda düşünülməli şeyləri düşünməyə; havf - Allahü azım-üş-şandan qorxmağa; rəca - Allahü azım-üş-şanın rəhmətini ummağa; rüyəti təqsir – özünü qüsurlu bilməyə; mücahədə - nəfslə və şeytanla savaşmağa deyilir.

Azanı-Muhamməadi oxunan zaman İsrafil (əleyhissəlam) sanki suru üfürür, dəstəmaza qalxarkən qəbirdən qalxdığını, məscidə gedərkən məhşər yerinə getdiyini, müəzzin iqamə deyib camaat sıralara düzüldüyündə bu insanların məhşər yerində 120 sıra olub, 80 sıra bizim Peyğəmbərimizin və 40 sıra digər Peyğəmbərlərin ümmətləri olacaqlarını, imama uyduqdan sonra imam Fatihəi-şərifəni oxuyarkən sağda Cənnət, solda Cəhənnəm, ənsədə Əzrayıl (əleyhissəlam), qarşıda Beytullah, önündə qəbir və ayağının altında sırat olduğunu düşünmək; sualının asan olub-olmayacağını, etdiyin ibadətlərin axirətdə başına tac, yanına yoldaş, qəbirində çıraq olacağını və ya qəbul olmayıb, köhnə parça kimi üzünə vurulacağını düşünmək lazımdır.

## AZANI-MUHAMMƏDİ

Aşağıdakı yazı **“Dürr-ül-muxtar”**dan və onun şərhi olan **“İbni Abidin”**dən tərcümə edilmişdir:

Elmihal kitablarında bildirilmiş olan bəlli kəlmələri ağıllı bir müsəlmanın bəlli şəkildə oxumasına **“Azanı Muhammədi”** deyilir. Yəni minarəyə çıxıb, ərəbcə kəlimələri ayaq üstə oxumaq lazımdır. Başqa dillərdə tərcüməsini oxumaq, mənasını anlasa belə, azan olmaz. Azan beş vaxt namaz vaxtlarının gəldiyini bildirmək üçün oxunur. Kişilərin, məscid xaricində yüksək yerə çıxıb oxumaları müəkkəd sünnətdir. Qadınların azan və iqamə oxumaları məkruhdur. Qadınların səslərini kişilərə eşitdirməsi haramdır.

Müəzzin əfəndinin məscidin xaricində hündürdə və yüksək səslə oxuyaraq qonşulara eşitdirməsi lazımdır. Həddən artıq qışqırmağı caiz deyil. Əkbər deyərkən son hərf cəzm edilərək durulur və ya üstün oxunaraq vəsl edilir. Ötrə oxunmur. Kəlmələrin əvvəlinə və ya sonuna hərəkə, hərf, məd artıracaq şəkildə həddən artıq təğənni ilə oxumaq və bunu dinləmək halal olmaz. Salat və fəlah deyərkən üzü sağa və sola çevirmək sünnətdir. Ayaqlar və sinə qiblədən çevrilməz, yaxud minarədə dönərək oxunar. İlk minarəni Həzrəti Müaviyə tikdirmişdir. Rəsulullahın məscidi üzərində yüksək bir yer tikilmişdi. Bilalı Həbəşi bura çıxıb azan oxuyardı. Rəsulul-

lah (sallallahü aleyhi və səlləm) Bilala barmaqlarını qulaqlarına qoymasını əmr etdi. Arada danışdıqda, təkrar oxumaq lazımdır. Bir neçə adamın bir yerdə oxuması caizdir. Bir qisminin oxuduğunu digərləri oxumazsa, səhih olmaz. Azanı oturaraq oxumaq tahrimən məkruhdur. Müəzzinin saleh olması, azanın sünnətlərini və vaxtlarını bilməsi, hər gün mütəmadi oxuması, Allah rizası üçün pulsuz oxuması sünnətdir. Pulla oxuması da caizdir. Həddi-buluğa çatmamış uşağın azanı səhih deyil. Çünki onun səsi quş və ya alət səsi kimidir. [Buna görə də azanı, iqaməni səs ucaldıcı ilə oxumaq səhih deyil. Fasiqin azanına və imamın təkbirlərini nəql etməsinə güvənmək olmaz. Onun oxuması məkruhdur. Müəzzinin azanı vaxtında oxuduğunu, başqalarının da namazı vaxtında qıldığını bilmələri şərtdir. Vaxtın gəldiyinə şübhə edərək namaza duran şəxsin vaxtında qılmış olduğu sonradan məlum olsa da, namazı səhih olmaz. Kafirin, fasiqin hazırladığı təqvimə uyaraq qılınan namaz səhih deyil. Qeyri müsəlman ölkədə istifadə edilən təqvimin doğruluğunu saleh və alim olduğuna güvənilən bir müsəlmandan soruşub öyrənmək lazımdır.] Sünnətə uyğun oxunan müxtəlif azanlardan yalnız birincisini eşidənlər eşitdiyini təkrarlamalı və öz məscidinin azanıdırsa, camaata qoşulmalıdırlar. Qurani-kərim oxuyanlar da təkrarlamalıdırlar. Cənazə namazı qılanın, ayaq yolunda olanın, yemək yeyənin, məsciddə olanın, din bilgisi öyrətməkdə və öyrənməkdə olanın azanı təkrar etməsi lazım deyil. Ərəbcə olmayan və çox təğənni ilə oxunan azan sünnətə uyğun deyil. Azanı eşidənin oturursa durmağı, yol gedirsə dayanmağı müstəhəbdir. Göründüyü kimi, islamiyyətə uyaraq hər məhəllədə məscid tikilsə, hər məhəllədə azan oxunacaq və hər kəs öz məhəlləsinin azanını eşidəcək. Müəzzinin çox qışqırmasına, səs ucaldıcıdan istifadə edilməsinə ehtiyac qalmayacaq. Səs ucaldıcı, azanın sünnətlərinin tərk edilməsinə səbəb olan bir bidətdir. Azan oxuyarkən və namaz qılarkən bu bidəti işləmək böyük günahdır. Bu, ibadətlərin pozulmasına da səbəb olur. Radioda, maqnitafonda və səsucaldıcıda oxunan Qurani-kərimin və azanın insan səsi olmadığı, bunları oxuyan insan səslərinin hasil etdiyi elektrik tərəfindən meydana gələn çalğı səsləri olduğu, meydana gəlmələrinə səbəb olan insan səsinin özü olmasa da, ona çox bənzədiyi üçün oxuyanın səsi zənn edildiyi **"Əl-fiqhu aləl-məzahib-ül-ərbəa"**da və **"Səadəti Əbədiyyə"** kitabında geniş bildirilmişdir. Din İslamiyyətin əmr etdiyi **"Azanı Muhammədi"** saleh müsəlmanın səsinə deyilir. Borudan çıxan səs azan deyildir. Əsrimizin həqiqi din alimlərindən Almalılı Hamdi əfəndi (rahimə-hullahü təala) deyir: "Görünür ki, bu "istima (dinləmək) və insat (susmaq)" əmrləri qiraətə bağlı qılınmışdır. Qiraət isə dilin ixtiyari hərəkətidir ki, aqil və natiq bir insanın ağzından məxsus məxrəclərə görə çıxan və ağlındakı niyyətini bildirən səslərdir. Çünki Cəbrail əleyhissəlamın feli belə qiraət deyil, sadəcə bir İqra, yəni qiraət etdirməkdir. İlahi fel isə tənzil və

qiraətin yaradılmasından ibarətdir. Buna görə ağılsızdan və cansızdan zuhr edilən səslərə qiraət deyilə bilinmədiyi kimi sədadan yəni səslərin əks etməsindən hasil olan felə də qiraət deyilə bilməz. Bunun üçündür ki, fiqh alimləri qiraətin əks-sədasına qiraət və tilavət hökmünü verilə bilinməyəcəyini və məsələn, səcdəi tilavətin şərt olmayacağını bəyan etmişdirlər. Bir kitabı səssizcə mütalə etmək qiraət etmək olmadığı kimi ifa olunan və zingildəyən əks-sədanı dinləmək də həqiqi qiraət dinləmək deyil, zingildəməyi dinləməkdir. O halda Qurani-kərim oxuyan bir hafızın səsini əks etdirən qramafondan və ya radiodan gələn küy həqiqi qiraət deyil, sadəcə bir qiraətin əksi və bənzəridir. Bunlara "istima və insat" əmrinin hökmü keçməz. Yəni dinləməmiz və susmamız vacib olan Qurani-kərim ifa olunan Quran deyil, qiraət olunan Qurandır. Buradakı dinləməmiz vacib və ya müstəhəb olmaz sözündən illa da bunları dinləmək caiz deyilmiş və mütləq dinləməmək vacibdir deyə başa düşməyin. Çünki Quranı ifa etmək başqa fel, ifa olunan Quranı dinləmək başqa feldir. Qurani-kərimi çalmaq, onu çalğı, sazlar arasına qoymaq caiz olmayan bir hərəkət olduğu məlumdur. Çünki Qurani-kərimi oxumaq bir Qurbət (ibadət) olduğu halda pis yerlərdə oxumaq da qəbahətdir. Fəqət oxundusa, onu dinləmək qəbahət deyil, əksinə dinləməyib hörmətsizlik etmək qəbahət olar. Məsələn, hamamda Qurani-kərim qiraət edən günaha girər. Bununla da oxunduğu zaman dinləməmək də savab deyildir. Eynilə bunun kimi bir əks-səda ilə zingildəyən və ya qramafonda, radioda ifa olunan bir Qurani-kərim səslərini dinləmək vəzifə deyildir deyə bunu dinləməmək vəzifə imiş kimi zənn edilməməlidir. Zira bu bir qiraət olmasa da qiraətin bənzəridir və kəlamı nəfsiyə dəlalətdir. Əslində həqiqi qiraət dinləmək kimi vacib və ya müstəhəb olmasa da caizdir, ona da hörmətsizlik etmək caiz deyildir. Belə bir vəziyyətdə qalan bir müsəlman nalayiq yerə qoyulan bir Qurani-kərim səhifəsinə rast gələn kimsə kimidir ki, ona qarşı hörmətsizlik etməyib, əlindən gəldiyi qədər onu layiq bir yerə qoyması onun bir müsəlmanlıq vəzifəsidir."]

Fiqh və fitva kitablarının çoxunda, məsələn **"Kadihan"**da deyilir ki, azan oxumaq sünnətdir. İslam dininin əlamətlərindən olduğu üçün, bir şəhərdə, bir məhəllədə azan tərk edilərsə, hökumət oradakı müsəlmanlara zorla oxutmalıdır. Müəzzin Qiblə cəhətini və namaz vaxtlarını bilməlidir. Çünki azanı əvvəldən axıra qədər üzü Qibləyə oxumaq sünnətdir. Azan, namaz və iftar vaxtının başladığını bildirmək üçün oxunur. Bu vaxtları bilməyənin və fasiqin oxuması fitnə çıxmasına səbəb olar. Ağlı olmayan uşağın, sərxoşun, dəlinin, cünub olanın və qadının azan oxuması məkruhdur. Bu halda müəzzin təkrar oxumalıdır. Mövlud oxumaq, oxutmaq və dinləməyə getmək çox savabdır. Lakin qadının mövlud, azan oxuyaraq, mahnı oxuyaraq, lazım olduğundan çox danışaraq səsini yad kişilərə eşitdirməsi və onların dinləməsi haramdır. Qadın yalnız qadın-

lar üçün oxumalı, səsini maqnitafona, radioya, televizora verməməlidir. Oturaraq, dəstəmazsız, şəhərdə heyvan belində oxumaq məkruh olsa da, belə azan yenidən oxunmaz. Azan minarədə və ya məsciddən xaricdə oxunar, məscidin içində oxunmaz. Kəlmələri pozacaq şəkildə uzadaraq təğənni ilə oxumaq məkruhdur. Ərəb dilindən başqa dildə azan oxunmaz. **"Hindiyyə"**də deyilir: "Müəzzinin səsini taqətindən artıq yüksəltməsi məkruhdur". **İbni Abidin** (rahiməhullahü təala) deyir ki, azanın uzaqlardan eşidilməsi üçün müəzzinin hündür yerə çıxıb oxuması sünnətdir. Bir neçə müəzzinin bir azanı birlikdə oxuması caizdir. Alimlərin bu yazılarından aydın olur ki, səs-ucaldıcı ilə azan, iqamə oxumaq və namaz qıldırmaq bidətdir. Bidət işləmək böyük günahdır. Hədisi-şərifdə buyrulub: **"Bidət işləyənin heç bir ibadəti qəbul olunmaz!"** Səs-ucaldıcının səsi insan səsinə çox bənzəsə də, insan səsinin özü deyildir. Səs-ucaldıcını minarənin, damın sağına, soluna, arxa tərəfinə qoyaraq səsin Qibləyə doğru çıxmaması da ayrıca günahdır. Səs-ucaldıcının narahat edici metallik səsinə ehtiyac yoxdur, çünki hər məhəllədə məscid olması vacibdir. Hər məhəllədə azan oxunmalı və hər evdə bu azan eşidilməlidir. Bundan başqa, **"Azanı cavk"**, yəni bir neçə müəzzinin bir azanı birlikdə oxuması da caizdir. Bu zaman həzin insan səsləri uzaqlardan eşidilərək qəlblərə və ruhlara təsir edir, imanları təzələyir. Müəzzin azanı, imam isə qiraəti məscid ətrafında və məsciddə olan camaata eşitdirəcək qədər təbii səslə oxumalıdır. Uzaqdan eşidilməsi üçün həddən artıq qışqırmaları məkruhdur. Səs-ucaldıcıya ehtiyac olmadığı buradan da anlaşılır. Xülasə, səs-ucaldıcı deyilən borudan çıxan səs azan deyil. Müəzzinin ağzından çıxan səs **"Azanı Muhamməd"**dir. Böyük islam alimi Əbu Nuaym İsfahaninin **"Hilyət-ül-Övliya"** kitabındakı Hədisi-şərifdə buyrulub: **"Çalğıdan çıxan azan səsi şeytan azanıdır. Bunu oxuyanlar, şeytanın müəzzinləridir"**.

Hədisi-şərifdə buyruldu: **"Qiyamət yaxınlaşdıqda Qurani-kərim mizmarlardan oxunacaq"**; **"Bir vaxt gələcək, Qurani-kərim mizmarlardan oxunacaq. Allah üçün deyil, keyf üçün oxunacaq"**; **"Qurani-kərimi oxuyan çox insan var ki, Qurani-kərim onlara lənət edir"**; **"Bir vaxt gələcək, müsəlmanların ən səfilləri müəzzinlər olacaq"**; **"Bir vaxt gələcək, Quran-kərim mizmarlardan oxunacaq. Allahü təala bunlara lənət edir"**. Mizmar, hər növ çalğı, tütək deməkdir. Səs-ucaldıcı da mizmardır. Müəzzinlər bu Hədisi-şəriflərdən qorxmalı, azanı səs-ucaldıcı ilə oxumamalıdırlar. Bəzi din cahilləri səs-ucaldıcının faydalı olduğunu, səsi uzaqlara apardığını deyirlər. Peyğəmbərimiz: **"İbadətləri məndən və əshabımdan gördüyünüz kimi edin! İbadətlərdə dəyişiklik edənlərə "bidət əhli" deyilir. Bidət sahibləri əlbəttə ki, Cəhənnəmə gedəcək! Onların heç bir ibadətləri qəbul olunmaz!"**, buyurdu. İbadətlərə faydalı və lazımlı şeylər əlavə edirik demək düzgün deyil. Bu cür sözlər din düşmənlərinin yalanlarıdır. Bir dəyişikliyin faydalı olub olmadığını

yalnız islam alimləri bilir. Bu cür dərin alimlərə **“Müctəhid”** deyilir. Müctəhidlər özlərindən dəyişiklik etmir, bir dəyişikliyin, əlavənin bidət olub olmadığını anlayırlar. Azanı mizmarla oxumağa söz birliyi ilə bidət deyilib. İnsanları Allahü təalanın rizasına, sevgisinə qovuşduran yol, insanın qəlbidir. Qəlb yaradılışından təmiz bir ayna kimidir. İbadətlər qəlbin təmizliyini, parıltısını artırır. Bidətlər, günahlar qəlbi qaraldır və qəlb məhəbbət yolu ilə gələn nurları, səadəti ala bilmir. Saleh olanlar bu halı anlayar, üzülər və günah işləmək istəməzlər. İbadətlərin çox olmasını, hər gün beş dəfə əvəzinə daha çox namaz qılmağı istəyərlər. Günah işləmək nəfsə şirin, faydalı görünür. Bütün bidətlər, günahlar Allahü təalanın düşməni olan nəfsi bəsləyir, qüvvətləndirir. Səs-ucaldıcı ilə azan oxumaq da belədir. Abdullah Dəhləvinin xəlifələrindən olan Rauf Əhməd **“Dürr-ül məarif”**də deyir: “Qurani-kərimi və digər ibadətləri mizmarla, yəni çalğı aləti ilə oxumaq haramdır”.

Şafii **“Əl-müqəddimət-ül-hadrəmiyyə”** və **“Ənvar”** kitablarında deyir: “Məscidin xaricində olanın məsciddəki imama uymasının şafii məzhəbində səhih olması üçün, onun imamı görməsi və səsini eşitməsi, həmçinin son sıradan təqribən 300 zra, yəni 300x0,42=126 metr uzaqda olmaması lazımdır”. Televizorda görülən və səsi eşidilən uzaqdakı imama uyaraq qılınan namaz hənəfi və şafii məzhəbində səhih deyil. Sələfi salihin, yəni əhli sünnətin ilk rəhbərlərinin zamanında ibadətlərdə olmayan şeyləri sonradan ibadətlərə qarışdırmaq **“Bidət”** işləməkdir. Azana və namaza radio, televizor və səs-ucaldıcı qarışdırmaq bidətini işləyənlərin Cəhənnəmə gedəcəkləri Nisa surəsinin 114-cü ayəsindən aydın olur. Səs-ucaldıcıdan, radiodan eşidilən səs azanın özü deyil, bənzəridir. Aynada, kağızda görülən də insana tam bənzəsə də, insanın özü yox, bənzəridir.

***AQİL İSƏN QIL NAMAZI, ÇÜN SƏADƏT TACIDIR.***
***SƏN NAMAZI ELƏ BİL Kİ, MÖMİNİN MERACIDIR!***

**NAMAZIN VACİBLƏRİ.** Hənəfi məzhəbində namazın vacibləri bunlardır:

İmamın arxasında Sübhanəkədən başqa bir şey oxumamaq; imamın və yalnız qılanın, Fatihə və surəni fərzlərin birinci və ikinci rükətlərində, sair namazların hər rükətində bir dəfə oxuması; üç və dörd rükətli fərzlərdə Fatihəi şərifəni iki əvvəlki rükətlərə xas etmək ; bir fərzdən digər fərzə keçmək; Fatihəi şərifəni surədən əvvəl oxumaq; qadəi ulada (ilk oturuşda) təşəhhüd miqdarı oturmaq; qadəi axırda (son oturuşda) təhiyyat oxumaq; salam verərək namazdan çıxmaq; vitr namazında kunut duasını oxumaq; bayram namazı qılarkən zəvaid olan təkbirləri (altı vacib təkbir) almaq;

ihfa ilə (səssiz) oxunmalı yerləri ihfa ilə oxumaq; cəhr (səsli) oxunmalı yerləri cəhr ilə oxumaq; tadili ərkan ilə qılmaq; namazda oxuduqda və ya imamdan eşitdikdə tilavət səcdəsi etmək; səcdəi-səhv etmək; dörd rükətli fərz namazlarda qadəi ulada təhiyyat oxuduqdan sonra dərhal qalxmaq; hər bir halda imama tabe olmaq; üzrü yoxdursa, fərzləri camaatla qılmaq; Qurban bayramının ərəfə gününün sübh namazından bayramın dördüncü gününün əsr namazına qədər 23 fərz namazın sonunda **"təkbiri təşrik"** oxumaq.

**NAMAZIN SÜNNƏTLƏRİ.** Hənəfi məzhəbində namazın sünnətləri bunlardır:

İftitah təkbirində və vitrin kunut təkbirində kişilərin əllərini qulaqlarının yumşaq yerinə, qadınların çiyin bərabərinə qaldırması; iftitah və kunut təkbirlərində ovucların qibləyə doğru yönəldilməsi; qiyamda sağ əlin baş və incə barmaqları ilə sol əlin biləyinin bağlanması; qadınların sağ əlini sol əlin üzərinə qoyması; kişilərin əllərini göbəyin altında, qadınların isə sinələri üstündə bağlaması; hər namazın birinci rükətində istər imamın, istər camaatın, istərsə də tək qılanın **"Sübhanəkə"** oxuması; imamın və tək qılanın Sübhanəkədən sonra Əuzü və Bəsmələ oxuması; imamın və yalnız qılanın bütün rükətlərdə Fatihəi şərifənin əvvəlində Bəsmələ oxuması; imam **"Vələddallin"** dedikdə, imamın və camaatın, eləcə də tək qılan özü Fatihəi şərifəni bitirdikdə yavaşca "Amin" deməsi; qiyamdan rükuya əyilərkən təkbir gətirmək; rükuda əlləri dizlərin üstünə qoyub, barmaqları açmaq; rükuda üç dəfə **"Sübhanə rabbiəl azım"** demək; rükuda bel ilə başı bir səviyyədə tutmaq; imamın və tək qılanın rükudan qalxarkən **"SəmiAllahü limən hamidəh"** deməsi; camaatın və tək qılanın rükudan qalxdıqdan sonra **"Rabbənə ləkəl hamd"** deməsi; qiyamdan səcdəyə enərkən **"Allahü Əkbər"** demək; səcdədə üç dəfə **"Sübhanə rabbiəl alə"** demək; birinci səcdədən qalxdıqda, səcdəyə endikdə **"Allahü Əkbər"** demək; səcdədə əl barmaqlarını bitişdirmək; kişilərin səcdədə dizlərini yerə qoyub budlarını qarından aralı tutması; qadınların budlarını qarınlarına bitişdirməsi; ikinci səcdədən qalxarkən **"Allahü Əkbər"** demək; kişilərin sağ ayağını dik tutub, sol ayağın üzərinə oturması; kadeyi axirədə, yəni son oturuşda salavat duasını oxumaq; sağa və sola salam verərkən başı döndərmək; təhiyyatda əlləri dizlərin ucuna bərabər tutub, barmaqları sərbəst saxlamaq; səcdədə əl və ayaq barmaqlarını qibləyə doğru çevirmək; səcdəyə getdikdə əlləri qulaqla eyni məsafədə tutmaq; yeddi əza üzərinə səcdə etmək; dörd rükətli fərzlərin son iki rükətində yalnız Fatihəi şərifə oxumaq; sünnətə uyğun azanı Muhammədi oxumaq; istər camaatla qılınsın, istərsə də tək, fərzlərdə kişilərin iqamə söyləməsi.

**NAMAZIN MÜSTƏHƏBLƏRİ:** Hənəfi məzhəbində namazın müstəhəbləri bunlardır:

Müəzzin iqamədə **“Hayyə aləssaləh”** dediyi zaman camaatınləngimədən qalxması; iftitah və vitr namazının kunut təkbirlərində kişilərin baş barmaqlarını qulaqlarının yumşaq yerinə toxundurması; qiyamda əlləri bağladıqda biləyini sıxaraq tutmaq; qiyamda səcdə yerinə baxmaq; rükuda və səcdədə ya beş, ya da yeddi dəfə təsbih demək; rükuda ayaqları üzərinə baxmaq; rükuda ayaqları bitişdirmək; qiyama qalxdıqda sol ayağı sağ ayaqdan aralamaq; alından əvvəl burunu yerə qoymaq; səcdədə burunun iki tərəfinə baxmaq; salam verərkən çiyinlərin ucuna baxmaq; imamın sol tərəfində olan şəxsin salam verərkən imama, qoruyucu mələklərə və camaata niyyət etməsi; imamın sağında olan şəxsin qoruyucu mələklərə və camaata niyyət etməsi; sağında və solunda heç kim yoxdursa, yalnız mələklərə niyyət etmək; namaz içində təri silməmək; öskürməmək; əsnəməmək; təhiyyatda oturduqda baldırları üzərinə baxmaq; imamın namazdan sonra üzünü camaata döndərməsi.

**NAMAZIN ƏDƏBİ:**

1-Yalnız qılan və ya imamla qılanın salamın ardınca **“Allahümmə əntəssələmü və minkəssələmü təbaraktə yə zəl-cələli vəl-ikram”** deməsi; bundan sonra üç dəfə **“Əstəğfirullahəl azım əlləzi lə iləhə illə hüv əlhayyəl qayyümə və ətübü ileyh”** deməsi. Buna **“İstiğfar duası”** deyilir. Dəstəmazsız oxumaq da olar.

2-Bundan sonra **“Ayətəl kürsi”** oxumaq.

3-Otuz üç dəfə **“Sübhanallah”** demək.

4-Otuz üç dəfə **“Əlhamdülillah”** demək.

5-Otuz üç dəfə **“Allahü Əkbər”** demək.

6-Bir dəfə **“Lə iləhə illallahü vahdəhü lə şərikələh ləhül mülkü və ləhülhamdü və hüvə alə külli şəy`in qadir”** demək.

7-Qolları irəli uzadıb, əlləri duanın qibləsi olan Ərşə açıb səmimiyyətlə dua etmək.

8-Camaat ilə qılınırsa, duanı gözləmək.

9-Duanın sonunda **“Amin”** demək.

10-Duanın xitamında əli üzə sürmək.

11-Sonra hər birində Bəsmələ deyərək on bir **“İxlası şərif”** oxumaq. Bunu əmr edən Hədisi-şərif **“Bəriqa”** kitabının birinci cildinin sonuncu səhifəsində yazılmışdır. Sonra bir dəfə **“Qul əuzü”** surələrini oxumaq və 67 **“Əstağfirullah”**deyərək yetmişə tamamlamaq, on dəfə **“Sübhənallah və bi-hamdihi sübhənallahil azım”** demək. Sonra **“Sübhanə Rabbikə”** ayəsini oxumaq. Bunlar **“Merak-ıl fələh”** kitabında yazılmışdır.

Hədisi-şərifdə buyrulmuşdur: **“Beş vaxt fərz namazdan sonra edilən dua qəbul olur”**. Lakin dua oyanıq qəlb ilə və səssiz edilməlidir. Duanı yalnız namazlardan sonra etmək və ya müəyyən şeyləri əzbərləyib şer kimi

dua etmək məkruhdur. Dua bitdikdə əlləri üzə sürmək sünnətdir. Rəsulullah (sallallahü aleyhi və salləm) təvafda, yeməkdən sonra və yatarkən də dua edərdi. Bu dualarında qollarını irəli uzatmaz və əllərini üzünə sürməzdi. Duanın və hər zikrin səssiz olması daha yaxşıdır. Duaları və istiğfarı dəstəmazlı oxumaq müstəhəbdir. Təriqətçilərin etdikləri kimi rəqs etmək, fırlanmaq, əl çırpmaq, dəf, təbil, ney, saz çalmaq sözbirliyi ilə (yekdilliklə) haramdır. Göründüyü kimi, camaatın imamla birlikdə səssizcə dua etməsi daha yaxşıdır. Ayrı-ayrı dua etmələri və ya dua etmədən qalxıb getmələri də caizdir. **"Hindiyyə"** fitvasında deyilir ki, "Son sünnəti olan namazlarda salam verdikdən sonra imamın oturmağı məkruhdur. Sağa, sola və ya bir az geriyə çəkilib dərhal son sünnəti qılmalıdır. Yaxud dərhal gedib evində qılmalıdır. Camaat və yalnız qılan oturduğu yerdə qalıb dualarını edə bilər. Yaxud oturduğu yerdə, sağda, solda və ya bir az geriyə çəkilərək son sünnəti qılmaları da caizdir. Son sünnəti olmayan namazlarda imamın oturduğu yerdə qibləyə qarşı qalmağı məkruhdur, bidətdir. Qalxıb getməli və ya camaata tərəf dönməli, yaxud da sağa, sola dönüb oturmalıdır".

**NAMAZDAN SONRA DUA:** Əlhamdülillahi Rabbil aləmin. Əssalətü vəssələmü alə rasulinə Muhammədin və Alihi və Sahbihi əcmain. Ya Rəbb! Qıldığım namazı qəbul eylə! Axır və aqibətimi xeyir eylə! Son nəfəsimdə Kəlimeyi-təvhid söyləməmi nəsib eylə! Ölmüşlərimi əfv və məğfirət eylə! Allahümməğfir vərham və əntə hayrürrahimin. Təvəffəni müslimən və əlhıqni bissalihin. Allahümməğfirli və li-valideyyə və li-üstaziyyə və lilmümininə vəl müminat yəvmə yəqumül hısəb. Ya Rəbb! Məni şeytan şərindən, düşmən şərindən və nəfsimin şərindən mühafizə eylə! Evimizə yaxşılıqlar, halal və xeyirli ruzilər ehsan eylə! Əhli islama salamatlıq ehsan eylə! Müsəlman düşmənlərini cəzalandır və pərişan et! Kafirlərlə cihad edən müsəlmanlara yardım eylə! Allahümmə innəkə afüvvün kərimün tuhibbül afvə fafü anni. Ya Rəbb! Xəstələrimizə şəfa, dərdli olanlarımıza dəva ehsan eylə! Allahümmə inni əs`əlükəssıhhatə vəl-afiyətə vələmanətə və hüsnəlhulkı vərridaə bilqadəri bi-rahmətikə ya ərhamərrahimin. Anama, atama, övladlarıma, əqraba və dostlarıma, və bütün din qardaşlarıma xeyirli ömürlər, gözəl əxlaq, sağlam düşüncə, sağlamlıq, doğru yol və istiqamət nəsib eylə, ya Rəbb! Amin! Vəlhamdülilləhi rabbiləmin. Allahümmə salli alə..., Allahümmə bərik alə..., Allahümmə rabbənə ətinə... Vəlhamdü lilləhi Rabbil aləmin. Əstağfirullah, əstağfirullah, əstağfirullah, əstağfirullahəl azım əlkərim əlləzi lə iləhə illə huv əl-hayyəl-qayyumə və ətübü ileyh.

**NAMAZIN MƏKRUHLARI:**

1. Boynunu əyərək iki yanına baxmaq.
2. Üzərindəki hər hansı bir şeylə oynamaq.

3. Üzrlü səbəb olmadan səcdə yerini əlləri ilə silmək.

4. Kişilərin ayaq üstə durarkən əllərini sinələri üstünə, səcdədə isə sinələri bərabərində tutması.

5. Barmaqları çırtıldatmaq (şaqqıldatmaq).

6. Üzrlü səbəb olmadan bardaş qurub oturmaq.

7. Səcdədə bir ayağını qaldırmaq.

8. Böyüklərin yanına çıxa bilməyəcəyi kirli geyim ilə namaz qılmaq.

9. İnsan üzünə qarşı namaz qılmaq.

10. Atəşə qarşı qılmaq.

11. Bədəndə və geyimdə rəsm olması.

12. Üzrsüz əsnəmək.

13. Əllərini paltarın qollarından çıxarmadan qılmaq.

14. Köpəklər kimi baldırlarını dik tutaraq oturmaq.

15. Gözlərini yummaq.

16. Əllərini qiblədən çevirmək.

17. Camaat namazı qıldıqda öndə boş səf olduğu halda arxa səfdə qılmaq. Əgər yanında kimsə varsa tənzihən məkruh*, yalnızdırsa tahrimən məkruhdur*. Bu halda vacibi tərk etmiş olur. Nöqsanın düzəldilməsi üçün o namazın iadə edilməsi, yəni yenidən qılınması lazımdır.

18. Önündə pərdə olmadan qəbrə qarşı qılmaq.

19. Nəcasətə qarşı qılmaq.

20. Bir kişi ilə bir qadının yan-yana durub başqa namaz qılması.

21. Ayaq yolu ehtiyacı ola-ola, sıxıntılı namaz qılmaq.

22. Rükudan qalxıb dikəldikdən sonra, səcdəyə gedərkən üzrsüz olaraq öncə əlləri yerə qoymaq.

23. Bir rükndə iki dəfə bir yerini qaşımaq. (Əgər bir rükndə əlini qaldıraraq üç dəfə qaşısa, namaz pozulur.)

24. İmamdan əvvəl rükuya getmək.

25. İmamdan əvvəl rükudan qalxmaq.

26.İmamdan əvvəl səcdəyə getmək.

27. İmamdan əvvəl səcdədən qalxmaq.

28. Üzrsüz bir şeyə söykənib qılmaq.

29. Səcdədən qalxarkən əllərdən əvvəl dizləri qaldırmaq.

30. Üzdə və gözdə olan tozları silmək.

31. İkinci rükətdə əvvəlki rükətdə oxuduğu surədən sonrakı surəni buraxmaq.

32. Birinci və ikinci rükətlərdə eyni surəni oxumaq və ya bir rükətdə eyni surəni iki dəfə oxumaq. (Nafilə namazda caizdir.)

---

* tənzihən məkruh-görülməməsi görülməsindən daha yaxşı olan işlərdir.
* tahrimən məkruh-harama yaxın olan məkruhlardır.

33. İkinci rükətdə birincidə oxuduğu surədən əvvəlki surəni oxumaq.
34. İkinci rükətdə birinci rükətdə oxuduğu surədən 3 ayə çox surə oxumaq.
35. Üzrlü səbəb olmadan bir yerə söykənərək əyilmək və ya qalxmaq.
36. Milçək qovmaq.
37. Qolları çırmanmış, çiyinləri, ayaqları açıq vəziyyətdə namaz qılmaq.
38. Səhrada sütrəni (cisim) tərk etmək.
39. Keçid yerində namaza durmaq.
40. Rükuda və səcdədə təsbehləri barmaqla saymaq.
41. İmamın, mehrabda olarkən, bir pərdə çəkildiyi zaman tamamilə onun arxasında qalacaq şəkildə mehrabın içində durması.
42. İmamın yalnız olaraq camaatdan bir zradan artıq, yəni təqribən yarım metr yüksəkdə və ya aşağıda durması.
43. İmamın mehrabdan başqa yerdə durması.
44. Namaz arasında "Amin"i yüksək səslə söyləmək.
45. Qiyamda oxuduğunu rükuda tamamlamaq.
46. Rükuda oxuduğunu qiyamda tamamlamaq.
47. Üzrsüz olaraq bir ayaq üstə durmaq.
48.Namazda yellənmək.
49.Dişləməyən birə və bənzərini öldürmək.
50. Namazda olarkən bir şeyi iyləmək.
51. Başı açıq namaz qılmaq. Hacılar ehramda olarkən başı açıq qılırlar.
52. Qolları açıq şəkildə namaza durmaq.
53. Ayaqları çılpaq olaraq namaza durmaq. (Qadınların ayağı açıq namaz qılması bir qavlə görə məkruhdur. İkinci qavlə görə namazı pozur.) Məsciddə ayaqqabı və bənzərlərini arxada qoymağın məkruh olduğu İbni Abidində 439-cu səhifədə yazılmışdır. Önə və sağa deyil, sol tərəfə qoymağın sünnət olduğu **"Bəriqa"** kitabında yazılmışdır.

Fərzlə son sünnət arasında dua və zikr etmənin məkruh olduğu **"Tərqib-üs-salat"** kitabında yazılmışdır.

*Kim tapar zor ilə maqsuduna həmişə zəfər?*
*Gələr əlbət zühura nə isə hökmü qədər.*

**NAMAZI POZAN ŞEYLƏR:** Bilərəkdən və ya səhvən namazı pozan şeylər Hənəfi məzhəbində 55-ə qədər bəyan olunur:

1. Dünya kəlamı söyləmək.
2. Özü eşidəcək qədər gülmək.
3. Əməli kəsir deyilən şeyi etmək. (Əməli kəsir, namaz qılarkən bir rükündə namazdan sayılmayan və bir üzvlə ard-arda edilən üç hərəkət və ya iki əl ilə edilən bir hərəkətdir.)
4. Fərzlərdən birini üzrsüz tərk etmək.

5. İxtiyarsız fərzin birini tərk etmək.

6. Dünya işi üçün yüksək səslə ağlamaq.

7. Üzrsüz boğazını arıtlamaq, öskürmək.

8. Saqqız çeynəmək.

9. Bir rükndə üç dəfə bir yerini qaşımaq, yaxud əlini qaldıraraq bir-birinə vurmaq.

10. Əllə görüşmək.

11. Özü eşidəcək qədər səslə iftitah təkbirini almamaq.

12. Özü eşidəcək qədər oxumamaq.

13. Biri çağırdıqda, **"Lə havlə vələ quvvətə illə billahil-aliyyilazım"**, və ya **"Sübhanallah", "Lə iləhə illəllah"** demək. Namazda olduğunu bildirmək üçün söylənsə, namaz pozulmaz. Soruşana cavab məqsədi ilə söylənsə, pozular.

14. Qəsdlə salam almaq.

15. Ağızda olan şəkər kimi şeylərin dadını duyub, suyunun boğaza qaçması.

16. Açıq havada namaz qılarkən, ağzını havaya açdıqda yağan yağışın və ya dolunun boğaza qaçması.

17. Heyvanın cilovunu (yedək, xalta) üç dəfə dartmaq.

18. Üç dəfə əlini qaldırmaq, yaxud üç dəfə əzərək birə və bənzərini öldürmək.

19. Bir rükndə üç qıl qoparmaq.

20. Üç hərf olaraq yuf, püf kimi sözlər demək.

21. At üstündə islamiyyətə uyğun olaraq namaz qılarkən, bir ayağı ilə üç dəfə üzəngini dürtmək.

22. İki ayağı ilə bir dəfə üzəngini dürtmək.

23. İmamdan irəlidə durmaq.

24. Üzrsüz olaraq bir səf qədər yürümək.

25. Saçını və saqqalını daramaq.

26. İmam kişiylə qadın üçün imamətə niyyət etdikdə, kişi və qadının bir sırada durub imama uyaraq yan-yana namaz qılması. (Eyni səfdə, yəni yan-yana olmazlarsa və ya aralarında pərdə varsa caizdir. Qadınların və qızların məscidə getmək üçün və ya hər hansı bir səbəbdən başları, qolları, bir sözlə övrət yerləri açıq şəkildə küçəyə çıxmaları haramdır. Bu halda etdikləri ibadətləri savab deyil, böyük günah olar.)

27. Öz imamından başqasına fəth etmək, yəni imam qiraətdə dursa, oxumasına yardım etmək.

28. Bir qadın heç kəs olmayan yerdə imama uyarsa, sonradan gələn camaatın təşkil etdikləri səflər o qadının olduğu yerə qədər yayılsa, onun sağında, solunda və arxasında namaz qılmalı olan üç nəfərin namazı pozulur.

29. Uşağını qucaqlamaq.

30. Bir şey yemək və ya içmək.

31. Dişin arasında qalan noxud boyda şeyi udmaq.

32. İki əllə paltarın yaxasını birləşdirmək, başdakı örtüyü əllə çıxarmaq, yaxud çıxarıb geyinmək.

33. Bir müsibət eşitdikdə, **"İnnə lillah və innə ileyhi raci-un"**, demək.

34. Bir xoş xəbər eşitdikdə, **"Əlhamdülilləh"** demək.

35. Bir qavlə görə, kimsə namaz içində asqırıb **"Əlhamdülilləh"** deyərsə.

36. Yanındakının asqırmağına **"Yərhamükəllah"** demək.

37. Başqası asqıranda **"Yəhdikümüllah"** demək.

38. Ərin namaz qılan xanımını öpməsi.

39. Namaz içində dua edərkən qızıl, gümüş və digər dünya sərvətlərinə aid bir şey istəmək.

40. Sinəni qiblədən döndərmək. Qiblə cəhətini iki yolla bilmək olur: 1.Qiblə yönü ilə. 2.Qiblə saatı ilə. 1-Xəritə üzərində bir şəhər ilə Məkkə arasında bir xətt çəkilsə, onun istiqaməti **"Qiblə xətti"** olur. Onun cənubdan fərqi **"Qiblə yönü"** olur. 2-Təqvimdə yazılmış **"qiblə saatı"** vaxtında günəşə tərəf dönən, qibləyə dönmüş olur. Bir saatı üzü səmaya doğru, əqrəbi günəşə doğru tutduqda, əqrəblə 12 arasındakı bucağın orta xətti cənubu göstərir.

41. Səcdədə iki ayağı yerdən qaldırmaq.

42. Quranı mənası pozulacaq qədər səhv oxumaq.

43. Qadının uşağını əmizdirməsi.

44. Başqasının sözü ilə yerini dəyişdirmək.

45. Heyvana üç qamçı vurmaq.

46. Bağlı qapını açmaq.

47. Üç hərfə qədər yazı yazmaq.

48. Üst geyimi geymək.

49. Qəza namazı altıdan az olduqda, bunları namaz içində xatırlamaq.

50. Gəmidə, vaqonda və heyvan üzərində üzrlü olaraq fərz namazı qılarkən qiblədən başqa yerə dönmək.

51. Heyvanın üzərinə yük qoymaq.

52. Qəlbən mürtəd olmaq.

53. Cünub olmaq və ya qadının adət halında olması.

54. İmam dəstəmazının pozulduğunu zənn edərək yerinə başqasını keçirsə.

55. Mənanı pozacaq dərəcədə hərfləri dəyişdirməklə Qurani-kərim oxumaq. (İbni Abidin (rahimə-hullahü təala) namazın sünnətlərini anlatmağa başlayarkən deyir ki, "Namaz xaricindəkinə uyaraq qılınan namaz səhih olmaz. İmamın və müəzzinin camaata eşitdirəcək miqdardan artıq səs çıxarmaları məkruhdur. İmam və müəzzin namaza durmaq üçün təkbir alarkən, namaza başlamağa niyyət etməlidir. Yalnız camaata eşitdirməyi niyyət etsələr, namazları səhih olmaz. Onlara uyanların da namazları səhih olmaz. İmamın səsi çatdığı halda müəzzinin də namaz içindəki təkbirləri

söyləməsi məkruhdur və çirkin bidətdir. Ehtiyac olduqda söyləməsi müstəhəb olsa da, təğənni etməyi düşünərsə, namazı pozular". Buradan da aydın olur ki, imamın və müəzzinin səs gücləndirici ilə camaata səslərini eşitdirmələri həm camaatın namazını pozar, namazları səhih olmaz, həm də çirkin bidət olar. Bidət işləmək böyük günahdır. Başqa yerdə namaz qıldırarkən televizorda görülən və səsi də eşidilən imama uymağın səhih olmadığı Hindistan alimlərinin Malappuram şəhərində çıxardıqları **"Əl-muallim"** məcmuəsinin Rəbbiul-əvvəl 1406 və Dessembr (dekabr) 1985 tarixli, on iki saylı nüsxəsində dəlillərlə yazılmışdır.)

**NAMAZI POZMAYANLAR:** Öndə boş səf olduqda, bir və ya iki addım yürüyərək o yerə çatmaq mümkün olarsa; başqasına cavab olmaması məqsədilə amin demək; qaşla və ya gözlə kiminsə salamını almaq; birisi gəlib neçə rükət qılındığını soruşduqda, ona barmaqlarla işarə etmək.

Salət, lüğətdə Allahü azım-üş-şandan rəhmət, mələklərdən istiğfar və möminlərdən dua etməyə deyilir. Termin olaraq mənası, əf-ali malumə (bəlli işlər) və ərkanı maxsusa (xüsusi rüknlər) deməkdir ki, buna da dilimizdə namaz qılmaq deyilir. Əfali malumə, namazın xaricində etdiyimiz əməllərə, ərkanı mahsusa, namaz içində olan rüknlərə deyilir ki, ancaq namaza məxsusdur.

Bir gün Rəsulullah (sallallahü aleyhi və səlləm) Həzrət Əli (kərəmallahü vəchəhü və radıyallahü anh) həzrətlərinə səadətlə: **"Ya Əli! Sənin namazın fərzinə, vacibinə, sünnətinə, müstəhabına riayət etmən gərəkdir"** buyurduqlarında, ənsardan bir zat dedi ki, "Ya Rəsulallah! Həzrət Əli bunların hamısını bilir. Bizə bir namazın fərzinə, vacibinə, sünnətinə, müstəhabına riayət etməyin fəzilətini bəyan buyur. Biz də ona uyğun əməl edək". Rəsulullah (sallallahü aleyhi və səlləm) həzrətləri buyurdu ki: **"Ey mənim ümmətim və Əshabım! Namaz, Allahü azım-üş-şanın xoşladığıdır. Mələklərin sevdiyidir. Peyğəmbərlərin sünnətidir. Elmin nurudur. Əməlin ən yaxşısıdır. Bədənin qüvvətidir. Ruzinin bərəkətidir. Canın nurudur. Duanın qəbuludur. Ölüm mələklərinə şəfaətcidir. Qəbirdə çıraqdır. Münkər və Nəkir həzrətlərinə cavabdır. Qiyamət günündə üzərinizə kölgədir. Cəhənnəm ilə aranızda pərdədir. Sıratı ildırım sürətiylə keçirəndir. Cənnətdə başınıza tacdır. Cənnətin açarıdır."**

*İnsanın şərəfi elm və ədəblədir.*
*Sanma ki, şərəf, mal və nəsəblədir!*

## CAMAAT NAMAZININ FƏZİLƏTİ

Camaatla qılınan iki rükət namazın savabı, yalnız qılınan iyirmi yeddi rükət namazdan daha çoxdur.

Bir rəvayətə görə, camaat namazının savabı yalnız qılınan min rükət namazdan daha artıqdır. Camaat namazının savabı çoxdur. Bunlardan bir neçəsi bəyan edilmişdir:

1. Möminlər bir araya gəldikdə, bir-birlərinə məhəbbət əmələ gəlir.
2. Cahillər alimlərdən namazın məsələlərini öyrənirlər.
3. Bəzisinin namazı qəbul olur və bəzisinin namazı qəbul olmazsa, qəbul olanların hörmətinə qəbul olmayanların namazı da qəbul olur.

Hədisi-şərifdə: **"Ey ümmətim və Əshabım! Sizin üçün iki yol qoydum: Biri Qurani azım-üş-şan, digəri sünnətimdir. Bunlardan başqa yol tutan kimsə ümmətim deyildir!"**, buyruldu. [Abdülqani Nablüsi (rahimə-hullahü təala) **"Hadika"** kitabının 99-cu səhifəsində deyir ki: "Allahü təala, islamiyyətin bir qismini Qurani-kərim ilə bildirdiyi kimi, bir qismini də Peyğəmbərinin (sallallahü təala aleyhi və səlləm) sünnəti ilə bildirmişdir. Rəsulullahın sünnəti, Onun inandıqları, söylədikləri, etdikləri, əxlaqı və birinin sözü və ya işi qarşısında susması (beləcə, qəbul etdiyinin anlaşılması)dır". Bu Hədisi-şərif, **Ədilləi şəriyyədən** (şəriət dəlilləri) ikincisini göstərməkdədir.]

## NAMAZDA İMAMƏT

İmama uyanlar dörd növdür. Bunlar Müdrik (ağıllı), Müqtədi (uyan, itaət edən), Məsbük (keçmiş) və Lahıq (yetişən, çatan deməkdir) adlanır.
1. Müdrik, iftitah təkbirini imamla birlikdə alana deyilir.
2. Müqtədi, iftitah təkbirinə yetişə bilməyənə deyilir.
3. Məsbük, imam rükətlərdən birini və ya ikisini qıldıqdan sonra imama uymuş olana deyilir.
4. Lahıq, iftitah təkbirini imamla bərabər almış, lakin sonra onda dəstəmazı pozan hal baş verdiyindən dəstəmaz alıb yenidən imama uyana deyilir. Bu şəxs, yenə əvvəlki kimi qiraətsiz, rüku və səcdə təsbehlərini deyərək namazını qılar. O şəxs, əgər dünya kəlamı söyləməyibsə, imamın ardındakı kimidir. Lakin məsciddən çıxdıqdan sonra lap yaxın yerdə dəstəmaz almalıdır. Çox uzağa gedərsə, namazı pozular deyən alimlər vardır.

Bir şəxs, məscidə gəldiyi zaman imam rükuda olsa və rükuya çatmaq məqsədi ilə tələsərək iftitah təkbirini rükuya əyilərkən alsa, imama uymuş olmaz. İmamı rükuda gördükdə, imama uymağa niyyət edib, təkbiri ayaq üstə alıb, sonra rükuya gedər və imamın beli ilə bərabər olub təsbih edərsə, o rükətə çatmış olar. Amma rükuya gedərkən imamın beli düzəlsə, o rükətə yetişmiş olmaz.

## NAMAZDA TADİLİ ƏRKAN

Namazın beş yerində tadili ərkanı unutmadığı halda bilərək tərk etmək, İmam Əbu Yusifə görə (rahimə-hullahü təala) namazı pozur. İmam Azam və imam Muhammədə görə pozmur. Lakin vacib qəsdən tərk edildiyinə görə, nöqsanın düzəldilməsi üçün namazı iadə etmək lazımdır. Unudaraq tərk edilsə, **"Səcdəi-səhv"** etmək lazımdır.

**Tadili ərkanın tərk edilməsinin iyirmi altıya qədər zərəri var:**
1. Kasıblığa səbəb olur.

2. Axirət alimləri o insana qəzəblənər.

3. Adilliyini itirər, şahidliyi qəbul olunmaz.

4. Namaz qıldığı məkan qiyamət günü əleyhinə şəhadət edər.

5. Bir şəxs tadili ərkansız namaz qılarkən, kimsə görüb söyləməsə günahkar olar.

6. O namazın təkrar qılınması vacib olar.

7. İnsanın imansız ölməsinə səbəb olar.

8. Namazın oğrusu olar.

9. Qıldığı namazı Hesab günü köhnə əski kimi üzünə çırpılar.

10. Allahü təalanın mərhəmətindən məhrum olar.

11. Allahü təalaya duada ədəbsizlik etmiş olar.

12. Namazın əlavə savabından məhrum olar.

13. Digər ibadətlərin savabının verilməməsinə səbəb olar.

14. Cəhənnəmə layiq olar.

15. Cahillərin onu görüb, tadili ərkanı tərk etmələrinə səbəb olar. Buna görə də, din adamının günah işləməsi daha çox əzab çəkməsinə səbəb olur.

16. İmamına müxalif etmiş olar.

17. Namazlardakı rüknlar arasındakı keçidlərdəki sünnətləri tərk etmiş olar.

18. Allahü azım-üş-şanın qəzəbinə düçar olar.

19. Şeytanı sevindirmiş olar.

20. Cənnətdən uzaq olar.

21. Cəhənnəmə yaxın olar.

22. Öz nəfsinə zülm etmiş olar.

23. Nəfsini kirləndirmiş olar.

24. Sağında və solunda olan mələklərə əziyyət etmiş olar.

25. Rəsulullahı (sallallahü aleyhi və səlləm) kədərləndirmiş olar.

26. Bütün məxluqata zərəri toxunar. Belə ki, o şəxsin günahı ucbatından yağışlar yağmaz, yerdə əkinlər bitməz və vaxtsız yağış yağıb, fayda yerinə ziyan vermiş olar.

## SƏFƏRDƏ NAMAZ

**"Neməti islam"** da deyilir ki, nafilə namazları ayaq üstə qılmağa gücü çatdığı halda, oturaraq qılmaq hər zaman və hər yerdə caizdir. Oturaraq qılarkən, rüku üçün bədən ilə əyilmək, səcdədə başı yerə qoymaq lazımdır. Lakin üzrsüz səbəbdən nafilə namazlarını oturaraq qılana, ayaq üstə qılanın yarısı qədər savab verilir. Beş vaxt namazın sünnətləri və təravih namazı da nafilə namazdır. Yolda, yəni şəhər, kənd xaricində nafilə namazları heyvan üzərində qılmaq caizdir. Qibləyə dönmək, rüku və səcdə etmək lazım deyil. İşarə ilə qılınır. Yəni rüku üçün bədəni bir az əymək, səcdə üçün bundan daha çox əymək lazımdır. Heyvan üzərində nəcasətin çox olması namaza mane olmur. Yerdə nafilə qılarkən yorulanın əsaya, in-

sana, divara söykənib qılması caizdir. Özü gəzərək namaz qılmaq səhih deyildir. Fərz və vacib namazları, şəhərdən kənarda, ancaq üzrlü səbəb olduqda heyvan üstündə qılmaq olar. Üzrlü səbəblərə, heyvandan endiyi halda yoldaşları gedib, tək qalmaq; canı, malı və heyvanı üçün oğru qorxusu olarsa; yerin palçıq olması; heyvana minməkdə aciz olmaq kimi şeylər aiddir. Mümkündürsə, heyvanı qibləyə qarşı döndərib qılmaq lazımdır. Mümkün deyilsə, hərəkət cəhətlərində qılınmalıdır. Heyvan üzərindəki sandıq kimi şeylərin içində qılmaq da belədir. Heyvan durdurulub sandığın altına dirək qoyulsa, **"Sərir"**, yəni masa, divan kimi olub, yerdə qılmaq deməkdir. Bu zaman namaz üzü qibləyə , ayaq üstə qılınmalıdır.

Gəmidə namaz qılmaq: Cəfər Tayyər həzrətləri Həbəşistana gedərkən, Rəsulullahın ona öyrətdiyi kimi belədir: Hərəkət edən gəmidə üzrlü səbəb olmadan, fərz və vacib də qılınır. Gəmidə camaatla qılmaq olar. Hərəkət edən gəmidə də işarə ilə qılmaq caiz olmayıb, rüku və səcdə edilir. Qibləyə dönmək də lazımdır. Namaza başladıqda üzü qibləyə durulur, gəmi döndükcə namaz qılan da qıbləyə dönər. Gəmidə nəcasətdən təmizlənmək də lazımdır. Hənəfi məzhəbində, gedən gəmidə fərzləri də üzrsüz olduğu halda yerdə oturaraq qılmaq caizdir.

Dənizin ortasında lövbər salmış gəmi çox yellənirsə, gedən gəmi kimidir. Az yellənirsə, sahildə duran gəmi kimidir. Sahildə duran gəmidə fərzlər oturaraq qılına bilməz. Sahilə çıxmaq mümkündürsə, ayaq üstə də qılmaq səhih olmayıb, sahilə çıxıb qılmaq lazımdır. Malı, canı və ya gəminin hərəkət etmək təhlükəsi varsa, gəmidə ayaq üstə qılmaq caizdir. **"Neməti islam"**ın yazısı tamamlandı.

**"İbni Abidin"** deyir: "İki təkərli olub, heyvana bağlanmadan yerdə düz dura bilməyən arabada dayanarkən də, gedərkən də namaz qılmaq heyvan üstündə qılmaq kimidir. Dörd təkərli araba durduqda masa kimidir. Hərəkət etdikdə isə yuxarıda heyvan üçün yazılmış üzrlərlə içində fərz qılına bilər və araba durdurulub üzü qibləyə qılınmalıdır. Durdurmaq mümkün deyilsə, gedən gəmidəki kimi qılınır." Səfəri olub, nəqliyyat vasitəsində yerdə otura bilməyən və ya qibləyə dönə bilməyən, nəqliyyatdan endikdə, şafii və ya maliki məzhəbini təqlid edərək iki namazı birləşdirməlidir. Yerdə otura bilən xəstənin stulda, kresloda oturaraq işarə ilə namaz qılması caiz deyil. Avtobusda, təyyarədə namaz qılmaq, maşında qılmaq kimidir. Səfərə çıxan zaman şəhərin və ya kəndin kənarından etibarən üç günlük, yəni on səkkiz fərsah* = əlli dörd mil [54 x 0,48 x 4 =104 km] uzağa getməyə niyyət edən şəxs, şəhərin kənarından ayrıldığı andan səfəri olur. İbni Abidin, bir mil 4000 zra və bir zra 24 barmaqdır, demişdir. [Bir barmaq, iki santimetrdir. Şafidə və malikidə 16 fərsah=48 mil=48 x 0,42 x 4000=80 km.dir.]

---

* fərsah- beş kilometrlik məsafə

## İFTİTAH TƏKBİRİNİN FƏZİLƏTLƏRİ

Bir şəxs iftitah təkbirini imam ilə bərabər alsa, payız günlərində ağacların yarpaqları külək əsdikcə necə tökülürsə, o insanın günahları da elə tökülər.

Bir gün Rəsulullah (sallallahü aleyhi və səlləm) namaz qılarkən bir nəfər sübh namazında iftitah təkbirinə çata bilmir. Bir qul azad edir. Bundan sonra gəlib Rəsulullaha (sallallahü aleyhi və səlləm) dedi: "Ya Rəsulallah! Mən bu gün iftitah təkbirinə çata bilmədim. Bir qul azad etdim. Bununla mən, iftitah təkbirinin savabına nail ola bildimmi?". Rəsulullah (sallallahü aleyhi və səlləm) Həzrəti Əbu Bəkirdən "radıyallahü təala anh" soruşdu: **"Sən nə deyə bilərsən bu iftitah təkbiri haqqında?"**. Əbu Bəkir Sıddıq (radıyallahü anh) buyurdu: "Ya Rəsulallah (sallallahü təala aleyhi və səlləm)! Qırx dəvəyə malik olsam, qırxının da yükü cəvahir olsa, hamısını kasıblara sədəqə versəm, yenə imamla birgə alınan iftitah təkbirinin savabına nail ola bilmərəm." Ondan sonra, **"Ya Ömər! Sən nə deyə bilərsən bu iftitah təkbiri haqqında?"**, dedikdə, Həzrəti Ömər (radıyallahü anh): "Ya Rəsulallah (sallallahü təala aleyhi və səlləm)! Məkkə və Mədinə arası dolu dəvəm olsa, bunların yükləri cəvahir olsa, cümləsini kasıblara sədəqə versəm, yenə imam ilə bərabər alınmış iftitah təkbirinin savabına nail ola bilmərəm.", dedi. Ondan sonra, **"Ya Osman! Sən nə deyə bilərsən bu iftitah təkbiri haqqında?"**, dedikdə, Həzrəti Osman zin-nureyn* (radıyallahü anh): "Ya Rəsulallah (sallallahü təala aleyhi və səlləm)! Gecə iki rükət namaz qılsam, hər birində Quran-ı azım-üş-şanı xətm etsəm, yenə imam ilə bərabər alınmış iftitah təkbirinin savabına nail ola bilmərəm", dedi. Ondan sonra, **"Ya Əli! Sən nə deyə bilərsən bu iftitah təkbiri haqqında?"**, dedikdə, Həzrəti Əli "kərrəmallahü vəchəh": "Ya Rəsulallah (sallallahü təala aleyhi və səlləm)! Məğrib ilə məşrik arasındakı kafirlə-rin hamısı, müsəlmanları yox etmək üçün hücum etsələr, Rəbbim mənə qüvvət versə, onlarla cihad edib hamısını qətl etsəm, yenə imam ilə alınan iftitah təkbirinin savabına nail ola bilmərəm", dedi.

Sonra Rəsulullah (sallallahü təala aleyhi və səlləm) buyurdu: **"Ey mənim ümmət və Əshabım! Yeddi qat yerlər və yeddi qat göylər kağız olsa, dəryalar mürəkkəb olsa, bütün ağaclar qələm olsa, bütün mələklər katib olsalar və qiyamətə qədər yazsalar, yenə də imam ilə bərabər alınan iftitah təkbirinin savabını yaza bilməzlər".**

Əgər, "Allahü azım-üş-şanın yaratdığı mələklər elə bu qədərdir?", deyə sual olunsa, Rəsulullah (sallallahü təala aleyhi və səlləm) miraca çıxdığı gecə, Cənnət və Cəhənnəmi, beyti mamuru (mələklərin qibləsi) mələklər təvaf edib gedirdilər. Rəsulullah (sallallahü təala aleyhi və səlləm) dedi: **"Ya dostum Cəbrayıl! Bu beyti mamuru təvaf edib gedən mələklər**

* zin-nureyn- iki nur sahibi

**geri dönmür. Onlar hara gedir?”**. Cəbrayıl (əleyhissəlam) dedi: “Ya Həbiballah! Mən xəlq olunduğum gündən bu günə qədər bu beyti mamuru təvaf edib gedən mələklərin geri döndüyünü görmədim. Bir dəfə təvaf edənə qiyamətə qədər bir daha növbə çatmaz”.

Bir şəxs namazda Əuzü Bəsmələ oxuduqda, Allahü azım-üş-şan o qula, bədənindəki qılların sayı qədər savab verir. Bir Fatihəi şərifə oxuduqda, Allahü təala həzrətləri o qula qəbul olmuş həcc savabı verir. Rükuya əyildikdə, Allahü azım-üş-şan o qula, neçə min qızıl sədəqə vermiş savabı; rükuda sünnətə uyğun üç dəfə təsbih dedikdə, o qula Allahü azım-üş-şan həzrətləri göydən enən dörd kitabı və yüz sühufu oxumuş qədər savab verir. **“Səmiallahü limən hamidəh”** dedikdə, o qulu, Allahü azım-üş-şan rəhmət dəryasına qərq edər. Səcdəyə əyildikdə, o qula Allahü azım-üş-şan insanlar və cinlərin sayı qədər savab verir. Səcdədə sünnətə uyğun üç dəfə təsbih dedikdə, o qula, Allahü azım-üş-şanın bəxş etdiyi fəzilət çoxdur. Lakin bir neçəsi bildirilmişdir:

Birincisi, Ərş və Kürsi ağırlığında savab veriləcəyi; ikincisi, Allahü azım-üş-şanın o qulunun günahlarını bağışlayacağı; üçüncüsü, o qul öldükdə, Mikayıl əleyhissəlamın onun qəbirinə qiyamətə qədər davam edəcəyi; dördüncüsü, qiyamət günündə, Mikayıl əleyhissəlamın o qulu mübarək qanadı üzərinə alıb şəfaət edəcəyi və Cənnəti alaya götürəcəyi qüvvətlə ümid edilir.

Son oturuşda oturduqda, Allahü azım-üş-şan o qula səbr edən füqəra, kasıb savabı verir.

Səbr edən kasıbın şükr edən zəngindən beş yüz il əvvəl Cənnətə girəcəyi bildirilmişdir. Şükr edən zənginlər onları gördükdə, nə olardı dünyada ikən səbr edən kasıblardan olardıq deyə təmənnə edəcək.

## CƏNNƏTİ ALİYYAT HAQQINDA

Səkkiz Cənnətin səkkiz qapısı və səkkiz açarı vardır. Birincisi, beş vaxt namaz qılan möminlərin imanıdır. ikincisi, Bəsmələi şərifədir. Altısı da, Fatihəi şərifənin içindədir. Səkkiz Cənnət bunlardır:

1. Darı-cəlal, bəyaz nurdandır.
2. Darı-qərar, qırmızı yaqutdandır.
3. Darı-salam, yaşıl qaşdandır.
4. Cənətül-Huld, mərcandandır.
5. Cənnətül-Məva, gümüşdəndir.
6. Cənnətül-Adn, qızıldandır.
7. Cənnətül-Firdevs, həm qızıldan, həm gümüşdəndir.
8. Cənnətül-Nəim, qırmızı yaqutdandır.

Cənnətə girən möminlər əbədi orada qalacaq, heç çıxmayacaqlar. Orada olan hurilərin aybaşı günləri, lohuzalığı və pis xüsusiyyətləri yoxdur. İstədikləri hər cür yemək və içmək hazır şəkildə önlərinə gələcək. Bişirmək

və dərmək kimi şeylərdən uzaqdırlar. Başları üzərində quşlar uçar. Möminlər imarətlərində oturduqları halda o quşları görərlər. Əgər sən dünyada olarkən mənə bu qədər yaxın gəlsəydin, səni kabab edərdim, deyə qəlbindən keçirdiyi an, nurdan bir qab içində təzə bişmiş şəkildə onun qabağına gələr və quşu yeməyə başlar. Sümüklərini bir yerə yığaraq qəlbindən, bu yenə quş olsaydı, deyə keçirsə, qəlbinə gəldiyi an, o əvvəlki kimi quş olub uçar, gedər.

Cənnətin torpağı müşkdən, binasının bir kərpici gümüşdən, bir kərpici qızıldandır.

Cənnət əhlinin hər birinə yüz igid qüvvəti, eləcə də hər birinə ən az yetmiş huri və iki dünya xatunu veriləcəyi güman edilir.

Cənnətdə dörd böyük çay vardır. Bunların mənbəyi bir, axını ayrı-ayrı olub, birinin ləzzəti digərinə bənzəməz. Onların biri saf su, ikincisi xalis süd, üçüncüsü Cənnət şərabı, dördüncüsü də saf baldır.

Cənnətdə hündür köşklər, imarətlər vardır. Əyildikdə, möminlər onlara minər, istədikləri yerə gedərlər. (Bunların dünyada misalı, indiki zamanda eskolator və təyyarələrdir.)

Cənnətdə Tuba ağacı vardır. Bu ağacın kökləri yuxarıda, qol-budağı aşağıya doğru sallanmışdır. Onun dünyada misalı, ay və günəşdir.

Cənnət əhli, yemək-içmək dadını və ləzzətini duyar, lakin ifrazat ehtiyacı hiss etməzlər. Bu kimi bəşəri ehtiyac və iztirablardan uzaqdırlar.

Allah (cəllə cələlühü), Cənnətdə mömin qullarına müraciət edib: **“Qullarım! Məndən daha nə istəyirsiniz, verim. Siz, zövq və səfada olun!”**, buyurduqda, qullar da, “ya Rəbb! Bizi Cəhənnəmdən azad etdin və Cənnətinə daxil edib, bu qədər huri, qılman və uşaq verdin. Bunlardan başqa, ağla gəlməyən, gözlər görməyən, qulaqlar eşitməyən bu qədər nemət verdin. Daha bir şey istəməyə utanarıq”, deyəcək. Rəbbül-aləmin yenə xitab edib: **“Qullarım! Sizin məndən bunlardan başqa istəyəcəyiniz var”**, buyurduqda, qullar: “ya Rəbb! Daha istəməyə üzümüz yoxdur. Həm də nə istəyəcəyimizi bilmirik”, deyəcək. Rəbbül-aləmin, **“Qullarım! Dünyada sizə bir məsələni həll etmək gərək olduğunda, nə edərdiniz?”**, buyurduqda, qullar: “alimlərə gedər, o məsələni öyrənib çətinliyimizi aradan qaldırardıq”, deyəcək. Haqq sübhanəhü və təala həzrətləri: **“İndi də belə edin. Alimlərə deyin, onlardan xəbər alın! Hər nə xəbər versələr, sizə verim.”**, buyurduqda, alimlər də: “Sizlər Cəmalullahı unutdunuzmu? Dünyada olarkən, Rəbbimiz Cənnətdə məkandan uzaq olduğu halda, camalını bizə göstərəcək, deyə arzu edərdiniz. Elə isə, onu istəyin”, deyəcək. Qullar da Cəmalullahı görmək istədiklərində, Allahü azım-üş-şan, məkandan uzaq olduğu halda, cəmali bəkəmalini göstərəcək. Haqq təalanın cəmali pakını (pak camalını) gördükdə, neçə min il heyran qalacaqlar.

Cənnətdə insanlar imarətlərində oturduqda, ətrafında pəncərələr, önündə meyvələr olacaq. Qullar o meyvələri gördükdə, uzanıb budağı çəkmək və

meyvəni qoparıb yemək istədikdə, oturduğu yerdən durmağa və budağı dartmağa ehtiyac qalmaz. Dərhal oturduğu yerə istədiyi budaq qabağına gələr. Meyvəni qoparıb ağzına qoyar və çeynəyib, hələ ləzzəti boğazına çatmamış, qopardığı yerdən bir başqası bitər. Ağzına qoyduqda, yetişmiş və dadlı olar.

## QƏZA NAMAZLARI

Vaxtında əda edilən (qılınan) namazların fəziləti olduqca çoxdur. Bunlardan bir neçəsi bəyan edilmişdir:

1. İnsanın üzü nurlu olur.
2. Ömrünün bərəkəti olur.
3. Duası qəbul olur.
4. İnsanların xeyirlisi olur.
5. Bütün möminlər onu sevər.

Namazı tərk etməyin, yəni səbəbsiz olaraq, vaxtından sonra qılmağın on beş zərəri vardır. Bu zərərlərin beşi dünyada, üçü vəfat edərkən, üçü qəbirdə, dördü ərasat meydanında, yəni məhşər yerindədir.

Dünyadakı beş zərər:

1. O insanın üzündə nur olmaz.
2. Ömründə bərəkət olmaz.
3. Duası qəbul olmaz.
4. Bir mömin qardaşına edəcəyi duası qəbul olmaz.
5. Etdiyi digər ibadətlərin savabı ona çatmaz.

Səkəratı məvtdə, yəni ölüm anında olan üç zərər:

1. Ac olaraq ölər.
2. Susuz olaraq ölər.
3. Rəzil olaraq ölər. Nə qədər təam yesə doymaz, nə qədər su içsə, bəs etməz.

Qəbirdə olan üç zərər:

1. Qəbiri onu sıxar və sümükləri bir-birinə keçər.
2. Qəbiri atəşlə dolar.
3. Onu bir əjdaha təngə gətirər. O əjdahanın adına Akra deyilir. Onun əlində bir qamçı olar. O qamçıyla bir dəfə vurduqda yerin dibinə keçrər, yenə çıxar, bir daha vurar. Bu hal, qiyamətə qədər belə davam edər. O şəxs bu əzabı qiyamətə kimi çəkər.

Ərasat meydanındakı dörd zərər:

1. Hesabı şiddətli olar.
2. Allahü azım-üş-şanın qəzəbini qazanar.
3. Cəhənnəmə daxil olar.
4. Onun alnına üç sətir yazı yazılar:

Birincisi, bu şəxs, Allahın qəzəbinə layiqdir.

İkincisi, bu şəxs, Allahın haqqını itirəndir.

Üçüncüsü, sən, Allahü azım-üş-şanın haqqını itirdinsə, bugünkü gündə Allahın rəhmətindən uzaqsan.

Namaz dinin dirəyidir. Bir şəxs namaz qılsa, dinin dirəyini qoymuş olar. Bu yolla, üzərinə kölgəlik qurar. Onun altında salamat olar.

Bir şəxs, bir vaxt namazı bilə-bilə tərk etsə və sonra qəza etsə, Cəhənnəmdə bir Hükbə miqdarı, yəni səksən il yanacaq. Bu əzabdan qurtulmaq üçün eyni zamanda tövbə edib yalvarmaq, əfv diləmək də lazımdır.

(Axirətin bir günü bu dünyanın min ili qədərdir. Axirətin illəri buna uyğun hesablanır.)

[Muhammməd Əmin ibni Abidin "(rahmətullahi aleyh) **"Rədd-ül-muxtar"** kitabında buyurur ki, səmavi dinlərin hamısında namaz qılmaq əmr edilmişdir. Adəm əleyhissəlam əsr, Yaqub əleyhissəlam məşrib, Yunus əleyhissəlam İşa namazlarını qılardı. Bütün fərzlərə və haramlara inanmaq imanın şərti olduğu kimi, namaz qılmağın da vəzifə, borc olduğuna inanmaq imanın şərtidir. Lakin namaz qılmaq imanın şərti deyil.

Ağıllı və buluğ yaşına çatmış hər bir müsəlman kişi və qadının, üzrlü səbəbi yoxdursa, hər gün beş dəfə namaz qılmağı fərzdir. Beş vaxt namaz mirac gecəsi fərz oldu. **"Müqaddimət-üs-salət"**, **"Təfsiri Məzhəri"**, **"Hələbi-yi kəbir"**dəki Hədisi-şərifdə buyruldu ki: **"Cəbrayıl əleyhissəlam Kəbə qapısı yanında iki gün mənə imam oldu. İkimiz, fəcr doğarkən (dan yeri ağararkən) sübh namazını, günəş təpədən ayrılarkən zöhr namazını, hər şeyin kölgəsi öz boyu qədər uzandıqda əsr namazını, günəş batarkən (üst kənarı yox olunca) məğrib və şəfəq qaraldıqda İşanı qıldıq. İkinci gün də, sübh namazını hava aydınlandıqda, zöhrü, hər şeyin kölgəsi öz boyunun iki qatı qədər uzandıqda, əsri bundan dərhal sonra, məğribi oruc pozulduğu zaman, İşanı gecənin üçdə biri olduqda qıldıq. Sonra, ya Muhammməd, sənin və keçmiş Peyğəmbərlərin namaz vaxtları budur. Ümmətin, beş vaxt namazın hər birini, bu qıldığımız iki vaxtın arasında qılsınlar, dedi".** Hər gün beş dəfə namaz qılınması əmr olundu. Yeddi yaşındakı uşağına namaz qılmağı əmr etmək anaya, ataya lazımdır. Namazın fərz olduğuna, yəni birinci vəzifə olduğuna inanmayan kafir olur. Fərz olduğuna inansa da, tənbəlliklə qılmayan kafir olmaz, fasiq, yəni günahkar olar. Namaz qılmağa başlayana qədər həbs olunar. Ona heç bir güzəşt, mərhəmət edilməz. Bir namazı vaxtında camaat ilə qılanın, müsəlman olduğu aydın olur. Çünki başqa dinlərdə namaz yalnız qılınır, camaatla qılınmazdı. Həcc də edərdilər. Namaz yalnız bədən ilə edilən ibadət olduğu üçün başqasının yerinə namaz qılınmaz. Zəkat, yalnız mal ilə edilən ibadət olduğu üçün üzrlü səbəbi olmayan şəxs üçün başqası, onun malı ilə və əmri ilə zəkat verə bilər. Həcc həm bədən ilə, həm də mal ilə edildiyinə görə, üzrlü səbəbi olanın yerinə, onun pulu və əmri ilə başqası həccə gedə bilər.

Ölənə qədər heç vaxt oruc tuta bilməyən çox yaşlı bir şəxs, oruc yerinə hər günün orucu üçün kasıba fidyə deyilən malı verə bilər. Fidyə, pul verib qurtarmaq mənasını verir. Namaz üçün fidyə vermək də caiz deyildir. Namaz qıla bilməyən şəxs vəsiyyət edərsə, öldükdən sonra, onun namaz borclarının ödənilməsi üçün qoyduğu maldan fidyə vermək yaxşı olar. Qoyub getdiyi mal ödəmə üçün kifayət etməzsə, **"Dövr"** etmək, (yəni ötürmək, təhvil vermək) caizdir. Dövr-vəfat edən bir müsəlmanın sağlığında qıla bilmədiyi namaz, tuta bilmədiyi oruc və verə bilmədiyi zəkat kimi borclardan qurtulması üçün bir neçə kasıbın ölünün vəlisi tərəfindən verilən fidyəni alıb könüllü olaraq yenidən geri vermək yolu ilə edilən hərəkətdir. Oruc üçün iskat etmək isə vacibdir.

Yay mövsümündə, şimal ölkələrdə, şəfəq yeri qaralmadan dan yeri ağardığı yerlərdə İşa və sübh namazlarının vaxtları başlamadığı üçün, hənəfidə bu iki namazı qılmaq lazım deyil. Böyük müctəhid imam Şafii (rahimə-hullahü təala) lazım olduğuna ictihad buyurmuşdur. Lakin alimlərin çoxuna görə, sübh və İşa namazlarını qılmaq fərz olmaz. Qəza etmək də lazım gəlməz. Çünki hər iki namazın da vaxtı başlamamışdır. Vaxtı gəlmədən öncə qılmaq fərz deyildir. Lakin oruc belə deyil. Bir ölkədə ay göründükdə, hər ölkədə Ramazan başlayar.

Öz məzhəbinə görə bir fərzi icra edərkən və ya bir haramdan qorunarkən **"Harac"**, yəni çətinlik hasil olarsa, harac olmayan başqa bir məzhəbi təqlid edilərək, bu maneədən qurtulmaq lazımdır. Harac, bir işi zəhmətlə icra etmək və ya heç icra edə bilməmək deməkdir. Harac olmayan başqa məzhəb yoxdursa, haraca səbəb olan şey, zərurətlə mövcuddursa, bu fərzi yerinə yetirmək və ya haramdan qorunmaq əfv olunur. Zərurət ilə mövcud deyilsə, yəni bu şeyin mövcud olması vacib deyilsə, bu şey tərk edilərək, haracdan qurtulmaq lazımdır.

Sübh namazına gec gələn, camaatla qılmağı qaçırmamaq üçün sünnəti tərk etməlidir. Vaxtı qaçırmamaq üçün sünnəti tərk etməsi daha lazımdır. Camaata çata biləcəksə, sünnəti məsciddən kənarda və ya dirək arxasında qılmalıdır. Belə yer yoxdursa, camaatın yanında qıla bilməz, sünnəti tərk edər. Çünki məkruh işləməmək üçün sünnəti tərk etmək lazımdır.

Üzrlü səbəbdən qılınmayan fərzlərə **"Fəvait" (Faitə)** deyilir ki, mənası qaçırılan namazlar deməkdir. Üzrsüz, tənbəlliklə qılınmayan namazlara **"Mətrukat"**, yəni üzrsüz tərk edilən deyilir. Fiqh alimləri qəzaya qalan namazlara faitələr, yəni üzrlü səbəblə qaçırılan namazlar demişdirlər, səbəbsiz tərk edilən namazlar deməmişdirlər. Çünki namazı üzrsüz vaxtında qılmamaq böyük günahdır. Qəza etməklə bu günah əfv olunmaz. Ayrıca tövbə etmək və ya haccı-məbrur etmək lazımdır. Hacc-ı məbrur, şərtlərinə diqqət edilərək, heç günah işləmədən edilən və qəbul olan həcdir. Qəza etdikdə, yalnız tərk etmək, qılmamaq günahı bağışlanılır. Qəza etmədən edilən tövbə düzgün olmaz. Çünki günahı tərk etmək tövbənin şərtidir.

Namazı vaxtından sonraya saxlamaq üçün beş üzrlü səbəb var:

Birincisi, düşmən qarşısında oturaraq, qiblədən başqa tərəfə dönərək və heyvan üstündə gedərək də qılmağa imkan olmazsa; ikincisi, müsafir yolda oğru, quldur, yırtıcı heyvana yaxalanacaqsa; üçüncüsü, ananın və ya uşağın tələf ola biləcəyi təhlükəsi varsa, həkimin namazı gecikdirməsi; dördüncüsü, namaz qılmağı unutmaq; beşincisi yuxuya qalmaq. Vaxt çıxmadan iftitah təkbiri ala bilmək Hənəfidə, bir rükət qıla bilmək isə Şafidə **"Əda"**, yəni namazı vaxtında qılmaq sayılır.

Fərzləri qəza etmək fərz, vacibləri qəza etmək vacibdir. Sünnətləri qəza edən, sünnət savabı qazanır. Beş vaxt namazın fərzi ilə vitri qılarkən və qəza edərkən, tərtibə riayət etmək, yəni ardıcıllığı gözləmək lazımdır. Lakin vaxtın sonunda lazım olmaz. Yəni qəza qıla bilmək üçün, vaxtın fərzini qəzaya saxlamaq olmaz. Faitə qəza namazı olduğu unudularsa və ya faitə qəzasının sayı altı olarsa, tərtib, yəni ardıcıllıq qüvvəsini itirir. Faitə qəzalarının sayı altıdan aşağı düşərsə, tərtib geri gəlməz. Bunlar da sırasız qılına bilər. Tərtibsiz qılınan fərzlər pozulsalar da, sayı altı olarsa, beşinci vaxt çıxdıqda, hamısı səhih olur. Məsələn, sübh namazını qılmayan şəxs, bunu xatırladığı halda, zöhr, əsr, məğrib, İşa və vitri qılsa, heç biri düzgün olmasa da, ertəsi gün günəş doğduqda, qılmış olduğu beş namazın hamısı səhih olar.

Faitə qəzasına qalmış namazları təcili qəza etmək lazımdır. Yalnız, ailənin yaşayış vəsaitini qazanacaq qədər, eləcə də beş vaxt namazın sünnətlərini, duha, təsbih və təhiyyət-ül-məscid namazlarını qılacaq qədər gecikdirmək caizdir. İbni Abidin, dəstəmazın sünnətlərində deyir ki: "Caiz, qadağan deyil deməkdir. Tənzihən məkruh olan şeyə də caiz deyilir". Bu halda, caiz deyilən şeyi etməmək, adı çəkilən bu sünnət namazlar üçün qəzaları gecikdirməmək lazımdır. Ramazan orucunun qəzası təcili deyil.

Qeyri müsəlman ölkələrdə müsəlman olan, fərz olduğunu bilmədiyi üçün tərk etdiyi namazları, orucları və zəkatları qəza etməz. Lakin İslam ölkəsində olanların fərzləri, haramları bilməməsi üzrlü hal deyil. Mürtəd, imana gələrsə, dinsiz olduğu vaxtlarda qılmadığı namazlarını qəza etməz. Çünki kafirlər ibadətlərdən məsul deyildirlər. Buluğ yaşına çatmamış bir uşaq, İşanı qıldıqdan sonra cünub olsa və dan yeri ağardıqdan sonra oyansa, İşanı qəza etməsi lazımdır. Çünki qılmış olduğu namaz nafilə idi. Yuxuda ikən fərz oldu. Sağlam olarkən qılınmamış namazları, xəstə olduqda təyəmmüm ilə, işarə ilə qəza etmək olar. Qəzaya qalmış dörd rükət fərz, səfəri olduqda da dörd rükət qəza olunur. Səfərdə qəzaya qalmış iki rükət zöhrün fərzi, muqim də iki rükət qəza olunur. Zöhrün fərzi qılındıqda, bu günki zöhr namazının fərzinə və ya zöhrün fərzinə niyyət edilir. Faitə namazı birdən çox olan, "İlk qəzaya qalmış olan" və ya "Son qəzaya qalmış olan" zöhrün fərzinə niyyət edir. Bir Ramazan ayının bir neçə gününü qəza edərkən, günlərin sırasını təyin etmək lazım deyildir.

Üzrsüz tərk edilmiş namazları qəza edərkən, başqalarına bəlli etməmək lazımdır. Çünki namazı vaxtında qılmamaq günahdır. Günahını göstərmək də başqa günah olar. Gecə gizli edilən günahı, gündüz başqalarına danışmaq da günahdır. İbni Abidindən tərcümə tamamlandı.

Göründüyü kimi, Hənəfi məzhəbində faitə olaraq qəzaya qalmış namazları təcili qəza etmək lazımdır. Şafii məzhəbində də belədir. Şafi alimlərindən Şəmsüddin Muhamməd Rəmli (rahmətullahi aleyh), fitvasında buyurur: "Üzrlü səbəbdən qəza edilmiş namazları olanın, Ramazanda təravih qılıb, qəzalarını Ramazandan sonra qılması günah olmaz. Lakin üzrsüz tərk edilmiş namazları olanın belə etməsi günahdır. Çünki tərk edilmiş namazlar dərhal qəza edilməlidir." Üzrsüz tərk edilmiş namazları ilk öncə qılmayıb, sünnətləri, məsələn təravihi əvvəlcə qılmağın günah olduğunu, sünnətlərin yerinə bu namazları qəza etməyin lazım olduğunu, Şafi məzhəbinin alimləri açıq şəkildə bildirir. Hənəfi məzhəbində də belədir. Hənəfidə, üzrlü səbəbdən qılınmamış namazların qəzalarını sünnət qılacaq qədər gecikdirmək caizdir, deyilməsi, onların qəzalarını gecikdirməməyin daha yaxşı olduğunu göstərir. Çünki caiz, islamiyyətdə qadağan edilməmişdir, deməkdir. İbni Abidin (rahimə-hullahü təala) "axar suyu israf etmək caizdir", sözünü, "yəni tənzihən məkruhdur", deyə açıqlayır. Üzrlü səbəbdən qılınmayan namazların qəza edilməsi təcili olduğu üçün, üzrsüz tərk edilmiş namazları da sünnətlərin yerinə qılmaq lazımdır. İbni Abidin (rahimə-hullahü təala) buyurur: "Dəstəmazda əzaları üç dəfə yumaq müəkkəd (qüvvətli) sünnətdir. Suyun qiymətinin yüksək olması, soyuq olması, suya möhtac olmaq kimi üzrlü səbəblərlə bu sünnəti tərk etmək məkruh deyil". Tərk edilmiş namazı bir an əvvəl qəza edib, böyük günahdan qurtulmaq üçün, sübh namazından başqa, digər sünnətlərin yerinə onların qəzasını qılmaq lazım olduğu buradan aydın görünür.]

## MEYİT ÜÇÜN NAMAZ İSQATI

[Namaz isqatı, meyiti namaz borclarından qurtarmaq deməkdir. Bunun üçün namazlarının kəffarəsi verilir. Kəffarənin verilməsi üçün, ölmədən əvvəl vəsiyyət etməsi və kəffarəyə çatacaq qədər mal qoyması vacibdir. Yəni qoyduğu malın üçdə biri, kəffarə miqdarından az olmamalıdır. Kəffarəni ölənin vəlisi verir. Meyitin vəlisi, vəsiyyət etdiyi şəxsdir. Yaxud varislərindən biridir. İslamiyyətdə dörd növ vəli vardır. Meyitin vəlisi, yetimin vəlisi, nikah olunacaq qadının vəlisi, qul və cariyənin vəlisi. Sonuncuya **"Mevla"** da deyilir. Bunlardan başqa, Allahü azım-üş-şanın da vəliləri vardır. Onlara **"Övliya"** deyilir. Onlar, Allahın çox sevdiyi insanlardır. Bu sevgiyə qovuşmaq üçün, bütün sözlərin, işlərin və əxlaqın, Muhamməd əleyhissəlamın bildirdiyi kimi olması lazımdır. Bunları, həqiqi alimdən asanlıqla öyrənmək olar. Həqiqi alim tapa bilməyən, Əhli sünnət alimlərinin kitablarından öyrən-

məlidir. İbni Abidin (rahimə-hullahü təala) buyurur: "Üzrlü səbəbdən qılınmamış namazları olan şəxs, onların kəffarəsinin ödənməsini vəsiyyət etsə, hər bir fərz və vacib üçün, qoyduğu malın üçdə birindən, yarım sa* [2,1 litr], yəni 520 dirhəm [1750qram] buğda və ya buğda unu kasıblara verilir. Hamısını bir kasıba vermək də olar. Qiymətini [qızıl və ya gümüş olaraq] vermək daha yaxşıdır. Vəsiyyət edən, mal qoymamışdırsa və ya qoyduğu malın üçdə biri kəffarə üçün kifayət etmirsə, yaxud heç vəsiyyət etməmiş olub, vəlisi az miqdarda pul ödəyib kəffarəsini verəcəksə, bir günlük 1750x6=10500 qram, yəni 10,5 kilo, illik 3780 kilo buğda [və ya 10 kilo buğdanın qiyməti həmişə təqribən bir qram qızıl olduğu üçün, qiyməti qədər 52,5 və ya ehtiyatən 60 ədəd qızıl pulu, yaxud bu pulların ağırlığı qədər [432 qr] qolbaq, üzük və ya başqa qızıl əşyalar] borc alar. Qılmış olduğu namazların da qüsurlu olduğunu dü-şünərək, meyitin ömründən kişilər üçün on iki, qadınlar üçün doqquz il çıxıb, mükəlləf olduğu zaman tapılır. Hənəfi məzhəbində hər gün altı namazın kəffarəsi lazım olduğu üçün, bir günəş ili namaz kəffarəsi üçün lazım olan [3780 kilo] buğda və ya daha yaxşısı, onun qiyməti olan qızıl borc alınır. Bu, namazın kəffarəsinin ödənməsi üçün niyyət edilərək, bir kasıba verilir. Kasıb ağıllı, həddi-buluğa çatmış və saleh kişi olmalıdır. Kasıb, qəbul etdim deyərək alır. Sonra varisə hədiyyə edir. Varis təslim aldıqdan sonra, yenidən ona və ya başqa kasıba verir. Beləcə, mükəlləf olduğu il qədər təkrarlanır. Daha çox qızıl borc almışdırsa, dövr sayı az olur. Qızıl pul yoxdursa, vəli bilərzik, üzük kimi qızıl əşyaları bir xanımdan borc alır. Bundan (namaz qılmadığı illərin sayı x 7,2) qram çəkilib, bir dəsmala bükülür. Dəsmalda, namaz qılmadığı illərin sayı qədər qızıl pul vardır. 60 ədədinə vurulub, kasıb sayına böləndükdə, dövr sayı olur. Qızıl azdırsa, birincidəkinin yarısı qədər ölçülür. Dövr sayı, birincinin iki misli olur. 60 yaşında vəfat edən kişi üçün, bir kasıba 60x48x 7,2=20736 qram qızıl verilir. Çünki bir illik namaz isqatı 60 qızıldır. 7 kasıb və 100 qram qızıl ilə 30 dövr edilir. 7 kasıb və 70 qram qızıl ilə 43 dövr edilir. Dövr bitdikdə sonuncu kasıb əlindəki qızılları vəliyə hədiyyə edir. O da borcunu ödəyir. Sonra oruc, qurban və and içmək üçün dövrlər edir. Lakin bir and içmə kəffarəsi üçün ən azı on kasıba vermək lazımdır və bir kasıba bir gün üçün yarım sa`dan artıq verilə bilməz. Halbuki bir kasıba, bir gündə hətta bir dəfəyə bir çox namaz kəffarəsi verilə bilər. Zəkat isqatı vəsiyyətsiz edilə bilməz. Meyitin vəsiyyəti lazımdır. Lakin oruc üçün vəsiyyət şərt olmadığından, zəkatı üçün də vəlinin hədiyyə edərək dövr etməsi yaxşı olar. Dövrlərin hamısı bitdikdən sonra, varis kasıblara bir miqdar mal, pul hədiyyə edir.

Kəffarə üçün vəsiyyət edən meyitin qoyduğu malın üçdə biri, bütün kəffarələri ödəməyə çatmazsa, vəli varislərin icazəsi olmadan üçdə birdən

* sa-1040 dirhəmlik ölçü vahidi.

artıq mal ilə kəffarə verə bilməz. Üçdə bir kəffarələrə çatır, lakin borcu vardırsa, alacaqlı isqatı üçün versə də, kəffarədən əvvəl borc ödənilir. Haqqını aldıqdan sonra kəffarə üçün hədiyyə etməsi caiz deyil. Çünki kəffarə yalnız varisin hədiyyə etdiyi mal ilə olur. Bütün ömrünün namazlarının kəffarəsi üçün vəsiyyət edənin ömrü bilinmirsə, vəsiyyət batil olur. Lakin üçdə bir miqdar, ömrünün namazları üçün təxmin ediləndən azdırsa, üçdə birin hamısını vəsiyyət etmiş olur. Bu da bəlli miqdar malın vəssiyyəti olduğundan, səhih olur.

Meyit vəsiyyət etmiş olsa da, vəlinin [yəni varisinin] kəffarə vermək üçün bəxşiş etməsi vacib deyildir. Meyitin, üçdə biri kəffarələrinə çatacaq miqdarda mal qoyması və bu üçdə bir ilə kəffarə verilməsini vəsiyyət etməsi vacibdir. Üçdə birin bir hissəsi ilə dövr edilməsini, qalanının varislərə və ya başqalarına hədiyyə edilməsini vəsiyyət edərsə, vacibi tərk etmiş olur, bu isə günahdır. Buna görə, üçdə birin bir hissəsi ilə dövr edilməsini, qalan hissəsi ilə Qurani-kərim və təhlil xətmləri edilməsini vəsiyyət etmək səhih olmaz. Bundan başqa, ödənişlə Qurani-kərim oxumaq caiz deyil. Ödənişi alan da, verən də günah işləmiş olur. Ödənişlə Qurani-kərim öyrətməyin caiz olduğu deyilsə də, oxumağın caiz olduğunu deyən olmamışdır.

"Namazlarımı varisim qılsın", deyə vəsiyyət edən meyitin namazlarını, varisinin qəza etməsi düzgün deyil. Lakin kimsə, namaz qılar və ya oruc tutarsa və savabını bir meyitə hədiyyə edərsə, səhih olar. Ölüm xəstəsinin öz namazlarının fidyəsini verməsi caiz deyildir." İbni Abidindən tərcümə tamamlandı.

Əhməd Tahtavi (rahmətullahi aleyh) **"Merak-ıl-fələh"** kitabında deyir ki, tutula bilməyən orucların fidyələrini verərək ödənmələri nass ilə, yəni ayəti kərimələr və Hədisi-şəriflərlə bildirilmişdir. Namaz orucdan daha mühüm olduğu üçün, namazın da oruc kimi olacağını alimlərimiz sözbirliyi ilə bildirmişdirlər. Namaz ıskatının əsası yoxdur deyən din adamı öz cahilliyini bildirmiş olur. Bu sözü ilə alimlərin söz birliyinə qarşı çıxır.

Bir xəstə uzanarkən başı ilə işarə edərək də namaz qıla bilmirsə, qıla bilmədiyi bu namazları beş vaxtdan az olsa belə, onlar üçün vəsiyyət etməsi lazım gəlməz. Bunun kimi, səfərdə və ya xəstəliyi ilə oruc tuta bilməyən də, onları qəza edəcək qədər zaman tapa bilməzsə, vəsiyyət etməz. Fitr sədəqəsi, zövcənin nəfəqəsi, hac ehramındakı cinayətləri, həcc, əhd edilmiş sədəqələr üçün də vəsiyyət edilir. Vəsiyyət etməmiş meyit üçün, varisinin və ya başqasının hədiyyə etməsi inşaallah caiz olar. Həcc üçün vəsiyyət edənin vəkili, meyitin şəhərindən və ya qoyduğu malın üçdə birinin kifayət etdiyi yerdən; hədiyyə edən isə istədiyi yerdən həccə gedər. Meyit üçün heç kimin, istər ödənişli, istər ödənişsiz namaz qılması və oruc tutması düzgün deyil. Buna aid Hədisi-şərif, mənsuhdur, yəni hökmü qaldırılmışdır. Kəffarə olaraq verilən sədəqə vasitəsi ilə, Allahü təala, meyi-

tin borclarını əfv edər. Şafi **"Ənvar"** kitabında deyir: "Meyitin qılmadığı namazlar üçün fidyə verilməsi vacib deyil. Verilərsə, isqat olmaz". Maliki və şafi məzhəbində olanlar, hənəfi məzhəbini təqlid edərək dövr edərlər.

Meyitin vəsiyyət etdiyi malın miqdarı və ya bu malın üçdə biri kəffarə üçün kifayət etməzsə, yaxud ümumiyyətlə vəsiyyət etməmişdirsə, bir nəfərin hədiyyə etdiyi az miqdarda mal ilə borclarının hamısını ödəyə bilmək üçün dövr prosesi həyata keçirilir. Bu mal, ödəmə niyyəti ilə bir kasıba verilir. Kasıb aldıqdan sonra onu vəliyə və ya bir başqasına hədiyyə edir. Bunu əlinə götürməlidir. Vəli və ya başqası, meyitin borcunun ödənməsi üçün deyərək, malı hədiyyə edərək bir kasıba verir. Tahtavi kitabından tərcümə tamamlandı.]

Farsca **"Təzkirət-ül-Övliya"** kitabında deyilir ki, İbrahim Ədhəm (quddisə sirruh) həzrətlərinə: "Filan yerdə bir gənc var. Gecə-gündüz ibadət edir. Vəcdə gəlib, özündən gedir", dedilər. Gəncin yanına gedib, üç gün qonaq oldu. Diqqət etdi, söylədiklərindən daha çox şey gördü. Özünün soyuq, halsız, xəbərsiz, gəncin isə belə yuxusuz və çalışqan halına təəccübləndi. Gənci şeytanın aldatdığını, yoxsa həqiqətən belə olduğunu anlamaq isrəyirdi. Yediyinə diqqət yetirdi. Tikəsi halaldan deyildi. "Allahü Əkbər, gəncin bu halları hamısı şeytandandır", deyib, gənci evinə dəvət etdi. Öz tikələrindən birini yedirdiyi anda gəncin halı dəyişdi, o eşqi, o arzusu, o səyləri qalmadı. Gənc İbrahimdən soruşdu: "Mənə nə etdin?" "Tikələrin halaldan deyildi. Yemək yeyərkən, şeytan da mədənə girirdi. O hallar şeytandan olurdu. Halal yedikdə, şeytan girə bilmədi və əsl, doğru halın meydana çıxdı", dedi. Haram yemək, qəlbi qaraldır, xəstə edir.

## CÜMƏ NAMAZI HAQQINDA

Cümə namazının düzgün olması üçün yeddi şərt var:

1-Namaz qılınacaq yer, şəhər deyiləcək qədər böyük olmalıdır.

2-Xütbə oxunmalıdır.

3-Xütbə namazdan əvvəl oxunmalıdır.

4-Dövlət rəhbərinin icazəsi ilə qılınmalıdır. Təyin edilmiş xətib öz yerinə başqasını vəkil edə bilər.

5-Zöhr namazının vaxtında qılınmalıdır.

6-Camaat olmalıdır. İmam Azama və imam Muhamməda görə (rahimə-hümullahü təala) həddi-buluğa çatmış, ağıllı olan kişi imamdan başqa, üç adam, imam Əbu Yusifə görə (rahimə-hullahü təala), imamdan başqa iki adam olmalıdır. Doğru olan, imam Azamla, imam Muhammədin ictihadıdır.

7-Namaza hər kəsin gəlməsi sərbəst olmalıdır.

**"Hindiyyə"** fitvasında deyilir ki: "Azad, sağlam və səfərdə olmayan kişilərin Cümə namazı qılmaları fərzi ayndır. (fərzi ayn-hər müsəlmanın ye-

rinə yetirməli olduğu fərzə deyilir.) Səfərdə olana, xəstəyə və qadınlara Cümə namazı qılmaq fərz deyildir. Şiddətli yağmur zamanı da fərz olmur. Komandir, rəis və işə götürən, əmri altında olana Cümə namazına getməyi qadağan edə bilməz. Lakin o qədər müddətin maaşını kəsə bilər. Açıq günah işləyən biri Cümə namazı qıldırarsa, ona mane ola bilməyən ona uymalı, Cümə namazını tərk etməməlidir. Başqa namazlardan saleh imamın qıldırdığı məscidə getməli, günah işləyən imamın arxasında qılmamalıdır. Hər qadının hər hansı bir namazı camaat ilə qılmaq üçün məscidə getməsi məkruhdur."

Bir şəxs, imama Cümə namazının ikinci rükətinin rükusunda çatsa, imam Muhamməde görə (rahimə-hullahü təala) zöhr namazını qılmalıdır. İmam Azama və imam Əbu Yusifə görə "rahimə-hümallahü təala" təşəhhüddə də çatsa, Cüməni qılar. Xətib xütbə oxuyarkən kimsə nafilə namazı qılarsa, iki rükət qılar, artıq qılmaz. Cümənin sünnətini qılırsa, iki rükət qılıb salam verməsi və ya dörd rükəti tamamlaması barəsində fikir ayrılığı var. Doğru olan dörd rükəti tamamlamasıdır.

Cümənin vacibi beşdir:

1-Azan vaxtında hər şeyi tərk etmək.

2-Məscidə hörmət edərək getmək.

3- Xətib xütbə oxuyarkən nafilə qılmamaq.

4-Dünya kəlamı söyləməmək.

5-Sükut eyləmək.

Cümənin müstəhəbi altıdır:

1-Rayihai tayyibə (gözəl ətir vurmaq)

2-Misvak.

3-Təmiz paltar.

4-Təbkir. [Təbkir, məscidə Cümə namazı üçün erkən getməyə deyilir. Asrı-səadətdə (Peyğəmbər əfəndimizin zamanında) Əshabı kiram (radıyallahü təala anhüm əcmain) sübh namazından sonra getməyib, Cümə namazından sonra dağılışardılar. Bu ümmətdən ilk tərk edilən şey təbkir sünnətidir.]

5-Qüsl almaq.

6-Salavat oxumaq.

Cümənin məkruhu beşdir:

1-Xətib xütbə oxuyarkən salam vermək.

2-Qurani-kərim oxumaq.

3-Asqıran birinə **"Yərhamükəllah"** demək.

4-Yemək və içmək.

5-Məkruh olan istənilən əməli etmək. [Xətibin xütbəni uzatması da məkruhdur.]

Minarədə oxunan birinci Cümə azanından sonra xətib minbərin yanında Cümənin ilk sünnətini qılır. Sonra minbərin önünə gəlib, ayaq üstə,

üzü qibləyə qısa dua edib minbərə çıxır və üzü camaata oturub ikinci azanı dinləyir. Sonra ayaq üstə xütbəyə başlayır.

[Vəhhabilər Əhli sünnət məzhəbində deyillər, məzhəbsizdirlər. Vəhhabiliyi ingilislər, Abdülvəhhab oğlu Muhamməd adındakı soysuz, cahil bir din adamı vasitəsi ilə qurdular. Kitablarında vəhhabi olmayan müsəlmanlara müşrik, kafir deyirlər. Bunları öldürməyin, qadınlarını, qızlarını, mallarını qənimət götürməyin caiz olduğunu yazırlar. Çoxlu pul verərək topladıqları məzhəbsiz, cahil din adamlarını vəhhabi edərək hər ölkədə açdıqları **"Rabıta-tül aləm-il-islami"** adlı vəhhabi mərkəzlərinə göndərirlər. Onların islama uymayan yazılarını "Dünya islam alimləri birliyinin fitvası" adıyla bütün islam ölkələrinə yayırlar. Hər il hacılara pulsuz paylayırlar. Bu yazılardan birində "Qadınların Cümə namazı qılması fərzdir" deyilir. Qadınları, qızları məcbur Cümə namazına göndərirlər. Qadın, kişi qarışıq namaz qılırlar. Başqa bir yazılarında deyilir: "Cümə və bayram xütbələri camaatın anladığı dildə oxunmalı, ərəbcə oxunmamalıdır." Bu cür fitvalarına islam ölkələrindəki həqiqi din alimləri sübutlarla cavab verirlər. Bu doğru cavablardan biri Hindistanın müxtəlif yerlərindəki Əhli sünnət alimlərinin fitvalarıdır. Məsələn: Madras müftisi allamə hibrünnihrir vəl-fəhhamə sahibüt-təqrir vəttahrir mevlana Muhamməd Təmim ibn Muhamməd Madrasi "nəvvərallahü mərkadəhu" buyurur:

Xütbənin hamısını ərəbcədən başqa dillə oxumaq və ya həm ərəbcə, həm də tərcüməsi ilə birlikdə oxumaq məkruhdur. Xütbənin hamısını ərəbcə oxumaq vacibdir. Çünki Rəsulullah (sallallahü aleyhi və səlləm) hər xütbəsini yalnız ərəbcə oxumuşdur. **"Bahrür-raiq"** kitabında bayram namazından danışılarkən deyilir: "Təravih və Küsuf* namazlarından başqa nafilə namazlar camaatla qılınmır. Bayram namazları həmişə camaatla qılındığı üçün nafilə olmadıqları, vacib olduqları anlaşılır." Göründüyü kimi Rəsulullahın (sallallahü aleyhi və səlləm) davamlı olaraq etdiyi ibadətin vacib olduğu anlaşılır. Allamə Zəbidi (rahimə-hullahü təala) **"İhya"** şərhində deyir: "Rəsulullahın (sallallahü aleyhi və səlləm) davamlı etdiyi ibadət vacib olur. Fərz olduğunu göstərməz." Allamə müfti Əbüssüud (rahimə-hullahü təala) **"Fəth-ullah-il-muin"** kitabında deyir: "Rəsulullahın (sallallahü aleyhi və səlləm) davamlı olaraq yerinə yetirməsi, bunun vacib olduğunu göstərir." [İbni Abidin (rahimə-hullahü təala) dəstamazın sünnətlərində buyurur: "Rəsulullahın (sallallahü aleyhi və səlləm) davamlı etdiyi ibadət, heç tərk etməmişdirsə, Sünnəti müəkkədə olur. Sünnəti müvəkkədə, Peyğəmbər əfəndimizin davamlı etdiyi, çox az tərk etdiyi işlər və ibadətlərdir. Tərk etməməklə yanaşı, tərk edəni inkar etmişdirsə, vacib olur. Buna görə də Əbüssüud əfəndi, heç tərk etmədən davam etdiyi şeyin

* Küsuf namazı-günəş tutulması zamanı ən az iki rükət olaraq camaatla qılınan namaz.

vacib olduğunu demişdir.” Hər ikisini də üzrsüz tərk etməyin tahrimən məkruh (harama yaxın əməl) olduğunu namazın məkruhlarında bildirməkdədir.] Rəsulullahın (sallallahü aleyhi və səlləm) xütbələri davamlı olaraq yalnız ərəbcə oxuması, ərəbcə oxumağın vacib olduğunu göstərir. Buna görə də xütbələri ərəbcədən başqa dildə oxumaq və ya həm ərəbcə, həm də tərcüməsini oxumaq tahrimən məkruhdur. Çünki birinci halda ərəbcə oxumaq tərk edilir, ikinci halda xütbənin yalnız ərəbcə oxunması tərk edilmişdir. Hər ikisində də Rəsulullahın (sallallahü aleyhi və səlləm) davamlı etdiyi şey tərk edilmiş olur. Namaza başlayarkən, təkbiri ərəbcə söyləmək və bunlar arasında “Allahü əkbər” demək müxtəlif şeylərdir. İkisindən birini tərk etmək tahrimən məkruhdur. Çünki Rəsulullah (sallallahü aleyhi və səlləm) həmişə Allahü əkbər dediyi üçün bunu söyləmək vacib olmuşdur. İbni Abidin (rahimə-hullahü təala) **“Rədd-ül-muxtar”**da buyurur: “Məkruh, vacibin və ya sünnətin tərk edilməsidir. Birincisi təhrimə, ikincisi isə tənzihən məkruhdur.” **“Haləbi-yi kəbir”**də deyilir: “Sünnəti tərk etmək tənzihən məkruh, vacibi tərk etmək tahrimən məkruhdur.” **“Fətava-yi Siraciyyə”**də deyilir: “Xütbəni farsca oxumaq caizdir.” Bu sözü rəhbər tutaraq, xütbəni ərəbcədən başqa dildə oxumağın caiz olub, tahrimən və tənzihən məkruh olmadığını deyərək fitva vermək batildir. Çünki Siraciyyənin “caizdir” sözü, “səhihdir” deməkdir. Bu isə məkruh olmadığını bildirmir. İbni Abidin (rahimə-hullahü təala) **“Rədd-ül muxtar”**da buyurur: “Səhih olduğunu demək, məkruh olmadığını göstərməz.” Muhamməd Abdülhayy Luknəvi (rahimə-hullahü təala) “Umdət-ür-riayə” kitabında deyir: “Xütbənin ərəbcə oxunması şərt deyil, farsca və ya başqa dildə də oxumaq olar, sözü namazın caiz olacağını bildirir. Yəni Cümə namazının səhih olması üçün xütbə oxumaq şərti yerinə yetirilmiş olur deməkdir. Xütbənin məkruh olmadığı anlamına gəlmir. Çünki Rəsulullah (sallallahü aleyhi və səlləm) və Əshabi-kiramın hamısı “radıyallahü anhüm” xütbəni həmişə yalnız ərəbcə oxumuşdular. Onlara qarşı çıxmaq tahrimən məkruhdur.” Əshabi-kiramdan sonra gələn şərəfli nəsil, Əshabi-kiramı görüb, onların söhbətlərində iştirak edənlər (Tabiin və onlardan sonra gələn təbei-tabiin) də xütbəni həmişə, hər yerdə yalnız ərəbcə oxumuşdurlar. Ərəbcədən başqa dildə oxumadıqları kimi, ərəbcə və tərcüməsini birlikdə oxuyan da heç olmadı. Halbuki Asiyada və Afrikada onların xütbələrini dinləyənlərin heç biri ərəbcə bilmir, xütbədə söylənilənləri anlamırdılar. Onların anlamaları üçün tərcümələrini də söyləməli, yeni müsəlman olanlara islamiyyəti öyrətməli olduqları halda xütbələri ərəbcədən başqa dildə oxumağı caiz görmədilər. İslamiyyəti onlara xütbədən ayrı öyrətdilər. Xütbələri də anlamaları və islamiyyəti yaxşı öyrənmələri üçün onların ərəbcə öyrənmələrini əmr etdilər. Biz də bu alimlər kimi etməliyik.]

Bunlara qarşı çıxaraq xütbələri ərəbcədən başqa dildə oxumaq bidətdir, tahrimən məkruhdur. Birincisinə tahrimən, ikincisinə tənzihən məkruh demək batildir. Çünki tənzihən məkruh sünnəti tərk etməyə deyilir. Rəsulullah (sallallahü aleyhi və səlləm) xütbənin hamısını həmişə ərəbcə oxuduğu üçün xütbəni yalnız ərəbcə oxumaq vacibdir. Bu vacibi tərk etmək necə tənzihi ola bilər?! Tahrimən məkruh olan şeyi tərk etmək vacibdir. Mevlana Bahır-ul-ulum (rahimə-hullahü təala) **"Ərkan-ül-ərbəa"**da deyir: "Tahrimən məkruh olan şeyi tərk etmək vacibdir. Bu məkruhu işləmək bu vacibi tərk etmək olur."

Tahrimən məkruh olan şeyi hər zaman edən şəxs adil deyildir. İbni Abidin (rahimə-hullahü təala) **"Rədd-ül-muxtar"**da deyir: "Tahrimən məkruh işləmək kiçik günahdır. Kiçik günaha davam etmək ədaləti yox edir." Xütbələrin tərcümələrini də oxuyan xətiblərin ədalətləri yox olaraq günahkar olurlar. Arxalarında namaz qılmaq tahrimən məkruh olur. **"Nur-ul-izah"**da və **"İbni Abidin"**də deyilir: "Kölə, kəndli, nikahsız doğulan şəxs cahildirlərsə, onların imam olması məkruhdur. Açıq günah işləyənlə bidət əhli alim olsalar belə, onların imam olması məkruhdur. Onları imam etmək günahdır." Allamə İbrahim Hələbi (rahimə-hullahü təala) **"Hələbi-yi Kəbir"**də deyir: "Açıq günah işləyəni imam edən günah işləmiş olur. Çünki onları imam etmək tahrimən məkruhdur." **"Mərak-ıl-fəlah"**da deyilir: "Açıq günah işləyən kimsə alim olsa da onu imam etmək məkruhdur. Çünki islama uymaqda zəiflik göstərir. Onu imam etmək ona hörmət etmək olur. İmam olmasına mane ola bilmədikdə Cüməni və hər namazı başqa məsciddə qılmaq lazımdır." Allamə Tahtavi (rahimə-hullahü təala) bunu açıqlayarkən deyir: "Açıq günah işləyənin imam edilməsi tahrimən məkruhdur."

Xətibin xütbəni ərəbcədən başqa dildə oxumağına səbəb olmaq olmaz. Buna səbəb olmaq günahdır. Çünki günah işləməyə yardım etmək də günahdır. İbni Abidin (rahimə-hullahü təala) **"Rədd-ül-muxtar"**da deyir: "Fasiq, yəni açıq günah işləyən imamın arxasında namaz qılmaq olmaz. Fasiq olmayan imamı tapmaq lazımdır. Şəhərdə bir neçə məsciddə Cümə namazı qılınırsa, bu namazı fasiq imam arxasında qılmaq məkruh olur. Çünki başqa imam arxasında qılmaq mümkündür." Buna görə də hər kəs ərəbcədən başqa dildə tərcüməni oxuyan imamın arxasında namaz qılmamalı, xütbəni ərəbcə oxuyan imam tapmalı, Cüməni onun arxasında qılmalıdır. Əlavə məlumat almaq üçün **"Ət-təhqiqat-üs səniyyə fi kərahət-il-xütbəti bi-qayril arabiyyə və kiraətiha bil arabiyyəti maa tərcəmətiha bi-qayr-il arabiyyəti"** kitabını oxuyun!

Yuxarıdakı yazı 1349-cu [m.1931] ildə Hindistanda ərəbcə yazılmış, Hindistanın ən böyük 13 alimi tərəfindən təsdiq edilmişdir. Bu tarixi fitva ilə birlikdə Hindistandakı **"Diyobənd"**, **"Baqıyat-üs-salihat"**, **"Madras"** və **"Haydar-abad"** alimlərinin ərəbcə fitvaları 1396-cı [m.1976] ildə İstanbulda nəşr edilmişdir. Osmanlı dövlətindəki dünyaca şöhrət sahibi ol-

muş minlərlə böyük alim və Şeyx-ul-islamlar (rahimə-hümullahü təala) millətin xütbələri anlaması üçün çarə axtarmışdırlar. Xütbələrdə türkcə tərcümələrin də oxunması üçün icazə tapa bilməyib, buna izn verə bilməmişdilər. Camaata xütbənin mənasını anlatmaq üçün hər məsciddə namazlardan sonra Cümə söhbətləri aparılmış, altı yüz il xütbələr millətə bu yolla öyrədilmiş, bununla da islamdan kənara çıxmağın qarşısı alınmışdır.

Bayram namazının **"Zəvaid təkbirləri"** doqquzdur: bunlardan biri fərz, biri sünnət, yeddisi vacibdir. İftitah təkbiri fərz, əvvəlki rüku təkbiri sünnət, zəvaid təkbirləri vacibdir. İkinci rəkatın rükü təkbiri vacibə yaxın olduğu üçün vacib olur.

## NAMAZ QILMAQ

**"Neməti islam"**da deyilir ki, ağıllı və həddi-buluğa çatmış hər müsəlmanın hər gün beş vaxt namaz qılması fərzdir. Heç kim başqasının yerinə namaz qıla bilməz. Bir şəxs qıldığı namazın və başqa ibadətlərinin savabını [diri və ya ölü] başqalarına hədiyyə edə bilər. [özünə verilən savab qədər onların hər birinə də savab verilir. Öz savabı azalmır.] Borclu olduğu adamın haqqını bağışlaması üçün namaz qılıb savabını ona göndərmək caiz deyildir. Namazın fərz olduğuna inanıb, üzrlü səbəb olmadığı halda tənbəllik edərək namaz qılmayan kafir olmaz, fasiq olar. [bunların, bir namaz üçün Cəhənnəmdə yetmiş min il yanacağı bildirildi.] Uşaq yeddi yaşına gəldikdə namaz qılması əmr olunur. On yaşına çatdıqda namaz qılmazsa əl ilə döyülür. Üç dəfədən artıq vurmaq olmaz. Dəyənək ilə də döyülə bilməz. [heç bir canlının başına, üzünə, sinəsinə, qarnına vurmaq caiz deyildir.] Xəstənin də gücü çatdığı qədər namaz qılması fərzdir.

## ÜZRLÜ OLMAQ

Dəstəmazı pozan şeyin bədəndən çıxması davamlı olarsa, **"Üzr"** sayılır. Sidik, yel qaçırmaq, burun qanaması və yaradan qan, sarı su axması, ağrıdan göz yaşı axması davamlı olduqda, bu şəxs və istihazə qanı axan qadın **"Üzr sahibi"** olur. Pambıq tıxamaqla, dərman ilə və ya namazı oturaraq yaxud işarə ilə qılaraq bunların qarşısını almaq lazımdır. [Sidiyini saxlaya bilməyən kişi sidik yoluna kiçik pambıq qoymalıdır. Süni pambıq qoyarsa, lifləri böyrəklərə gedib iltihab törədə bilər. Sidiyə getdikdə pambıq öz-özünə xaric olar. Sidik çox gələrsə, pambıqdan xaricə sızar və dəstəmaz pozular. Sızan sidik paltarı kirlətməməlidir. Buna görə də sidik çıxan yerə parça sarıyıb, iplə bağlamaq lazımdır. Sidik çox gələrsə, parçanın ucuna pambıq da qoyula bilər. Namaz vaxtı çıxdıqda üzr sahibinin dəstəmazı pozulur. Vaxt çıxmadan əvvəl də üzrə səbəb olan şeydən başqa digər səbəblə də dəstəmaz pozula bilər. Məsələn, burun deşiklərinin birindən qan gələrkən dəstəmaz alıb, sonra digər deşikdən də axmağa başlasa dəstəmaz pozulur. Hənəfidə

və Şafidə üzrlü olmaq üçün dəstəmazı pozan şeyin bir namaz vaxtında durmadan axması lazımdır. Dəstəmaz alıb, o vaxtın fərzini qılacaq qədər bir zamanda axmazsa, üzr sahibi olmaz. Bir şəxs üzr sahibi olduqda sonrakı namaz vaxtlarında bir dəfə bir damla belə gəlsə, üzr sahibi olması o vaxtlarda da davam edir. Bir namaz vaxtında heç gəlməzsə, üzr sahibi olmaq bitər. Üzrə səbəb olan nəcasət paltara dirhəm miqdarından çox batarsa, yenidən batmamasına mane olmaq mümkündürsə, batmış yeri yumaq lazımdır. **"Əl-fiqhu aləl-məzahib-il-ərbəa"**da deyilir: "Bir xəstənin Maliki məzhəbinə görə üzr sahibi olması üçün iki qavl vardır : birinci qavl görə dəstəmazı pozan şeyin bir namaz vaxtının yarısından çox davam etməsi, başladığı və dayandığı vaxtların bəlli olmaması lazımdır. İkinci qavlə görə birinci haldakı iki şərt olmasa da, bu axıntılar başladıqda, xəstə üzr sahibi olur, dəstəmazı pozulmaz. Kəsildiyi vaxt məlum olarsa, namaza durarkən dəstəmaz alması müstəhəb olar. Hənəfidə və Şafidə üzr sahibi ola bilməyən xəstə və yaşlı insan Maliki məzhəbinin ikinci qavlini təqlid edər."]

Qüsl aldıqda xəstə olmaqdan və ya xəstəliyin şiddətlənməsindən yaxud uzanmasından qorxan təyəmmüm edər. Bu qorxu öz təcrübəsi ilə yaxud müsəlman təbibin söyləməsi ilə məlum olur. Günah işləməsi dillərə düşmüş olmayan təbibin sözü də qəbul edilir. Soyuq vaxtlarda sığınacaq yer, suyu isidəcək şey, şəhərdə hamam pulu tapmamaq xəstəliyə səbəb ola bilər. Hənəfidə bir təyəmmüm ilə istənilən qədər fərz qılına bilər. Şafidə və Malikidə hər fərz üçün yenidən təyəmmüm edilməlidir.

Dəstəmaz üzvünün yarısında yara olan təyəmmüm edər. Yara yarıdan azdırsa, sağlam yeri yuyub, yaranı məsh etmək lazımdır. Qüsldə bütün bədən bir üzv sayıldığı üçün bütün bədənin yarısı yaradırsa, təyəmmüm edilir. Yaralı yer yarıdan azdırsa, sağlam yer yuyulub, yaralar məsh edilir. Yaraya məsh zərər verərsə, sarğıya məsh edilir. Buna da zərər verərsə, məsh tərk edilir. Dəstəmazda və qüsldə başa məsh zərər verərsə, baş məsh edilmir. Əli çolaq [ekzema, yara] olub, su işlədə bilməyən təyəmmüm edər. Üzünü, qollarını yerə, palçıqlı, torpaqlı, daşlı divara sürtər. Əlləri və ayaqları kəsik olanın üzü də yaradırsa, namazı dəstəmazsız qılar. Dəstəmaz aldıracaq birini tapa bilməyən təyəmmüm edər. Övladı, köləsi, pulla tutduğu şəxs yardım etməyə məcburdurlar. Başqasından da yardım istəmək olar. Lakin onlar yardıma məcbur deyillər. Ər və arvad da bir-birilərinə dəstəmaz aldırmağa məcbur deyillər.

Qan aldırdıqda, zəli qoyduqda, yara, çiban olduqda, sümük qırıldıqda sarğı (pambıq, plastr, məlhəm) qoyan o yeri soyuq, isti su ilə yumağa və ya məsh etməyə qadir deyilsə, dəstəmazda və qüsldə onların yarıdan çoxunun üstünə bir dəfə məsh edər. Sarğını açmaq zərər verərsə, altındakı sağlam yerlər yuyulmaz. Sarğı aralarında görünən sağlam dəri yerlər məsh edilir. Sarğını dəstəmazlı olaraq sarımaq lazım deyildir. Məshdən sonra sarğı dəyişdirilərsə, üstünə başqası da sarılarsa, yenisinə məsh lazım olmaz.

## XƏSTƏLİKDƏ NAMAZ

**“Nemәti islam”**da deyilir: ayaqüstә dura bilmәyәn vә ya ayaqüstә durduqda xәstәliyinin müddәtinin uzanacağını çox zәnn edәn xәstә namazını oturaraq qılıb, rüku üçün bәdәnini bir az әyәr. Sonra dikәlib, yenidәn yerә sәcdә edәr. Özünә rahat olan şәkildә oturar. Diz çökmәsi, bardaş qurması caizdir. Baş, diş, göz ağrısı xәstәlik sayılır. Düşmәnә görünmәk qorxusu da üzrdür. Ayaqüstә olarkәn dәstәmazı pozulan da oturaraq qılar. Bir şeyә söykәnәrәk ayaqüstә dura bilәn dayanaraq qılar. Ayaqüstә çox dura bilmәyәn iftitah tәkbirini ayaqüstә deyib, ağrı baş qaldırdıqda oturaraq davam edәr.

Yerә sәcdә etmәkdәn aciz olan ayaqüstә qiraәt edib, rüku vә sәcdә üçün oturaraq işarә edәr. Rüku üçün bir az, sәcdә üçün daha çox әyilәr. Bәdәnini әyә bilmәyәn başını әyәr. Bir şey üzәrinә sәcdә etmәk lazım deyildir. Bir şey üzәrinә sәcdә edәrsә, sәcdә üçün rükudan çox әyilmişdirsә, namazı sәhih olsa da mәkruhdur. Söykәnәrәk oturmaq mümkün ikәn uzanaraq işarә ilә qılmaq caiz deyildir. Peyğәmbәrimiz (sallallahü aleyhi vә sәllәm) bir xәstәnin qarşısına yastıq qoyub üzәrinә sәcdә etdiyini görәrәk yastığı götürmüşdür. Xәstә qarşısına taxta qoymuş, onu da götürmüşdür. **“Bacarırsansa alnını torpağa qoyaraq qıl! Buna gücün çatmırsa, işarә ilә qıl vә sәcdә üçün rükudan daha çox әyil!”** buyurmuşdur. **“Bahr-ür-raıq”** da bildirildiyinә görә Ali İmran surәsinin 191-ci ayәti kәrimәsi **“Namazı gücü çatan ayaqüstә qılar. Aciz olan oturaraq qılar. Bundan da aciz olan uzanaraq qılar**.” demәkdәdir. İmran ibn Husayn xәstә olarkәn Rәsulullah (sallallahü aleyhi vә sәllәm) ona **“Ayaqüstә qıl! Gücün çatmazsa, oturaraq qıl! Buna da qüdrәtin çatmazsa, yanıüstә vә ya arxasıüstә uzanaraq qıl!”** buyurdu. Göründüyü kimi ayaqüstә dura bilmәyәn xәstә oturaraq qılar. Otura bilmәyәn uzanaraq qılar. Yerdә otura bilәn xәstәnin vә avtobusda, tәyyarәdә gedәnin, kresloda, stulda ayaqları sallayaraq qılması caiz deyildir. Camaat namazına getdiyi halda ayaqüstә qıla bilmәyәn evindә ayaqüstә qılar. İyirmi şeydәn birinin olması camaat namazına getmәmәsi üçün üzrlü sәbәbdir: yağış, şiddәtli isti vә soyuq, canına vә ya malına qәsd edәcәk düşmәn qorxusu, dostları getdiyi halda yolda tәk qalmaq qorxusu, havanın çox qaranlıq olması, kasıb borclunun tutulub hәbs olunmaq qorxusu, kor olmaq, gәzә bilmәyәn iflic, bir ayağı kәsik olmaq, xәstә, iflic olmaq, palçıq, gәzә bilmәmәk, gәzә bilmәyәn ahıl, qoca, nadir tapılan fiqh dәrsini qaçırmaq qorxusu, sevdiyi yemәyi qaçırmaq qorxusu, sәfәrә yola düşmәk anında, onu әvәz edәcәk birini tapa bilmәyәn xәstә baxıcısı, gecә şiddәtli rüzgar, ayaqyoluna getmәk ehtiyacı. Xәstәliyinin artmasından vә ya uzanmasından qorxmaq, xәstәnin baxımsız qalması, çox yaşlı olduğundan çәtinliklә gәzmәk Cümә namazına getmәmәsi üçün üzrlü sayılır. Camaat namazına gәzәrәk gedib gәlmәk nәqliyyat

vasitəsilə getməkdən daha yaxşıdır. Məsciddə stulda oturaraq işarə ilə qılmaq caiz deyildir. İslamın bildirmədiyi şəkildə ibadət etmək bidətdir. Bidət etməyin böyük günah olduğu fiqh kitablarında yazılmışdır.

Qiblə tərəfə dönə bilməyən xəstə özünə rahat olacaq tərəfə dönərək qılar. Arxasıüstə yatan başının altına bir şey qoyaraq üzü qibləyə qarşı uzanar. Dizlərini bükməsi yaxşı olar. Başı ilə işarə edə bilməyənin namazı qəzaya buraxması caizdir. Namaz arasında xəstə olan gücü çatdığı şəkildə davam edər. Yerdə oturaraq qılan xəstə namaz vaxtı yaxşı olarsa, ayaqüstə qılaraq davam edər. Ağlını, huşunu itirən namaz qılmaz. Beş vaxt keçmədən yaxşı olarsa, beş vaxtı qəza edər. Altı namaz keçərsə, heç birini qəza etməz.

İşarə ilə də olsa, qılınmayan namazı təcili qəza etmək fərzdir. Qəza etməyə vaxt tapmadan ölüm halına düşərsə, qılmadığı namazların ödənməsi üçün qoyduğu maldan fidyə verilməsini vəsiyyət etmək vacib olmaz. Qəza edəcək zaman səhhəti düzələrsə, vəsiyyət vacib olar. Vəsiyyət etməzsə, vəlisinin, hətta yad adamın öz malından ödəmə etməsi caizdir. Neməti-islam kitabından alınan yazı tamam oldu.

Hədisi-şərifdə buyrulmuşdur: ***“İnsana yoxsulluq iyirmi dörd şeydən gələr:***

***1-Zərurət olmadan ayaqüstə sidiyə getmək.***
***2-Cünub olaraq təam yemək.***
***3-Çörək qırıntısını dəyərsiz bilib taptamaq.***
***4-Soğan və sarımsaq qabıqlarını oda atmaq.***
***5-Böyüklərin önündə yerimək.***
***6-Atasını və anasını adı ilə çağırmaq.***
***7-Ağac və süpürgə çöpü ilə dişini qurdalamaq.***
***8-Əli palçıqla yumaq.***
***9-Kandarda oturmaq.***
***10-Sidiyə getdiyi yerdə dəstəmaz almaq.***
***11-Qabı yumadan yemək qoymaq.***
***12-Paltarını üstündə tikmək.***
***13-Ac ikən soğan yemək.***
***14-Üzünü ətəyi ilə silmək.***
***15-Evi hörümçəklərdən təmizləməmək***
***16-Sübh namazını qıldıqdan sonra məsciddən tez çıxmaq.***
***17-Bazara erkən gedib, gec qayıtmaq.***
***18-Kasıb birindən çörək satın almaq.***
***19-Ataya və anaya bəddua*** *(qarğış)* ***etmək.***
***20-Çılpaq yatmaq.***
***21-Qab-qacağı açıqda saxlamaq.***
***22-Çırağı, şamı üfürərək söndürmək.***
***23-Hər işi bismillah demədən etmək.***

***24-Paltarını ayaqüstə geyinmək."***

Bir şəxs yatarkən **Kəvsər** surəsini oxuyarsa və sonra "Ya Rəbb! Məni sabah sübh namazına vaxtında oyat" deyərsə, Biiznilləhi təala o şəxs sübh namazına vaxtında oyanar.

**"Şira-tül-islam"**da deyilir ki, Hədisi-şərifdə ***"Dua etmək ibadətdir"*** buyruldu. Qəbul olmasa da, savab olar. Duanın qəbul olması üçün şərtlər vardır: halal yemək lazımdır. Haram tikə yeyənin duası qırx gün qəbul olmaz. Dua ehtiyacı təmin edən, səadətə qovuşduran qapının açarıdır. Bu açarın dişləri halal tikədir. Geyindiyi də halal olmalıdır. Qadağan edilməyən mala halal deyilir. Dua edərkən qəlb oyanıq olmalı, qəbul ediləcəyinə inanılmalıdır. Söylədiyindən xəbəri olmayan qafilin duası qəbul olmaz. Duadan əvvəl tövbə və istiğfar etmək lazımdır. Duanın qəbulu üçün tələsmək lazım deyil, duaya davam etmək lazımdır. Allahü azım-üş-şan dua etməyi və dua edəni sevir. Qəbul etdiyi halda istənilən şeyi verməyi gecikdirərək, duanın və savabının çox olmasını istəyər. Duanı ən azı yeddi dəfə təkrar etmək lazımdır. Rahat və hüzurlu vaxtlarda çox dua edənin, dərd və bəla vaxtındakı duaları tez qəbul olur. Duadan əvvəl Allaha həmd və Rəsulullaha salat və salam söyləmək lazımdır. Rəsulullah (sallallahü aleyhi və səlləm) duaya başlarkən ***"Sübhanə Rabbiyəl aliyyil aləl-Vəhhab"*** deyərdi. Əvvəlcə günahlara tövbə etmək, sonra bütün möminlərin sağ və salamat olması üçün dua etmək, hər istədiyini söyləyib, verməsini can və qəlbdən istəmək lazımdır.

## NAMAZIN ƏHƏMİYYƏTİ

**"Əşiat-ül-ləməat"** kitabında namazın əhəmiyyətini bildirən müxtəlif Hədisi-şəriflər vardır. Bu kitab **"Mişkat-ül Məsabih"** hədis kitabının farsca şərhidir. Hindistandakı islam alimlərinin böyüklərindən olan Abdülhak ibn Seyfüddin Dəhləvi (rahimə-hullahü təala) yazmışdır. 1384-cü (miladi 1964) ilində Lüknov şəhərində doqquzuncu çapı edilmişdir. Dörd cilddir. **"Məsabih"** kitabını Muhyissünnə Hüseyn Bəqavi (rahimə-hullahü təala) yazmışdır. Muhamməd Vəliyyüddin (rahimə-hullahü təala) bu kitabı şərh edərək **"Mişkat-ül Məsabih"** adını vermişdir. Abdülhak Dəhləvi 1052-ci [m.1642] ildə Dehlidə vəfat etmişdir.

Ərəbcə namaza **"Salət"** deyilir. Salət əslində dua, rəhmət və istiğfar deməkdir. Namazda bu üç mənanın hamısı olduğu üçün namaza salət deyilmişdir.

1-Əbu Hürəyrə (radıyallahü anh) bildirir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurmuşdur: ***"Beş vaxt namaz və Cümə namazı gələcək Cüməyə qədər, Ramazan orucu gələcək Ramazana qədər edilən günahlara kəffarədirlər. Böyük günah işləməkdən çəkinənlərin kiçik günahlarının əfvinə səbəb olurlar."*** Arada işlənmiş olan kiçik günahlardan qul haqqı olmayanları yox edirlər. Kiçik günahları əfv edilərək bitmiş olanla-

rın böyük günahları üçün olan əzablarının zəifləməsinə səbəb olurlar. Böyük günahların əfv edilməsi üçün tövbə etmək də lazımdır. Böyük günahı olmayanın dərəcəsinin yüksəlməsinə səbəb olurlar. Bu Hədisi-şərif **"Müslim"**də yazılmışdır. Beş vaxt namazı qüsurlu olanların əfv olmasına Cümə namazları səbəb olur. Cümə namazları da qüsurludursa, Ramazan orucları səbəb olur.

2-Yenə Əbu Hürəyrə (radıyallahü anh) bildirir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurmuşdur: ***"Qapısının önündə axar su olan bir şəxs bu suda hər gün beş dəfə yuyunsa, bədənində kir qalarmı?"*** Əshab-ı kiram cavab verərək, xeyr, heç kir qalmaz, ya Rəsulallah, dedilər. ***"Beş vaxt namaz da belədir. Beş vaxt namaz qılanların kiçik günahlarını Allahü təala yox edər."*** Bu Hədisi-şərif **"Buxari"** və **"Müslim"**də yazılmışdır.

3-Abdullah ibn Məsud (radıyallahü anh) deyir ki, biri yad bir qadını öpmüşdür. Yəni Ənsardan biri xurma satırdı. Bir qadın xurma almaq üçün gəlmişdi. Qadına qarşı heyvani hissləri oyandı. Evdə daha yaxşısı var, gəl ondan verim, dedi. Evə gəldikdə qadını qucaqlayıb, öpdü. Qadın: "Nə edirsən, Allahdan qorx!" dedi. O da peşman oldu. Rəsullullahın yanına gəlib, etdiklərini söylədi. Rəsulullah (sallallahü aleyhi və səlləm) ona cavab vermədi, Allahü təaladan vəhy gözlədi. Sonra o şəxs namaz qıldı. Allahü təala Hud surəsinin 115-ci ayəsini göndərdi. Bu ayəti kərimədə buyruldu: ***"Günün iki tərəfində və günəş batarkən namaz qıl! Yaxşılıqlar pislikləri əlbəttə yox edər."*** Günün iki tərəfi zöhrdan əvvəl və sonra deməkdir. Yəni sübh, zöhr və əsr namazlarıdır. Gündüzə yaxın olan gecə namazı da şam və İşa namazlarıdır. Bu ayəti kərimədə hər gün beş vaxt namazın günahların əfv edilməsinə səbəb olduğu bildirilir. Bu şəxs "Ya Rəsulallah! Bu müjdə yalnız mənim üçündür, yoxsa bütün ümmət üçündür?" soruşdu. ***"Bütün ümmət üçündür."*** buyurdu.

4-Enes ibn Malik (radıyallahü anh) deyir ki, bir şəxs Rəsulullahın (sallallahü aleyhi və səlləm) yanına gəlib, dedi: "Had cəzası veriləcək bir günah işlədim. Mənə had cəzası vur!" Rəsulullah ondan nə günah işlədiyini soruşmadı. Namaz vaxtı gəldi, birlikdə qıldıq. Rəsulullah (sallallahü aleyhi və səlləm) namazını bitirdikdə o şəxs yenə dedi: "Ya Rəsulullah (sallallahü aleyhi və səlləm)! Mən had cəzası veriləcək bir günah işlədim. Allahü təalanın kitabında əmr olunan cəzanı mənə ver!" Rəsulullah (sallallahü aleyhi və səlləm): ***"Sən bizimlə birlikdə namaz qılmadınmı?"*** buyurdu. "Bəli, qıldım" dedi. ***"Üzülmə, Allahü təala günahını əfv eylədi!"*** buyurdu. Bu Hədis iki səhih kitabda yazılmışdır. Bu şəxs had lazım olan böyük günah işlədiyini zənn etmişdi. Namaz qılarkən əfv olması bunun kiçik günah olmasını göstərir. Yaxud had deyərkən, kiçik günahların qarşılığı olan **"Tazir"** cəzasını nəzərdə tuturdu. Tazir cəzası qəbahətə və şəxsə görə dəyişən tənbeh, xəbərdarlıq, danlamaq və döymək kimi cəzalara deyilir.

5- Abdullah ibn Məsud (radıyallahü anh) deyir ki, Allahü təalanın ən çox hansı əməli sevdiyini Rəsulullahdan (sallallahü aleyhi və səlləm) soruşduqda ***"Vaxtında qılınan namaz"*** buyurdu. Bəzi Hədisi-şəriflərdə ***"Vaxtın əvvəlində qılınan namazı çox sevər"*** buyrulmuşdur. Ondan sonra hansını çox sevdiyini soruşduqda ***"Anaya-ataya yaxşılıq etməyi"***, sonra ***"Allah yolunda cihad etməyi"*** buyurdu. Başqa bir Hədisi-şərifdə ***"Əməllərin ən yaxşısı yemək yedirməkdir", "Salam verməyi yaymaqdır", "Gecə hər kəs yatarkən namaz qılmaqdır", "Ən qiymətli əməl əlindən və dilindən kimsənin inciməməsidir", "Ən qiymətli əməl cihaddır", "Ən qiymətli əməl haccı məbrurdur*** (yəni heç günah işləmədən edilən həccdir)***", "Allahı zikr etməkdir", "Davamlı olan əməldir"*** deyə buyurduğu hədisi-şərifləri də vardır. Sualı soruşanların hallarına uyğun, yaxud zamana uyğun müxtəlif cavablar verilmişdir. Məsələn, islamın başlanğıcında əməllərin ən yaxşısı, ən qiymətlisi cihad idi. [İndiki zamanda əməllərin ən yaxşısı yazı ilə, nəşriyyat ilə kafirlərə, məzhəbsizlərə cavab vermək, Əhli sünnət etiqadını yaymaqdır. Belə cihad edənlərə pul ilə, mal ilə, bədən ilə yardım edənlər də onların qazandıqları savaba ortaq olurlar. Ayəti kərimələr, Hədisi-şəriflər namazın zəkatdan, sədəqədən daha qiymətli olduğunu göstərir. Lakin ölüm ayağında olan şəxsə bir şey verib ölümdən qurtarmaq namaz qılmaqdan daha qiymətli olar.]

6-Cabir ibn Abdullah xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"İnsan ilə küfr arasındakı sərhəd namazı tərk etməkdir."*** Çünki namaz insanı küfr etməkdən qoruyan pərdədi. Bu pərdə aradan qalxdıqda qul küfrə yönəlir. Bu Hədisi-şərif "Müslim"də yazılmışdır və namazı tərk etməyin çox pis olduğunu göstərir. Əshabı kiramdan çox adam namazı üzrsüz tərk edənin kafir olacağını demişdirlər.

7-Übadə ibn Samit (radıyallahü anh) xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"Allahü* azım-üş-şan *beş vaxt namaz qılmağı əmr etdi. Bir şəxs gözəl dəstəmaz alıb, namazları vaxtında qılarsa və rükularını, huşularını tam yerinə yetirərsə, Allahü təala onu əfv edəcəyini söz vermişdir. Bunları etməyənlər üçün isə söz verməmişdir. Etməyənləri istərsə əfv edər, istərsə də əzab verər."*** Bu Hədisi-şərifi İmam Əhməd, Əbül Davud və Nəsai bildirmişdir. Göründüyü kimi namazın şərtlərinə, rüku və səcdələrinə diqqət etmək lazımdır. Allah sözündən dönməz. Doğru-dürüst namaz qılanları mütləq əfv edər.

8-Əbu Əmaməi Bahili (radıyallahü anh) xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"Beş vaxt namazınızı qılın! Bir ayınızı da oruc tutun! Mallarınızın zəkatını verin! Başınızda olan rəhbərlərə itaət edin! Rəbbinizin Cənnətinə girin!"*** Göründüyü kimi hər gün beş vaxt namaz qılan, Ramazan ayında oruc tutan, malının zəkatını verən və Allahü təalanın yer üzündə xəlifəsi olan rəhbərlərin islamiyyətə uyğun

əmrlərinə itaət edən bir müsəlman Cənnətə gedəcəkdir. Bu Hədisi-şərifi İmam Əhməd və Tirmüzi bildirmişdir.

9-Əshabi-kiramın məşhurlarından Bürəydəi Əsləmi (radıyallahü anh) xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"Sizinlə aramızda olan əhd namazdır. Namazı tərk edən kafir olar."*** Buradan namaz qılanın müsəlman olduğu aydın olur. Namaza əhəmiyyət verməyən, namazı birinci vəzifə qəbul etmədiyi üçün qılmayan kafir olur. Bu Hədisi-şərifi İmam Əhməd, Tirmüzi, Nəsai və ibn Macə bildirdi.

10-Əbu Zəri Qifari (radıyallahü anh) deyir ki, payız günlərindən birində Rəsulullah (sallallahü aleyhi və səlləm) ilə birlikdə küçəyə çıxdıq. Yarpaqlar tökülürdü. Bir ağacdan iki budaq qopardı. Onların yarpaqları dərhal töküldü. ***"Ya Əbu Zər! Bir müsəlman Allah rizası üçün namaz qıldıqda bu budaqların yarpaqları töküldüyü kimi günahları tökülər."*** Buyurdu. Bu Hədisi-şərifi İmam Əhməd xəbər verdi.

11-Zeyd ibn Xalid Cühəmi xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"Bir müsəlman doğru olaraq və huşu ilə iki rükət namaz qıldıqda keçmiş günahları əfv olar."*** Yəni kiçik günahlarının hamısı əfv olar. Bu Hədisi-şərifi İmam Əhməd bildirdi.

12-Abdullah ibn Əmr ibn As "radıyallahü təala anhüma" xəbər verir: Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki, ***"Bir şəxs namazı vaxtında qılarsa, bu namaz qiyamət günü nur və sübut olur, Cəhənnəmdən qurtulmasına səbəb olur. Namazı mühafizə etməzsə, nur və sübut olmaz, qurtuluş tapmaz. Karun, Firon, Haman və Übey ibn Haləf ilə birlikdə olar."*** Göründüyü kimi bir şəxs namazı fərzlərinə, vaciblərinə, sünnətlərinə və ədəblərinə uyğun qılarsa, bu namaz qiyamətdə nur içində olmasına səbəb olur. Belə namaz qılmağa davam etməzsə, qiyamət günü adı çəkilən kafirlərlə bərabər olar. Yəni Cəhənnəmdə şiddətli əzab çəkər. Übey ibn Haləf Məkkə kafirlərinin azğınlarından idi. Uhud qəzasında Rəsulullah (sallallahü aleyhi və səlləm) mübarək əli ilə onu Cəhənnəmə göndərdi. Bu Hədisi-şərifi İmam Əhməd, Beyhəki və Darimi bildirmişdirlər.

13-Tabiinin (Səhabələri görən və onlardan dərs alan alimlər) böyüklərindən, Abdullah ibn Şakik (rahimə-hullahü təala) deyir ki: "Əshabi-kiram (radıyallahü anhüm), ibadətlər içində yalnız namazı tərk etməyin küfr olduğunu söyləmişdirlər." Bunu Tirmüzi bildirdi. Abdullah ibn Şakik Ömərdən, Əlidən, Osmandan və Aişədən (radıyallahü anhüm) Hədisi-şəriflər rəvayət etmişdir. Hicrətin 108-ci ilində vəfat etmişdir.

14-Əbüddərda (radıyallahü anh) deyir ki, çox sevdiyim mənə dedi ki, **"Parça-parça parçalansan, atəşdə yandırılsan belə Allahü təalaya heç bir şeyi şərik qoşma! Fərz namazları tərk etmə! Fərz namazları bilə-bilə tərk edən müsəlmanlıqdan çıxar. Şərab içmə! Şərab bütün pisliklərin açarıdır."** Göründüyü kimi, fərz namazları əhəmiyyət verməyib tərk edən ka-

fir olur. Tənbəlliklə tərk edən kafir olmasa da, böyük günah olar. İslamiyyətin bildirdiyi beş üzrlü səbəbdən biri ilə qaçırmaq günah deyildir. Şərab və spirtli içkilərin hamısı ağlı aparır. Ağlı olmayan hər pisliyə əl ata bilər.

15-Əli (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki: **"Ey Əli! Üç şeyi etməyi gecikdirmə: Vaxtı gəldikdə namazı dərhal qıl! Cənazə hazırlandıqda namazını dərhal qıl! Bir qızı uyğun birini tapdıqda dərhal evləndir!"** Bu Hədisi-şərifi Tirmüzi (rahimə-hullahü təala) bildirdi. Cənazə namazını gecikdirməmək üçün məkruh olan üç vaxtda da qılmaq lazımdır.

[Göründüyü kimi, qadını, qızı ona uyğun birinə vermək lazımdır. Uyğun biri dedikdə, zəngin olmaq, gəliri çox olmaq nəzərdə tutulmur. Uyğun biri olmaq, kişinin saleh müsəlman olması, Əhli sünnət etiqadında olması, namaz qılması, içki içməməsi, yəni islamiyyətə uyması və nəfəqə qazanacaq qədər iş sahibi olması deməkdir. Kişinin yalnız varlı olmasını, imarət sahibi olmasını istəyənlər qızlarını fəlakətə sürükləmiş, Cəhənnəmə atmış olurlar. Qız namaz qılmalı, başı, qolu açıq küçəyə çıxmamalı, məhrəm olmayan qohumları ilə belə yalnız qalmamalıdır.]

16-Abdullah ibn Ömər "radıyallahü anhümə" xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki: **"Namazlarını vaxtları gəldikdə dərhal qılanlardan Allahü təala razı olur. Vaxtlarının sonunda qılanları da əfv edər".** Bu Hədisi-şərifi Tirmüzi (rahimə-hullahü təala) bildirdi.

Şafi və hanbəlidə hər namazı vaxtının əvvəlində qılmaq yaxşıdır. Maliki məzhəbi də buna yaxındır. Ancaq çox isti olduqda, yalnız qılanın zöhr namazını gecikdirməsi yaxşıdır. Hənəfi məzhəbində sübh və İşa namazlarını gecikdirmək və isti vaxtlarda zöhrü hava sərinləşdikdə qılmaq daha yaxşıdır. [Lakin zöhrü imameynin qavlinə görə əsr vaxtı girmədən, əsr və İşanı da İmam azama görə vaxtı girən kimi qılmaq yaxşı olur, ehtiyatlı olur. Təqva əhli olanlar hər işlərində ehtiyatlı davranırlar.]

17-Ümmi Fərvə "radıyallahü anha" xəbər verir. Rəsulullahdan (sallallahü aleyhi və səlləm) hansı əməlin daha yaxşı olduğu soruşuldu: **"Əməllərin ən yaxşısı vaxtının əvvəlində qılınan namazdır"**, buyurdu. Bu Hədisi-şərifi imam Əhməd, Tirmüzi və Əbu Davud (rahimə-hümullahü təala) bildirdilər. Namaz ibadətlərin ən üstünüdür. Vaxtı girən kimi qıldıqda daha üstün olur.

18-Aişə "radıyallahü anha" deyir ki, Rəsulullahın (sallallahü aleyhi və səlləm) namazını axır vaxtında qıldığını ikinci dəfə görmədim.

19-Ümmi Həbibə "radıyallahü anha" xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu ki: **"Bir müsəlman qul hər gün fərz namazlardan başqa 12 rükət tetavvu olaraq namaz qılarsa, Allahü təala ona Cənnətdə bir yer düzəldər."** Bu Hədisi-şərif **"Müslim"**də yazılmışdır.

Göründüyü kimi, hər gün beş vaxt fərz ilə qılınan sünnət namazlara Rəsulullah (sallallahü aleyhi və səlləm) tetavvu, yəni nafilə namaz deməkdədir.

20-Tabiinin böyüklərindən Abdullah ibn Şakik (rahimə-hullahü təala) deyir ki, Rəsulullahın (sallallahü aleyhi və səlləm) tetavvu namazlarını, yəni nafilə namazlarını Həzrəti Aişədən "radıyallahü anha" soruşdum. "Zöhrün fərzindən əvvəl dörd, sonra iki, məğribin və İşanın fərzlərindən sonra iki, sübh namazının fərzindən əvvəl iki rükət qılardı" dedi. Bu xəbəri Müslim və Əbu Davud (rahimə-hümallahü təala) bildirdilər.

21-Aişə "radıyallahü anha" dedi ki: "Rəsulullahın (sallallahü aleyhi və səlləm) nafilə ibadətlərdən ən çox davam etdiyi, sübh namazının sünnəti idi." Bu xəbər, **"Buxari"** və **"Müslim"**də yazılmışdır. Aişə "radıyallahü anha" beş vaxt namazda qılınan sünnət namazlara nafilə namaz deməkdədir.

[Böyük islam alimi, məzhəbsizlərə qarşı Əhli sünnətin ən qüvvətli hamisi, Allahü təalanın seçdiyi dini yayan, bidətləri yıxan böyük mücahid, İmam Rabbani müceddidi əlfi sani Əhməd ibn Abdül-əhad Faruki Sərhəndi "(rahmətullahi aleyh), islam dinində bir bənzəri yazılmamış **"Məktubat"** kitabının birinci cild, 29-cu məktubunda buyurur ki:

Allahü təalanın razı olduğu işlər, fərzlər və nafilələrdir. Fərzlərin yanında nafilələrin heç qiyməti yoxdur. Bir fərzi vaxtında qılmaq, min il dayanmadan nafilə ibadət etməkdən daha qiymətlidir. Hər növ nafilə, məsələn, namaz, oruc, zəkat, ömrə, həcc, zikr, fikir, hamısı buna aiddir. Hətta bir fərzi yerinə yetirərkən onun bir sünnətini, bir müstəhəbini yerinə yetirmək də, başqa nafilələri etməkdən qat-qat daha qiymətlidir. Əmir-ül-mü-minin Ömər-ül-Faruk (radıyallahü anh) bir gün sübh namazını qıldırarkən, camaat arasında birini görməyib səbəbini soruşdu. "O hər gecə nafilə ibadət edir, bəlkə yuxuya qalıb, camaata gələ bilməmişdir", dedilər. Ömər-ül-Faruk (radıyallahü anh) buyurdu: "Bütün gecəni yatıb, sübh namazını camaatla qılsaydı daha yaxşı olardı." Göründüyü kimi, bir fərzi yerinə yetirərkən, müstəhəblərindən birini icra etmək və bir məkruhundan çəkinmək, zikr və nafilə ibadətdən qat-qat qiymətlidir. Əlbəttə, bu zikr və nafilələr o müstəhəbləri etməklə və məkruhlardan çəkinməklə bərabər yerinə yetirilərsə, təbii ki, çox faydalı olar. Lakin onlarsız olduqda, bir işə yaramazlar. Bunun kimi, bir manat zəkat vermək minlərlə manat nafilə sədəqə verməkdən daha yaxşıdır. O bir manatı verərkən bir müstəhəbinə əməl etmək, məsələn, yaxın qohuma vermək də o nafilə sədəqədən qat-qat daha yaxşıdır. [Gecə namaz qılmaq istəyənlərin qəza qılmalı olduğu buradan aydın görünür. Allahü təalanın əmrlərinə **"Fərz"**, qadağalarına **"Haram"**, Peyğəmbərimizin əmrlərinə **"Sünnət"**, qadağalarına **"Məkruh"**, bunların hamısına **"Əhkamı islamiyyə"** deyilir. Gözəl əxlaq sahibi olmaq, insanlara yaxşılıq etmək fərzdir. Əhkamı islamiyyənin bir hökmünə inanmayan, bəyənməyən **"Kafir"**, **"Mürtəd"** olur. Hamısına inanana **"Müsəlman"** de-

yilir. Tənbəlliklə əhkam-ı isalamiyyəyə uymayan müsəlmana **“Fasiq”** deyilir. Bir fərzə, bir harama uymayan fasiq Cəhənnəmə gedəcəkdir. Onun etdiklərinin heç biri və sünnətləri qəbul olmaz, savab verilməz. Bir manat zəkat verməyənin milyonlar verərək etdiyi yaxşılıqların heç biri qəbul olmaz. Tikdirdiyi məscidlərə, məktəblərə, xəstəxanalara, xeyriyyə cəmiyyətlərinə etdiyi yardımlara savab verilməz. İşa namazını qılmayanın təravih namazı qəbul olmaz. Fərzlərdən və vaciblərdən başqa edilən ibadətlərə **“Nafilə”** deyilir. Sünnətlər nafilə ibadətlərdir. Bu tərifə görə, qəza namazı qılan sünnət də qılmış olur. Bir fərzi etməyin, bir haramdan çəkinməyin savabı milyonlarla nafilə savabından çoxdur. Bir fərzi etməyən, bir haram işləyən Cəhənnəmdə yanacaqdır. Nafilə ibadətləri onu Cəhənnəmdən qurtarmaz. İbadətlərdə edilən dəyişikliklərə **“Bidət”** deyilir. İbadət edərkən bidət işləmək haramdır və ibadətin pozulmasına səbəb olur. Hədisi-şərifdə buyrulmuşdur: **“Bidət işləyənin heç bir ibadəti qəbul olmaz.”** Fasiqin, məsələn, xanımı, qızı örtünməyən birinin və bidət sahibinin, məsələn, ibadətlərdə səsgücləndirici işlədənin arxasında namaz qılmaq, dinlə əlaqədar uydurma nitqlərini dinləmək, kitablarını oxumaq olmaz. Dosta da, düşmənə də gülər üz və şirin dil göstərmək, heç kimlə münaqişə etməmək lazımdır. Hədisi-şərifdə buyruldu: **“Axmağa cavab verilməz.”** İbadətlər qəlbin təmizliyini artırır. Günahlar qəlbi qaraldır, feyzləri almaz olur. Hər müsəlmanın imanın şərtlərini, fərzləri və haramları öyrənməsi fərzdir. Bilməməsi üzrlü səbəb deyil. Yəni bilib inanmamaq kimidir.] **“Məktubat”** kitabı fars dilindədir. Tərcüməsi burada tamamlandı. İmam Rabbani həzrətləri 1034-cü [m. 1624] ildə Hindistanda, Sərhənd şəhərində vəfat etmişdir.

Yuxarıda yazılanlardan aydın olur ki, beş vaxt namazın sünnətləri də nafilə namazdır. Bunlar fərzlərlə bərabər qılındıqları üçün və qılınan fərzdəki nöqsanları tamamladıqları üçün, digər nafilə namazlardan daha üstün olurlar. Namazlara qiymət verdiyi, onları birinci vəzifə bildiyi halda bir fərz namazı üzrsüz vaxtında qılmayan bir müsəlman böyük günah işləmiş olur. O, Cəhənnəmdə Fironlarla, Haman ilə bərabər olar. Nafilə namazlar, yəni sünnətlər insanı bu böyük günahdan, bu şiddətli əzabdan qurtara bilməz. Buna görə tərk edilmiş fərz namazları qəza etmək fərzdir. Onların qəzalarını gecikdirmək də böyük günahdır. Bu artan, çoxalan günahlara son vermək lazımdır. Qəza qılmaq fərz olduğu üçün savabı, sünnətləri qılmaq savabından minlərlə qat çoxdur. Həm buna görə, həm də sünnətləri üzrlü səbəblə tərk etmək caiz olduğuna görə, hər müsəlman üzrsüz tərk etdiyi fərz namazların qəzalarını hər gün dörd vaxt namazın sünnətləri yerinə də qılmalıdır. Beləliklə qəzalarını hər zaman qılaraq böyük günahdan tezliklə qurtulmalıdır. Sübh namazının sünnətinə vacib deyən alimlər olduğu üçün sübh namazının sünnəti yerinə qəza qılmaq olmaz. Qəzalar bitdikdən sonra beş vaxt namazın sünnətləri mütəmadi olaraq qılınmalıdır.

Çünki sünnətləri üzrlü səbəb olmadan qılmamaq və bunda israr etmək günahdır. Sünnətə əhəmiyyət verməyən isə kafir olur.

Üzrlü səbəblə qəza edilmiş, qılınmamış namazları da dərhal qəza etmək fərz olsa da, üzrlü səbəblə qılmamaq günah olmadığı üçün onların qəzalarını sünnətləri qılacaq qədər gecikdirməyin caiz olduğunu Hənəfi alimləri demişdir. Lakin bu sözləri üzrsüz tərk edilmiş namazların qəzalarına aid deyil. Bundan başqa, caizdir demək vacibdir, yaxşıdır mənasını daşımır. Caiz deyilən çox şey vardır ki, məkruh olduqları bildirilmişdir. Məsələn, islam dövlətində yaşayan qeyri müsəlman olan kafirlərə fitr sədəqəsi vermək caizdir, lakin məkruhdur.]

## ZƏKAT VERMƏK

Bəqərə surəsinin 43-cü və 110-cu ayələri zəkatın fərz olduğuna sübutdur.

On iki şəxsə zəkat verilməsi caiz deyildir: Məcnun olana Meyitin kəfəninə, Kafirə, Zənginlərə, Ata-anasına, nənə-babasına, övladlarına və nəvələrinə, Zövcəsinə, Köləsinə, Mükatəbəsinə, yəni sahibinə müəyyən bir miqdar pul verməklə azad olacaq öz köləsinə, Müdəbbərəsinə, yəni sahibinin ölümündən sonra azad olacaq köləyə. Qadının ərinə zəkat verməsi ixtilaflıdır. Doğru olan verməməkdir.

Bir şəxsi yad bilib övladı çıxsa, müsəlman sanıb kafir çıxsa, bunlara zəkat verilməz. Lakin bilmədən verilmiş olduğu təqdirdə geri alınmaz.

Zəkatı şəkkiz şəxsə vermək lazımdır:

1-Kasıb, miskin (bir günlük dolanışığından artıq bir şeyi olmayan müsəlman) olana,

2-Qurban nisabına malik olmayan kasıblara,

3-Borcu olan müsəlmana,

4-Zəkat malı və uşr toplamağa məmur olan şəxsə,

5-Ölkəsində zəngin olsa da, hal-hazırda olduğu yerdə kasıb olana,

6-Cihad və həcc yolunda möhtac qalana,

7-Azad olması üçün sahibinə müəyyən məbləğ ödəməli olan köləyə,

8-Müəlləfəi-kulüb deyilən kafirlərə. Onlar, qəlblərinə iman yerləşdirilməsi istənilən kafirlərdir ki, hal-hazırda bunlar yoxdur.

Nəfəqədən, yəni gündəlik dolanışıq üçün vəsaitdən çox, lakin qurban nisabından az malı olana kasıb deyilir. Nisab, dində zənginlik ölçüsüdür. İslam dinində zənginliklə kasıblıq arasında sərhəddir. Maaşı nə qədər olur olsun, evini dolandırmaqda çətinlik çəkən hər bir şəxs zəkat ala bilər və qurban kəsməsi, fitrə verməsi vacib olmaz. Din bilgilərini öyrətməkdə və öyrənməkdə olan, qırx illik nəfəqəsi olsa da, zəkat ala bilər. Zəkat pulu ilə məscid tikilməz, cihad edilməz və həccə gedilməz. Meyyitə kəfən alınmaz. Zənginin kiçik övladına, öz anasına, atasına, övladlarına, zövcəyə zəkat verilməz. Bacı-qardaşa, gəlinə, kürəkənə, qayınanaya, qayınataya, xala, dayı,

əmi, bibiyə vermək daha savabdır. Kasıba zəkat nisabdan az verilir. Lakin uşaqları da varsa, hər birinə nisab miqdarı düşməyəcək qədər çox verilə bilər. Malını israf edənə, harama xərcləyənə zəkat verilməz. Seyyidlər indi qənimətdən haqqlarını ala bilmədikləri üçün onlara da verilə bilər.

Zəkatın fərz olmasının altı şərti var:

1-Müsəlman olmaq,

2-Həddi-buluğa çatmaq.

3-Ağıllı olmaq,

4-Azad olmaq,

5-Zəkat nisabı qədər halal zəkat malına malik olmaq,

6-Əlindəki malın ehtiyacından və borcundan çox olması.

[Zəkat fərz olduqdan sonra müsəlman kasıba zəkat verməyənin və ya başqa borcu olanın xeyriyyə ilə məşğul olması və sədəqə verməsi savab olmaz, günah olar. Onun ilk növbədə zəkatını verməsi və borcunu ödəməsi fərzdir. **"Hadika" ikinci cild 635-ci səhifə** və **"Berika" 1369-cu səhifələrində** deyilir ki, pulunu haram yerlərə sərf edən və ya israf edən şəxslərə zəkat və sədəqə vermək caiz deyil. Çünki harama yardım etmək haramdır.]

Verənə heç mənfəəti qalmaması lazımdır. Zövc və Zövcə bir-birlərinə zəkat verərsə, verənə mənfəəti tam olaraq kəsilməz. Hər ibadətdə olduğu kimi zəkat verməkdə də niyyət etmək lazımdır. Zəkat malı, borcu olanın borcundan çox olmalı, ehtiyacından artıq olmalı və bu artıq mal **Nisab miqdarı** olmalıdır. Qızılın nisabı, ölçüsü 20 misqal, yəni 96 qramdır. Gümüşün nisabı 200 dirhəm, yəni 672 qramdır. Zəkatı verməyin fərz olması üçün, zəkat malının nisab miqdarı olduqdan etibarən bir hicri ili sonra da mülkündə qalması lazımdır. Zəkatın fərz olmasına mane olmaq üçün bir il tamam olmadan hiləi şəriyyə, yəni dini çarə axtarmaq imam Muhammədə görə məkruhdur. Hiləi şəriyyə, müsəlmanların islama uymaları və haram işləməmələri üçün ehtiyatlı yol axtarmasıdır. İmam Əbu Yusifə görə məkruh deyildir. Çünki fərz olduqda itaət etməmək günahdır. Günahdan çəkinmək itaətdir. Fitva imam Muhammədin qavlinə görədir.

**"Zəkat malı"** artan, çoxalan mal deməkdir. Bu da dörd növdür: İlin yarıdan çoxunda otlaqda otlayan dörd ayaqlı dişi erkək qarışıq və ya yalnız dişi saimə (çayırda bağlanmadan otlayan heyvan), yəni ətlik, südlük heyvanlar, ticarət üçün satın alınan mallar, qızıl və gümüş əşya, torpaqdan çıxan qida maddələri. Otlaqda yalnız erkək heyvanı olanlara və qatırı, eşşəyi olanlara onların zəkatlarını vermək fərz deyil. Dəvənin, sığırın və qoyunun balaları böyükləri ilə birlikdə olarsa, zəkat hesabına qatılırlar. Zəkat, uşr, kəffarə və sədəqəi fitr olaraq veriləcək malın yerinə, onların qiymətlərini də vermək caizdir. Şafi məzhəbində caiz deyildir. Zəkat fərz olduqdan sonra mal məhv olarsa, zəkat qüvvədən düşər. Sahibi özü tələf edərsə, qüvvədən düşməz.

Ağıllı və həddi-buluğa çatmış müsəlmanın, tam mülkü olan və halal yoldan gələn zəkat malının miqdarı nisab miqdarı olduqdan (zəkat həddinə çatdıqdan) bir il sonra bu malın müəyyən miqdarını səkkiz sinif müsəlmandan bir və ya bir neçəsinə verməsinə zəkat deyilir. Verilən şəxsin müsəlman olması lazımdır. Tam mülk dedikdə, istifadəsi mümkün və caiz olan mal nəzərdə tutulur. Satın alınan mal sözləşmədən sonra mülk olsa da, təslim alınmadan öncə istifadəsi mümkün olmadığı üçün tam mülk sayılmır. Qəsb edilən, yəni zülm ilə, zorla alınan mala, oğurlanan, faiz, rüşvət, qumar ilə alınan mala, mahnı oxumaq, çalğı çalmaq əvəzində alınan mala, spirtli içki satmaqla əldə olunan mala **"Malı-habis"**, yəni pis, haram mal deyilir. Bu malların zəkatı verilmir. Çünki bunlar alanın mülkü deyil. Sahiblərinə, sahibi ölübsə, varislərinə, varisi yoxdursa, kasıb müsəlmanlara verilməlidir. Bir kimsə habis malları bir-biri ilə və ya öz halal malı ilə qarışdırarsa, bu qarışım onun mülkü olsa da, buna **"Mülki habis"** deyilir. Mülki habisi də başqasına vermək, istifadə etmək haramdır və tam mülk olmadığı üçün zəkatı verilmir. Buna qarışmış habis malın mislini, misli yoxdursa qiymətini öz halal, zəkat malından habis malın sahiblərinə ödədikdən sonra mülki habisi istifadə etmək halal olur və zəkat nisabına qatılır. Bu borclarını ödəmək üçün halal malı yoxdursa, borc alıb ödəməlidir. Borcunu ödəmədən əvvəl mülki habisi istifadə etmək, başqasına vermək haram olsa da, satsa, hədiyyə versə alana haram olmaz. Sahibləri və varisləri bilinmirsə, və ya müxtəlif insanlardan toplanan haram mallar bir-biri ilə qarışdırılıb mülki habis olarsa, hamısını müsəlman kasıblara sədəqə vermək lazımdır.

Kasıb, aldığını geri hədiyyə edərsə, verənin geri alması caizdir.

Qızıl və gümüş xalis olaraq istifadə olunmur. Xalisi yarıdan çoxdursa, zəkatları hər halda verilir və ağırlıqları ilə hesablanır. Bunlardan bazarda səmən, yəni satın alınan mala qarşılıq olaraq istifadə edilən iki növ vardırsa, xalisi daha çox olana **"Ceyyid"**, xalisi az olana **"Züyuf"** deyilir. Xalisləri yarıdan azdırsa, ticarətdə istifadə edildikdə və qiymətləri qızıl və ya gümüş nisabı qədər olduqda zəkatlarını vermək lazımdır.

Yağış və ya çay suyu ilə sulanan uşrlu torpaq məhsulu, miqdarı az olsa da və tez çürüyən, xarab olan meyvə-tərəvəz olsa da, onda biri uşr (torpaqdan alınan məhsulun zəkatı) olaraq verilir. Uşr məmuru bunları sataraq pulunu **"Beytül-mal"** deyilən xəzinəyə qoyur. Meyvə görünəndə və ya olanda və ya toplandığı zaman vermək fərz olur, deyildi. Heyvanla və ya maşınla sulanan məhsulun iyirmidə biri verilir. Heç bir məsrəf çıxmadan əvvəl vermək lazımdır. Hökumətin uşru mal sahibinə bağışlaması, əfv, ləğv etməsi caiz deyil. Dağdan və uşrlu torpaqdan əldə edilən balın da uşru verilir.

Zimmiyə, yəni müsəlman ölkəsində yaşayan kafirə zəkat verilməz. Lakin fitrə, kəffarə, nəzr və sədəqə verilir. **"Bahr"**da deyilir ki: "Zimmi

olmayan kafirə, istər müstəmin, yəni öz dövlətindən başqa dövlətin torpaqlarına sığınan, istərsə də hərbçi (islam dövləti ilə müharibə halında olan qeyri müsəlman ölkədən olan şəxs) olsun, fərz, vacib və nafilə sədəqə verilməz.” Borcu olmayan bir kasıba nisab miqdarı və ya daha çox zəkat vermək məkruhdur. Kasıbın ailəsi, uşaqları varsa, hər birinə nisab miqdarı düşməyəcək qədər vermək caizdir.

Rayic (bazar qiyməti, məzənnə) olan, yəni geçər akçe (tez satılan mal) olan fülus (xırda pul, mis pul) ilə mal satmaq caizdir. Fülus, qızıldan və gümüşdən başqa metaldan və ya kağızdan pul demək olub, adətə görə səmən, yəni satın alınan mala qarşılıq olduğu üçün təyin edilməsi, yəni işarə verilməsi, göstərilməsi lazım deyil. Fülus bazarlarda keçərsiz olarsa, İmam azama (rahimə-hullahü təala) görə satış batil olur. İmameynə, yəni İmam Əbu Yusif ilə İmam Muhamməddə “rahimə-hümallahü təala” görə batil olmaz, qiyməti qədər keçər axça verilir. Borc aldıqdan sonra fülus keçərsiz olarsa, İmam azama görə mislini, yəni aldığı qədər fülus ödəyər. İmameynə görə qiyməti qədər keçər axça ödəyər. Rayic olmayan fülus ilə alış-veriş etmək üçün fülusu təyin etmək, göstərmək lazımdır. Təyin edilən mal təayyün edər. Yəni onu vermək lazım olur. Oxşarını verə bilməz. Sərrafa bir dirhəm ağırlığında gümüş verib bunun yarısı ilə də yarım dirhəmdən bir habbə (dən) nöqsan gümüş ver desə bu bey (ticarət) batil olar. Çünki yarım dirhəm gümüşü daha az ağırlıqda gümüşə satmaq faiz olar. Əgər bunun yarısı ilə fülus ver və yarısı ilə də yarım dirhəmdən bir habbə noqsan gümüş ver desə, fülusun beyi (satış, ticarət) səhih olar. Əgər bu bir dirhəm gümüş mənə yarım dirhəm ağırlığında fülus və yarım dirhəmdən bir habbə nöqsan gümüş ver desə, beyin ikisi də səhih olar. Bir habbə nöqsan gümüş eyni ağırlıqdakı gümüş qarşılığı və yarım dirhəm fülus da yarım dirhəmdən bir habbə artıq ağırlıqdakı gümüş qarşılığı satılmış olar. Fülus ilə bunun qarşılığı olan gümüşün ağırlıqları fərqli isə də, cinsləri başqa olduğundan caiz olar.

**“Bədayıus-sanayı”**da deyilir ki: “Zəkat olaraq veriləcək mal, zəkatı lazım olan malın cinsindən və ya başqa cinsdən zəkat malı olmalıdır. [Qızıl yerinə kasıba paltar, ayaqqabı, buğda, yağ kimi şeylər vermək caiz deyildir.] Zəkat malı ayn və ya deyn olur. Ayn, bir şeyin özü deməkdir. Ayn, insanın zəkat üçün ayırdığı və yanında hazır olan maldır. Deyn, hazır və mövcud olmayan mal deməkdir. Deyn, zəkat verəcək insanın əlində, yanında olmayıb, başqasında olan zəkat malıdır. Ayn olan zəkat malı çəki və ya həcm ilə ölçülür, ya da heç ölçülmür. Ölçülmürsə, ya saimə heyvan, ya da ticarət uruzu (qızıl və gümüşdən başqa canlı və cansız hər növ mal) olur. Saimə heyvan verilərkən nass (ayəti kərimə və Hədisi-şəriflər) ilə bildirilən heyvanın orta vəziyyətdə olanı verilir. Aşağı vəziyyətdə olanı verilərsə, orta vəziyyətdə olandan fərqi qədər qızıl və ya gümüş də verilir.

Heyvanın qiyməti verildikdə, yenə orta vəziyyətdə olanın qiyməti verilir. Aşağı vəziyyətdə olanın qiyməti verilərsə, qızıl və ya gümüş ilə tamamlanır. İki orta ölçülü qoyun yerinə qiymətlərinin cəmi qədər bir dolu, kök qoyun vermək caizdir. Ticarət malından nass ilə bildirilənin qırxda biri verilir. Öz cinsindən olan başqa mal verilərsə, yaxşının yerinə orta və ya aşağı mal verildikdə, aradakı fərqi tamamlamaq lazımdır. Çünki uruz ağırlıqla və ya həcmlə ölçülməyən əşya deməkdir. Bunlarda miqdar fərqi faiz sayılmır. Məsələn, bir yaxşı paltar yerinə iki adi paltar vermək caizdir. Öz cinsindən olmayan başqa mal verildikdə, fərz olunan miqdardan az verilərsə, aradakı fərqi tamamlamaq lazımdır. Zəkat malı çəki və ya həcm ilə ölçülürsə, malın özünün qırxda biri verilir. Öz cinsindən olmayan başqa zəkat malı verilərsə, onun qiyməti qədər vermək lazımdır. Öz cinsindən olan başqa mal verilərsə, Şeyhayna, yəni həzrəti Əbu Bəkr və həzrəti Ömərə görə (rahiməhümallahü təala) qiyməti qədər deyil, miqdarı qədər verilir. Məsələn, 200 kiloqram ticarət malı olan yaxşı növ buğdanın qiyməti 200 dirhəm gümüşdürsə, onun zəkatı olaraq 5 kilo adi buğda vermək caizdir.

Qızıl ilə gümüş mütləq **Səmən**, yəni ödəmə vasitəsidir. Səmən olaraq yaradılmışdırlar. İnsanın hər hansı bir ehtiyacını ödəmək üçün özləri işlədilməz. Ehtiyac əşyasını satın almaq üçün vasitədirlər. Başqa əşyalar isə həm ödəmə vasitəsi olaraq, həm də özləri istifadə edilmək üçün yaradılmışdırlar." **"Bədayı"**dan tərcümə tamamlandı.

İnsanın rahat və islama uyğun yaşaya bilməsi üçün istifadə etməli olduğu şeylərə **"Ehtiyac əşyası"** deyilir. Ehtiyac əşyası insanın halına və zamana görə dəyişir. Rahat yaşam üçün lazım olmayıb, zövq üçün, bəzək üçün, hörmət qazanmaq üçün istifadə olunan şeylərə **"Zinət əşyası"** deyilir. Qızıl və gümüş ehtiyac əşyası deyil, zinət əşyasıdır. Kişilərin evdə və küçədə, qadınların yalnız evdə mübah şeylərlə zinətlənmələri caizdir.

Göründüyü kimi, rayic olan fülus hər zaman ticarət malıdır. Qiyməti, bazarda işlədilən qızıl pullardan dəyəri ən az olana görə nisab miqdarı olarsa, zəkatını vermək fərzdir. Çünki ticarət malının nisabı İmameynə (rahimə-hümallahü təala) görə qızıl və gümüş puldan ticarətdə daha çox istifadə olunanı ilə hesablanır. Zəkatı da qiyməti hesab edilən pul ilə və ya malın özünün qırxda biri ilə verilir. Kasıb bunu ehtiyac əşyası kimi istifadə edir. Fülus, qızıldan və gümüşdən başqa olan pul deməkdir. Mis, tunc və başqa qatışıqlardan olduğu kimi, kağızdan da düzəldilir. Yəni kağız pullar fülusdur. Onların zəkatını vermək lazımdır. Lakin onların qiymətləri qızıl və gümüşün qiyməti kimi **"Həqiqi qiymət"** deyil, **"Etibari qiymət"**dir. Hökumətin verdiyi qiymətdir. Verildiyi kimi geri də alına bilər. Etibari qiymətləri getdikdə "Səmən" (ödəmə vasitəsi) və zəkat malı ola bilməzlər. İbni Abidin buyurur ki: "Ticarət malının qiyməti ticarətdə çox işlədilən, pul olaraq hazırlanmış qızıl və ya gümüş ilə hesablanılır. Gümüş

ilə hesablandıqda 240 dirhəm gümüş qiymətində olsa, qızıl ilə hesablandıqda 20 misqal qızıl qiymətində olsa, hər iki qiymət nisab miqdarı olsa da, bu malı gümüş ilə qiymətləndirmək lazımdır. Çünki zəkat olaraq altı dirhəm gümüş və ya yarım misqal qızıl vermək lazım olur. Bu isə beş dirhəm gümüş qiymətində olduğu üçün kasıba faydası az olur. [Çünki 20 misqal qızıl və 200 dirhəm gümüş eyni nisabı göstərdikləri üçün qiymətləri eynidir.] Bir misqal ağırlığındakı qızıl lirəyə bir dinar deyilir. [Türk qızıl lirələrinin hamısı bir yarım misqal, yəni 7,2 qr. ağırlığındadır] Rayic olan fülusun zəkatını nisabı hesab edilmiş olan qızıl və ya gümüş ilə vermək vacibdir." Buradan aydın olur ki, kağız pulun nisabını ticarətdə işlədilən qızıl pulun ən aşağı dəyərlisi ilə hesablamaq və zəkatlarını qızıl olaraq vermək lazımdır. Çünki gümüş, hal-hazırda pul kimi heç istifadə olunmur. Kağız pulun zəkatı nisablarını hesablamaqda istifadə edilən metal ilə, yəni qızıl ilə verilir. Özünün qırxda biri kağız pul olaraq verilə bilməz. Çünki kağız pulun özü ehtiyac əşyası kimi istifadə oluna bilməz. Adi kağız olduğu halda kağız pulları kağız kimi işlətmək israfdır. İsraf isə haramdır. Kağız pulun zəkatını, pul kimi istifadə etməsi üçün kağız olaraq vermək də caiz deyil. Çünki pul olaraq işlədilməsi üçün qiyməti həqiqi və daimi olan qızıl verilir.

Qızıl, pul şəklində və ya başqa hər şəkildə verilə bilər. Hər zaman hər yerdə tapılır. Öz şəhərində qızıl tapa bilməyən, qızıl əşya satılan yerdəki dostuna kağız pul göndərib, bu pulla qızıl alaraq zəkatını verməsini ondan istəyər. Kağız pulları sonradan da ödəmək olar. Kağız pulların zəkatını vermək bu qədər asan olduğu halda, fiqh kitablarının bu əmrlərinə uymaq istəməyib qızıl yerinə, qiyməti etibari və müvəqqəti olan kağız pullar vermək doğru deyildir. Fiqh kitablarına uymaq istəməyib, ibadətləri ayəti kərimələrdən öz anladığına görə yerinə yetirmək istəyənlərə **"Məzhəbsiz"** və **"Azğın"** deyilir. Bu cür yolunu azmışlara: "Mən, ibadətlərimi Qurani-kərimdən və Hədisi-şəriflərdən sənin anladığın kimi deyil, məzhəb imamlarının anlayıb bildirdikləri kimi yerinə yetirirəm" demək lazımdır. Məzhəb imamlarının (rahimə-hümullahü təala) anladıqlarını bildirən kitablara **"Fiqh kitabları"** deyilir.

**"Camiul əzhər"** mədrəsəsinin müəllimlərindən Abdürrahman Cəzirinin rəhbərlik etdiyi alimlər heyətinin hazırladığı **"Kitab-ül fiqh aləl-məzahib-il-ərbəa"** kitabında bütün fiqh bilgiləri dörd məzhəbə görə ayrı-ayrı yazılmışdır. Bu kitab beş cüz olub, hamısı hicri 1392-ci və miladi 1972-ci ildə Qahirədə nəşr olunmuşdur. Bu kitabda deyilir: "Fiqh alimləri kağız pulların zəkatını vermək lazım olduğunu demişdirlər. Çünki bunlar ticarətdə qızıl və gümüş yerinə işlədilirlər. Bunlar hər zaman qızıl və ya gümüş ilə asanlıqla dəyişdirilə bilər. Çox kağız pulu olanın bunları qızıl və gümüş zəkatı nisabına qatmaması və onların zəkatlarını verməməsi ağlın qəbul edəcəyi şey deyil. Buna görə, üç məzhəbin fiqh alimləri kağız pulların zəkatını vermək la-

zım olduğunu sözbirliyi ilə bildirdilər. Yalnız Hanbəli məzhəbi bunlardan ayrıldı. Hənəfi məzhəbinin alimləri kağız pulların **"Deyni kavi"** (borc verilən zəkat malı və zəkat malının satışından alınacaq qarşılıq) sənədi olduğunu, istəndiyi zaman qızılla və gümüşlə dərhal dəyişdirilə biləcəyini söylədilər. Buna görə də zəkatlarının dərhal verilməsi lazım olduğunu dedilər. Çünki alınacaq borcun zəkatını vermək, qızıl, gümüş ələ keçdiyi an fərz olur. Ələ keçmədən əvvəl zəkat fərz olsa da, vermək fərz olmaz." İstərsə, ala bilənə qədər gözləyib, aldığı zaman keçmiş illərin zəkatını verər. İstərsə də gözləməyib, əlində olan qızıl və gümüşdən onların da zəkatlarını hər il verər. Alacağı qızılların zəkatı olaraq, əlindəki sənədləri vermək olmaz. Sənəddə yazılmış qızıl və gümüşləri borclu olandan aldıqda, onların qırxda birini ayıraraq keçmiş illərin hər biri üçün ayrı-ayrı kasıblara vermək fərzdir. Zəkat olaraq kağız pul verilə bilməz. Bu pulların qırxda biri ilə sərrafdan dəyəri ən aşağı olan qızıl pul alıb, bu pulları və ya onların ağırlığı qədər qızıl üzüyü, bilərziyi kasıblara vermək lazımdır.

Borclusuna zəkat verərək, onu borcdan qurtarmaq üçün: "Sənə zəkat verəcəm. Lakin səndən alacağımı, verəcəyim zəkatıma qarşılıq sayıram. Sən də qəbul et!" demək caiz deyil. Zəkatı kasıba verməli, kasıb da aldığını zənginə geri verərək borcunu ödəməlidir. Kasıbın geri verməsinə güvəni olmayan alacaqlı üçün **"Fətavayı-Hindiyyə"**nin altıncı cildində deyilir: "Alacaqlı, güvəndiyi bir şəxsi borclusuna göstərək, "sənə verəcəyim zəkatı təslim almaq və sonra sənin mənə olan borcunu ödəmək üçün, bu şəxsi vəkil et" deyər. Kasıb da o şəxsi vəkil edər. Vəkil, zəkatı aldığı zaman o mal kasıbın mülkü olur. Sonra onu zənginə geri verərək, kasıbın borcunu ödəmiş olur. İki şəxsin bir kasıbdan alacağı olsa, onlardan biri, kasıba alacağı qədər zəkat verib, onu özünə olan borcundan qurtarmaq istəsə, kasıba o qədər zəkat verər. Sonra alacağını kasıba sədəqə edər, yəni halal edər, bağışlayar. Sonra kasıb, əlindəki zəkatı bu zənginə hədiyyə edər. Yaxud kasıb, borcu qədər qızılı birindən borc alıb zənginə hədiyyə edər. Zəngin bunu zəkat niyyəti ilə bu kasıba geri verər. Sonra kasıbı borcundan azad edər, yəni ona bağışlayar. Kasıb, zəkat olaraq aldığı qızılları əvvəlcə borc aldığı şəxsə geri verər. Zəkat ilə [və nəzr edilən mal ilə] xeyriyyə işləri görmək olmaz. Bunun üçün, onu tanıdığı bir kasıba verməli, kasıb da onunla xeyirli işləri görməlidir." Buradan aydın olur ki, bir şəxs, kağız pul ilə zəkat verə bilmək üçün verəcəyi kağız pulun dəyəri qədər qızıl pul ağırlığındakı qızıl zinət əşyasını zövcədən və ya bir tanıdığından borc alar. Qızılları tanıdığı və ya qohumlarından bir kasıba zəkat niyyəti ilə verər. Beləliklə kağız pulların zəkatı verilmiş olar. Sonra kasıb bu qızılları həmin zənginə hədiyyə edər. Zəngin də alıb, sahibinə geri verərək borcunu ödəyər. Zəngin zəkat vermək üçün ayırdığı əlində olan kağız pulların (zəkatı verildiyi üçün) bir qismini bu kasıba verər. Geri qalanı ilə istənilən xeyir və yaxşılıq edə bilər. Kasıb da bu xeyriyyənin savabına qovuşmaq istəsə, zəkat

olaraq aldığı qızılları bu zənginə satar. Sonra xeyirli işlər görməsi üçün zəngini vəkil edib, kağız pulları zənginə geri verər.

Dörd məzhəb elmlərində mütəxəssis, böyük alim seyyid Abdülhakim Arvasi "(rahmətullahi aleyh) buyurdu: "Kağız pulların qiyməti etibari-qiymətdir. Etibardan düşdükdə, dəyəri qalmaz. Bu səbəbdən, fitrə və zəkatı kağız pulla vermək caiz deyil. Əvvəlcədən kağız ilə verilmiş zəkatlar, qızıl ilə devr edilərək qəza edilməlidir. Həcdən başqa digər maliyyə ibadətlərin, yəni mal ilə edilən ibadətlərin qəzası dövr yolu ilə həyata keçirilir."

**"Dürr-ül-muxtar"**da deyilir: "Asilər, yəni hökumətə üsyan edərək dövləti əllərinə keçirmiş müsəlmanlar və zalım olan müsəlman sultanlar, heyvan və uşr deyilən torpaq məhsullarının zəkatlarını alar və bunları Allahü təalanın əmr etdiyi yerlərə verərlərsə, bu aldıqları mallar zəkat olur. Aldıqlarını başqa yerlərə verərlərsə, bunlar zəkat sayılmaz. Mal sahibləri zəkatlarını yenidən müsəlman kasıblara verməlidirlər. Ticarət mallarının zəkatlarını və pul zəkatlarını toplasalar, alimlərin çoxuna görə zəkat sayılmaz. Fitva da belədir. Bəzi alimlərə görə isə, zalım sultanlar müsəlman olduqları üçün və əllərindəki mallar millətin haqqı olduğundan kasıb sayılacaqları üçün, onlara zəkat niyyəti ilə verilənlər zəkat sayılır." İbni Abidin deyir ki: "Vergi olaraq, gömrük deyərək və başqa adlarla alınan mallar, pullar da belədir. Niyyət etsələr belə, zəkat sayılmaz deyənlərin sözləri doğrudur. Yəni zalım olan müsəlmanların bu malların zəkatlarını toplamağa haqları yoxdur." Fitvanın da belə olduğu **"Tahtavi"** haşiyəsində yazılmışdır. Göründüyü kimi, heyvan zəkatını və uşru verməyin səhih olması üçün, onları toplayan hökumət müsəlman olmalı və topladıqlarını **"Beyt-ül-mal"** deyilən dövlət xəzinəsinin dörd qismindən alacaqlı olanlara paylamalıdır. Hökumətə verilən hər növ vergi, alimlərin çoxuna görə, ticarət malının və pulun zəkatı olmaz. Bəzi alimlər, toplayan hökumətin müsəlman olduğunu bilmək və verilən malları, pulları zəkat niyyəti ilə vermək şərti ilə caiz olduğunu desələr də, bu söz zəifdir.

Kadi-zadə **"Fəraid"** kitabında **"Əsmaül-hüsna"**dan bəhs edərkən deyir ki, dua ibadət deməkdir. Buna görə namaza dua deyilir. İslamiyyətdə dua, Allahü təalaya yalvararaq muradını istəməkdir. Allahü təala dua edən müsəlmanı çox sevər. Dua etməyənə qəzəblənər. Dua möminin silahıdır. Dinin təməl dirəklərindən biridir. Yerləri, göyləri aydınladan nurdur. Dua, gəlmiş dərdləri, bəlaları yox edər. Gəlməmişlərin də gəlməsinə mane olar. **"Mənə xalis qəlb ilə dua edin! Belə duaları qəbul edərəm"** mənasındakı ayəti kərimədən aydın olur ki, dua etmək, namaz, oruc kimi ibadətdir. **"Mənə ibadət etmək istəməyənləri zəlil və dəyərsiz edər, Cəhənnəmə ataram"** mənasındakı ayəti kərimə məşhurdur. Allahü təala hər şeyi səbəblə yaratmaqda, nemətləri səbəblərin ardından göndərməkdədir. Zərərləri, dərdləri uzaqlaşdırmaq və faydalı şeyləri vermək üçün də dua etməyi səbəb etmişdir.

## ORUC BƏHSİ

Orucun fərzi üçdür:

1-Niyyət etmək.

2-Niyyəti əvvəl və axır vaxtların arasında etmək.

3-İmsak vaxtından günəşin batmasına qədər olan zamanda orucu pozan şeylərdən qorunmaq. İmsak vaxtı, Fəcri sadiq (gerçək fəcr) deyilən bəyazlığın üfüq xətti üzərində göründüyü vaxtdır. Oruca niyyət etməyib, axşama qədər orucu pozan şeylərdən çəkinən şəxs, oruc tutmuş sayılmır. O günü yalnız qəza etməlidir.

Bir şəxs üçün orucun fərz olmasının yeddi şərti var:

1-Müsəlman olmaq.

2-Həddi-buluğa çatmaq.

3-Ağıllı olmaq.

4-Müsəlman olmayan ölkədə olanın, orucun fərz olduğunu eşitməsi.

5-Mukim* olmaq.

6-Hayz olmamaq.

7-Zahı (Nifas) olmamaq.

Altı şey orucu pozur:

1-Təam yemək. 2-İçiləcək bir şey içmək. 3-Cinsi əlaqəyə girmək. 4-Hayz. 5-Zahılıq. 6-Ağız dolusu qusmaq.

Yalan, qeybət, müsəlmanlar arasında söz gəzdirmək, yalan yerə and içmək kimi şeylər orucu pozmur, lakin savabını azaldır.

Yeddi şəxsə oruc tutmamağa icazə verilir:

1-Xəstə, 2-Müsafir [ertəsi gün], 3-Hayz, 4-Zahı olan, 5-Hamilə qadının qüdrəti çatmazsa, 6-Süd verən qadın, uşağa zərər dəyərsə, 7-Ölüncəyə qədər Ramazan oruclarını tuta bilməyəcək dərəcədə çox yaşlı olan.

Oruca hər gün üçün ayrı niyyət lazımdır. **“Hindiyyə”**də deyilir: “Niyyət qəlb ilə olur. Sahura qalxmaq niyyət deməkdir.” Orucda niyyət iki növdür. Birincisi, Ramazan ayının hər günü üçün, nafilə və müəyyən nəzr orucları üçün niyyət. Bu niyyətin əvvəl vaxtı, öncəki gün günəş batdığı vaxt, axır vaxtı isə **“Dahvəi kübra”** vaxtıdır. Dahvəi kübra vaxtı, oruc tutma zamanının yarısıdır ki, azan saatı ilə Fəcr+24-Fəcr/2 və ya Fəcr+12-Fəcr/2=12+Fəcr/2 dir. Yəni Dahvəi kübra vaxtı, azan saatına görə fəcr vaxtını göstərən ədədin yarısıdır. Müştərək saata görə şəri gündüz zamanın və şəmsi gündüz zamanının yarılarının fərqi, yəni hissəi-fəcrin yarısı qədər zəvaldan (günəşin tam təpə nöqtəsi) əvvəldir. Hissəi-fəcr günəşin doğuş vaxtı ilə fəcr, yəni imsaq vaxtı arasındakı zamandır. Dahvə vaxtına qədər

* mukim-doğulduğu, evləndiyi və ya həmişə qalmaq niyyəti ilə məskən saldığı yerdə yaşayan və ya 104 km. və daha uzaq bir yerdə giriş-çıxış günlərindən başqa on beş gün və ya daha çox qalmağa niyyət edən şəxsdir.

yeməyən və içməyən niyyət edib oruc tuta bilər. Dahvə vaxtında niyyət caiz deyil. Fəcrdən əvvəl niyyət edən "Niyyət etdim sabah oruc tutmağa" deyər. Fəcrdən sonra niyyət edərkən "Niyyət etdim bu gün oruc tutmağa" deyilir.

İkinci növ niyyət, qəza, kəffarə və nəzri mütləq (yəni şərtə bağlı olmadan edilən nəzr) üçün niyyətdir. Bu üçünün niyyət zamanı birdir. Əvvəl vaxtı, öncəki gün günəşin batması, axır vaxtı, fəcr-i sadiq, yəni dan yeri ağarmazdan əvvəldir. Dan yeri ağardıqdan sonra bu üç oruca niyyət caiz deyil.

İbni Abidində, qəza namazı mövzusunda, bir ilin Ramazan ayının müxtəlif günlərini qəza edərkən, günlərin adlarını və ya sıralarını müəyyən etmək lazım olmadığı yazılmışdır.

Oruc tutanlar üç növdür: Cahillərin orucu, Alimlərin orucu, Ənbiya və Övliya orucu. Cahillər oruc olarkən yeməzlər, içməzlər və cima etməzlər. Amma başqa itaətsizlikləri, günahları edərlər. Alimlər oruclu ikən başqa günahları da işləməzlər. Ənbiya və Övliyalar isə oruc zamanı şübhəli olan hər şeydən qaçarlar.

Oruc tutanların bayramı üç növdür: Cahillərin bayramı, alimlərin bayramı, Ənbiya və Övliyaların bayramı. Cahillər axşam olduqda iftar edər, istədiklərini yeyər, içər və bunu özlərinin bayramı hesab edərlər. Alimlər axşam iftar edər və "Əgər Allahü azım-üş-şan tutduğumuz orucdan razı oldusa, bizim bayramımız budur. Əgər razı olmadısa, bizim halımız necə olacaq" deyərlər. Amma Ənbiya və Övliyaların bayramı rüyətullahdır. Onlar Allahü azım-üş-şanın rızasına aşiqdirlər.

Bütün möminlərin bayramı beş növdür:

1-Bir möminin sol yanındakı mələk, pis əməl olaraq yazmağa bir şey tapmazsa.

2-Can vermə anında müjdəçi mələklər gəlib: "Ya mömin! Sən Cənnətliksən!" deyərək xəbər verərlərsə.

3-Qəbrə qoyulduqda, qəbrini Cənnət baxçalarından biri kimi görsə.

4-Qiyamət günündə Ərşin altında Ənbiya, Övliya, alimlər və salehlərlə birlikdə kölgələnərsə.

5-Qıldan incə, qılıncdan kəskin, gecənin qaranlığından daha qaranlıq, min il eniş, min il yoxuş və min il düz olan sırat körpüsü üzərində yeddi yerdə olan suala cavab verib keçərsə. Əgər verə bilməsə, hər birində min il əzab olunacağı ehtimal olunur. O yeddi sual bunlardır: 1-İman, 2-Namaz, 3-Oruc, 4-Həcc, 5-Zəkat, 6-Qul haqqı, 7-Qüsl və dəstəmaz.

Bir şəxs, Ramazanı-şərifdə imsak vaxtından əvvəl niyyət etdiyi orucunu qəsdən pozarsa, həm qəza, həm də kəffarə lazımdır. Nafilə və qəza oruclarında kəffarə yoxdur.

Kəffarə üçün bir qul azad edilir. Ona gücü çatmayan, Ramazan günlərindən və oruc tutulması haram olan beş gündən başqa digər günlərdə ara vermədən altmış gün oruc tutar. Bundan sonra da pozduğu orucların gün sayı qə-

dər ayrıca qəza orucu tutar. [Ramazan bayramının birinci günü və Qurban bayramının dörd günü oruc tutmaq haramdır.] Ona da gücü çatmayan, altmış kasıbı bir gün və ya bir kasıbı altmış gün iki dəfə yedirdər. Yaxud hər birinə fitrə miqdarı qədər mal verər.

Bir gün qəza orucu üçün bir gün oruc tutulur.

Beş şəxsə kəffarə lazım deyil: 1-Xəstə, 2-Qonaq, 3-Süd verən qadın uşağa zərər verəcəyindən qorxub tutmamışdırsa, 4-Çox yaşlı olan, 5-Aclıqdan və ya susuzluqdan həlak olmaq qorxusu olan şəxs.

Bunların problemi aradan qalxdıqdan sonra, gününə gün olaraq qəza edərlər.

Yəvm-i şəkk, şübhəli gün deməkdir. Havanın buludlu olub, Ramazan ayı hilalının görülməməsi səbəbi ilə Şaban ayının otuzuncu, yaxud Ramazan-ı şərifin birinci günü olduğu bilinməyən, Şaban ayının iyirmi doqquzundan sonra gələn gündür. Yəvm-i şəkkdə Ramazan-ı şərif orucuna və ya vacib bir oruca niyyət edərək oruc tutmaq tahrimən (harama yaxın) məkruhdur. Şabana, yəni nafilə oruca niyyət etmək caizdir.

“Ramazandırsa niyyət etdim, Ramazan deyilsə, niyyətsizəm” deyərək oruc tutmaq heç caiz deyil.

Bir şəxs, Ramazanda fəcrə, yəni dan yeri ağarana qədər oruca niyyət etməsə və zöhrdən öncə yesə, İmam azama görə kəffarə lazım olmaz. İmameynə görə kəffarə lazımdır. Çünki niyyət edib oruc tutması mümkün olduğu halda, yemişdir. Zöhrdən sonra yesə, söz birliyi ilə kəffarə lazım olmaz.

Bir şəxs, iki və ya üç Ramazanın hərəsindən bir gün orucu pozsa, bu günlərin hamısı üçün bir kəffarə, yoxsa hərəsi üçün ayrı kəffarə lazım olması barədə fikir ayrılığı mövcuddur. Ehtiyatlı olmaq üçün hər günə görə ayrı kəffarə etmək yaxşı olar. Bir şəxsin Ramazan borcu olsa, borcunu tutmasa və üzərindən il keçsə, bəzi alimlərə görə o şəxs günahkar olur.

Bir şəxs kəffarə tutduğu müddətdə Ramazanı şərif və ya Qurban bayramı gəlsə, Ramazandan və bayramdan sonra təkrar başdan başlayaraq tutmaq lazımdır. Əvvəlkilər hesablanmır.

Bir şəxs səfərə niyyət etmədən orucunu yesə və bundan sonra səfərə niyyət edib getsə həm qəza, həm kəffarə lazım olur. Səfərə çıxmaq orucu pozmağı mübah etmir. Səfərə çıxanın o gün orucu pozmaması vacibdir. Gecə və ya gündüz Dahvə vaxtına qədər niyyət edən müsafirin o gün orucunu pozması halal olmaz. Əgər pozarsa, yalnız qəza edər. Səfərə çıxmaq oruca başlamamağı mübah edər.

Bir şəxsə Ramazan ayında dəlilik üz verib oruc tutmasa, yaxşılaşdığı halda tutmadığı günləri qəza edər. Əgər Ramazan boyunca heç yaxşılaşmayıb, dəliliyi davam edərsə, orucu qüvvədən düşür.

Bir şəxs oruclu olduğunu unudaraq orucunu pozsa, oruc pozulmaz. Əgər oruclu olduğunu xatırlayıb, orucu pozuldu zənn edərək yeməyə da-

vam etsə, qəza lazım olar, kəffarə lazım olmaz. Əgər orucunun pozulmadığını bildiyi halda yeməyə davam etsə, həm qəza, həm kəffarə lazımdır.

Oruclu bir şəxs tərini udsa, boyalı sapı çeynəyib boyasını udsa, tüpürcəyini bayıra çıxardıqdan sonra udsa, dişinin arasında qalan noxud böyüklüyündə təamı udsa və ya dəri altına iynə vurdursa, orucu pozular və yalnız qəza lazım olar.

Bir şəxs kağız parçası və ya ovuc dolusu duz yesə, çiy buğda, düyü dənəsi udsa orucu pozulur, lakin yalnız qəza lazım olur. Çünki ovuc dolusu duzu nə qida olaraq yemək, nə də dərman kimi içmək adət deyil. Amma yediyi duz az miqdarda olsa, kəffarə də lazım olur. Çünki duz az miqdarda həm qida, həm də dərman kimi istifadə olunur.

Çörək pulu qazanmaq üçün çalışarkən xəstə olacağını bilən işçinin xəstə olmadan əvvəl orucu pozması caiz deyil. Orucu yesə həm qəza, həm də kəffarə lazımdır. Kəffarədən qurtulmaq üçün əvvəlcə kağız udmalıdır. Bir hamilə və ya süd verən qadın sıxılaraq, özünü pis hiss edərək yesə, yalnız qəza lazım olar. Üzrlü səbəb olmadan Ramazan günü açıq-aşkar yeyən, içən mürtəd olar.

Bir şəxs küncüt dənəsini yalnız çeynəsə, orucu pozulmaz. Amma udsa, çeynəmiş olsa da, olmasa da orucu pozulur və qəza lazım olur.

Oruc on beş növdür: üçü fərz, üçü vacib, beşi haram və dördü sünnət. Fərz olan oruclar, Ramazan, qəza və kəffarə oruclarıdır. Vacib olanlar, nəzri-müəyyən (bir şərtə bağlı olan nəzr), nəzri-mütləq (şərtə bağlı olmayan nəzr), başlanılmış olan nafilə oruca günəş batana kimi davam etmək.

Haram olan oruclar, Ramazan bayramının ilk günü və qurban bayramının dörd günü tutulan oruclardır.

Sünnət olanlar, hicri təqvimində hər ayın əyyamı-biyd, yəni 13, 14, 15-ci günləri tutulan oruc, savmı Davud orucu (yəni bir gün oruc tutub, ertəsi gün iftar etmək), bazar ertəsi və cümə axşamları tutulan oruc, aşura günü, ərəfə günü və digər mübarək günlərdə tutulan oruclardır.

Oruc tutmağın on bir faydası var:

1-Cəhənnəmə qalxan olar.

2-Digər ibadətlərin qəbuluna səbəb olar.

3-Bədənin zikri olar.

4-Kibri qırar.

5-Ucbu (Özünü bəyənmək) qırar.

6-Huşunu artırar. Huşu, təvazökarlıq, Haqqa boyun əymək, Allah qorxusundan və sevgisindən meydana gələn ədəbli bir haldır.

7-Savabı mizan tərəzisində olar.

8-Allahü təala o qulundan razı olar.

9-İman ilə vəfat edərsə, Cənnətə tez girməyə səbəb olar.

10-Qəlbi nurlanar.

11-Ağlı nurlanar.

Şaban ayının iyirmi doqquzuncu günü, günəş batdığı zaman qərb tərəfindəki zahiri üfüq xətti üzərində Ramazan hilalını axtarmaq vacibdir. Adil olan, yəni böyük günah işləməyən əhli sünnət bir müsəlman hilalı tutqun havada görərsə, hakimə, valiyə xəbər verər. Qəbul edərsə, hər yerdə Ramazan başlayar. Hakim, vali olmayan yerdə bir müsəlman hilalı görüncə, o yerdə Ramazan başlayar. Bidət əhlinin, fasiqin sözü qəbul edilməz. Açıq havada çox insanın görüb xəbər verməsi lazımdır. Hilal görülməzsə, Şaban ayı otuz gün qəbul edilib, ertəsi gün Ramazan ayı olur. Təqvim ilə, astronomik hesablamalarla Ramazan başlanmaz. **"Bahr"**, **"Hindiyyə"** və **"Kadihan"**da deyilir: "İslam qanunlarının tətbiq edilmədiyi bir yerdə əsir olan, Ramazanın əvvəlini bilmədən təqvimə baxaraq bir ay oruc tutsa, Ramazandan bir gün əvvəl, Ramazanın ikinci günü və ya düz Ramazan ayının birində oruca başlaya bilər. Birinci halda, Ramazandan bir gün əvvəl oruc tutmuş və Ramazanın son günü bayram etmişdir. İkinci halda, Ramazanın birinci günü tutmamış, son günü də bayramda tutmuşdur. Hər iki halda da Ramazanın iyirmi səkkiz günündə oruc tutmuş olub, bayramdan sonra iki günü qəza etməlidir. Üçüncü halda, oruc tutduğu bir ayın ilk və son günlərinin Ramazana təsadüf etdiyi şübhəlidir. Ramazan olduğu şübhəli olan günlərdəki oruc səhih olmadığı üçün yenə iki gün qəza etməlidir." Buradan aydın olur ki, Ramazana göydə hilalı görməklə deyil, əvvəlcədən hazırlanmış təqvimə görə başlayanlar, bayramdan sonra iki gün qəza niyyəti ilə oruc tutmalıdırlar. Ramazanı- şərifin başladığı günün hesab edilməsi "**Səadəti-Əbədiyyə**" kitabında uzun yazılmışdır.

[İbni Abidin (rahimə-hullahü təala) deyir ki: "Tutqun havalarda azan oxunsa belə, günəşin batdığından əmin olmadıqca iftar etmək olmaz. Ulduzların çoxu görünənə qədər iftar etdikdə, tələsmək, iftarı tez açmaq kimi müstəhəb yerinə yetirilmiş olur. Bir yerdə günəşin batdığını görərək iftar edildikdə, hündürdə, məsələn minarədə olan biri günəşin batdığına əmin olmadıqca iftar etməz. Sübh namazı və sahur da belədir." Astronomiya kitablarında **"Təmkin"** cədvəllərində də təmkin zamanının* miqdarı hündürlüyə görə dəyişir. Bütün namaz vaxtları hesablanarkən bir yerdəki ən yüksək təpəyə görə olan tək bir təmkin istifadə olunur. Təmkin vaxtı hesablanmadan hazırlanan təqvimlərdə qürub zamanı bir neçə dəqiqə əvvəl yazılmışdır. Qürub vaxtında günəşin batmadığı görülür. Təmkinsiz təqvimə görə iftar açanların orucları fasid olur, yəni pozulur.]

* təmkin zamanı-Günəşin doğuş, batış vaxtı və namaz vaxtı hesablanarkən vaxtlara əlavə olunan və ya çıxılan zaman miqdarıdır.

## QURBAN BƏHSİ

Qurbanın üç şərti var:

1-Müsəlman, ağıllı və həddi-buluğa çatmış olmaq.

2-Mukim olmaq.

3-Qurban nisabına çatacaq qədər zəngin olmaq.

Əsasən qoyun, keçi, dəvə və sığır, yəni iri buynuzlu mal kəsilir. Bir dəvə və ya bir sığır yeddi qurbana bərabər olduğundan, bir sığırı yeddi nəfərin qurban etməsi caizdir. Bir başqası da daxil olmaq istəsə, səkkizinin də qurbanı fasid olur. Qurban nisabı fitrə nisabıyla eynidir.

[İbni Abidin (rahimə-hullahü təala) buyurur ki, qurban kəsənlərdən hər hansı birinin hissəsi yeddidən az olarsa, heç birinin qurbanı caiz olmaz. Buna görə yeddidən az adamın ortaq olması caizdir. Satın alarkən ortaq olmaq səhihdir. Satın alındıqdan sonra ortaq olmaq səhih olsa da, alınmadan öncə ortaq olmaq daha yaxşıdır. Bir şəxs digərinin sığırına yeddidə birdən yeddidə altısına qədər ortaq ola bilər. Əti də bu nisbətdə bölərlər. Ortaqlardan biri ölərsə, varisləri: "onun üçün və özünüzçün kəsin" desələr, səhih olar. Çünki meyit üçün qurban kəsmək qürbətdir. Belə deməzlərsə, şəriklərdən ölününkü qürbət olmaz və heç biri səhih olmaz. Qürbət, itaəti Allah üçün etməkdir. Hər ibadət qürbətdir və itaətdir. Şəriklərdən biri kafirdirsə və ya əti üçün ortaq olmuşdursa, heç birinin qurbanı caiz olmaz. Çünki şəriklərdən hər birinin qürbət olaraq niyyət etməsi şərtdir. Kafirin niyyəti batildir. Yemək üçün niyyət etmək isə qürbət deyil. Şəriklərdən biri bu ilin qurbanına, digərləri keçən ilin qurbanına niyyət etsələr, digərlərinin niyyətləri batil olub, ətləri sədəqə olur. Ətləri kasıblara sədəqə vermək lazımdır. Birinin niyyəti səhih olsa da, o da ətindən yeyə bilməz. Çünki sədəqə verilməsi hökmü ətin hamısına sirayət etmişdir. Niyyət edilən qürbətin vacib qürbət olması şərt deyil. Sünnət və nafilə qürbət də ola bilər. Nikah yeməyi şükr etmək olub, sünnət olan qürbətdir. Şəriklərin hamısının bayram qurbanı niyyətində olmaları yaxşı olar. Əqiq, yəni övlad nemətinə görə Allahü təalaya şükr niyyəti ilə heyvan kəsmək hənəfi məzhəbində sünnət deyil, müstəhəb və ya mübahdır. Müstəhəblər qürbətdirlər. Mübah da şükr niyyəti ilə edildikdə qürbət olur. Çox adətlər vardır ki, niyyət edildikdə ibadət olur. Mübahlar da niyyət edildikdə ibadət olur. Əqiqə kəsmək haqqında ərəbcə **"Ukud-üd-dürriyyə"** və **"Dürr-ül-muxtar"** kitablarında geniş bilgi vardır.]

## HƏCC BƏHSİ

Həccin üç fərzi var:

1-Ehrama girərkən həccə niyyət etmək.

2-Ərafatda vəqfəyə durmaq, yəni zöhr və əsr namazından sonra bir qədər durmaq.

3-Ziyarət təvafı etmək.

Ərafatda vəqfəyə durmağın başlanğıc vaxtı Zilhiccənin doqquzuncu günü zəval vaxtından (günəşin tam təpədən ayrıldığı vaxtdan) ertəsi gün səhər açılanadəkdir. [Bir gün əvvəl və ya bir gün sonra Ərafatda vəqfəyə durduqda həcc batil olur. Vəhhabilər hilalı görmədikləri halda bir gün əvvəl bayram edirlər. Vaxtında vəqfəyə durmayanların həccləri səhih olmur.]

Təvaf yeddi növdür:

1-Ziyarət təvafı. Hacıların Ərafatdan endikdən sonra etdikləri təvafdır.

2-Ömrə təvafı. Ömrəyə niyyət edənin yeddi dəfə etdiyi təvafdır. (bu ikisi fərzdir).

3-Sünnət olan təvaf-ı kudüm. Bu, Məkkə-i mükərrəməyə çatdıqda edilən ilk təvafdır. Buna qovuşma təvafı da deyilir.

4-Vida təvafı. Həcc əsnasında daş atma bitdikdən sonra Minadan Məkkəyə endikdə edilən təvafdır. Həcc vəzifələri bununla sona çatır.

5-Vacib olan nəzr təvafıdır.

6-Təvafı nafilə. Məkkəi mükərrəmədə olanların fürsət tapdıqca etdikləri təvafdır.

7-Müstəhəb olan tətavvü təvafı. Tətavvü, fərz və vacib olmayıb, sırf Allah rızası üçün edilən nafilə ibadətdir.

Həcc üçün ehrama niyyət etmək fərzdir. Ehram parçası geyinmək sünnətdir. Tikişi olan paltar geyinməmək vacibdir.

Həccin fərz olmasının səkkiz şərti var:

1-Müsəlman olmaq.

2-Həddi-buluğa çatmaq.

3-Ağıllı olmaq.

4-Sağlam olmaq.

5-Kölə olmamaq, yəni azad olmaq.

6-Mövcud malın ehtiyaclardan çox olması.

7-Həcc vaxtının gəlməsi. Həcc vaxtı ərəfə və dörd bayram günüdür. Yol müddəti də hesaba qatılır.

8-Səfər müddətində uzaqda olan qadının yanında ərinin və ya nikahı əbədi caiz olmayan məhrəminin olması.

[Bu səkkiz şərtə malik olan şəxsin ömründə bir dəfə həccə getməsi fərzdir. Daha çox gedərsə, sonrakılar nafilə həcc olur. **"Nafilə ibadət"**, fərz və ya sünnət olmayıb, öz arzusu ilə edilən ibadətdir. Nafilə ibadətin savabı fərz ibadətin savabı yanında dərya yanındakı bir damla su qədər azdır. İslam alimləri, Məkkəyə uzaq olan ölkələrdə yaşayanların təkrar həccə getməsinə izn verməmişdirlər. Abdüllah Dəhləvi (quddisə sirruh) altmış üçüncü məktubda buyurur ki: "Həcc yolunda çox zaman ibadətlər tam yerinə yetirilə

bilmir. Buna görə, imam Rabbani “(rahmətullahi aleyh) 123 və 124-cü məktublarında ömrəyə və nafilə həccə getməkdən razı olmadığını bildirmişdir.” Bir fərzin yerinə yetirilməsinə, qadınların örtünməsinə mane olan nafilə həcc haramdır. Bu cür nafilə həccə və ya ömrəyə getmək savab deyil, günah olar.

Zəkatı, nisaba malik olduqdan bir hicri ili sonra vermək fərzdir. Zəkat verməyin fərz olduğu bu zaman həcc zamanından əvvəldirsə, malın, pulun hamısı üçün zəkat verilib, geri qalan pul ilə həccə gedilir. Zəkat vermək zamanı həcc zamanı ilə üst-üstə düşərsə, əvvəlcə həccə gedilir. Həcdən sonra əldə qalan pulun zəkatı verilir.]

*Nə bəxtiyar o kişi kim, oxuduğu Quran ola!*
*Azan, iqamə duyunca, könlü dolu iman ola!*

## ƏLLİ DÖRD FƏRZ

Bir uşaq həddi-buluğa çatdığı zaman və bir kafir **“Kəlimeyi-təvhid”** söylədikdə, yəni **“Lə iləhə illallah Muhammədün rasülullah”** dedikdə və onun mənasını bilib inandıqda **“Müsəlman”** olur. Kafirin günahlarının hamısı dərhal əfv olur. Lakin onlar da hər müsəlman kimi imkan tapdıqca, imanın altı şərtini, yəni Amətünü əzbərləməli, mənasını öyrənərək onlara inanmalı və “İslamiyyətin hamısını, yəni Muhamməd əleyhissəlamın söylədiyi əmrlərin və qadağaların hamısını Allahü təalanın bildirdiyinə inandım” deməlidir. Daha sonra fərzləri, yəni əmr olunanları və haramları, yəni qadağan edilənləri öyrənməsi də fərzdir. Bunları öyrənməyin, eləcə də hər hansı bir fərzi yerinə yetirməyin və ya hər hansı bir haramdan çəkinməyin fərz olduğunu inkar edərsə, yəni inanmazsa, əhəmiyyət verməzsə, imanı gedər, **Mürtəd** olar. Məsələn, qadınların örtünməsini bəyənməzsə, mürtəd olar. Mürtəd, dindən çıxmasına səbəb olan şeydən tövbə etmədikcə, **“Lə iləhə illəllah”** deməklə, islamiyyətin bəzi əmrlərini yerinə yetirməklə, məsələn namaz qılmaqla, oruc tutmaqla, həccə getməklə müsəlman olmaz. Bu etdiklərinin axirətdə faydasını görməz. İnkar etdiyi, inanmadığı şeydən tövbə etməli, peşman olmalıdır.

İslam alimləri, hər müsəlmanın öyrənməsi, inanması və tabe olması lazım olan fərzlərdən əlli dördünü seçmişdirlər. Bu əlli dörd fərz aşağıdakılardır:

1-Allahü təalanı bir bilib, Onu heç vaxt unutmamaq.
2-Halal yemək və içmək.
3-Dəstəmaz almaq.
4-Hər gün vaxtı gəldikdə beş vaxt namaz qılmaq.
5-Namaz qılacağı zaman Hayzdan və cünubluqdan qüsl almaq.
6-İnsanın ruzisinə Allahü təalanın zamin olduğunu haqq bilmək, inanmaq.
7-Halal olan təmiz libas geyinmək.
8-Haqqa təvəkkül edərək (təslim olaraq, güvənərək) işləmək.

9-Qənaət etmək.

10-Nemətlərin müqabilində Rabbi təalaya şükr etmək. Yəni onları əmr olunan yerlərdə işlətmək.

11-Cənabı Haqdan gələn qəzaya razı olmaq.

12-Bəlalara səbr etmək. Yəni üsyan etməmək.

13-Günahlardan tövbə etmək. [Hər gün istiğfar oxumaq.]

14-İhlas ilə ibadət etmək.

15-İnsan və cin şeytanlarını düşmən bilmək.

16-Quranı azım-üş-şanı dəlil, sənəd olaraq qəbul etmək. Onun hökmünə razı olmaq.

17-Ölümü haqq bilmək və ölümə hazır olmaq.

18-Allahü azım-üş-şanın sevdiyini sevib, sevmədiyindən qaçmaq. [Buna hubbu fillah və buğdu fillah deyilir.]

19-Ataya və anaya yaxşı davranmaq.

20-Əmri maruf, yəni dinin bəyəndiyi şeyləri əmr etmək və nəhyi münkər, yəni dində bəyənilməyən şeyləri qadağan etmək, çəkindirmək.

21-Məhrəm olan qohumları ziyarət etmək.

22-Əmanətə xəyanət etməmək.

23-Daim Allahdan qorxaraq, haram işləməkdən çəkinmək.

24-Allahü azım-üş-şana və Rəsuluna itaət etmək. Yəni fərzləri yerinə yetirib, haramlardan çəkinmək.

25-Günahdan qaçıb, ibadətlə məşğul olmaq.

26-Əmr sahiblərinə, yəni dövlət rəhbərlərinə və qanunlara qarşı çıxmamaq.

27-Aləmə ibrət gözüylə baxmaq.

28-Allahü təalanın varlığını, yəni özəlliklərini, məxluqlarını düşünmək, dərk etmək.

29-Dilini haram, əxlaqsız sözlərdən qorumaq.

30-Qəlbi ma-sivadan, yəni dünya sevgisindən təmizləmək.

31-Heç kimi məsxərəyə qoymamaq, ələ salmamaq.

32-Harama baxmamaq.

33-Hər bir halda sözünə sadiq olmaq.

34-Qulağı çalğı kimi yasaq şeylər dinləməkdən qorumaq.

35-Fərzləri və haramları öyrənmək.

36-Tərəzi, ölçü alətlərini haqqıyla işlətmək.

37-Allahü azım-üş-şanın əzabından əmin olmayıb, daim qorxmaq.

38-Müsəlman kasıblara zəkat vermək və yardım etmək.

39-Allahü azım-üş-şanın rəhmətindən ümidi kəsməmək.

40-Nəfsin haram olan istəklərinə tabe olmamaq.

41-Ac olanı Allah rızası üçün yedirmək.

42-Kifayət qədər ruzi [yəni yeyəcək, geyəcək və məskən] qazanmaq üçün çalışmaq.

43-Malın zəkatını, tarladakı məhsulun uşrunu vermək.
44-Hayz və zahı olan qadını ilə yaxınlıq etməmək.
45-Qəlbi günahlardan təmizləmək.
46-Kibirli olmaqdan çəkinmək.
47-Həddi-buluğa çatmamış yetimin malını qorumaq.
48-Gənc oğlanlara yaxın olmamaq.
49-Beş vaxt namazı vaxtında qılıb, qəzaya saxlamamaq.
50-Zülmlə heç kimin malını almamaq.

[Boşadığı qadına mehr pulunu ödəmək də qul haqqıdır. Ödəməzsə, dünyada cəzası və axirətdə əzabı çox şiddətlidir. Qul haqlarından ən mühimi və əzabı ən çox olanı əqrabasına və əmri altında olanlara əmri maruf etməmək, onlara din bilgisi öyrətməməkdir. Onların və bütün müsəlmanların dinlərini öyrənməsinə və ibadətlərini icra etməsinə işkəncə edərək və ya aldadaraq mane olanın kafir olduğu, islam düşməni olduğu aydın görünür. Bidət sahiblərinin, məzhəbsizlərin sözləri ilə, yazıları ilə Əhli sünnət etiqadını dəyişdirmələri, dini, imanı pozmaları da belədir.]

51-Allahü azım-üş-şana şərik qoşmamaq.
52-Zinadan çəkinmək.
53-Şərab və spirtli içkiləri içməmək.
54-Yalan yerə and içməmək.

[Şərab, alkoqollu və spirtli içkilərin hamısı qaba nəcasətdir. Su ilə torpaq qarışdırıldığı zaman, bu ikisindən biri təmizdirsə, əmələ gələn palçığın təmiz olacağı, bu qavlinn səhih olduğu və fitvanın da belə olduğu **“Bahr”** kitabında və **“İbni Abidin”**də yazılmışdır. Bu fitvanın zəif olduğunu bildirən alimlərin də olmasına baxmayaraq, çətinlik olduğu zaman zəif fikrə görə əməl etmək lazım olduğu **“İbni Abidin”**də və **“Hadika”**da yazılmışdır. Buna görə, bir ehtiyacı ödəmək üçün hazırlanan odekolon, lak, spirtli dərman və boyaların alkoqolla qarışdırılan maddələri təmizdirsə, qarışımlar da təmiz olur. Şafi məzhəbində də belə olduğu **“Mafüvat”** şərhində yazılmışdır. Təmizlənmələrində çətinlik olduqda, namaza mane olmazlar. Çətinlik olduğu üçün təmiz qəbul edilən belə duru maddələrin, zərurət olmadan içilməsi caiz deyil. Alkoqollu içkilər heç vaxt təmiz olmaz. Çünki bu içkilərdəki alkoqol digər maddələrlə ehtiyac üçün, faydalı olmaq üçün deyil, kef üçün qarışdırılmışdır. Onların bulaşdığı hər şey nəcs olur. Zərurət olmadan içilmələri daim haramdır.]

*Haramdan çəkin, fərzi etməyə bax!*
*Fərzi tərk edərsən, olur halın xarab!*

## BÖYÜK GÜNAHLAR HAQQINDA

Günahı kəbair, yəni böyük günahlar çoxdur. Onlardan yetmiş ikisi bəyan olunmuşdur:

1-Haqsız yerə adam öldürmək.

2-Zina* etmək.

3-Livata (kişilər arasında cinsi münasibət) etmək hər dində haramdır.

4-Şərab və hər cür spirtli içki içmək.

5-Oğurluq etmək.

6-Kef üçün narkotik maddə yemək, içmək.

7-Başqasının malını zorla almaq, yəni qəsb etmək.

8-Yalan yerə şahidlik etmək.

9-Ramazan orucunu üzrsüz olaraq, müsəlmanların önündə yemək.

10-Faizlə mal, pul almaq, vermək.

11-Çox and içmək.

12-Valideynə asi olmaq, qarşı çıxmaq.

13-Məhrəm və saleh qohumları ziyarət etməmək.

14-Müharibədə döyüşü tərk edib, düşməndən qaçmaq.

15-Razılığı olmadan yetimin malını yemək. [**"Səadəti Əbədiyyə"** kitabının 1029-cu səhifəsində deyilir: "Yetimin vasisinin* onun malından yeməsi və istifadə etməsi caizdir. Başqasına yedirməsi, fitrəsini verməsi, qurbanını kəsdirməsi caiz deyildir."]

16-Tərəzisini və ölçüsünü haqq üzrə işlətməmək.

17-Namazını vaxtından əvvəl və sonra qılmaq.

18-Mömin qardaşının qəlbini qırmaq.

19-Rəsulullahın (sallallahü aleyhi və sələm) söyləmədiyi sözü söyləmək və ona istinad etmək.

20-Rüşvət almaq.

21-Haqq şahidlikdən qaçmaq.

22-Malın zəkatını və uşrunu (torpaqdan alınan məhsulun zəkatı) verməmək.

23-Gücü çatanın, münkəri, yəni günah işləyəni gördükdə çəkindirməməsi.

24-Canlı heyvanı atəşdə yandırmaq.

25-Quran-ı azım-üş-şanı öyrəndikdən sonra, oxumağı unutmaq.

26-Allahü azım-üş-şanın rəhmətindən ümidini kəsmək.

27-İstər müsəlman olsun, istər kafir olsun, insanlara xəyanət etmək.

28-Donuz əti yemək haramdır.

---

* zina-nikahsız cinsi münasibət.

29-Rəsulullahın Əshabından (rıdvanullahi təala aleyhim əcmain) hər hansı birini sevməmək və söymək.

30-Qarnı doyduqdan sonra yeməyə davam etmək haramdır.

31-Qadınların ərinin döşəyindən qaçması.

32-Qadınların, ərindən icazəsiz ziyarətə getməsi.

33-Bir namuslu qadına fahişə demək.

34-Müsəlmanlar arasında söz gəzdirmək.

35-Övrət yerini başqasına göstərmək. [Kişinin göbəklə diz arası, qadının saçı, qolu, ayağı övrətdir.] Başqasının övrət yerinə baxmaq.

36-Ölmüş heyvan əti (leş) yemək və başqasına yedizdirmək. Dinimizin bildirdiyinə uymayaraq öldürülən heyvanlar da leş hesab olunur.

37-Əmanətə xəyanət etmək.

38-Müsəlmanın qeybətini etmək.

39-Həsəd, paxıllıq etmək.

40-Allahü azım-üş-şana şərik qoşmaq.

41-Yalan danışmaq.

42-Təkəbbürlü olmaq, özünü üstün tutmaq.

43-Ölüm xəstəsinin varisdən mal gizlətməsi.

44-Çox xəsis olmaq.

45-Dünyanı [haramları] sevmək.

46-Allahü təalanın əzabından qorxmamaq.

47-Haram olanı haram qəbul etməmək.

48-Halal olanı halal etiqad etməmək.

49-Falçıların falına, qeybdən xəbər verməsinə inanmaq.

50-Dinindən dönmək, mürtəd olmaq.

51-Üzrsüz, başqasının qadınına, qızına baxmaq.

52-Qadınların kişi geyimi geyməsi.

53-Kişilərin qadın paltarı geyməsi.

54-Harəmi Kəbədə günah işləmək.

55-Vaxtı gəlmədən azan oxumaq və namaz qılmaq.

56-Dövlət adamlarının əmrlərinə, qanunlara asi olmaq, qarşı çıxmaq.

57-Xanımının məhrəm yerlərini anasının məhrəm yerinə bənzətmək.

58-Xanımının anasını söymək.

59-Bir-birini silah ilə nişan almaq.

60-Köpəyin artığını yemək, içmək.

61-Etdiyi yaxşılığı başa vurmaq.

62-Kişilərin ipək geyinməsi.

63-Cahillikdə israr etmək. [Əhli sünnət etiqadını, fərzləri, haramları və lazım olan hər bilgini öyrənməmək.]

64-Allahü təaladan və islamiyyətin bildirdiyi adlardan başqa şey söyləyərək and içmək.

65-Elmdən qaçmaq.
66-Cahilliyin müsibət olduğunu anlamamaq.
67-Kiçik günahı təkrar işləməkdə israr etmək.
68-Zərurət olmadan, qəhqəhə ilə çox gülmək.
69-Bir namaz vaxtını qaçıracaq zaman qədər cünub (qüslsüz) gəzmək.
70-Adətli (aybaşı) və zahı halında xanımı ilə yaxınlıq etmək.
71-Təğənni etmək. Əxlaqsız mahnılar oxumaq. Musiqi, çalğı alətlərində çalmaq.

Hindistanın böyük alimlərindən, mirzə Mazhar-ı Can-ı Canan (rahiməhullahü təala), **"Kəlimati tayyibat"** kitabında fars dilində yazır: "Hər çalğını çalmaq və dinləmək söz birliyi ilə haramdır. Yalnız ney çalmağın məkruh olduğu, toylarda dəf, baraban çalmağın mübah olduğu deyilir. [Qurani-kərimi və azanı təğənni ilə oxuyarkən, məna dəyişərsə və ya hərf təkrarlanarsa, haram olur. **"Əl-fiqhu aləl məzahib"**də deyilir: "Təğənni ilə azan oxumaq haramdır. Onu dinləmək caiz deyildir." Mevzun (ölçülü) sözü ölçülü səs ilə oxumağa və dinləməyə **"Təğənni"** və ya **"Sima"** deyilir.

Təğənni, gözəl, xoşa gələn səslə oxumaqdır. Qurani-kərimi, azanı, mövludi, ilahiləri təğənni ilə oxumaq iki cürdür:

1-Sünnət olan, savab olan təğənni. Bu, təcvid elminə uyğun oxumaqdır. Belə təğənni qəlblərə, ruhlara qüvvət verir.

2-Qadağan olan, haram olan təğənni. Bu, musiqi pərdələrinə, notlarına uyaraq, məna pozulacaq şəkildə, hərfləri və kəlmələri dəyişdirərək, səsi alçaldıb yüksəldərək, çənəni oynadaraq oxumaqdır. Belə təğənni hərfləri, kəlmələri pozur, mənanı dəyişdirir. Belə oxuyanların nəğmələri nəfsə xoş, şirin gəlir. Nəfsinə məğlub olanları ağladır, mənadan xəbərləri olmur. Qəlbləri, ruhları qəflətdən, xəstəlikdən qurtula bilmir.

**"Tərqib-üs-salət"** kitabının 162-ci səhifəsində, **"Bəriqa"** cild 2, səhifə 1342-də və **"Hadika"** 2-ci cild 589-cu səhifədə deyilir: "Əyləncə üçün zınqırov taxılmış heyvana minmək olmaz, məkruhdur. Çünki zınqırov şeytanın çalğısıdır. Zınqırov olan karvana rəhmət mələkləri gəlməz." Bir mənfəət üçün minmək caizdir.

Dinə və əxlaqa uymayan şerləri oxumağa, uyğun olanları da çalğılı, içkili, qadın və kişilərin qarışıq olduğu yerlərdə oxumağa, başqa yerdə oxunmuş olanı bu cür yerlərdə radiodan, maqnitafondan dinləməyə, qadınların, oğlanların oxumasına söz birliyi ilə haram deyilmişdir.] Uyğun şerləri uyğun yerlərdə oxumaq caizdir. Qəlbə riqqət gətirdikdə, Allahü təalanın mərhəmətinə də səbəb olur. Bəzi alimlər mübah olan simaya da rəğbət etməmişdirlər. Onlar təbiətlərinə xoş gəlmədiyi, zövq almadıqlarına görə simanı arzu etməsələr də, mübah olan simanı arzu edənləri də rədd və inkar etməmişdirlər."

Qurani-kərimi, mövlidi, ilahiləri, salavat-ı şərifləri günah məclislərində hörmətlə oxumaq haramdır. Əyləncə, kef üçün oxumaq küfrdür. **"Dürr-ül məarif"**-in 6-cı səhifəsində deyilir: "Çalğı, oğlan və qadın səsi haramdır. Belə olmayan səslərlə faydalı şerlər oxumaq simadır*, mübahdır."

72-İntihar etmək, yəni özünü öldürmək, başqalarını öldürməkdən daha böyük günahdır. Belə şəxslər qəbirdə Cəhənnəm əzabı çəkər. Ölməsə, tövbə edərsə, bütün günahları bağışlanar. Qəbir əzabı çəkməz. [Tərk edilmiş namazların tövbələrinin səhih olması üçün, onları qəza etmək lazımdır. Qəzalara başlayan, ölənə qədər qəzaları qılmağa niyyət etmiş hesab olunur. Bu niyyətinə qarşılıq olaraq, bütün qəza borcları əfv olunur. Bunun kimi, imana gələn bir kafir və bidət inanışında olan bir insan da, küfrünə və səhv inanışlarına tövbə etdikdə, küfrə, bidət inanışlara və o zamandakı pis əməlləri etməməyə niyyət etmiş olur. Bu niyyətinin əvəzi olaraq, onların hamısı bağışlanır.]

Fahrüddini Razı **"Əl-mətalib-ül-aliyyə"** kitabının 18-ci babında buyurur: "Ruhu yetkin, nəfsi pak və təsiri qüvvətli bir Vəlinin qəbirinə gedib, bir az durub, o torpaqdakı Vəli düşünülərsə, ruhu o torpağa bağlanar. Meyyitin ruhu da bu torpağa bağlı olduğu üçün, gələn insanın ruhu ilə Vəlinin ruhu görüşmüş olur. Bu iki ruh, qarşılıqlı iki güzgü kimi olur. Hər birində olan mərifət, fəzilət digərinə əks edir. İkisi də çox faydalanır." Alaüddini Attar "rahimətullahi təala aleyh" həzrətləri buyurdu: "Şeyxlərin (vəlilərin, övliyaların) qəbirlərini ziyarət edənə, onları anladığı və bağlandığı qədər fayda hasil olur. Onların qəbirlərindən çox fayda alınır. Lakin ruhlarına bağlanmaq (əlaqə qurmaq) daha faydalıdır. Çünki uzaq və yaxın olmağın bunda bir təsiri yoxdur."

## ÖVRƏT YERLƏRİ VƏ QADINLARİN ÖRTÜNMƏLƏRİ

**"Eşiat-ül-ləməat"** kitabında, Nikah mövzusunda deyilir:

1-Əbu Hüreyrə (radıyallahü anh) xəbər verir. Rəsulullahın (sallallahü aleyhi və səlləm) yanına biri gəlib: "Ənsardan bir qız ilə evlənmək istəyirəm", dedi. **"Qızı** [bir dəfə] **gör! Çünki Ənsar qəbiləsinin gözlərində bir şey vardır"**, buyurdu. Bu Hədisi-şərif **"Müslim"** kitabında yazılmışdır. Evləniləcək qızı əvvəlcədən bir dəfə görmək sünnətdir.

2-Abdullah ibn Məsud (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Qadınlar, görüşdükləri qadınların gözəlliklərini, yaxşılıqlarını, ərlərinə danışmasınlar. Ərləri, o qadını görmüş kimi olurlar."** Bu Hədisi-şərif **"Buxari"** və **"Müslim"**də yazılmışdır.

---

* sima-bir və ya bir neçə insanın çalğısız, alətsiz və musiqi pərdələrinə uydurmadan oxuduqları dini, imanı qüvvətləndirən, əxlaqı gözəlləşdirən şerləri, qəsidələri, ilahiləri və mövludləri dinləməkdir.

3-Əbu Saidi Hudri (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Kişi kişinin, qadın qadının övrət yerinə baxmasın!"** Göründüyü kimi, kişilərin qadınlara və qadınların kişilərin övrət yerinə baxması haram olduğu kimi, kişilərin kişinin övrət yerinə, qadınların qadının övrət yerinə baxması da haramdır. Kişinin kişi üçün və qadın üçün övrət yeri, dizlə göbək arasıdır. Qadının qadın üçün övrət yeri də belədir. Qadının yad kişi üçün övrət yeri isə, əllərindən və üzündən başqa bütün bədənidir. Buna görə, qadınlara övrət deyilir. İstər müsəlman olsun, istər kafir olsun, yad qadının üzünə şəhvət ilə baxmaq, övrət yerinə isə şəhvətsiz də baxmaq haramdır.

4-Cabir ibn Abdullah (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Yad qadının evində gecələməyin!"**

5-Akabə ibn Amir (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Yad qadın ilə bir otaqda tək qalmayın! Qadın ərinin qardaşı və ya onun oğlu ilə tək qalarsa, ölümə qədər sürüklənər."** Yəni fitnəyə səbəb olar. Bundan çox çəkinmək lazımdır. Bu Hədisi-şərif, **"Buxari"** və **"Müslim"** kitablarında yazılmışdır.

6-Abdullah ibn Məsud (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Qadının bədəni övrətdir."** Yəni örtünməsi lazımdır. **"Qadın küçəyə çıxdıqda, şeytan həmişə ona baxar."** Yəni kişiləri aldatmaq, onları günaha batırmaq üçün qadını tələ edər.

7-Büreydə (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) həzrət Əliyə dedi: **"Ya Əli! Bir qadını görsən, üzünü ondan çevir. Ona yenidən baxma! Ani görmək günah olmasa da, təkrar baxmaq günahdır."** Əbu Davud və Darimi bildirdilər.

8-Əli (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Ya Əli! Budunu açma, ölü və ya diri, heç kimin buduna baxma!"** Bu Hədisi-şərifi, Əbu Davud və İbni Macə xəbər veriblər. Buradan aydın olur ki, ölünün övrət yerinə baxmaq, dirininkinə baxmaq kimidir. [İdmançıların və dənizdə üzənlərin övrət yerinə baxmaqdan çox çəkinmək lazımdır.]

9-Abdullah ibni Ömər (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Övrət yerinizi açmayın!** [Yəni tək olarkən də açmayın.] **Çünki yanınızdan heç ayrılmayan kimsələr var. Onlardan utanın və onlara hörmət edin!"** Bunlar, Qoruyucu mələklərdir ki, insanı cinin zərərindən qoruyurlar və insandan ancaq ayaq yolunda və cinsi əlaqə zamanı ayrılırlar.

10-Ümmi Sələmə "radıyallahü anha" deyir ki, Meymünə "radıyallahü anha" ilə birlikdə Rəsulullahın (sallallahü aleyhi və səlləm) yanında idik. İbni Ümmi Məktum (radıyallahü anh) icazə istəyib içəri girdi. Rəsulullah (sallallahü aleyhi və səlləm) bizə: **"Pərdə arxasına keçin!"** buyurdu. "O kor

deyil? Bizi görməz”, dedim. **“Siz də korsunuz? Onu görmürsüz?”**, buyurdu. Yəni o kor olsa da, siz ki, kor deyilsiniz, buyurdu. Bu Hədisi-şərifi, imam Əhməd, Tirmizi və Əbu Davud (rahimə-hümullahü təala) bildirdilər. Bu Hədisi-şərifə görə, kişinin yad qadına baxması haram olduğu kimi, qadının da yad kişiyə baxması caiz deyil. Məzhəb imamlarımız (rahiməhümullahü təala), digər Hədisi-şərifləri də düşünərək, demişdirlər: “Qadının yad kişilərin başına, saçına baxmaması çətindir. Yerinə yetirilməsi çətin olan əmrlərə **“Azimət”** deyilir. Kişinin qadın üçün övrət yeri diz ilə göbək arasıdır. Bura baxmamaq asandır. Asan olan əmrlərə **“Ruhsat”** deyilir.”

[Göründüyü kimi, Ezvac-ı tahirat “radıyallahü təala anhünnə”, yəni Peyğəmbərimizin mübarək xanımları və Əshab-ı kiram “radıyallahü anhüm” azimət ilə əməl edər, ruhsatlardan da çəkinərdilər. İslamiyyəti içəridən yıxmağa çalışan ingilislərin və dinsizlərin, “Peyğəmbər zamanında qadınlar örtünməzdilər. İndi gördüyümüz qadınların qorxunc şəkildə örtünmələri o vaxtlar yox idi. Həzrəti Aişə başı açıq gəzərdi. İndiki örtünməyi, sonradan övhumatçılar və mollalar uydurdular” kimi sözləri çirkin iftiradır. Düzdür, əvvəllər örtünmək əmr olunmamışdır. Lakin hicrətin üçüncü və beşinci illərində qadınların örtünmələri əmr olundu. Babanzadə Əhməd Naim bəy, hicab ayələrinin üç dəfəyə nazil olduğunu **“Təcridi sarih tərcüməsi”** kitabının 118-ci səhifəsində yazmışdır.

11-Tabiinin böyük alimlərindən olan Bəhz ibn Hakim atasından və babasından xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **“Övrət yerlərini ört! Zövcəndən və cariyəndən başqasına göstərmə! Yalnız olarkən də, Allahdan həya edin!”** bu Hədisi-şərifi Tirmüzi, Əbu Davud və İbni Macə (rahimə-hümullahü təala) bildiriblər. Cariyəyə **“Mülki yemin”** deyilir ki, mənası sağ əlin mülkü deməkdir. Çünki satın alarkən, sağ əl ilə müayinə olunur və sağ əl ilə pulu ödənilir.

12-Ömər-ül-Faruk (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **“Bir kişi, yad qadın ilə xəlvət qalarsa, üçüncüləri şeytan olar.”** Bu Hədisi-şərifi Tirmüzi bildirmişdir. [Yad bir və ya bir neçə qadınla qapalı bir yerdə xəlvət qalmaq (yəni tək qalmaq) haramdır. İbni Abidin imamlıqdan danışarkən deyir ki, “Başqa bir kişi də varsa, və ya məhrəm bir qadın da varsa, xəlvət olmaz.”]

13-Cabir ibn Abdullah (radıyallahü anh) xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **“Əri uzaqda olan qadınların yanlarına getməyin! Çünki şeytan, qan kimi damarlarınızda dolaşır.”** “Sizin də damarınızda dolaşır?”, deyə soruşduqda, **“Məndə də dolaşır. Lakin Allahü təala ona qarşı mənə yardım etdi. Onu müsəlman etdi, mənə təslim oldu”**, buyurdu. Bu Hədisi-şərifi Tirmüzi (rahimə-hullahü təala) bildirdi.

14-Ümmi Sələmə “radıyallahü anha” deyir: “Rəsulullah (sallallahü aleyhi və səlləm) yanımda idi. Qardaşım Abdullah ibn əbi Üməyyənin kö-

ləsi də otaqda idi. Bu kölə müxənnəs* idi. Rəsulullah (sallallahü aleyhi və səlləm) onu gördükdə və səsini eşitdikdə, **"Bunun kimiləri evinizə buraxmayın!"**, buyurdu. Bu Hədisi-şərif, **"Buxari"**də və **"Müslim"**də yazılmışdır. "Müxənnəs", əxlaqını, hərəkətlərini, sözlərini və görünüşünü qadınlara bənzədən şəxs deməkdir. Belə edənlər məlundur, yəni lənətlənmişdir. Bunlar üçün Hədisi-şərifdə, **"Özlərini qadınlara bənzədən kişilərə və kişilərə bənzədən qadınlara Allah lənət etsin!"**, buyruldu. Zərurət olmadan kişi kimi geyinən, təraş olunan, kişilərə məxsus işlər görən qadınlar və qadın kimi saçlarını uzadan, bəzənən kişilər bu Hədisi-şərifə daxil olmaqdadırlar.

15-Misvər ibn Mahrəmə (radıyallahü anh) hicrətin ikinci ilində doğulmuşdur. Abdürrəhman ibn Avfın həmşirəzadəsidir (bacısı oğlu) "radıyallahü anhüma". Deyir ki, böyük bir daş aparırdım. Yolda paltarım aşağı düşdü, yuxarı qaldıra bilmədim. Rəsulullah (sallallahü aleyhi və səlləm) məni bu halda gördü. **"Paltarını yuxarı qaldır! Çılpaq olaraq küçəyə çıxmayın!"**, buyurdu. Bu Hədisi-şərif **"Müslim"**də yazılmışdır. Bu Hədisi-şərif küçələrdə, çimərliklərdə və idman meydançalarında kişilərin də, qadınların da açıq gəzmələrini qadağan edir.

16-Əbu Ümamə "radıyallahü anha" xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Bir qızın gözəlliyini görən kimsə, gözünü ondan dərhal çəksə, Allahü təala ona, yeni bir ibadət savabı ehsan edər ki, bu ibadətin ləzzətini o anda duyar."** Bu Hədisi-şərifi imam Əhməd ibn Hanbəl (rahimə-hullahü təala) bildirdi.

17-Həsəni Bəsri "(rahmətullahi aleyh), xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Övrət yerini açana və başqasının övrət yerinə baxana Allah lənət etsin!"** bu Hədisi-şərif, imam Beyhəkinin (rahimə-hullahü təala) **"Şuabül iman"** kitabında yazılmışdır.

18-Abdullah ibn Ömər "radıyallahü anhüma" xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Özünü bir qövmə bənzədən, onlardan olur!"** Bu Hədisi-şərifi imam Əhməd və Əbu Davud (rahimə-hümullahü təala) bildiriblər. Deməli, əxlaqını, işlərini və ya geyimini islam düşmənlərinə bənzədən, onlardan olar. [Dəbə, kafirlərin pis adətlərinə uyanlar, haramlara gözəl sənət adı verənlər və haram işləyənlərə sənətkar deyənlər, bu Hədisi-şərifdən ibrət almalıdırlar.]

19-Əmr Şuayb, atasından və babasından xəbər verir. Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **"Allahü təala, quluna verdiyi nemətləri görməyi sevər."** Bu Hədisi-şərifi, Tirmüzi (rahimə-hullahü təala) bildirdi. Göründüyü kimi, Allahü təala, geyimin təzə, gözəl və təmiz olmasını sevir. Bunları, neməti göstərmək üçün geyəni sevər, təkəbbürlə geyəni

* müxənnəs-qadınlaşmış kişi.

sevməz. Allahü təalanın verdiyi nemətləri gizlətmək caiz deyildir. Elm neməti də belədir.

20-Cabir ibn Abdullah (radıyallahü anh) deyir ki, Rəsulullah (sallallahü aleyhi və səlləm) bizə gəldi. Evdə, saçları dağınıq bir nəfər vardı. Onu gördükdə: **"O saçlarını düzəltməyə bir şey tapmayıb?"**, buyurdu. Paltarı çirkli birini də gördükdə: **"Paltarını yumağa bir şey yoxdur?"**, buyurdu.

21-Böyük alim Əbülahvəs, atasından xəbər verir. Rəsulullahın (sallallahü aleyhi və səlləm) yanına getdim. Paltarım köhnəlmişdi. **"Malın yoxdur?"**, buyurdu. Malımın olduğunu dedim. **"Nə cinsdən malın var?"**, buyurdu. Hər cinsdən olduğunu dedim. **"Allahü təala mal verdikdə, nemətlərinin nişanəsini üzərində görməlidir!"**, buyurdu. Bu Hədisi-şərifi, imam Əhməd və Nəsai (rahimə-hümullahü təala) bildirmişdir. **"Əşiat-ülləməat"** kitabının üçüncü cildindən tərcümə burada sona çatdı.

22-Yusuf Kardavinin **"Əl-halal-ü vəl-haram-ü fil-islam"** kitabında deyilir: İslam dini, müsəlman qadının, altı görünəcək dərəcədə nazik örtüklə örtünməsini haram etmişdir. **"Müslim"** və **"Muvatta"** kitablarındakı Hədisi-şərifdə, **"Örtülü çılpaq və başları dəvə hörgücü kimi yüksəldilmiş qadınlar, Cənnətə girməyəcək. Ətrini belə hiss etməyəcəklər. Halbuki Cənnətin ətri, çox üzaqlardan duyulacaqdır"**, buyruldu. Bu Hədisi-şərif, qadınların incə, şəffaf və ya bədənə yapışıq dar paltar, corab, baş örtüyü ilə örtünmələrini və saçlarını, başlarının üstündə topa etmələrini qadağan etməkdədir. Belə örtünmək, çılpaq gəzmək kimidir. Müsəlman xanımları, qızları, incə, dar şeylərlə örtünməməli, saçlarını dəvə hörgücü kimi başlarının üstündə yığmamalı, saçlarını toppuz etməməlidir. Bunun, Cəhənnəmə aparan günah olduğunu bilməlidirlər.

[Kardavinin məzhəbsiz bir din adamı olduğu əvvəlki səhifələrdə bildirilmişdi. İslam dini, qadınların örtünmələrinin fərz olduğunu və örtüyün xüsusiyyətlərini bildirmişdir. Bu xüsusiyyətləri daşıyan çarşab, geniş, uzun don və manto ilə örtünməyin arasında fərq olduğu bildirilməmişdir. Örtünməyin fərz olduğu, örtük və paltar növlərinin isə **"Sünnəti zəvaid"** olduğu, fiqh kitablarında yazılmışdır. Sünnəti zəvaid, ibadət olmayan, adət olan sünnətlər deməkdir. Buna görə, adət halını almış örtüklərdən istifadə etmək lazımdır. İbadət olmayan şeylərdə adətə uymamaq məkruhdur. Fitnəyə səbəb olarsa, haram olar. **"Hindiyyə"**də deyilir: "Qalın və geniş parça ilə örtünmüş qadına baxmaq caizdir. İncə, dar örtünmüş qadına baxmaq caiz deyil. Örtülü qadının da üzünə şəhvətlə baxmaq haramdır. Şəhvətsiz olaraq, lüzumsuz baxmaq məkruhdur. Müsəlman olmayan qadınlara da baxmaq belədir. Onların yalnız saçlarına baxmağın caiz olduğu deyilmişdir."

Qalın, geniş, topuğa qədər uzun və qolları biləklərini örtən tünd rəngli manto ilə örtünmək, iki parça çarşabla örtünməkdən daha yaxşıdır. **"Hələbi-yi kəbir"**də deyilir: "Azad qadının qulaqlarına qədər sallanan saçı söz

birliyi ilə övrətdir. Qulaqdan aşağı sallanan hissə, alimlərin çoxuna görə yenə övrətdir. Bəzilərinə görə, sallanan hissə namazda övrət olmaz. Lakin yad kişinin buna baxması da caiz deyil.” Saçların hamısı qalın baş örtüyü ilə örtülməlidir. Bu örtüyün ortasının ön hissəsi alına yapışmalı və qaşlara yaxın enməlidir. İki kənarı iki qaşın kənarından çənəyə endirilərək, çənə üstündə iynə ilə bitişdirilib sinəyə düşməli, ortasının arxa hissəsi isə kürəyi örtməlidir. Fitnə ehtimalı olduqda, yanaqlar da örtülməlidir. Tünd rəngli, qalın corab da geyinilməlidir. Qadının sallanan saçının dörddə biri, bir rükn ərzində açıq olarsa, namazı səhih olmaz. Daha azı açıq olarsa, məkruh olar. Burada qadının gənc və ya yaşlı olmasını heç bir kitab ayırmamışdır. Yaşlı qadının salamına cavab vermək, onunla əllə görüşmək və tək qalmağın caiz olduğu deyilsə də, yaşlı qadının saçını açmasının, onun saçına baxmağın caiz olduğunu deyən olmamışdır. Müsəlman olmayan qadının, saçına baxmağın caiz olduğunu deyən oldu. Lakin yaşlı müsəlman qadının saçına baxmağın caiz olduğunu deyən heç yoxdur. Yaşlı qadının məscidə və qəbir ziyarətinə getməsinin caiz olduğunu deyənlər də, saçı, başı örtülü olmaq şərtini də demişdirlər.

“Əhzab surəsinin 59-cu ayəsində, müsəlman qadınlar “cilbab” ilə örtünsünlər, deyilir. Bu ayə, iki ayrı parça olan çarşabla örtünməyi əmr edir”, demək doğru deyil. Bu ayə, çarşab geyinməyi əmr etsəydi, Rəsulullahın (sallallahü təala aleyhi və səlləm) və Əshabi-kiramın (radıyallahü təala anhüm əcmain) zövcələri çarşab geyərdi. Halbuki heç birinin çarşab geydiyi, heç bir kitabda bildirilmədi. Türkcə **“Tibyan”** təfsiri bunu: “Başlarını örtsünlər”, deyə təfsir edir. **“Cəlaleyn”** təfsirində: “Qadınların üzlərinə salladıqları baş örtüyüdür”, deyilir. Savi bunu izah edərkən: “Baş örtüyü və köynək üstünə örtülən bezdir”, deyir. **“Ruhulbəyan”** və **“Əbüssüud”** təfsirlərində deyilir: “Cilbab, saçların dağılmaması üçün başa sarılan və Himar deyilən örpəyin üstünə örtülən, daha geniş və sinəyə qədər enərək, köynəyin yaxasını örtən baş örtüyüdür. Bu ayədə, qadınların başlarını və bütün bədənlərini örtmələri əmr olunur.” **“Zəvacir”** və **“Əl-Fiqh-ü aləl-məzahibil ərbəa”** kitabları, kişilərin də cilbab geydiklərini göstərən Hədisi-şərifi yazır və kişilər üçün cilbabın, uzun köynək olduğunu bildirir. Geniş manto ilə qalın baş örtüyü, yaxud iki parçadan hazırlanmış çarşab, bu ayədəki hicab əmrini yerinə yetirməkdə bərabərdirlər. Qadınlar, yaşadıqları yerin adətinə uyğun şəkildə örtünərək, fitnəyə səbəb olmamalıdırlar. Hicab ayəsinin bir hissəsinin, Zeynəb “radıyallahü anha”nın nikah günündə nazil olduğu, **“Buxari”** kitabının 6-cı cüz, 260-cı səhifəsində yazılmışdır. Bu nikah üçüncü ildə bağlanmışdır.]

Müsəlman olduğunu deyən bir insan, edəcəyi hər işin islamiyyətə uyğun olub-olmadığını bilməlidir. Bilmirsə, bir Əhli sünnət alimindən soruşaraq və ya bu alimlərin kitablarını oxuyaraq öyrənməlidir. İş, islamiyyətə

uyğun deyilsə, günah və ya küfrdən qurtula bilməz. Hər gün həqiqi tövbə etmək lazımdır. Tövbə edilən günah və küfr, şübhəsiz əfv olar. Tövbə edilməzsə, dünyada və Cəhənnəmdə əzabı, yəni cəzası çəkilər. Bu cəzalar, kitabımızın müxtəlif yerlərində yazılmışdır.

Kişilərin və qadınların namazda və hər yerdə örtməli olduqları yerlərinə **"Övrət yeri"** deyilir. **"Övrət yerini açmaq və başqasının övrət yerinə baxmaq haramdır."** Kişilərin namazda ayaqlarını örtməsinin sünnət olduğu, **"Səadəti Əbədiyyə"** kitabında yazılmışdır. İslamiyyətdə övrət yerinin olmadığını deyən kafir olur. Övrət yerini örtməyi dinimiz əmr edir. Övrət yeri açıq olan bir kişinin və ya qadının olduğu yerə, çalğı, qumar və spirtli içki, eləcə də qadın səsinin olduğu bir yerə **"Günah məclisi"** deyilir. Günah məclisinə getmək haramdır. Qəlbin təmiz olması da önəmlidir. Qəlbin təmiz olması, gözəl əxlaqlı olmasıdır. Qəlb, islamiyyətə uyaraq təmizlənir. İslamiyyətə uymayanın qəlbi təmiz ola bilməz. İcma ilə, yəni dörd məzhəbdə də övrət olan bir yeri açmağa və başqasının belə övrət yerinə baxmağa halal deyən, əhəmiyyət verməyən, yəni əzabından qorxmayan kafir olur. Qadınların övrət yerini açması, kişilərin yanında mahnı və mövlüd oxuması belədir. Kişilərin diz ilə qasıq arası, yalnız Hanbəli məzhəbində övrət deyildir.

"Mən müsəlmanam" deyən şəxs, imanın və islamın şərtlərini, dörd məzhəbin icması, yəni söz birliyi ilə bildirdiyi fərzləri və haramları öyrənməli, əhəmiyyət verməlidir. Bilməmək üzrlü hal deyil. Yəni bilsə də, inanmamaq kimidir. **"Qadınların üzlərindən və əllərindən başqa yerləri dörd məzhəbdə də övrətdir."** Söz birliyi ilə olmayan, yəni digər üç məzhəbdən birinə görə övrət olmayan bir yeri, əhəmiyyət verməyərək açan, kafir olmasa da, öz məzhəbinə görə böyük günah olur. Kişilərin diz ilə qasıq arasını, yəni budunu açmaları belədir. İnsanın bilmədiyini öyrənməsi fərzdir. Öyrəndikdə də dərhal tövbə etməli və örtməlidir.

*Allaha təvəkkül edənin yavəri Haqdır.*
*Naşad könül, bir gün olar, şad olacaqdır.*

## MÖMİNİN XÜSUSİYYƏTLƏRİ

Möminin mömində yeddi haqqı vardır:

1-Dəvətinə getmək.
2-Xəstə olduqda ziyarətinə getmək.
3-Cənazəsinə getmək.
4-Nəsihət etmək.
5-Salam vermək.
6-Bir zalımın əlindən qurtarmaq.
7-Asqırdığı zaman **"Əlhamdülillah"** dedikdə, **"Yərhamükəllah"** demək.

Möminin xeyirlisi, bu altı xüsusiyyətə malik olandır:

1-İbadət edər. 2-Elm öyrənər. 3-Pislik etməz. 4-Haramlardan çəkinər. 5-Heç kimin malına göz dikməz. 6-Ölümü heç unutmaz.

**Tənbeh**: Hədisi-şərifdə buyruldu ki, **"Hər kəs, ona yaxşılıq edəni sevər. Bu sevgi, insanın yaradılışında mövcuddur."** Nəfsinə düşkün olan, nəfsinin arzularına qovuşmaq üçün yardım edənləri sevər. Ağıl və elm sahibi isə, mədəni insan olmasına yardım edənləri sevər. Qısası, yaxşılar yaxşıları, pislər pisləri sevər. Bir insanın sevdiklərinə, dostlarına baxaraq, onun necə insan olduğu aydın olur. Dosta, düşmənə, müsəlmana, kafirə, bidət sahiblərindən başqa hər kəsə şirin dil və gülər üz göstərmək lazımdır. İnsanlara ediləcək ən faydalı ehsan, ən qiymətli hədiyyə, şirin dil və gülər üzdür. İnəyə sitayiş edən kafirləri gördükdə, inəyin ağzına saman verərək, düşmən olmalarına mane olmaq lazımdır. Kimsə ilə münaqişə etməyin. Münaqişə dostluğu azaldır, düşmənliyi artırır. Heç kimə hirslənməyin. Hirslənmək, sinir və ürək xəstəliyinə gətirib çıxarar. Hadisi şərifdə, **"Qəzəblənmə!"**, hirslənmə, buyruldu.

Bir şəxs, dörd şeyi gizləsə, insanların xeyirlisi olar:

1-Kasıblığını.

2-Sədəqəsini.

3-Müsibətini.

4-Bəlasını.

Cənnət dörd insana müştaqdır:

1-Dili zikr edən.

2-Hafizi kəlamullah olan. (Allah kəlamını əzbər bilən)

3-Təam yedirən.

4-Ramazan ayında oruc tutan.

Hər bir insan, aşağıdakı yeddi şeyi dilindən əsirgəməməlidir:

Hər işdə **"Bəsmələi şərifə"** deməli;

Hər işi bitirdikdə **"Əlhamdülillah"**, deməli;

Filan yerə gedəcəm, dedikdə, **"İnşaallah"**, deməli;

Bir müsibət eşitdikdə, **"İnnə lillah və innə ileyhi raciun"**, deməli;

Bir xəta söylədikdə, tövbə və istiğfar etməli;

**"Lə iləhə illallahü vahdəhu lə şərikə ləh, ləhül-mülkü və ləhülhamdü və hüvə alə külli şəyin qadir"**, kəlimeyi tayyibəsini çox deməli;

**"Əşhədü ən lə iləhə illallah və əşhədü ənnə Muhammədən abdühü və rasulüh"**, kəlimeyi şərifəsini çox deməlidir.

Bu ikisini də gecə və gündüz çox oxumaq lazımdır:

1-**"Əstəğfirullah"**

2-**"Sübhanəllahi vəl-hamdülillahi vələ iləhə illallahü vallahü əkbər vələ havlə vələ quvvətə illə billahil aliyyil azım".**

## GÖZƏL ƏXLAQ HAQQINDA

İnsanın yetmiş ikiyə qədər gözəl xüsusiyyəti vardır:

İman, Əhli sünnət etiqadı, İxlas (Allah əmr etdiyi üçün ibadət etmək), Ehsan (yaxşılıq), Təvazö, Zikri minnət, Nəsihət, Təsfiyə (saflaşdırmaq, təmizləmək), Qayrət (Cəhd), Qibtə, Səha (Comərdlik), İsar, Mürüvvət (Mərdlik), Fütüvvət (İgidlik), Hikmət, Şükr, Rıza (Məmnunluq), Səbr, Havf (Qorxu), Rəca (Ümid), Hubbu fillah, buğdu fillah (Allah düşmənlərinə düşmənlik, Allah dostlarını sevmək), Hamul, İstivai zəm və mədh, Mücahidə (çalışmaq, mücadilə etmək), Səy, Qəsd, Əməl, Zikri mevt (ölümü düşünmək), Təfviz (hər şeyi Allahü təalaya həvalə etmək), Təslim (Allahın əmrinə uymaq, itaət etmək), Tələb-ül elm (elm axtarmaq), Salamatlıq, Sadr, Şücaət, Həlimlik, Rıfk (Nəzakət), İnabət (günahları tərk edərək Haqqa dönüş), Vəfai ahd (Əhdə vəfalı olmaq), İncazi vəd, Hüsnu hulk (Gözəl əxlaq), Zühd (nəfsani arzulardan əl çəkib, özünü ibadətə vermək), Qənaət, Rüşd (Doğru yolda olma), Say fili hayrat (Yaxşılıq etməyə səy göstərmək), Riqqət (acıma, incəlik), Şövq (nəşə, çox istək), Həya, Səbatı fi əmrillah (Allahın əmrlərində qəti olmaq), Ünsü billah, Şevku ilə likaillah (Allaha qovuşmağı çox istəmək), Vekar (ağır olmaq, yerini bilmək, şəxsiyyətli olmaq), Zəkavət (Zəkalılıq), İstiqamət (Doğruluq), Ədəb, Firasət, Təvəkkül, Sidq (doğru söz), Murabata (qəlbi Allaha bağlamaq), Müşarata (nəfsi hesaba çəkməyin ilk addımı olub, Allahü təalanın bəyəndiyi işləri etmək, bəyənmədiklərini tərk etmək və axirətə hazırlaşmaq barədə nəfslə sözləşmək), Mürakəbə (qulun, bütün hallarında Allahü təalanın onu gördüyünü bilməsi və Onu unutmaması), Mühasəbə (insanın nəfsini hesaba çəkməsi), Muatebe, Kəzmi gayz (kini gizlətmək), Hubbi tüli hayati, liibadətihi, Tövbə, Huşu (yüksək və heybətli hüzurda duyulan təvazökarlıq), Yaxın (qətilik, şübhəsizlik), Allaha təslim olmaq, Ubudiyyət, Mükafat (yaxşı qarşılıq vermək), Riayəti hüquq (Qul haqlarına riayət) etmək.

Təvadü Qəlb alçaqlığına, Zikri minnət, hər itaətin Allahü azım-üş-şanın quluna yardımı və lütfü olduğunu bilib, şükr etməyə; nəsihət, mümin qardaşına nəsihət etməyə; təsfiyə, qəlbdən pis əxlaqı çıxarıb, gözəl əxlaqla vəsf olunmağa; Qayrət, dinində səy göstərməyə; qibtə, başqasındakı nemətin özündə də olmasını istəməyə; Səha ilə fütüvət comərdlik, isar, başqasının ehtiyacını öz ehtiyacından öncə düşünməyə; mürüvvət, insanlıq vəzifələrini yerinə yetirməyə; hikmət, dini elmini bilib, əməl etməyə; şükr, nemətləri əmr olunan yerlərdə sərf etməyə; rıza, Allahü təaladan gələn təqdirata razı olmağa; səbr, bəlalara səbr etməyə deyilir.

[Hüquqi ibad, qul haqqına riayət etmək, deməkdir. Qul haqqının ən mühümü, ata-ana haqqıdır. Şirin dillə, gülər üzlə, yardımlarına getməklə onların könüllərini almağa çalışmaq lazımdır. Sonra qonşu haqqı, müəllim

haqqı, ər-arvad haqqı, dost haqqı, daha sonra dövlətin haqqı gəlir. Heç kimə yalan danışmamaq, hiylə etməmək, ölçü alətlərini düzgün istifadə etmək, işçinin əmək haqqını alın təri qurumadan ödəmək lazımdır. Borc ödəməmək, avtobus və bənzərlərinin pullarını ödəməmək xəyanət hesab olunur. Dövlətə vergi ödəməmək, minlərlə insanın haqqını tapdalamaqdır. Dövlət zülm etdikdə, zülm edilənlər, dövlətə qarşı üsyan edərlərsə, bu üsyançılara yardım etməyin caiz olmadığı **"Berika"**da fitnə mövzusunda, **"Hindiyyə"**də və **"Dürr-ül-muxtar"**da yazılmışdır. Hədisi-şərifdə: **"Hökumətə xəyanət edənə, Allah xəyanət edər"**, buyrulmuşdur. Yəni üsyan edəni zəlil, dəyərsiz edər. Buna görə, Seyyid Qutb və Mevdudi kimi məzhəbsizlərin, müsəlmanları hökumətə qarşı üsyana təşviq edən dağıdıcı, təxribatçı yazılarına aldanmaq olmaz. Zalım olan hökumətə də üsyan etmək və üsyançılara yardım etmək olmaz. İbni Abidin (rahimə-hullahü təala), ipək paltar geyməyin kişilərə haram olduğunu bildirərkən deyir ki, "Toy və bayramlarda, ipək parça sərmək və qızıl, gümüş əşyaları istifadə etmədən nümayiş etdirmək, göstəriş üçün deyil, sadəcə hökumətin əmrini yerinə yetirmək üçün olarsa, caizdir. Lakin gündüzlər işıq, şam yandırmaq, işıqlı reklamlar göstərmək, malı zay etmək, lazımsız yerdə istifadə etmək olduğu üçün caiz deyil. Hökumətin əmri ilə olarsa, bunları etmək və övladlarını qız-oğlan qarışıq məktəblərə göndərmək caiz olur. **"İslam Əxlaqı"** kitabına baxın! Qadın-kişi qarışıq olan, övrət yerləri açıq şəxslərin olduğu yığıncaqlara getmək də caiz deyildir." Kafirlərin qanunlarına da üsyan etməyin caiz olmadığı İbni Abidinin "Cümə namazı" və "Qazilik" bölmələrində yazılmışdır.

Üzərində qul haqqı olanın ibadətlərinin qəbul olmayacağı, Cənnətə girə bilməyəcəyi bildirilmişdir. Kafirin haqqından qurtulmağın, müsəlmanın haqqından qurtulmaqdan daha çətin olduğu deyilir. Hər kəsə yaxşılıq etmək, pislik edənlərə pisliklə qarşılıq verməmək lazımdır. Həqiqi müsəlman, Allahü təalanın əmrlərinə, hökumətin qanunlarına itaət edər.]

*Mömină sədaqət yaraşır, görsə də ikrah,*
*Yardımcısıdır doğruların Həzrəti Allah.*

## ƏSHABIN FƏZİLƏTLƏRİ

Bütün Səhabələrin içində Rəsulullahın dörd xəlifəsi (radıyallahü təala anhüm əcmain) digərlərindən üstündür. Hamısının xilafət müddəti otuz ildir. [Əshab-ı kiramın (radıyallahü təala anhüm əcmain) hamısının Cənnətə gedəcəyi bildirilmişdir. Heç birini pisləmək olmaz.]

Övliyanın kəraməti haqdır, doğrudur.

Bütün Vəlilərin ən üstünü həzrəti Əbu Bəkri Sıddıqdır (radıyallahü təala anh). Xilafəti haqdır. Onun birinci xəlifə olduğu, ümmətin söz birliyi

ilə təsdiqlənmişdir. Rəsulullahın (sallallahü aleyhi və səlləm) qayınatasıdır. Qızı Aişə (radıyallahü anhə) anamızı, Rəsulullaha (sallallahü təala aleyhi və səlləm) ərə vermişdir. Həqiqət elmində mahirdir. Bütün malını, bir zərrəsi belə qalmayana qədər, haqq yoluna sərf etmişdir. Üzərinə xurma lifindən örtü geyərdi. Cəbrayıl əleyhissəlam da, onun kimi geyinərək, Rəsulullahın yanına gəlir. Rəsul, onu bu halda görüb: **"Ey dostum Cəbrayıl! Mən səni heç bu halda görməmişdim. Bu hal nə əcəbdir?"**, deyə soruşduqda, Cəbrayıl əleyhissəlam: "Ya Rəsulallah! İndi sən məni bu halda gördün, nə qədər mələk varsa, hamısı bu haldadır. Bunun səbəbi odur ki, Allahü azım-üş-şan, xitab edib: **"Əbu Bəkr qulum bütün əmlakını mənim rızam üçün, mənim yolumda sərf etdi. İndi xurma lifindən örtü geyinir. Ey mənim mələklərim, siz də onun kimi geyinin"**, deyərək, əmr etdi. Bütün mələklər indi bu haldadır", deyə buyurdu. Buna görə də ona Sıddıq deyildi.

Ondan sonra Övliyanın ən üstünü, həzrət Ömərdir (radıyallahü anh). Xilafəti ümmətin söz birliyi ilə təsdiqlənmişdir. İslam elmlərində mahirdir. Bir gün, Rəsulullah (sallallahü təala aleyhi və səlləm) həzrətlərinin yanına, bir münafiqlə bir yəhudi iddia ilə gəldilər. Rəsulullah (sallallahü təala aleyhi və səlləm) həzrətləri iddialarını dinlədi. Haqq, yəhudinin lehinə çıxdı. O münafiq razılaşmadıqda, Rəsulullah (sallallahü təala aleyhi və səlləm) onlara: **"Ey kişilər! Ömərin yanına gedin, sizin iddianıza baxsın!"**, deyə buyurdu. Onlar həzrət Ömərin (radıyallahü anh) yanına gəldilər. Niyə gəldiniz, deyə soruşduqda, münafiq: "bu yəhudi ilə problemim var", dedi. Həzrət Ömər (radıyallahü anh) buyurdu ki, islamiyyətin sahibi var ikən, mən bu iddiaya necə baxım? Münafiq dedi: "Biz Rəsulullaha (sallallahü təala aleyhi və səlləm) getdik, iddianı yəhudinin xeyrinə həll etdi, mən razı olmadım!". Ömər (radıyallahü anh) onlara: "Siz gözləyin, mən indi məsələnizi həll edərəm", deyib, içəri keçdi. Bir az sonra, ətəyinin altında bir qılınc, onların yanına gəldi. Qılıncı çəkərək o münafiqin kəlləsini uçurdu və: "Rəsulullahın hökmünə razı olmayanın aqibəti budur", dedi. Buna görə ona Ömər-ül-Faruq (radıyallahü təala anh) deyildi.

Rəsulullah (sallallahü təala aleyhi və səlləm) həzrətləri: **"Haqq ilə batili bir-birindən ayırıcı, Ömərdir"**, buyurdu.

Ondan sonra Övliyanın üstünü həzrət Osmanı Zinnureyndir (radıyallahü anh). Xilafəti haqdır, doğrudur. Ümmətin söz birliyi ilə təsdiqlənmişdir. Rəsulullah (sallallahü təala aleyhi və səlləm) ona, bir birinin ardınca iki qızını vermişdir. İkinci qızı vəfat etdikdə, **"Bir qızım da olsaydı, ona verərdim!"**, buyurmuşdur.

İkinci qızını verdikdə, həzrəti Osmanı (radıyallahü anh) çox tərifləmişdir. Evləndikdən sonra qızı: "Ey mənim gözümün nuru atam! Həzrəti Osmanı çox mədh etdiniz. Buyurduğunuz qədər deyil!", dedikdə, Rəsulul-

lah (sallallahü təala aleyhi və səlləm) həzrətləri qızına: **"Ey mənim qızım! Həzrət Osmandan göydəki mələklər həya edərlər!"**, buyurdu.

Rəsulullah (sallallahü təala aleyhi və səlləm) ona iki qızını verdiyi üçün, Osman Zinnureyn deyildi. Zinnureyn, iki nur sahibi deməkdir. Marifət (Allahü təalanın sıfatlarını və adlarını haqqıyla bilmək, tanımaq) elmində mahirdir.

Ondan sonra, Övliyanın üstünü, Əlidir (kərrəmallahü vəchəh və radıyallahü anh). Xilafəti ümmətin söz birliyi ilə təsdiqlənmişdir. Rəsulullahın kürəkənidir. Qızı həzrət Fatimə (radıyallahü anhə) anamızı, ona ərə vermişdir. Təriqət elmində mahirdir. Bir köləsi vardı. Bir gün köləsi qərara gəldi ki, sahibini sınağa çəksin. Həzrət Əli, (kərrəmallahü vəchəh) kölənin yanına gəlib, bir iş buyurdu. Kölə susdu. Həzrət Əli köləyə: "Ya kölə! Mən sənə nə etdim ki, qəlbini qırdım? Məndən niyə incidin?", dedikdə, kölə: "Sən mənə heç nə etmədin. Mən sənin qulunam. Sadəcə səni sınamaq istədim. Haqqıyla Vəlisən", dedi.

[Əshabi-kiramın hamısını sevənlərə və onların yolunda olanlara **"Əhli sünnət"** deyilir. Vəhhabilik düşüncələri, 1150-ci (m.1737) ildə Ərəbistan yarımadasında ingilislər tərəfindən ortaya çıxarıldı. İngilis planlarını yaymaq üçün, çox müsəlman qanı axıtdılar. İndi də hər ölkədə **"Rabitatül-aləmil-isləmi"** dedikləri mərkəzlər quraraq və saysız qızıl saçaraq, cahil din adamlarını tora salırlar. Onların vasitəsi ilə müsəlmanları çaşdırırlar. Min dörd yüz ildir islamiyyəti müdafiə edən Əhli sünnət alimlərini və onların himayəçisi olan Osmanlıları pisləyirlər. Bu alimlərin nasslardan, yəni ayəti kərimələrdən və Hədisi-şəriflərdən çıxardıqları doğru bilgilərə yanlış deyirlər.

Vəhhabilərin bəzisi, "Biz də Əhli sünnət məzhəbindəyik, Hanbəli məzhəbindəyik", deyirlər. Bu sözləri, Mutəzilə adlı yanlış təriqətdə olanların, "Biz də Əhli sünnətik, Hənəfi məzhəbindəyik", deməklərinə bənzəyir. Əhli sünnət olmayanların Cəhənnəmə gedəcəklərini bildikləri üçün belə deyirlər. Halbuki yalnız əməllərinin, yalnız işlərinin bir məzhəbə uyğun olması, o məzhəbdən olmaq deyildir. Bir məzhəbə tabe olmaq üçün həm etiqadın, həm də əməlin o məzhəbə uyğun olması lazımdır. Dörd məzhəbin etiqadı bir-biri ilə eynidir. Dördü də Əhli sünnət etiqadındadır. Bir şəxsin hənəfi və ya hanbəli məzhəbində ola bilməsi üçün, əvvəlcə onun Əhli sünnət etiqadında olması lazımdır. Vəhhabilər Əhli sünnət etiqadında deyildirlər.]

**"Rəşəhat"**da, Sadüddini Kaşgari, hacə Muhamməd Parisadan (quddisə sirrühüma) eşidərək, buyurur: "İnsanı Allahdan uzaqlaşdıran pərdələrin ən zərərlisi, qəlbin qaralması, xəstə olması, yəni dünya sevgisinin qəlbə yerləşməsidir. Bu sevgi, pis dostlardan və lazımsız şeyləri seyr etməkdən əmələ gəlir. Çox çalışıb, bunları qəlbdən çıxarmaq lazımdır. Faydasız kitablar

oxumaq, lazımsız şeylər danışmaq, bu sevgini artırır. Qadın və qadın rəsmləri seyr etmək, mahnı, çalğı dinləmək, bu sevgini qəlbdə möhkəmlədir. Bunların hamısı, insanı Allahdan uzaqlaşdırır. Qəlbin xəstə olması, Allahı unutmasıdır.”

## TƏAM BƏHSİ

Yeməkdən əvvəl, sünnət olduğunu düşünərək, əlləri yumağın on faydası vardır.

Bir kimsə təam yemək üçün əllərini yuduqdan sonra yaş olan barmaqlarının ucunu gözlərinin qapağına qoyub geriyə doğru silsə, o şəxs, Allahü təalanın izni ilə göz ağrısı görməz. On fayda:

1.Ərşi-rəhman altında bir mələk deyər: “Əlini pak etdiyin kimi, sənin (kiçik) günahların pak oldu.”

2.Nafilə namaz qılmış kimi savaba nail olar.

3.Kasıblıqdan əmin olar.

4.Sıddıqların savabına nail olar.

5.Mələklər onun üçün Allahdan əfv diləyər.

6.Hər tikənin müqabilində, bu tikələri sədəqə vermiş kimi savaba nail olar.

7.Bəsmələ ilə yedikdə günahları təmizlənər.

8.Yeməkdən sonra etdiyi duası qəbul olar.

9.O gecə ölərsə, şəhidlik dərəcəsinə çatar.

10.Gündüz ölərsə, şəhidlər sırasına yazılar.

Yeməkdən əvvəl əlləri yumaq və qurulamamaq sünnətdir.

Yeməkdən sonra, sünnəti yerinə yetirmək niyyəti ilə əlləri yumağın altı faydası var:

1.Ərşi-rəhman altında bir mələk deyər: “Ey mömin! Rəsulullah (sallallahü təala aleyhi və səlləm) səndən razı oldu.”

2.Bu nemətə məxsus savaba nail olar.

3.Bədənindəki tüklərin sayı qədər savab qazanar.

4.Rəhmət dəryasından nəsibi olar.

5.Əlindən axan damlaların sayı qədər savab qazanar.

6.Vəfat etdikdə, şəhid olar.

[Allahü təalanın əmrləri iki cürdür: Əmri təkvini və Əmri təklifi və ya Əmri təşrii.

**Əmri təkvini**, Yaratmağını istədiyi şeylərə **“Ol”** deməsidir. Ol dedikdə, dərhal var olar. Heç kim bu şeyin var olmasına mane ola bilməz. Hər şeyin yaradılması üçün, bəlli şeyləri səbəb etmişdir. Bəlli maddələr, digər bəlli maddələrin yaradılmasına səbəb olduğu kimi, insanın maddi və mənəvi gücü, müxtəlif enerjilər də, bir çox şeylərin yaradılmasına səbəbdir. Bir quluna bir şey ehsan etmək, yaxşılıq nəsib etmək istədikdə, o qulu, həmin şeyin səbəbinə qovuşdurar. Səbəb təsir etdiyi zaman, O da istəyərsə, “Ol” deyərsə, o şey var

olar. O istəməzsə, heç bir şey var olmaz. Hikmətini, yaratmağını səbəblərlə örtmüş, gizləmişdir. Çox insan ancaq səbəbləri görür, səbəblərin arxasındakı hikməti, Onun yaratmağını anlamır. Bu anlayışsızlıq da o insanın fəlakətinə səbəb olur.

**Əmri təklifi,** insanlara, yerinə yetirmələri və ya çəkinmələri üçün verdiyi əmrlərdir. Bu əmrlərin icrası insanın iradəsinə, istəməsinə bağlıdır. İnsanı iradəsində, istəyində sərbəst buraxmışdır. Lakin insanın arzuladığı şeyi yaradan, yenə də Odur. İnsan istədikdən sonra, O da istəsə, yaradar. İstəməsə, yaratmaz. Hər şeyi yaradan, maddələrə müxtəlif təsirlər, özəlliklər verən, yalnız odur. Ondan başqa yaradıcı yoxdur. Ondan başqasında üluhiyyət sıfatının olduğuna inanmaq, başqasını Ona şərik, ortaq etmək deməkdir. Başqasını Ona şərik qoşanı, Qiyamətdə əsla bağışlamayacağını, ona sonsuz və çox acı əzablar verəcəyini bildirmişdir. İnsan Onun əmrini yerinə yetirmək, yaxşılıq etmək istədikdə, O da mərhəmət edərək istəyir və yaradır. Ona inanmayanlar, qarşı çıxanlar bir pislik etmək istədikdə, O da istəyir və yaradır. Ona inananlar, yalvaranlar bir pislik etmək istədikdə, O, mərhəmət edərək istəmir və yaratmır. Buna görə düşmənlərinin hər istədikləri yerinə yetdiyi üçün, daha da yollarını azıb, qudururlar.

Allahü təalanın əmri təklifləri əhəmiyyətlərinə görə dərəcələrə ayrılırlar:

1-Bütün insanlara, iman etməyi, müsəlman olmağı əmr etmişdir.

2-İman edənlərə, haramdan uzaq olmağı, pislik etməməyi əmr etmişdir.

3-İman edənlərə, fərzləri yerinə yetirməyi əmr etmişdir.

4-Haramlardan çəkinən və fərzləri icra edən müsəlmanlara, məkruhlardan uzaq olmağı, sünnətləri, nafilə ibadətləri yerinə yetirməyi əmr etmişdir.

Yuxarıdakı sırada, birinci əmri icra etməyib, ondan sonra olanı icra etmək məqbul deyil, bəyənilmir. Faydası da yoxdur. Məsələn, imanı olmayanın pisliklərdən çəkinməsini və ya pisliklərdən, haramlardan çəkinməyənin, fərzləri icra etməsini, yaxud fərzləri yerinə yetirməyənin sünnətləri, nafilə ibadətləri icra etməsini Allahü təala bəyənməz, qəbul etməz. Buna görə, namaz qılmayan, zəkat verməyən, ananın, atanın, zövcənin və övladın haqqlarını icra etməyən müsəlmanın sədəqələrini, yaxşılıqlarını, xeyir əməllərini, məscid tikdirməsini, pul yardımlarını, yeməkdən əvvəl və sonra əllərini yumasını, ömrəyə getməsini bəyənməz, qəbul etməz. Göründüyü kimi, hər insanın buyurulan əmrləri yuxarıdakı sırayla yerinə yetirməlidir. Bununla bərabər, əvvəlki sıradakı əmri yerinə yetirməyən, sonrakını yerinə yetirər və bunu yerinə yetirməsi fərzi tərk etməsinə, haram işləməsinə səbəb olmazsa, savab qazanmasa belə, bunu etməyi də əldən qaçırmamalıdır. Bu əmrləri hər zaman yerinə yetirməyin bərəkəti ilə, Allahü təalanın, mərhəmət edərək, əvvəlki əmrləri də yerinə yetirməyi nəsib edəcəyini ummağın lazım olduğu **“Ruh-ul-bəyan”** şərhində, altıncı cüzün sonunda yazılmışdır.]

**Təam yeməyin dörd fərzi var:**

1.Yediyi zaman doymağı və içdiyi zaman kifayətlənməyi Allahü azım-üş-şandan bilmək.

2. Halal şey yemək.

3. O təamdan aldığı qüvvət tükənənə qədər Allahü azım-üş-şana qulluq etmək.

4. Əlinə keçənə qənaət etmək.

Yeməyə başlarkən, Allahü təalaya ibadət etmək üçün, Allahü təalanın qullarına faydalı işlər görmək üçün, Allahü təalanın dinini, əbədi səadət və dinclik yolunu bütün insanlara yaymaq üçün qüvvət əldə etməyə niyyət etmək lazımdır. Başı açıq yemək caizdir.

**Təam yeməyin müstəhəbləri:** Süfrəni yerdən salmaq, təmiz geyimdə süfrəyə oturmaq, diz çöküb yemək, yeməkdən əvvəl əli və ağızı yumaq, yeməyə başlarkən Bəsmələ demək, yeməyin əvvəlində duz dadmaq, arpa çörəyi yemək, çörəyi əl ilə parçalamaq, çörək qırıntılarını zay etməmək, önündən yemək, sirkə yemək, tikəni kiçik götürmək, tikəni yaxşı çeynəmək, üç barmaq ilə yemək, qabı barmaqla siyirmək, üç dəfə barmaqları yalamaq, təamın sonunda həmd etmək, diş çöpündən istifadə etmək.

**Təam yeməyin məkruhları:** Sol əllə yemək, yeyəcəyi təamı iyləmək, Bəsmələni deməmək. [Yemək arasında olsa da, xatırladıqda Bəsmələ çəkilməlidir.]

**Təam yeməyin haramları:** Doyduğu halda yeməyə davam etmək [Qonaq varsa, onun yeməsinə mane olmamaq üçün, yeyirmiş kimi davranmaq lazımdır], yeməkdə israf etmək, başqasının malını [haqsız olaraq] yeyərkən Bəsmələ demək, qonaqlığa dəvətsiz getmək, başqasının malını icazəsiz yemək, bədənə xəstəlik verəcək şey yemək, riyakarlıqla hazırlanmış təamı yemək, nəzir etdiyi şeyi yemək.

**Yeməyi isti yeməyin zərərləri:** Qulağın kar olmasına səbəb olur, üz saralır, gözün parlaqlığı olmur, dişlər saralır, ağzın ləzzəti olmur, qarın doymur, anlayışı və ağlı az olar, bədəndə xəstəlik əmələ gəlir.

**Az yeməyin faydaları:** Bədəni güclü, qəlbi nurlu olar, hafizəsi güclü olar, dolanışığı asan olar, işlərindən həzz alar, Allahü azım-üş-şanı çox zikr etmiş olar, Axirəti düşünər, ibadətlərində çox həzz olar, hər şeydə (irşad və isabət) uyğunluq, münasiblik olar, hesabı asan olar.

*Zahida! Aç gözünü, səhraya bax da, ibrət al!*
*Bu dirəksiz qübbəyi səmaya bax da, ibrət al!*
*Görmək istərsən, Cənabı kibriyanın qüdrətin,*
*Hər sabah, səhər vaxtı, dünyaya bax da, ibrət al!*
*Padşah olsan da, deyərlər, "ər kişi niyyətinə",*
*Var, musallada yatan meyidə bax da, ibrət al!*
*Bir kəfəndir aqibət, sərmayəi-beğ və fakir,*
*Varlığa məğrur olan, məcnun deyil də, bəs nədir?*

## EVLƏNMƏK HAQQINDA

Evlənməkdə çox fayda vardır. Əvvəla, evlənmiş olan dinini qorumuş olar. Təbiəti, xasiyyəti gözəl olar. Qazancında bərəkət olar. Həm də sünnətə uyğun hərəkət etmiş olar. Beləki, Peyğəmbərimiz “aleyhissalətü vəssəlam” buyurur: **“Evlənin, çox övladınız olsun. Çünki mən qiyamətdə ümmətimin çoxluğu ilə digər ümmətlərə öyünəcəm.”**

Ər və arvadın bir-birinə qarşı olan haqqlarına riayət etməsi lazımdır.

Bir şəxs, evlənəcəyi zaman, araşdırıb, saleh, yəni dinində sağlam, möhkəm olan və məhrəm olmayan bir xanım tapıb almalıdır. Zinadan hamilə qalan qadına nikahlanmaq caizdir. Zina edən başqasıdırsa, uşaq olmadan əvvəl əlaqəyə girmək caiz olmaz. (Feyziyyə).

Bir qızı malına və gözəlliyinə görə almaq olmaz. Belə ki, sonra zəlil olar. Peyğəmbərimiz (sallallahü təala aleyhi və səlləm) buyurmuşdur: **“Kimsə malına və ya gözəlliyinə görə bir qız alsa, onun malından və gözəlliyindən məhrum olar.”**

Kimsə dininə, əxlaqına görə qız alsa, Haqq təala onun malını və gözəlliyini artırar.

Qadın ərindən dörd şeydə aşağı olmalıdır: yaşı, boyu, yaxın qohumu, əqrəbası. Dörd şeydə qadın ərindən artıq olmalıdır: gözəllikdə, ədəbdə, gözəl xasiyyətdə, haramdan və şübhəli şeylərdən çəkinməkdə. Qadın saçı, başı, qolları, ayaqları açıq olaraq yad kişilərə görünməməlidir.

Gənc qızları yaşlı adama ərə vermək fəsada səbəb olur.

Nikaha girməzdən əvvəl qohum olacaq ailələr haqqında və evlənəcək gənclər haqqında yaxşı araşdırma aparılması həm sünnətdir, həm də aralarındakı münasibətin davamlı olmasına səbəb olar. Bunda üç fayda olduğu bəyan edilmişdir: iki gəncin arasında ölənə qədər məhəbbət kəsilməz, ruzilərində bərəkət olar, sünnət ilə əməl etmiş olarlar.

İlk növbədə VVAQ orqanında evliliklə bağlı məsələləri həyata keçirmək lazımdır. Sünnətə uyğun nikah etməmək böyük günah olduğu kimi, dövlət orqanında da evliliklə bağlı qeydiyyatdan keçməmək qanuna ziddir.

Sünnətə uyğun nikahdan sonra, oğlan tərəfinin qız tərəfinə gözəl və qiymətli şeylər göndərməsi məhəbbətə səbəb olar.

Ərin qarşısında qadının hər cür bəzənməsi və düzgün faydalanması caizdir və savabdır.

Zifaf gecəsi, ziyafət vermək sünnətdir. [Şam namazından sonra yemək, İşanı qıldıqdan sonra oğlanı qız evinə aparıb, duadan sonra dərhal getmək (dağılışmaq) lazımdır.]

Birinci gecə oğlanın gəlinin ayağını yuması, suyunu isə evin dörd tərəfinə səpməsi sünnətdir. Sonra iki rükət namaz qılıb dua etmək lazımdır. O gecə hər nə dua edilsə, qəbul olar. Bəyi görənlər ona bunu xatırladar və

**“Bərəkəllahü lək və bərəkəllahü aleyha və cəməa bəynəkümə bilhayri”** deyərlər. Yəni, Allahü təala sənə mübarək eyləsin və zövcənə mübarək olsun, ikinizin arasını xeyrlə birləşdirsin!

Bəzilərinin söylədikləri kimi “Xoşbəxt olun, oğullu qızlı olun”, demək dinimizə görə yanlışdır, heç bir faydası yoxdur. O vaxta məxsus duaları oxumaq sünnətdir.

Əsas olan, dinin əmrlərini bilmək və övrətinə öyrətməkdir. Belə ki, axirətdə sual olunacaq. Bilmirəm demək üzrlü səbəb deyil. [Fərzləri, haramları, Əhli sünnət etiqadını öyrənmək və zövcəsinə, uşaqlarına öyrətmək fərzdir. Sünnətləri öyrənmək və öyrətmək sünnətdir.]

Kişi xanımını islamiyyətin icazə vermədiyi yerlərə aparmamalı və buraxmamalıdır! Küçəyə açıq çıxmasına yol verməməlidir. Çünki Peyğəmbərimiz (əleyhissəlam): **“Bir qadın gözəl ətirlərlə, namaz qılmaq üçün məscidə gəlsə, o qadının namazı, evinə gedib, cünubluqdan qüsl aldığı kimi qüsl almayınca qəbul olmaz”**, buyurdu. Onlara, xoş ətirlərlə məscidə getmək caiz olmadığı halda, başqa yerlərə gedib camaata görünmək günahının necə böyük olduğunu təsəvvür etmək olar. Ona görə bunları müqayisə etmək və çəkiləcək əzab barədə yaxşıca düşünmək lazımdır.

Peyğəmbərimiz (əleyhissəlam) bir Hədisi-şərifində buyurmuşdur: **“Cənnət əhlinin çoxu kasıblar, Cəhənnəm əhlinin çoxu qadınlardır.”** Bununla əlaqədar, həzrət Aişə “radıyallahü anha” soruşdu: “Qadınların çoxunun Cəhənnəmdə olmasına səbəb nədir?” Rəsul-i əkrəm (sallallahü aleyhi və səlləm) buyurdu: **“Onlar bəlaya səbr etməz, on yaxşılıq gördükləri adamdan bir pislik gördükləri zaman, o on yaxşılığı dərhal unudub, bir pisliyi daim söylərlər. Dünya zinətlərini həddən artıq sevər, axirət üçün çalışmaz və çox qeybət edərlər.”**

Kişi və qadınlardan hər kim bu xüsusiyyətlərlə xarakterizə olunarsa, əhli Cəhənnəmdir.

Həzrəti Əlidən (kərrəmallahü təala vəchəh) rəvayət olunur ki, bir gün Rəsuli əkrəmin (sallallahü təala aleyhi və səlləm) hüzuruna bir qadın gəlib: “Ya Rəsulallah! Bir nəfərə ərə getmək istəyirəm, nə buyurursuz?”, dedi. Səadətlə buyurdu ki, **“Kişinin qadın üzərində haqqı çoxdur. Öhdəsindən gələ biləcəksən?”** O qadın: “Ya Rəsulallah! Kişinin haqqı nədir?”, soruşdu. Peyğəmbərimiz (əleyhissəlam) buyurdu: **“Sən onu incitsən, Allaha asi olarsan və namazın qəbul olunmaz.”** Qadın soruşdu: “Başqa hansı haqqı var?” Rəsulullah (sallallahü aleyhi və səlləm) buyurdu: **“Hansı qadın ərindən icazəsiz evdən bayıra çıxsa, hər addımına günah yazılar.”** Qadın dedi: “Yenə var?” Rəsul-i əkrəm (sallallahü təala aleyhi və səlləm) buyurdu: **“Ərinə pis söz deyənin, qiyamətdə dilini ənsəsindən çıxararlar.”** Qadın soruşdu: “Başqa hansı haqq var?” Rəsuli əkrəm buyurdu: **“Hansı qadın, malı olduğu halda ərinin ehtiyacını ödəməsə,**

**axirətdə o qadının üzü qara olar.”** Qadın, başqa hansı haqqın olduğunu soruşdu. Rəsul-i əkrəm buyurdu: **“Hansı qadın, ərinin malından oğurlayıb, başqasına versə və əri ilə halallaşmasa, Allahü azım-üş-şan, o qadının zəkat və sədəqəsini qəbul etməz.”** Qadın soruşdu: “Başqa haqq da var?” Rəsul-i əkrəm buyurdu: **“Hansı qadın, ərini söysə və ya ona qarşı çıxsa, tamı içində dilindən asarlar; hansı qadın, rəqs və çalğı dinləməyə getsə, pul versə, kiçik yaşlarından bəri qazandığı savabları məhv olar. Üzərindəki libasları da şikayətçi olub, bizi mübarək günlərdə və halalı üçün geyinmədi, haram yerlərə getdi, dedikdə, Haqq təala buyurar ki, belə qadınları gərək min il yandırım.”** [Kinonun, radio və televizorun pis cəhətlərini buradan da anlamaq olar.] O qadın, bu cavabları eşitdikdə, “Ya Rəsulallah! Bu vaxta qədər ərə getməmişəm, bundan sonra da getmərəm”, dedi.

Bir dəfə Rəsul-i əkrəm (sallallahü aleyhi və səlləm) səadətlə buyurdu: **“Ya xatun! Ərə getməyin savabını da xəbər verim, dinlə! Hansı qadına, əri, Allah səndən razı olsun desə, altmış il ibadət etməkdən daha üstündür. Ərinə bir içim su versə, bir il oruc tutmaqdan daha dəyərlidir. Ərinin döşəyindən qalxdığı zaman qüsl alsa, bir qurban kəsmiş kimi savab qazanar. Ərinə hiylə etməzsə, onun üçün göylərdə mələklər təsbeh edərlər. Əri ilə əylənərsə, altmış qul azad etməkdən xeyirlidir. Ərinin ruzisini mühafizə etsə, onun qohumlarına mərhəmət etsə, beş vaxt namazını qılıb, orucunu tutsa, min dəfə Kəbəyə getməkdən daha üstündür.”** Fatimə-i Zəhra “radıyallahü anha”, bir qadın ərini incitsə, halı necə olar, deyə soruşduqda, **“Bir qadın ərinə asi olsa, onunla halallaşmayınca, Allahü təalanın lənəti onun üzərində olar. Ərinin döşəyindən qaçsa, bütün savabları gedər. Ərinə qarşı təkəbbürlənsə, Haqq təala ona qəzəblənər. Ərinə, məgər sən mənim ağamsan və səndən nə gördüm ki, desə, Allahü təala ona nemətini haram edər. Ərinin qanını dili ilə yalasa belə, yenə də onun haqqını ödəmiş olmaz. Qadın ərinin izni ilə küçəyə açıq-saçıq çıxsa, ona izn verdiyi üçün ərinin əməl dəftərinə min günah yazılar”**, buyurdu. İcazəsiz çıxıb gedən qadının halının necə olacağını burdan anlamaq olar.

Rəsuli əkrəm (sallallahü aleyhi və səlləm) buyurdu: **“Ya Fatimə! Allahü təala bir qulun bir qula səcdə etməsini əmr buyursaydı, mən də, qadının ərinə səcdə etməsini buyurardım.”**

Həzrəti Aişə “radıyallahü anha” “Rəsulallaha, mənə vəsiyyət eylə!”, dedim. Rəsul-i əkrəm: **“Ya Aişə! Mən sənə vəsiyyət edərəm, sən də ümmətimin qadınlarına vəsiyyət eylə! Qiyamət günü, ilk öncə imandan, ikincisi, dəstəmaz və namazdan, üçüncüsü, ər haqqında sual veriləcək. Hansı kişi, xanımının yaramazlıqlarına səbr etsə, Allahü təala ona Eyyub Peyğəmbər savabı verər. Bir qadın, ərinin yaramazlıqları-**

**na səbr etsə, Aişəi Sıddıqa dərəcəsinə çatar.” “Bir kişi, xanımını döysə, qiyamətdə mən ondan şikayətçi olacam”**, buyurdu.

[**“Şirat-ül-islam”**da deyilir: “Xanımı yaramazlıq, tərslik edən kişi, qəbahəti özündə axtarmalı, mən yaxşı olsaydım, o da belə etməzdi, deməlidir. Xeyirli, yaxşı xanımı olan kişi təkrar evlənməməlidir. Yaşamaq üçün vəsaitlərində ədalətli davrana bilməyəcək kişinin, ikinci arvad alması caiz deyil. Ədalətli olacağını bilən kişinin, ikinci arvad alması caiz olsa da, almaması daha əfdəldir. Qadın, icazə verilən yerlərə gedərkən, baş örtüyünü və bədənini yaxşı örtməlidir. Qadının ətir vuraraq, zinətlərini göstərərək küçəyə çıxması haramdır. Salihə, yəni xeyirli qadın, dünya nemətlərinin ən qiymətlisidir. Müsəlmana şəfqət göstərmək, onu incitməmək, nafilə ibadətlərdən daha savabdır.” **“Rıyad-un-nəsihin”**də deyilir: “Nisa surəsinin on səkkizinci ayəsində: **“Xanımlarınza yaxşı, mülayim davranın!”**, buyruldu. Hədisi-şərifdə: **“Ya Əbu Bəkr! Zövcəsinə gülərək, mülayim söyləyənə, qul azad etmək savabı verilir”, “Günahkar kişiylə evlənən qadına, Allah mərhəmət etməyəcəkdir”, “Şəfaətimə qovuşmaq istəyən, qızını, günahkara verməsin!”, “İnsanların ən yaxşısı, insanlara yaxşılıq edəndir. İnsanların ən pisi, insanlara zərər verəndir (onları incidəndir)”, “Bir müsəlmanı haqsız olaraq incitmək, Kəbəni yetmiş dəfə yıxmaqdan daha günahdır”**, buyruldu.”

**“Dürr-ül-muxtar”**da deyilir: “Müsəlman kişinin, həqiqi nikahla evləndiyi qadının nəfəqəsini təmin etməsi fərzdir. **“Nəfəqə”**, yeyiləcək, geyiləcək şeylər və qalınacaq evdir. Qadın, ərinin mülkü olan və ya kirayə tutduğu evdə qalmalıdır. Qadın, evdə kişinin qohumlarından heç birinin qalmamasını istəyə bilər. Kişi də qadının yaxınlarından heç birinin evdə olmamasını istəyə bilər. İkisi də bu haqqa malikdir. Ev, saleh müsəlman qonşular arasında olmalı, müəzzinin öz səsi evdən eşidilməlidir. Həftədə bir dəfə, qadının öz ata-anasıgilə getməsinə mane ola bilməz. Onların da həftədə bir dəfə qızlarını görməyə gəlmələri yaxşı olar. İkisindən biri xəstə olsa və baxacaq adamları olmasa, kişi razı olmasa belə, qadın, gedib xidmət etməlidir. Digər məhrəm qohumların ildə bir dəfə gəlməsinə və qadının onlara getməsinə mane ola bilməz. Bunlardan başqalarına və günah olan yerlərə getməsinə icazə versə, hər ikisi günaha batar. Evində və ya evdən kənar yerdə, başqaları üçün pulla və ya xeyir vermək məqsədilə iş görməsinə, məktəbə getməsinə mane ola bilər. Qadın evində ev işləri ilə məşğul olmalı, bekar oturmamalıdır. Ər, xanımını övrət yeri açıq olanların getdiyi hamamlara, çimərliklərə, idmançıların oyunlarını seyr etməyə göndərməməlidir. Bunları göstərən televizorları evinə qoymamalıdır. Qadın, bəzənərək və təzə geyinərək küçəyə çıxmamalıdır.”

Ər xanımını, məhrəm olan, yəni evlənməsi haram olan qohumlarından başqa, haramlardan çəkinən müsəlmanların evinə apara bilər, ancaq qadınlarla kişilər ayrı oturmalıdır. Qadının məhrəm qohumları on səkkiz

nəfərdir: atası, babası, oğlu, nəvələri, qardaşı (yalnız atadan və ya yalnız anadan olsa belə), bacı və qardaşının oğulları, əmisi, dayısı. Bu yeddi kişi, süd əmmək və ya zina səbəbi ilə də məhrəm olur. Dörd kişi də nikahla əlaqədar olaraq məhrəm olur: qayınata və onun atası, kürəkən, ögey oğul, ögey ata. Bir kişiyə övladlarının gəlinləri və bir qadına uşaqlarının kürəkənləri məhrəmdir. Məhrəm, nikahla alması haram olan deməkdir. Məsələn, bacı məhrəmdir. Hamıya bacı və qardaşının uşaqları məhrəmdir. Qardaşların arvadları, əmi, dayı, xala, bibi uşaqları və həyat yoldaşları məhrəm deyil. Xalanın uşaqları və əri naməhrəmdir. Ərin və arvadın bacı-qardaşları naməhrəmdir. Yeznə və qayının məhrəm qohum olmadıqları, yad olduqları, **"Neməti islam"**da, həccin şərtlərində yazılmışdır. Qadının, bu ikisinə də açıq görünməsi, üzündən başqa hər yeri örtülü olsa belə, bir otaqda yalnız qalması, birlikdə səfərə çıxması haramdır. Kürəkənə, qayınanasının ana və atasının anaları da məhrəmdir. Bir qız məhrəm qohumu ilə evlənə bilməz. Onların yanında örtünməyə bilər, bir otaqda tək qala bilər, birlikdə səfərə çıxa bilər. Məhrəm olmayan qohumu evə gəldikdə, ərinin və ya qohumu olan qadınların yanında üzündən başqa hər yeri örtülü olaraq, xoş gəldiniz, deyər. Çay gətirə bilər. Lakin yanlarında otura bilməz. Müsəlmanlar, adətlərə, ənənələrə deyil, islamiyyətə, elmihal kitablarına uymalıdırlar. Hər müsəlman, xanımına elmihal öyrətməli, özü bilmirsə, saleh xanım müəlliməyə göndərməlidir. İslamiyyətə uyan, haramlardan çəkinən xanım tapa bilməsə, Əhli sünnət alimlərinin (rahimə-hümullahü təala) yazdığı doğru elmihal kitabını xanımı ilə birlikdə oxuyub, hər ikisi də dinini, imanını, haramları, fərzləri yaxşı öyrənməlidir. Məzhəbsiz din adamlarının yazdıqları yanlış təfsir və din kitablarını evə gətirməməli, onları oxumamalıdır. Dini, əxlaqı pozan verlişlər təqdim edən radioları, televizorları da evə qoymamalıdır. Bunlar, pis dostdan daha betərdirlər, xanımın və uşaqların dinini, əxlaqını pozar. Qadın və qızları ev işləri ilə məşğul olmalı, tarlada, fabrikdə, bankda, ticarət yerlərində və idarələrdə işlədilməməlidirlər. Qadının və qızlarının pul qazanması, atasının, ərinin sənətinə, ticarətinə yardım etməsi lazım deyil. Bunları etmək və ev ehtiyaclarını ödəmək kişinin vəzifəsidir. Qadın bu işlərə məcbur edilərsə, dini, əxlaqı və səhhəti pozular. Hər ikisinin də dünyaları və axirətləri korlanar. Sonra dizlərini döysələr də faydası olmaz, günahdan, bəladan qurtula bilməzlər. İslamiyyətə uyan, dünyada da, axirətdə də rahatlığa qovuşar. Pis dostların, münafiqlərin gülər üzünə aldanmamaq, elmihal kitablarına uymaq lazımdır. Hər bir valideyn övladını haramlardan qorumalı, oğullarını müsəlman müəllimlərin olduğu məktəblərə göndərməlidir. Qadının mağazalarda, dükanlarda, fabriklərdə, dövlət işlərində, kişilərin arasında işləməsinə ehtiyac yoxdur. Əri yoxdursa və ya xəstədirsə, qadının hər ehtiyacını məhrəm qohumları təmin etməyə məcburdur. Bu qohumlar da kasıb-

dırsa, dövlət tərəfindən yüksək maaş ödənilməlidir. Allahü təala, islam qadınının hər ehtiyacını ayağına göndərmiş, dolanmaq problemini kişilərə həvalə etmişdir. İşləyib qazanmağa heç ehtiyacı olmadığı halda, mirasdan, kişinin aldığının yarısını da qadına vermişdir. Qadının vəzifəsi evin içindəki işləri görməkdir. Bu işlərin birincisi, uşaqları tərbiyə etməkdir. Uşağın ilk mürşidi, yəni doğru yol göstərəni anasıdır. Anasından din və əxlaq elmlərini öyrənən uşaq, dinsiz müəllimlərə, pis dostlara və islam düşməni olan dönüklərin, ateistlərin yalanlarına aldanmaz. Anası və atası kimi xalis müsəlman olar. "Tam Elmihal Səadəti Əbədiyyə" kitabının 84-cü və sonrakı nəşrlərində 579-cu səhifəsinə baxın! İslam düşmənliyi edən münafiqlərə **"Dönük"** deyilir.]

*Müsəlmanam deyənlərə,*
*Beş vaxt namaz gərək olar.*
*Sabah, qiyamət günündə,*
*Hullə və tac burak olar.**

## CƏNAZƏNİN TƏCHİZ, TƏKFİN VE TƏDFİNİ* HAQQINDA

Cənazə namzı, dəfn etmək, yumaq, kəfənləmək, bunların hamısı fərzi kifayədir.

Meyit yuyulmaq üçün tənha bir yerə qoyulmuş mərmər və ya taxta masa üzərinə arxası üstə uzadılır. Köynəyi çıxarılır, dəstəmaz aldırılır. Başından göbəyinə qədər ılıq su ilə yuyulur. Sonra göbəyi ilə dizləri arası örtülüb yuyulur. Yuyan, sağ əlinə əlcək geyər. Bu əlini örtünün altına salıb, su tökərək yuyar. Örtünün altına baxmaz. Sonra sol tərəfə çevirib, sağ tərəfini, sağ tərəfə çevirib, sol tərəfini əlcəkli əli ilə yuyar. Kəfənin üç hissəsindən biri masanın üzərinə, meyitin altına sərilir. Bu hissə meyit ilə birlikdə tabuta qoyulur.

Kəfən üç növdür: Kəfəni fərz [Buna kəfən-i zərurət də deyilir], kəfəni sünnət, kəfəni kifayə.

Sünnət kəfənlər kişilər üçün üç, qadınlar üçün beşdir.

Kəfəni kifayə, kişilər üçün iki, qadınlar üçün üçdür.

**"Bəhr"**də deyilir ki, "Qadınların kəfən-i kifayəsi, izar (önlük), lifafe* və himar (baş örtüyüdür). Çünki qadınlar həyatda olarkən bu üç şeylə örtünürlər." İzar, o zamanlar çiyindən və ya təpədən ayağa qədər bədənə sarılan parça idi. Lifafənin köynək olduğu İbni Abidində yazılmışdır. Göründüyü kimi, müsəlman qadınları əvvəllər geniş manto və baş örtüyü ilə küçəyə çı-

---

* hullə-Cənnət geyimi; burak-Cənnətə məxsus olan minik vasitəsi.
* təchiz-ölənin yuyulmasından qəbrə dəfn edilməsinə qədər edilməli olan şeylərdir. Təkfin və tədfin-kəfənləmə.
* lifafə-başı və ayaqları örtəcək uzunluqda olub, başın üstündən və ayaqların altından ucları büzülüb bezlə bağlanan hisə.

xardılar. **“Bəhr”**də və **“Dürr-ül-müntəqa”**da deyilir: “Zövcin zövcəsinə verməsi vacib olan nəfəqə (yaşamaq üçün vəsait) təam, geyim və məskəndir. Geyim-baş örtüyü və üst geyimidir.” [Üst geyiminə indi manto deyilir. Göründüyü kimi qadınların geyimi üç hissədən ibarətdir. Bunların arasında çarşab yoxdur. Çarşab ilə örtünmək, sonradan adət olmuşdur. Çarşabla örtünmək adət olduğu yerlərdə çarşabla, manto adət olan yerlərdə geniş manto və qalın baş örtüyü ilə örtünmək caizdir. Adətlərdən kənara çıxmaq, camaatdan seçilməyə, bu da öz növbəsində fitnəyə səbəb olur. Fitnəyə səbəb olmaq haramdır.]

Fərz olan kəfən kişilər və qadınlar üçün bir parçadır. Kəfən parçası tapılmasa, ipək tapılsa, kişilərə bir qat, qadınlara iki qat kifayət edər.

Cənazə namazında imam olmağa ilk öncə, müsəlmandırsa, dövlət rəisi, ondan sonra o yerin hakimi, ondan sonra Cümə namazına icazəli olan şəxs və ondan sonra imamı-hay daha yaxşıdır. İmamı-hay, meyitin həyatında, ona hüsni-zənn etdiyi, alim olan müsəlman kimsədir. Ondan sonra meyitin vəlisidir. Vəlisi gəlməzsə, adı çəkilənlərdən başqa kimsə varsa, vəlisi özü bilər. İstərsə, iadə edər istər etməz. [Bunun açıqlaması, “**Səadəti Əbədiyyə**” adlı elmihal kitabında vardır.]

Əgər kiminsə cəsədi ortadan bölünüb, yalnız yarısı qalıbsa, o yarımın namazı qılınmır.

Parça-parça olmuş və hər parçası bir yerdə olan cəsəd tapılsa, onun da namazı qılınmır. Lakin o parçalar bir yerə toplansa, namazı qılınır.

Bir cənazə yuyulduqdan sonra, onun hansısa bir yerinin quru qaldığı deyilsə, əgər kəfənlənməyibsə, onu yenidən yuyarlar. Amma qəbirin yanına çatdıqdan sonra, onun dəstəmaz üzvlərindən birinin quru qaldığı söylənsə, o yeri yuyulub, namazı qılınar. Qəbrə qoyub, üzərini örtdükdən sonra xəbər verilsə, onu qəbirdən çıxarmazlar. Yuyulmadan basdırılan meyit, əgər üstünə torpaq atılmayıbsa, çıxarılıb yuyulur.

Bir cənazəyə təyəmmüm etdirilsə, aparılarkən su tapılsa, camaat ixtiyar sahibidir.

Bir şəhərdə çox adam ölmüşdürsə, hamısı üçün bir namaz qılmaq olar. Təbii ki, islamiyyətin hökmü tətbiq olunmaqla. Lakin hərəsi üçün ayrı-ayrı qılmaq daha yaxşı olar.

Cənazə namazında, **“Allahü təalanın rızası üçün namaza, kişi** [və ya qadın] **üçün duaya, uydum hazır olan imama”**, deyə niyyət etmək lazımdır.

Bir şəxsi, yol kəsib quldurluq edərkən tutsalar və hakimin və ya vəlinin rəyi ilə öldürsələr, yaxud kimisə dövlətə üsyan etdiyi üçün döyüşərkən öldürsələr, yaxud da bir şəxs, öz ana və atasını öldürsə, onların namazları qılınmaz.

Özü özünü öldürən, yəni intihar edən şəxsin namazı qılınır. **“Dürr-ül-muxtar”.**

## ƏHLİ SÜNNƏTDƏ OLANLARIN ON ƏLAMƏTİ VARDIR:

1.Əhli sünnətdə olan şəxs davamlı olaraq camaat namazlarına gedər.

2.[Etiqadı və ya günahı küfr dərəcəsinə çatmayan] imama uyar.

3.Məst üzərinə məshi doğru qəbul edər.

4.Əshab-ı kiramdan (radıyallahü təala anhüm əcmain) heç biri haqqında pis söz deməz.

5.Dövlətə üsyan etməz.

6.Dində [haqsız olaraq] mücadilə, münaqişə etməz.

7.Dində şəkk, şübhə etməz.

8.Xeyri və şəri Allahü təaladan bilər.

9.[Dindən çıxdığı bəlli olmadıqca] əhli qibləni kafir adlandırmaz.

10.Dörd xəlifəni digər Əshabdan üstün tutar.

Bir nəfər, imam azam Əbu Hənifədən soruşdu: "Vaxtımı ibadətlə keçirmək istəyirəm. Mənə bir şey yaz ki, həmişə onu edim!" İmam azam alış-veriş bilgilərini yazıb verdikdə, o şəxs: "Bunlar tacirlərə lazım olar. Mən evimdə oturub ibadətlə məşğul olacağam", deyir. İmam cavab verərək: "Yeyiləcək və geyiləcək şeylərin lazım olmadığı insan varmı? Əhkamı islamiyyənin alış-veriş qismini bilməyən, haram tikədən qurtula bilməz və ibadətlərinin savabını qazana bilməz. Zəhmətləri boşa gedər, əzaba düçar olar və çox peşman olar", buyurur. **"Bəzzaziyyə"**də deyilir: "Alış-veriş bilgisini öyrənməyənin ticarət etməsi haramdır." İmam Əbülleys də "rahmətullahi təala aleyh" belə buyurmuşdur. İmam Muhamməd Şeybaniyə (rahmətullahi təala aleyh) Zühd* haqqında bir kitab yaz, deyildikdə, "zühd üçün alış-satış bilgisi kifayətdir", buyurmuşdur."

## ÖLÜM HALLARI HAQQINDA

Ey biçarələr, siz ölümdən qaçarsız. Filankəs öldü, mən də onun yanında dursam, mənə də yoluxar, deyərsiniz. Taun, yolxucu xəstəlik filan məhəlləyə gəldi, deyib, başqa yerə qaçarsız. Bu cür etiqad da haramdır. Xəstəlik, Allahü təala istədiyi zaman yoluxar.

Ey biçarələr, hara qaçırsınız! Ölüm sizə vəd olunmuşdur, əcəl irəli getməz! Aləmləri yaradan sizə, əcəliniz gəldiyi zaman göz açıb yummaq qədər vaxt verməz. Yazılmış qədərdən nə az, nə də çox olar.

Allahü təala əmrini harda hökm etdisə, o insan malını, övladını, həyat yoldaşını, hər şeyini atıb, o yerə gedər. Öz torpağı olan məmləkətə çatmayanadək, canını almaq əmr olunmaz.

---

* Zühd-zahidlik, nəfsani ləzzətlərdən əl çəkərək özünü ibadətə vermək.

Hər kəs əcəli gəldikdə ölər. Araf surəsinin 33-cü ayəsində buyruldu: **“Əcəlləri gəldiyi zaman, onu az da olsa irəli və ya geri çevirə bilməzlər”**.

İnsan doğulmadan öncə nə qədər yaşayacağı müəyyən edilmişdir. İnsan harada öləcək, tövbə iləmi, tövbəsizmi, hansı xəstəlikdən, imanlımı, imansızmı gedəcək, bütün bunlar lövhi mahfuza (təqdirlər kitabı) yazılmışdır. Loğman surəsinin son ayəsində buna işarə vardır.

Aləmləri yaradan ölümü yaratdı. Sonra diriliyi yaratdı. Sonra ruzimizi yaratdı və lövhəyə yazdı.

Beləliklə, Haqq təala, sizin gündə nə qədər nəfəs alıb verdiyinizi bilir. Bunu lövhəyə yazmışdır. Mələklər nəzarət edirlər və vaxtı gəldikdə ölüm mələklərinə xəbər verirlər.

Əgər həyatında Qurani-kərim ilə müəyyən olunmuş sözlərə inanıb, əməl etmisənsə, səadətlə gedərsən. Bütün hər şeyi Allahü təaladan bil! Vəfat edənin ardınca fəryad etmə! Bu cür şeylər, imansız getməyə səbəbdir. Nəuzübillah (Allaha sığının). Günah və xəta baş verərsə, tövbə-i nasüh etmək, yəni tövbə edilən günahı təkrar etməmək lazımdır.

Haqq sübhanəhü və təala, Əzrail əleyhissəlama buyurar: **“Dostlarımın canını asan al, düşmənlərimin canını əziyyətlə al!”** Allah qorusun asi olmaqdan!

Qiyamətin bir gününün miqdarı min il və ya əlli min il olduğu güman edilir. Bununla bağlı təfsir çoxdur. Səcdə surəsinin beşinci və Merac surəsinin dördüncü ayələrindən aydın olur.

Bundan sonra mələklər asi olanın canını əzabla alarlar. Dil ilə təsvir oluna bilməz. Bizi yoxdan var edən Allaha sığındıq. Bəzi meyitlər döşəyində yay (kaman) kimi o yan-bu yana dönər. Necə ki, Allahü təala Vənnaziati surəsində buyurur. O mələklər əzablar edib, bir biri ilə müzakirə edərlər. Cəbrayıl əleyhissəlam o mələklərə deyər: “Mərhəmət etməyin!” Münafiqlərin canı burnunun ucuna gələr, yenə geri qaytarılar. Hər əzasını elə sıxarlar ki, gözlərinin nuru tökülər. Mələklər deyər: “Sən Cənnətlik deyilsən! Cahanı yaradan sənə qəzəbləndi! Sənə lütf, yardım yoxdur! Sən diri ikən etdiklərini unutdunmu? Ey yaramaz insan! Sənə elə əzab hazırlandı ki, münafiqlər və kafirlər əzabıdır. Çünki səndə namaz, zəkat, sədəqə, kasıblara mərhəmət yox idi. Haramdan qaçmazdın, bütün işlərin fəsad idi. Qeybət edərdin, yenə də Allah kərimdir deyərdin. Budur, əzab da çox acı vericidir.” Haqq sübhanəhü və təala həzrətlərindən xitab gələr: **“Bu münafiqlər bir gün də ölümlərini xatırlamadılar. Təkəbbürlü olardılar. Fərz, vacib, sünnətə əməl etməzdilər. İndi mənim əzabımı görsünlər!”** Yenə zəbanilər, yəni Cəhənnəm mələkləri dırnaqlarının dibindən yapışıb, canını sinəsinin damarlarından çıxararlar və hulquma aparıb, yenə geri buraxarlar. Yenə xitab gələr: **“Alimlər sizə bildirmədimi? Kitabımızı oxumadınızmı? Qafil olmayın, şeytana uymayın, demədilərmi? Hər şeyi**

**Allahdan bilin, demədilərmi?"** Dünya malına həris olmayın! Allahü təalanın verdiyinə qənaət edin, kasıb qullarına mərhəmət edin, yoxsullara təam verin! Allahü təala o padşahdır ki, sizi yaratdı və sizi bəsləməyi öz üzərinə götürdü ki, sizə Ondan bir bəla gəlsə, yenə Onu çağırasınız, yalvarasınız, dərmanı Ondan diləyəsiniz! Mən həkimlərə pul verdim və sağaldım demə! Allahü təalanın lütfündən bil! Sənin malım dediyin, sənə əmanətdir. O mal sizin dərdinizə dərman deyil. Halaldırsa, hesabını verməyə vəzifəlisiniz. Haqq sübhanəhü və təala nə qədər təqdir etdisə, o qədər alarsan. Nə maldan, nə övladdan, nə dostdan, hər nə qədər fəryad etsən və ya hansı səhraya qaçsan, canını qurtara bilməzsən. Ancaq torpağın haradırsa, o yerə dəfn olunarsan. Əcəlin gəlmədikcə, sənə heç kimdən ziyan gəlməz. Sizə, yalnız təhlükədən qorunmaq və dərdlərə dəva olan səbəblərə sarılmaq əmr olundu.

Nə zaman Haqq təala sizə sağlıq kimi, mal kimi, övlad kimi nemət versə, sevinib, Əlhamdü-lillah, bizim Rəbbimiz bizə ikram etdi, deyərsiniz. Nə vaxt Allahü təala sizə müsibət versə, yəni sizə bir bəla versə, qəm çəkərsiniz, səbr etməzsiniz, şükr etməyi unudarsınız.

Haqq təaladan xitab gələr: **"Ya mələklərim! Onu tutun!"** mələklər onun canını bütün qıllarının dibindən alıb, yenidən yerinə qaytararlar. Haqq təalanın əzab verdiyini, kimsə xilas etməyə qadir deyildir.

Ölüm döşəyində yatan şəxs bu əzabı görüb, ah, kaş ki, dünyada olarkən əməlimi yerinə yetirərdim, bu gün də bu əzabı çəkməzdim. Yenə o xəstəni gözləyən insanlara xitab gələr: **"Ey mənim təkəbbürlü qullarım! Bu dostunuzu, mal xərcləyərək qurtarın! Dünyada məndən gələn bəlaya səbr etməzsiniz, məndən şikayət edərsiniz. Bu qul əzab çəkir və canı hulqumuna gəlib. Mənim qüdrətimdən!"** Mələklər bu nidanı eşidib, "Ey Rəbbimiz! Sənin əzabın haqdır", deyərək, səcdəyə gedərlər. Haqq təala bunları Qurani-kərimdə xəbər verməkdədir. Sonra yenə mələklərə, tutun, deyə nida gələr. Mələklər o şəxsi elə tutar ki, bir qılının yeri belə boş qalmaz. Mələklər qışqırıb: "Ey Allahın asi qulunun canı! Gəl çıx vücudundan. Bu gün sənə əzab olunacağı gündür. Allahü təaladan başqasına məhəbbət etdiyin üçün, təkəbbürlü olub, kasıblara salam verməzdin, haram olan şeyləri edərdin, batili haqq və haqqı batil görərdin", deyərlər. Bunlar Qurani-kərimdə xəbər verilmişdir.

Sonra o insan mələklərə, "bir aman verin, ağlımı başıma toplayım", dedikdə, görər ki, ölüm mələkləri, başının üstədir. Onları gördükdə, bu əzabları unudub titrəməyə başlayar. Ölüm mələklərini görüb soruşar: "Bu qədər mələk əzab verdiyi halda, sən kimsən və niyə gəlmisən?" Bundan sonra ölüm, bir vahiməli səslə deyər: "Mən o ölüməmki, səni dünya üzündən çıxarmalıyam. Övladlarını yetim qoymalı, malını dünyada sevmədiyin qohumuna miras qoymalıyam."

Ölümdən bu sözləri eşidib, titrəyər, üzünü o yan, bu yana çevirər. Çünki əlaməti budur və Hədisi Buxaridə Rəsul-i əkrəm (sallallahü təala

aleyhi və səlləm), **“Mələkləri eşitdikdə üzünü divara çevirər, önündə ölümü görər”**, buyurur.

Hansı tərəfə baxsa, ölümü o tərəfdə görər və yenə arxası üstə dönər.

Ölüm mələkləri bir şiddətli səslə çağırıb, deyər: “Mən o ulu mələyəm ki, atanın və ananın canını aldım, sən o vaxt orada idin, nə faydan oldu? İndi də bütün dostların baxır, nə faydası var? Mən o ulu mələyəm ki, səndən əvvəl öldürdüklərimin qüvvəti səndən çox idi.”

Bu insan mələklərlə bu qədər danışarkən, əzab mələkləri gedər. Əzrail əleyhissəlamı zəhmli görüb, o an ağlı itər.

Əzrail əleyhissəlam soruşar: “Dünyanı necə gördün?” O da cavab verər ki, dünyanın hiyləsinə aldandığıma görə bu haldayam.

Cahanın yaradıcısı, dünyanı bir qadın şəklinə salar. Gözləri göy, dişləri öküz buynuzu kimi, bir pis ətirlə gəlib sinəsinin üstünə oturar.

Sonra o insanın malını qarşısına gətirərlər. Haram və halal deməyib, qazandığı malını gözünün önündə varislərinə verərlər.

Sonra o mal, öz sahibinə deyər: **“Ey asi! Məni qazandın, nahaq yerə xərclədin, sədəqə, zəkat vermədin. İndi isə əlindən çıxdım, sənin istəmədiyin insanların əlinə keçdim, səndən minnətsiz aldılar”**.

Bu halda ikən susayar, ürəyi yanaraq dörd tərəfinə baxar.

Bu vəziyətdə ikən, şeytan fürsət tapıb, imanını almaq üçün yanına gələr. O lənətlənmiş, əlində, içində buzlu su olan bir qədəh tutar, xəstənin yanında o qədəhi çalxalayar. Onu görər və eşidər. O yerdə və o anda kasıb və zənginin halı bəlli olur.

Əgər səadətsizdirsə, gətir o sudan içim, deyər. O məlunun canına minnət olar. Deyər ki, Allah qorusun, aləmlərin yaradıcısı yoxdur, de! Əgər zalımdırsa, dediyi kimi söyləyər və Allah qorusun, imanı gedər. Lakin hər şeydə hikmət Hüdanındır. O vəziyyətdə olan xəstənin yanında həmişə su qoymaq, ağzını açıb suyu içirmək lazımdır.

Əgər hidayətə çatarsa, şeytanı lənətləyib rədd edər.

Vədəsi yetişdikdə, əgər mömindirsə, əmr olunar, Əzrail əleyhissəlam canını alar. Üç yüz altmış mələk o canı Əzrail əleyhissəlamın əlindən alıb, dost-tanışlarının surətinə girib, Cənnət geyimlərini geydirib, ruhunu Cənnət sarayına çatdırar və yenə dərhal meyitin yanına gətirərlər.

Əgər imansız gedibsə, üç yüz altmış siccin mələkləri Cəhənnəmdən, qətrandan da qara zəqqum yarpağı gətirib, o imansız çıxan ruhu ona sarıyıb, dərhal Cəhənnəmə çatdırar və yerini göstərib, yenə meyitin yanına gətirərlər.

Bir kimsə həddi-buluğa çatıb, dünyada yaşadığı müddətdə üsyan edib, tövbəsiz gedərsə, Allaha sığınırıq, bu əzabları görər, qiyamətdə rüsvay olar. Onun gedəcəyi yer Cəhənnəmdir. Təkcə Allahü təaladan hidayət gəldiyi haldan və ya həzrəti Muhammədin “sallallahü təala və səlləm” şəfaəti gəldiyi haldan başqa.

## MƏSUMLARIN ÖLÜMÜ HAQQINDA

Bir müsəlmanın uşağı xəstə olub, ölüm döşəyində yatsa, Makam-ı illiyyin, yəni Cənnət onun yeridir. Oradan üç yüz altmış mələk gələr, səflərə düzülərək o məsumun qarşısında durar və: "Ya məsum! Müjdələr olsun sənə, bu gün o gündür ki, keçmiş olan, analarını, babalarını və bütün qonşularını Haqq təaladan istəyəsən", deyib, yüz mələk başına bir şəfaət tacı geydirər, digər yüz mələk eşq tacı geydirər, yüz mələk də qayrət və qüvvət köynəyi geydirər, altmış mələk gözünün pərdəsini və hicabını qaldırar. Bütün hicablar qalxdığı kimi, ta həzrət Adəmdən bəri, keçmiş möminlərin atalarını və əcdadlarını görər. Onların bəzisi üçün əzab hazırlanmışdır. Onların bu hallarını gördükdə, ağlayar, qışqırar və titrəyər. Bunu bilməyənlər, can verdiyini sanarlar.

Sonra can alıcı mələklər gəlib, o məsumun, şəfaət tacını, köynəyini geyindiyini, gözünün pərdəsinin qalxdığını görüb, canını almağa qüvvətləri çatmaz və: "Ya məsum! Aləmləri yaradan sənə salam söylədi və buyurdu ki, mən onu yaratdım, yenə mənə qayıtsın. Çünki o ruh əmanətini mən verdim, yenə mənə versin. Onun müqabilində ona Cənnət və didar (üz, sima) verim. Əgər inanmırsansa, üzünü çevirib göylərə tərəf bax, onda görərsən", deyərlər. Bu zaman, o məsum da baxıb, mələkləri və Allahü təalanın camalını görər. Sevincdən cuşa gəlib titrəyər, həyəcanlanar, qızarar. Sıçrayıb, döşəyində can verməyə atılar. Yenə o əzab içindəki əcdadları gözünə görünər və yenə canını verməz. Mələklər soruşar: "Ya məsum! Niyə canını vermirsən?" O məsum cavab verər: "Ey mələklər! Allahü təalaya rica edin, qohum və əcdadımı mənə bağışlasın." Mələklər deyər: "Ya Rəbb! Bu məsumla bizim halımız sənə məlumdur." Həzrəti Allah (cəllə şanühu) xitab edər: "İzzətim haqqı üçün bağışladım." Yenə mələklər: "Ya məsum! Muştuluq olsun sənə! Haqq təala imanı olanların günahlarını bağışladı və bütün ricalarını qəbul etdi", dedikləri zaman, məsum şad olar. Bu halda ikən, Haqq təala, Cənnətdən iki huri göndərər. Onlar məsumun ata və anasının simasında gəlib, qollarını açaraq deyərlər: "Ey bizim oğlumuz, yaxud qızımız! Bizimlə gəl, biz Cənnətdə sənsiz qala bilmirik." Cənnət almalarından bir alma çıxarıb məsuma verərlər. O məsum almanı iylədiyi zaman Həzrəti Əzrail (əleyhissəlam) onun kimi bir gözəl məsum olub, ruhunu alar.

Bir rəvayətə görə isə almanı iylədiyi zaman canı almaya yapışar və ölüm mələkləri məsumun canını almadan alarlar. Bu rəvayətlərin ikisi də caizdir.

Sonra ölüm mələkləri o canı alıb, göyləri seyr etdirib Cənnətə apararlar. Orada yaşıl zəbərcəddən (qiymətli daş) bir səhra vardır. Məsum bura gəldikdə: "Məni bura niyə gətirdiz?", deyər. Mələklər: "Ya məsum! Qiyamət yeri vardır. Çox istidir. Məhz bu səhrada yetmiş min rəhmət bulağı

vardır. Həzrəti Rəsuli əkrəmin (əleyhissəlam) hovuzunun başında durub, nurdan olan badələrə baxın! Ata və ananız qiyamət yerinə gəldikləri zaman, bu badələri su ilə doldurub onlara verin. Onları əlinizdən buraxmayın ki, Cəhənnəm yoluna getməsinlər, əzab və cəza çəkməsinlər. Çünki sizin duanız Haqq təala qatında məqbuldur. Cümə gecələri yer üzünə enərsiz. O vaxt Allahü təalanın salamını ümməti Muhammədə (sallallahü təala aleyhi və səlləm) çatdırarsınız. Onların üzərinə nur verərsiniz və onların şükürlərini Haqq təalaya apararsınız", deyərək nəsihət edərlər.

Məsumların canlarına bu halları seyr etdirib, yenə gətirib meyitin yanına qoyarlar. Namazı qılınıb, qəbrə qoyulub, sorğu sualı olunana qədər o can qəbirin yanında durar. Əgər ata və anası tövbəsiz ölərlərsə, qiyamətdə oğlu ilə onların arasında bir pərdə olar. O məsum onları axtarıb tapmaz və birbirlərinə həsrət qalarlar. Möminlərin həddi-buluğa çatmamış övladlarının halı bax belədir.

*Vəfasızdır, ey alçaq dünya, sənin hər nemətin!*
*Əcəl fırtınaları məhv eyləyir hər yüksəkliyini.*

## MÜSƏLMAN QADINLARIN ÖLÜMÜ HAQQINDA

Bir qadın zahı, hamilə və ya taun olsa, yaxud bunlardan heç biri olmasa da, yad kişilərin qabağına açıq-saçıq çıxmasa və əri ondan məmnun olsa, o qadın ölərkən, Cənnət mələkləri gəlib, qarşısında səf-səf durar, ona izzət və ikramla salam verər və: "Allahü təalanın sevgili şəhid cariyəsi, gəl çıx, nə edirsən dünya sarayında? Səndən Allahü təala razı oldu və sənin bu xəstəliyini bəhanə edib, günahını bağışladı, sənə Cənnət ehsan etdi, gəl əmanətini təslim et!", deyərlər. O qadın bu mərtəbəni görüb, ruhunu vermək istədikdə, ətrafına baxıb: "Mənimlə dostluq edənləri mühakimə edib rəhmət etsin, sonra təslim edim", dedikdə, mələklər də ricasını cənab-ı Haqqa ərz edərlər. Xitab-ı izzət gəlib, "İzzətim haqqı üçün, qulumun bütün duasını qəbul etdim", buyurar. Mələklər də xoş xəbəri çatdırarlar. Sonra ölüm mələkləri yüz iyirmi rəhmət mələyi ilə gələrlər. Üzlərinin nuru Ərşə çıxar, başları taclı, arxalarında nurdan Cənnət geyimləri, ayaqlarında qızıl ayaqqabılar və yaşıl qanadları olar. Əllərində Cənnət meyvələri, gözəl ətirlə gəlib, izzət və ikram ilə salam verərlər və: "Aləmləri yaradan, səni salamlayar və Cənnət verib, sevimlisi Muhamməd əleyhissəlama qonşu edər, Həzrəti Aişəyə müsahib, dost edər", deyərlər.

Bu imanlı qadın bu kəlamları eşidər, gözünün pərdəsi açılıb, əhli iman qadınlarını görər, günahkar olub əzab olunanları görər və: "Onların günahlarını bağışla, Rəbbim!", deyə arzu edər. Cənab-ı izzətdən bir xitab gələr: "Ya cariyəm! Cümlə muradını yerinə yetirdim, ver əmanətini, Həbibimin xatunu və qızı səni gözləyirlər." Bu xitabı eşitdikdə, canı titrəyər,

ayaqları atılar, tər tökər və can vermək üzrə ikən, iki mələk gələr. Əllərində atəşdən bir çomaq olar, sağ yanında biri, sol yanında biri durar. Üzərinə lənət olunmuş şeytan qaçaraq gələr və "hərçənd bundan bizə fayda yoxdur, amma hələ bir görüm", deyib, qiymətli kasada buzlu su gətirib, göstərər. O mələklər zalımı görüb, əllərindəki çomaqla vuraraq əlindəki kasanı sındırar, onu qovarlar. Müsəlman qadın bunu görüb, gülər. Sonra huri qızlar ona qiymətli kasada kəvsər şərabı verər, o da içər. Cənnət şərabının ləzzətindən canı sıçrayıb, qədəhə yapışar və ölüm mələkləri canını o qədəhdən alar. Mələklər çağırışıb: **"İnnə lillahi və innə ileyhi raci-un"**, deyərlər. Canını alıb, göyləri seyr etdirib, Cənnətə aparar və oradakı yerini göstərib, dərhal yenə meyitin yanına gətirərlər.

Libasını çıxarıb, saçlarını açanda, ruhu dərhal cəsədinin yanına gəlib deyər: "Ey cəsədi yuyan! Yavaş-yavaş tut! Çünki Əzrail pəncəsindən can yarası yemişdir. Bədənim çox əziyyət çəkmişdir və zəifləmişdir." Yuyulma yerinə gətirildikdə, yenə gəlib deyər: "Suyu çox isti etmə. Bədənim çox zəifdir. Tez məni əlinizdən xilas edin ki mən rahat olum." Yuyulub, kəfənə büküldükdə, bir az gözləyib, yenə deyər: "Bu cahanı son dəfə görürəm. Bütün qohum-əqrabalarımı görüm, onlar da məni görsünlər və ibrət alsınlar. Onlar da tezliklə mənim kimi öləcəkləri üçün arxamca fəryad etməsinlər. Məni unutmayıb, Qurani-kərim oxuyaraq daim yad etsinlər. Mənim mirasım üçün bir-birləriylə mübahisə etməsinlər ki, qəbirdə əzab görməyim. Cümələrdə və bayramlarda məni xatırlasınlar."

Məsciddə, dua oxunması üçün qoyulduqda, can yenə gələrək: "Rahat qalın, ey mənim oğlum və qızım, atam və anam! Bunun kimi ayrılıq günü yoxdur. Görüşməyimiz qiyamətə qaldı. Əlvida olsun sizlərə, ey ardımca göz yaşı tökənlər!", deyər.

Namazı qılınıb, çiyinə qaldırıldıqda, yenə deyər: "Məni yavaş-yavaş aparın! Əgər məqsədiniz savab qazanmaqdırsa, mənə əziyyət verməyin! Sizdən Allahü təalaya razılıq aparım!"

Qəbir kənarına qoyulduqda, can deyər: "Mənim halımı görün, ibrət alın! İndi məni qaranlıq yerə qoyub gedəcəksiz. Mən əməllərimlə qalacağam. Bu halları görüb, vəfasız, yalançı dünyanın hiyləsinə aldanmayın!"

Qəbrə qoyulduğu zaman, can, meyitin baş tərəfinə gələr. Nəbadə bir meyit duasız qalsın. [Dəfndən sonra saleh birinin "Təlkin" verməsi sünnətdir. Təlkin, dəfndən sonra meyitin üzünə qarşı ayaq üstə duraraq oxunan, qəbir suallarını və cavablarını bildirən sözlərdir. Vəhhabilər, bunun sünnət olduğuna inanmırlar. Bunun bidət olduğunu, ölünün eşitmədiyini deyirlər. Əhli sünnət alimləri (rahimə-hümullahü təala) müxtəlif kitablar yazaraq, təlkin verməyin sünnət olduğunu sübut ediblər. Bu dəyərli kitablardan biri, Mustafa ibn İbrahim Siyami (rahimə-hullahü təala) həzrətlərinin **"Nur-ul-yakin fi-məbhas-it-təlkin"** kitabıdır. Burada, Tabəraninin və ibn Məndənin

xəbər verdikləri Hədisi-şərif yazılmışdır. Bu Hədisi-şərifdə təlkin verilməsi əmr olunur. **“Nur-ul-yakin”** kitabı 1345-ci ildə Siyamda, Bankonq şəhərində yazılmış, 1396-cı [m. 1976] ildə İstanbulda ikinci dəfə çap olunmuşdur.]

Allahü təalanın əmri ilə, meyit qəbirdə yuxudan oyanmış kimi oyanar və görər ki, bir qaranlıq yerdədir. Xidmətçisini, cariyəsini və ya ona daim kömək edən birini çağırıb: “Mənə şam gətirin!”, deyər. Əsla səs-səda gəlməz. Qəbir yarılıb, iki sual mələyi [Münkər və Nəkir] zühur edər. Onların ağızlarından alov, burunlarından qara duman çıxar. Bu vəziyyətdə ona yaxın gəlib, deyərlər: **“Mən rabbükə və mən dinükə, və mən nəbiyyükə”**, yəni Rəbbin kimdir, dinin hansıdır və Peyğəmbərin kimdir? Bu suallara doğru cavab verərsə, o mələklər, onu, Haqq təalanın rəhməti ilə müjdələyib, gedərlər. O anda qəbirin sağ tərəfindən bir pəncərə açılar və bir ay üzlü şəxs çıxıb, yanına gələr. Bu imanlı qadın ona baxıb şad olar. “Sən kimsən?”, deyə soruşar. O da: “Mən sənin, dünyada səbrindən və şükründən yaradıldım. Qiyamətə qədər sənə yoldaş olaram”, deyə cavab verər.

*Haramları istəməkdən kəsilmədikcə nəfs,*
*Qəlb, ilahi nurlara heç ayna ola bilməz!*

## MƏZLUM, SƏBRLİ VƏ QƏRİB OLANLARİN ÖLÜMÜ HAQQINDA ŞƏHİDLƏR

Bu insanların ölümləri eynidir. Birini deyək, digərləri də ona oxşardır.

Qəriblər iki cürdür: biri, uzaq yerdə qalıb, yanında qohumu və tanıdığı olmayandır. Biri də, öz məkanında yoxsul olub, heç kəsin mərhəmət edib yaxın durmadığı kəsdir. Belə möminlər də qəribdir və öldükdə, şəhid olurlar. Altmış yaşını keçən və beş vaxt namazını tərk etməyən də şəhiddir. [Haram işləməsi ölümünə səbəb olan, məsələn. İçki içərək zəhərlənən şəhid olmaz. Lakin haram işlərkən başqa səbəbdən ölərsə, məsələn, bina çökərək ölərsə, şəhid olur. Qadınların, qızların üzlərindən və ovuc içlərindən başqa hər yerləri övrətdir. Örtünmələri fərzdir. əhəmiyyət verməyən kafir olur. Başı, saçı, qolu, ayağı açıq olaraq küçəyə çıxmayan qadınlar, qızlar da şəhiddir. Allahü təalanın əmr və qadağalarına **“Əhkam-ı islamiyyə”** deyilir. əhkamı islamiyyəni öyrənən və uşaqlarına öyrədən ata-ana da şəhiddir.] İmanı və namazı olmazsa, şəhid olmazlar. Kafir əlində əsir olduğu halda ölən müsəlman şəhiddir. Zülm, işkəncə edilərək öldürülən kafir şəhid olmaz. Kafir olaraq ölən, əsla Cənnətə girməz.

Bu insanlar başlarını ölüm yastığına qoyduqları zaman göylərin qapısı açılar və yerə o qədər mələk enər ki, sayını ancaq Mevla bilər. Onların əllərində nurdan tac və Cənnət geyimləri olar. O insanın canını hörmətlə dəvət edərlər. Haqq təala bu halı Fəcr surəsinin sonunda bəyan etmişdir.

Üzünü dərgahı izzətə tutub: "Ey mənim məbudum! Nə ki ömrüm olsa, bir şeyə ümid bağlamadım, yalnız həzrətinə. Kimsəyə boyun əymədim. Dünya hiyləsinə, din düşmənlərinə aldanmadım. Ya Rəbb! İndiki halda səndən ümidim budur ki, cəmi ümməti Muhamməd (sallallahü təala aleyhi və səlləm) əfv və məğfirət edəsən", deyə dua edib yalvaran da şəhiddir.

O mələklər, bu insanları Cənnət geyimlərinə bürüyərlər. O anda, Haqqdan nida gələr: "Cənnətə aparın! Çünki dünyada, hamıdan çox namaz qılardı və qonağı sevər, təqsirləri bağışlar, Allahdan əfv dilərdi. Məni çox zikr edərdi. Övrət yeri açıq olaraq bayıra çıxmazdı. Özünü haramlardan təmizləyərdi. Peyğəmbərlərə və islamiyyətə itaət edərdi."

İnsanın dünyada etdiyi xeyir və şərləri yazan, çiynindəki iki mələk deyər: "Ya Rəbb! Bizi dünyada bu quluna müvəkkil etdin. Bu anda icazə ver, bu qulunun canı ilə göylərə çıxaq." Xitabı izzət gəlir ki: "Siz onun qəbrinin yanında durun, təsbih və təkbir edib, mənə səcdə edin və savabını o quluma bağışlayın." Onlar da, qiyamətə qədər zikr və təsbih edib, savabını o qulun dəftərinə yazarlar.

[**TƏNBEH:** Misirdəki münafiqlər, üsyan edərək, xəlifə Osmanı (radıyallahü anh) öldürmək üçün Mədinəyə gəlirlər. Mədinədəkilər də yalan və iftiralarla onları dəstəkləyir. Mədinədəki müsəlmanlar xəlifəyə yardım etmədi, deyərək, Əshabi-kiramı pislədilər. Halbuki xəlifə, Cənnətdəki şəhidlərin yüksək dərəcələrinə qovuşmaq istəyirdi və bunun üçün dua edirdi. Ona yardıma gələnlərə mane oldu, onları geri qaytardı. Bundan istifadə edən düşmənlər, xəlifəni asanlıqla şəhid etdi. Beləliklə duası qəbul oldu. Arzusuna çatdı. Şəhidlər ölərkən heç iztirab çəkməzlər. Cənnətdəki veriləcək nemətlər, ləzzətlər onlara göstərilər, bunların həzzi içində ruhlarını mələklərə məmnuniyyətlə təslim edərlər.]

## KAFİRLƏRİN ÖLÜMÜ HAQQINDA

Bir kafir, bir mürtəd, islamiyyəti bəyənməyən, Qurani-kərimə çöl qanunu deyən, insanların ən üstünü, ən şərəflisi, Peyğəmbərlərin əfəndisi Muhamməd əleyhissəlama, Allah qorusun, dəvə çobanı deyəcək qədər elm və əxlaq yoxsulu olan, bəşəriyyətə hüzur, səadət gətirən, elm, əxlaq, təmizlik, sağlıq, ədalət qaynağı, mədəniyyətə işıq saçan islamiyyəti ruhsuz, bir leş qutusu olan zalım başı ilə uyğunlaşdıra bilməyərək, dinlərə ehtiyac yoxdur, deyəcək qədər alçaqlaşan, cilovunu nəfsinin əlinə vermiş bir axmaq öldüyü zaman, gözündən pərdə qaldırılacaq. Cənnət ona göstəriləcək. Gözəl bir mələk ona: "Ey kafir! Müsəlmanlara geridə qalmış, şəhvətlərinin ardınca qaçanlara, əxlaq prinsiplərini əzənlərə ziyalı, qabaqcıl deyən alçaq! Yanlış yolda idin. Haqq olan islam dinini bəyənməzdin. Muhamməd əleyhissəlamın Allahü təaladan gətirdiyi bilgilərə inanan, hörmət edən insanlar bu Cənnətə gedəcəkdir", deyəcək. O, Cənnətdəki nemətləri

görəcək. Cənnət huriləri də: "İman edənlər, Allahü təalanın əzabından qurtulurlar.", deyəcək. Bir az sonra şeytan bir keşiş şəklində görünər. "Ey filan oğlu filan! O gələnlər yalan söylədi. O gördüyün nemətlər hamısı sənin olacaq", deyər. Sonra Cəhənnəmi göstərilər. Onun atəşdən dağları, qatır kimi əqrəbləri vardır. Hədisi-şəriflərdə bildirilən əzabları görər. Cəhənnəmdəki Zəbani deyilən əzab mələkləri atəşdən olan çomaqla vurarlar. Ağızlarından alov çıxar. Boyları minarə kimi, dişləri öküz buynuzu kimidir. Göy gurultusu kimi səsləri var. Kafir onların səsindən titrəyib üzünü şeytana çevirər. Şeytan qorxusundan dayana bilməyib qaçar. Mələklər şeytanı tutub yerə vurarlar. Bu kafirə: "Ey islam düşməni! Dünyada Rəsulullaha (sallallahü təala aleyhi və səlləm) inanmadın. İndi də mələklərə inanmadın, məlun şeytana yenə aldandın" deyərlər. Boynuna atəşdən zəncirlər taxıb, ayaqlarını başından aşırıb, sağ əlini sol böyrünə, sol əlini sağına qoyub, arxadan çıxararlar. Ayəti kərimə bu halı xəbər verməkdədir. O insan qışqırar, dünyadakı yaltaqçılarını çağırar. Zəbanilər cavab verib: "Ey kafir, ey müsəlmanları ələ salan axmaq! Yalvarmaq zamanı keçdi. Artıq iman qəbul olmaz, dua qəbul olmaz. Küfrünün cəzasını çəkmək vaxtı gəldi" deyərlər. Dilini ənsəsindən dartar, gözlərini çıxararlar. Müxtəlif cür çox acı əzablar verərək, qəddar, pis ruhunu alar, Cəhənnəmə atarlar. Allahü təala, Muhamməd əleyhissəlamın dinində və böyük Peyğəmbərin dinini doğru olaraq bizlərə çatdıran Əhli sünnət alimlərinin kitablarında yazılmış etiqadda olaraq can verməyimizi nəsib eyləsin! Amin.

Nə qədər yaşasan, nəhayət öləcəksən. Peyğəmbərimiz (əleyhissəlam) buyurdu ki, **"Bir insanın ruhu vücudundan ayrıldıqda, bir nida gələr ki, ey insan oğlu, sənmi dünyanı tərk eylədin, yoxsa dünyamı səni tərk eylədi? Sənmi dünyanı topladın, yoxsa dünyamı səni topladı? Sənmi dünyanı öldürdün, yoxsa dünyamı səni öldürdü? Cənazəni yumağa başladıqda üç nida gələr:**

**1-Hanı sənin qüvvətli vücudun? Səni nə zəiflətdi?**

**2-Hanı sənin gözəl danışığın? Səni nə susdurdu?**

**3-Hanı sənin sevimli dostların? Səni nəyə buraxıb getdilər?**

**Cənazə kəfənə sarıldıqda, bir nida da gələr: Azuqəsiz yola çıxma! Bu səfərin geriyə dönüşü yoxdur, əbədi olaraq geri qayıda bilməzsən. Gedəcəyin yer əzab mələkləri ilə doludur. Tabuta qoyulduqda bir nida gələr: Əgər Haqq təalanın rızasını qazandınsa, necə xoşbəxtsən, böyüklük və səadət sənindir. Əgər cənab-ı Haqqın qəzəbini qazandınsa, ar olsun sənə! Cənazə məzarının yanına çatdıqda daha bir nida gələr. Ey insan oğlu! Dünyada qəbir üçün nə hazırladın? Bu qaranlıq məzar üçün nə nur gətirdin? Zənginlik və şöhrətindən nə gətirdin? Bu çılpaq qəbiri döşəmək və zinətləndirmək üçün nə gətirdin? Cənazəni məzara qoyduqda, qəbir nida edərək deyər ki: Arxamda danışardın, indi qarnımda sakit durarsan.**

**Nəhayət cənazənin dəfni bitib, oralarda xidmət göstərən insanlar da çıxıb getdikdən sonra, Haqq təala həzrətləri tərəfindən bir nida gələr: Ey mənim qulum, yalnız qaldın; bu qaranlıq məzarda səni qoyub getdilər. Onlar sənin dostların, qardaşların, övladların və ən yaxın adamların idi. Halbuki heç birinin sənə faydası olmadı. Ey qulum, sən mənə asi oldun, əmrimi tutmadın, heç bu halını düşünmədin. Əgər ölən insan imanla ölmüşdürsə, umulur ki, cənab-ı Haqq o insanı əfv edər və deyər ki, ey mömin qulum! Səni qəbirdə tənha qoymaq şanıma yaraşmaz. İzzət-ü cəlalim haqqı üçün, sənə bir mərhəmət edim ki, dostların təəccüblənsin, sənə bir şəfqət göstərim ki, ata-ananın oğluna olan şəfqətindən artıq olsun. Lütfü kərəmindən o qulun bütün günahlarını əfv edib, qəbiri Cənnət bağçası olar və Cənnət huriləri, nemətləri ilə dolar. Allahü təala elə mərhəmətlidir ki, günahkar qullarını əfv edər. O qədər mərhəmətlidir ki, gündə neçə dəfə qullarının eyiblərini görüb örtər, üzlərinə vurmaz. O halda, belə bir xaliqin əmrlərini yerinə yetirib, qadağalarından qaçmaq, hər gün xeyirli əməl edib, sabahın əzabından qurtulmaq lazımdır.”**

Möminlərin, istər günahlı, istər günahsız, hamısına qəbir sualı vardır. Yalnız günahları əfv edilməyənlərə və bütün kafirlərə qəbir əzabı da vardır. Müsəlmanlar arasında söz gəzdirənlərə və ayaqyolunda üzərinə sidik sıçradanlara qəbirdə əzab olacaqdır. [Qəbir əzabı yalnız ruha deyil, həm də cəsədə olacaqdır. Ağlın çatmadığı, dərk etmədiyi şeyləri ağıl ilə başa düşməyə cəhd etmək olmaz.]

Əgər bir şəxs imansız ölərsə, şiddətli əzablarla məhşər gününə qədər [sonra da, Cəhənnəmdə əbədi] əzab görər.

*Ey zair-i sahib-nəfəs, hubb-ı sivadan meyli kəs.*
*Dünyada qalmaz heç kəs, Allahü bəs, baki həvəs.*
*Hər ten bitər bir dərd ilə, gah germ ilə, gah sərd ilə*
*Uğraşmağa bir fərd ilə, dəyməz bu dünya-yı əhas.*
*Mən də Fərid-i əsr idim, fass-ı nigin-i sədr idim,*
*Nakş-ı hümayun-ı satr idim, göstərdi çarx ru-yi abəs.*
*Dil-xəstə oldum bir zaman, tədric ilə bitdi tüvan,*
*Uçdu nəhayət murq-ı can, çünki xarab oldu qəfəs.*
*Söndü çəraq-ı afiyət, zülmətdə qaldı şeş cəhət,*
*Açıldı sübh-i axirət, ənvar-ı Haqqından muqtəbəs.*
*Buldum o dəm Sübhanımı, ərz etdim üsyanımı,*
*Matlub idüp, qufranımı, rahmətlə oldu dad-rəs.*
*Ya Rəbb! Bu abd-i rüsiyah, etdimsə də yüzmin günah,*
*Dərgahını qıldım pənah, əfvindir ancaq mültəməs.*
*Tarixdir ism-i Qafur, labüd edər sirri zühur,*
*Əfv olunur hər bir qüsur, Allahü bəs baki həvəs.*

*Abdürrahman Sami Paşa*

[Ey ziyarətə gələn diri insan! Allahdan başqa heç bir şeyə könül vermə!

Dünyada kimsə qalmaz. Allahdan başqası bir şey edə bilməz. Ondan başqa kimsə qalmaz!

Hər kəsin bir dərdi olur. Şirin, acı günlər olur. Bu alçaq dünya, kimsə ilə məşğul olmağa dəyməz.

Mən də zamanın bir dənəsi idim. Hökumət rəisinin üzük qaşı [briliyant] kimi idim. Sultanın fərmanındakı imzası kimi idim. Qədər [təqdir] mənə də tərs üz göstərdi.

Qəlbim xəstə oldu bir zaman. Gücüm, qüvvətim getdi hər an. Nəhayət can quşum [ruhum] uçdu. Çünki qəfəs [bədənim] xarab oldu o an.

Sağlamlığım mum kimi söndü. Hər tərəfim qaraldı. Axirət günəşi doğdu. Allahın nurları ilə aydınlandı.

O anda Rəbbimə qovuşdum. Günahlarım meydana çıxdı. Əfv edilməyimi dilədikdə, məni sonsuz rəhməti ilə qarşıladı.

Ya Rəbb! Yüz min günah işlədimsə də, bu qara üzümlə əzəmətli qapına sığınıram. Səndən əfv olmağımı diləyirəm.

Qafur adını bu yazıma tarix [1286] etdim. Mənası əlbət hasil olar. Qüsurlarım əfv olunar. Allahdan başqası bir şey edə bilməz. Ondan başqa kimsə qalmaz!]

**[A.Sami paşa senat üzvü olarkən 1295-ci [m.1878] ildə vəfat etmişdir.]**

*İki şey vardır ki, bunların həsrəti,*
*Kimlər olursa olsun, yandırar hər kəsi.*
*Göz qan ağlasa, haqlarını ödəyə bilməz,*
*Birisi gənclik, biri də din qardaşı!*

## QƏBİR ZİYARƏTİ VƏ QURANI KƏRİM OXUMAQ

Qəbir ziyarəti sünnətdir. Həftədə bir dəfə, heç olmasa bayramlarda ziyarət edilir. Cümə axşamı, Cümə və ya şənbə günü ziyarət daha savabdır. **“Şirat-ül-islam”** kitabında deyilir ki, Qəbir ziyarəti sünnətdir. Ziyarət edən, meyitin çürüdüyünü düşünərək ibrət alır. Osman (radıyallahü anh) qəbir yanından keçərkən çox ağlar, saqqallı islanardı. Meyit də edilən duadan faydalanar. Rəsulullah (sallallahü aleyhi və səlləm) əqrabasının və Əshabının (radıyallahü təala anhüm) qəbirlərini ziyarət edərdi. Salam və duadan sonra, arxası qibləyə çevrilib, üzü qəbrə oturulur. Qəbrə əl, üz sürtmək, torpağı öpmək xristyanların adətidir. Hədisi-şərifdə, **“Bir şəxs, tanıdığı birinin qəbirinə gedib salam verdikdə, onu tanıyar və salamına cavab verər”**, buyruldu. Ahməd ibni Hanbəl (rahimə-hullahü təala) deyir: “Qəbiritsanlıqdan keçərkən, İxlas, iki Qul əuzüləri və Fatihə oxuyub, savabı meyitlərə hədiyyə edilməlidir. Savab onlara çatar.” Enes ibn Malikin “radıyallahü təala anh”bildirdiyi Hədisi-şərifdə buyruldu ki,

**“Ayət-əl-kürsi oxuyub, savabı meyitlərə göndərildikdə, Allahü təala onu bütün meyitlərə çatdırır.”**

**“Hazənət-ür-rivayət”**də deyilir: “Diri ikən ziyarət edilən alimləri, vəfatından sonra ziyarət etmək üçün uzaq yerlərə getmək də olar. İstifadə etmək baxımından, Peyğəmbərlərin “aleyhhimüssaləvatü vəttəslimat”, Övliyanın və Alimlərin (rahimə-hümullahü təala) ziyarəti arasında fərq yoxdur. Yalnız dərəcələri arasında fərq vardır.”

[Bir müsəlman, oturduğu otağın divarına bir lövhə assa, lövhə üzərinə bir sevdiyinin adını yazsa və ya onun qəbiri üzərinə daş qoydurub, daşın üzərinə yazsa, otağa girən və ya bu qəbiri ziyarət edən müsəlmanlar lövhə və daş üzərindəki ad sahibinin ruhuna Fatihə və dua oxuduqda, Allahü təala ad sahibinə rəhmət edər, günahlarını əfv edər. Otağın divarına və məzar daşına ad yazmaq, onu xatırlamaq üçün deyil. Ad sahibinə Fatihə və dua oxunması üçündür. Buna görə islam ölkələrində otağın divarına və məzar daşına ad yazmaq adət olmuşdur. Bir vəlinin adı yazılarsa, bu adı oxuyub, sahibindən şəfaət, dua istənildikdə, vəli eşidib, istəyən şəxsin dünya və axirət muradları üçün dua edər və duası qəbul olar.]

Qadınların da ziyarət etməsi caiz olsa da, Rəsulullahdan başqasının qəbrini ziyarət etməmələri daha yaxşıdır. Hayz və cünub ikən ziyarət caiz olsa da, dəstəmazlı olmaq sünnətdir. Hədisi-şərifdə buyruldu ki, **“Bir möminin qəbrini ziyarət edib, Allahümmə inni əsə-lü-kə bi-haqqi Muhammədin və ali Muhammədin ən lə-tüazzibə hazəlməyyit, dedikdə, meyitin əzabı qaldırılır.” “Ana-atasının və ya onlardan birinin qəbrini hər Cümə ziyarət edən bir şəxs əfv olunur”.** Yalnız ata-ananın qəbir torpağını öpmək caizdir. **“Kifayə”** kitabında deyilir ki, bir şəxs Rəsulullaha (sallallahü aleyhi və səlləm), Cənnət qapısının eşiyini öpməyə and içdim, nə edim, deyə soruşduqda, **“Ananın ayağını öp”**, buyurdu. Anam, atam yoxdur, dedikdə, **“Qəbirlərini öp! Qəbirlərini bilmirsənsə, iki xətt çəkib, onların qəbiri olaraq niyyət et, bu xətləri öp! Andını yerinə yetirmiş olarsan!”** buyurdu.

Böyük zatların qəbrini ziyarət üçün uzaq ölkələrə getməmək, başqa bir iş üçün getdikdə ziyarət etmək daha yaxşıdır. Yalnız Peyğəmbərimizi (sallallahü aleyhi və səlləm) ziyarətə getmək savabdır. Peyğəmbərləri (aleyhimüssəlam) və Övliyanı “aleyhimürrahmə” ziyarət edən, Onların mübarək ruhlarından istifadə edir. Onlara olan sevgisi, bağlılığı qədər qəlbi təmizlənir. Türbələrdə günah işləyən olarsa, məsələn açıq-saçıq qadınlar da gələrsə, ziyarət tərk edilməməli, onlara mane ola bilmədikdə, qəlbdə nifrət edilməlidir. Bundan başqa, qadın olan, mahnı, ilahi, nitq söylənilən möminin cənazəsinə getmək lazımdır.

Qadınların qəbir ziyarəti üzülmək, ağlamaq, qışqırmaq və ya kişilərin arasına qarışıb fəsad çıxarmaq üçün olarsa, haramdır. Belə qadınlara lənət

yağar. Yaşlı qadınların kişilərin arasına qarışmadan əqrəbasının və Övliyanın qəbirlərini ziyarət etməsi caiz olsa da, gənc qızlara belə ziyarət də məkruhdur. Qadınların cənazədə olmaları da belədir.

**"Cila-ül-qulüb"** kitabında deyilir: "Qəbiristanlığa gələn şəxs ayaq üstə, **"Əssəlamü aleyküm, ya əhlə dar-il kavm-ilmüminin! İnnə inşəallahü ən qaribin biküm ləhiqum"** deməlidir. Sonra Bəsmələ ilə on bir İxlas və bir Fatihə oxumalıdır. Sonra, **"Allahümmə rabbəl-əcsədilbəliyəh, vəl-izamin nahirə-tilləti harəcət minəddünyə və hiyə bikə müminətün, ədhil aleyha rəvhan min indikə və sələmən minni"** duasını oxumalıdır. Qəbirin yanına gəldikdə, meyitin sağ (qəbirin qiblə) və ayaq tərəfindən yaxınlaşmaq lazımdır. Salam verilir. Ayaq üstə və ya oturaraq Bəqərə surəsinin əvvəlini, sonunu, Yasin-i şərif surəsini, Təbərakə, Təkasür, İxlas-ı şərif və Fatihə surələrini oxuyub, meyitə hədiyyə edilir."

**Tənbeh:** Başqasının yerinə həcc etməyi bildirərkən alimlərimiz buyurur ki, namaz, oruc, sədəqə və Qurani-kərim oxumaq, zikr etmək, təvaf etmək, həcc, ömrə etmək, Peyğəmbərlərin, Övliyanın qəbirlərini ziyarət etmək, ölü kəfənləmək kimi fərz və ya nafilə ibadətlərin, Allah rızası üçün edilən yaxşı əməllərin savabını başqalarının ruhuna hədiyyə etmək caizdir. İbadəti edənə də, onların ruhuna da savab verilir. Buna görə qəbir başında və ya başqa yerdə Qurani-kərim oxunub savabı ölülərə hədiyyə edilməli, onlar üçün dərhal dua edilməlidir. Çünki Qurani-kərim oxunan yerə rəhmət və bərəkət enər. Burada edilən dua qəbul olunar. Qəbirin yanında oxunduqda, qəbrə rəhmət, bərəkət dolar. Hənəfi məzhəbinə görə, bir şəxs nafilə oruc, namaz, sədəqə, oxumaq savabını ölü və ya diri, başqasına hədiyyə edərsə, onlara da savabı gedər. Fərzlərin savabı hədiyyə edildikdə də getdiyini söyləyənlər vardır. Savablar meyitlər arasında bölünmür, hər birinə hamısı verilir. Maliki və şafiyə görə, oxumaq kimi yalnız bədənlə edilən ibadətlər hədiyyə edilə bilməz. Onlar vasitəsi ilə dua edilə bilər.

**"Kitab-ül-fiqh aləl-məzahib-il-ərbəa"**da deyilir ki, "Ölüdən ibrət almaq və axirəti düşünmək üçün qəbir ziyarət etmək, kişilərə sünnətdir. Hənəfi və Maliki məzhəblərində Cümə axşamı, Cümə və Şənbə günləri ziyarət etmək müəkkəd, yəni qüvvətli sünnətdir. Şafii məzhəbində Cümə axşamı əsr namazından Şənbə günü günəş doğana qədər müəkkəd sünnət olur. Ziyarət edən meyit üçün Qurani-kərim oxumalı, ona dua etməlidir. Bunların meyit üçün faydası var. Qəbiristanlığa girdikdə: **"Əssələmü aleyküm ya Əhlə dar-il qavmil-mümininin! İnnə inşəallahü ən qaribin biküm ləhikün"dən etibarən** demək sünnətdir. Yaxın və ya uzaq, hər qəbir ziyarət edilir. Xüsusilə də, Salehləri, Vəliləri (rahimə-hümullahü təala) ziyarət üçün uzaq yerə getmək sünnətdir. Rəsulullahın (sallallahü aleyhi və səlləm) mübarək qəbrini ziyarət etmək, ibadətlərin ən qiymətlilərindəndir. Yaşlı qadınların da, örtülü ziyarət etmələri caizdir. Fitnə fəsada səbəb

olarsa, onların da ziyarət etməsi haramdır. Ziyarət edərkən, qəbir ətrafında dövrə vurmaq, daşı, torpağı öpmək, ölüdən bir şey istəmək caiz deyil.” Övliyadan (rahimə-hümullahü təala) şəfaət etmələri, Allahü təalanın verməsinə vəsilə olmaları istənilə bilər.

Abdülquddüs həzrətləri, oğlu və xəlifəsi Rüknəddinə yazdığı məktubda buyurur ki: “Vaxtın qiymətini bil! Gecə-gündüz elm öyrənməyə çalış! Hər zaman dəstəmazlı ol! Beş vaxt namazı sünnətləri ilə və tadil-i ərkan ilə hüzur və huşu* ilə və dinin sahibinin bildirdiyi kimi qılmağa çalış! Bunları etsən, dünyada və axirətdə saysız nemətlərə qovuşacaqsan. Elm öyrənmək, ibadət etmək üçündür. Qiyamət günü gördüyün iş soruşulacaq, çox elm öyrənməyin soruşulmayacaq. İş və ibadət, ixlas (Allah əmr etdiyi üçün ibadət etmək) əldə etmək üçündür. İxlas da, həqiqi məbud (ibadət edilən) və qeyd-şərtsiz var olan sevgilini sevmək üçündür.”

## ÜÇÜNCÜ CİLD, 9-cu MƏKTUB

**İmam Rabbani Mücəddid-i əlfi sani Ahməd Farukinin (rahimə-hullahü təala) “Məktubat”ından üçüncü cildinin doqquzuncu məktubu, Mir Muhamməd Numan üçün yazılmışdır. “Rəsulullahın gətirdiklərini alın!” ayəti kəriməsini izah etməkdədir. Bu məktub ərəb dilində olub, tərcüməsi aşağıdakı kimidir:**

Bismilləhirrahmənirrahim! Haşr surəsində, yeddinci ayəti kərimədə buyurulub: **“Rəsulullahın sizə gətirdiklərini alın. Qadağan etdiklərindən çəkinin və Allahdan qorxun!”** [Əmrləri yerinə yetirməyə və haramlardan çəkinməyə **“İslamiyyət”**ə uymaq deyilir.] Allahü təalanın, qadağalardan çəkinin, dedikdən sonra Allahü təaladan qorxun buyurması, qadağanlardan qorunmağın daha mühüm olduğunu göstərməkdədir. Çünki Allahü təaladan qorxmaq, yəni **“Təqva”**, haramlardan qorunmaqdır. Təqva dinin təməlidir. Şübhəli şeylərdən də çəkinməyə **“Vera”** deyilir. Rəsulullah (sallallahü aleyhi və səlləm), **“Dininizin dirəyi veradır”**, buyurdu. Başqa bir Hədisi-şərifdə, **“Heç bir şey vera kimi ola bilməz”**, buyurdu. Dinimizin haramlardan çəkinməyə belə əhəmiyyət verməsi, çəkiniləcək şeylərin daha çox olmasından və faydasının daha çox olmasından irəli gəlir. Çünki əmrləri yerinə yetirmənin özündə də çəkinmələr mövcuddur. Bir əmri yerinə yetirmək, bu əmri yerinə yetirməməkdən çəkinmək deməkdir. Faydasının daha çox olması, nəfsə heç uyulmadığındandır. Əmri yerinə yetirərkən, nəfs də ləzzət alır. Bir işdə, nəfsə uymaq nə qədər az olarsa, faydası da o qədər çox olar. Yəni Allahü təalanın rizasına daha tez qovuşdurar. Çünki əhkam-ı islamiyyə, yəni islamiyyətin əmr və qadağaları, nəfsi cəzalandırmaq, zəiflətmək üçündür.

* hüzur-hazır olmaq; huşu-yüksək və heybətli bir hüzurda kiçiklik, təvazökarlıq.

Nəfs, Allahü təalanın düşmənidir. Hədisi qüdsidə, **“Nəfsinə düşmənlik et! Çünki o, mənim düşmənimdir”**, buyruldu. Bunun üçün yüksək təriqət yolları içində, islamiyyətə daha çox əməl olunan yol, Alahü təalaya daha yaxın yoldur. Çünki burada nəfsə uymamaq daha çoxdur. Bu da, bizim olduğumuz yoldur. Buna görə də, böyüyümüz, öndərimiz, böyük alim Bəhaüddin-i Buxari, “Allahü təalaya qovuşduran yolların ən qısasını tapdım”, buyurmuşdur. Çünki bu yolda nəfsə qarşı gəlmək daha çoxdur. Bu yolda, islamiyyətə riayət etməyin çoxluğuna gəldikdə, kitablarını araşdıran ağıllı və insaflı bir insan üçün bunu anlamaq çox asandır. Belə olduğunu aydın görür. Belə aydın olmaqla yanaşı, bir çox məktubumda bunu ətraflı bildirdim. Hər şeyin doğrusunu Allahü təala bilir. O, bizə yardımcıdır. Çox gözəl bir vəkildir. Əfəndimiz Muhamməd əleyhissəlama və Alinə və Əshabına (radıyallahü təala anhüm əcmain) və doğru yolda olanlara salət və salam olsun!

## ÜÇÜNCÜ CİLD, 84-cü MƏKTUB

Allaha həmd olsun və Onun seçdiyi, sevdiyi qullarına salam olsun! Bu yolda çalışmaq [Allahın sevgisinə qovuşmaq] istəyən, ilk öncə etiqadını, haqq yolda olan alimlərin [yəni Əhli sünnət alimlərinin] bildirdiklərinə uyğun düzəltməlidir. [Bu böyük alimlər, bütün bilgilərini Əshab-ı kiramdan almışdırlar. Öz düşüncələrini və fəlsəfəçilərin fikirlərini bu bilgilərə qarışdırmamışdırlar.] Allah (cəllə cəlalühü) onların çalışmalarına bol-bol mükafat [qarşılıq] versin! Bundan sonra hər kəsə lazım olan fiqh (islam hüququ) bilgilərini öyrənməlidir. Daha sonra bu öyrəndiklərinə əməl etməlidir. Bundan əlavə, hər zaman Allahü təalanı zikr etməlidir. [Yəni qəlb hər zaman Onun adını və sıfat-i zatiyyəsini düşünməlidir.] Lakin zikr etməyi kamil və mükəmməl olan bir zatdan öyrənmək şərtdir. Nöqsanı olandan [xüsusən də cahil və yolunu azmış şeyxlərdən] öyrənilərsə, kamala çatmaq mümkün olmaz. Başlanğıcda çox zikr etmək, fərz namazları və onların sünnətlərini qıldıqdan sonra, zikrdən başqa bir ibadət etməmək, Qurani-kərim oxumağı və nafilə ibadətləri başqa vaxta saxlamaq lazımdır. Dəstəmazlı da, dəstəmazsız da zikr etmək lazımdır. Ayaq üstə olarkən, oturarkən, uzanarkən, həmişə bu vəzifəni yerinə yetirmək lazımdır. Yol gedərkən, yeyərkən və yatan zaman zikrsiz olmamaq lazımdır. Farisi beyt tərcüməsi:

*Zikr et, həp zikr, olduqca canın!*
*Qəlbin paklığı, zikriylədir Cananın.*

Zikri o qədər çox etmək lazımdır ki, zikr olunandan [Allahü təaladan] başqa qəlbdə heç bir arzu, düşüncə qalmamalıdır. Ondan başqa şeylərin adları və nişanələri qəlbə gəlməməlidir. Başqa şeyləri düşünmək üçün özünü məcbur etsə də, qəlbinə gətirə bilməməlidir. Qəlbin, Allahdan başqa hər şe-

yi belə unutması, Ona qovuşmağın başlanğıcıdır. Bu unutma, arzu olunanın rizasına, sevgisinə qovuşmağın müjdəcisidir. Ərəbi beyt tərcüməsi:

*Necə Süada qovuşulur əcaba!*
*Dağlar və uçurumlar var arada.*

[Süad, bir məşuqənin adıdır.] İnsanı hər şeyə qovuşduran, yalnız Allahü təaladır. Doğru yolda olanlara salam olsun! [Üçüncü cild, 17-ci məktubda buyurulur: "Qəlb ilə zikr etmək, onu Allahdan başqa şeylərə düşkün olmaqdan qurtarır. Bu düşkünlük, qəlbin xəstəliyidir. Qəlb bu xəstəlikdən qurtulmadıqca, həqiqi imana qovuşa bilməz və əhkam-i islamiyyəyə, yəni Allahın əmrlərinə, qadağalarına uyması çətin olar. Bunlara uyarkən niyyət etmək və mübahlara əməl edərkən nəfsin ləzzət almasını düşünməmək də zikrdir." Qəlbin xəstəliyinə səbəb, nəfsə uymasıdır. Nəfs, Allahü təalanın düşmənidir. Allaha itaət etmək istəməz. Qəlbin özünə də düşməndir. Qəlbin hər üzvə, haramları, pis, zərərli şeyləri etdirməsindən zövq alar. Bu zövqlərinə qovuşmaq üçün dinsiz, imansız olmaq istəyər. Kafirlərlə, məzhəbsizlərlə dostluq etmək, onların kitablarını, qəzetlərini oxumaq, radio və televizorlarındakı zərərli verilişləri izləmək də qəlbi xəstə edər. İslamiyyətə uymaq qəlbi xəstəlikdən xilas edər. Nəfsi isə xəstə edər. Zövqlərini, arzularını, qəlbə təsir qüvvəsini azaldar.]

*Kim tapar, zor ilə maqsuda hər zaman zəfər?*
*Gələr əlbət zühura, nə isə hökmü qədər.*

## CƏNNƏT YOLU ELMİHALI KİTABININ SON SÖZÜ

Canlı və cansız, bütün varlıqların bir nizam içində olduqlarını görürük. Hər maddənin quruluşunda, hər hadisədə, hər reaksiyada heç dəyişməyən nizam, riyazi əlaqələr olduğunu görürük. Bu qaydaları, bağlantıları fizika, kimya, astronomiya və biologiya qanunları deyə adlandırırıq. Bu dəyişməz nizamdan faydalanaraq, sənaye, fabriklər qurur, dərmanlar düzəldir, aya gedir, ulduzlarla, atomlarla əlaqə qururuq. Radiolar, televizorlar, elektronik beyinlər və internetlər düzəldirik. Məxluqlarda bu nizam olmasaydı, hər şey təsadüfi olsaydı, bunların heç birini edə bilməzdik. Hər şey toqquşar, korlanar, fəlakətlər olardı. Hər şey yox olardı.

Varlıqların nizamlı, əlaqəli, qanunauyğun olmaları, onların öz-özlüyündən, təsadüfi var olmadıqlarını, hər şeyin bilikli, qüdrətli, görən, eşidən, istədiyini edən bir varlıq tərəfindən var edildiklərini göstərməkdədir. O dilədiklərini var etməkdə və yox etməkdədir. Hər şeyi var etməyə və yox etməyə, başqa şeyləri səbəb etmişdir. Səbəbsiz yaratsaydı, varlıqların bir-biri arasında bu nizam olmazdı. Hər şey qatmaqarışıq olardı. Onun varlığı da bəlli olmazdı. Həm də elm, mədəniyyət meydana gəlməzdi.

O, varlığını bu nizamlılıqla bəlli etdiyi kimi, qullarına rəhm edərək, var olduğunu ayrıca da bildirmişdir. Adəm əleyhissəlamdan başlayaraq, hər əsrdə dünyanın hər yerindəki insanlar arasından ən yaxşı, ən üstün olaraq yaratdığı birinə mələklə xəbər göndərərək, özünü və öz adlarını bildirmiş, insanların dünyada və axirətdə rahat olmaları, yaxşı yaşamaları üçün nə etmələri və nədən çəkinmələri lazım olduğunu bəyan etmişdir. Bu cür seçilmiş üstün insanlara **"Peyğəmbər"** deyilir. Onların bildirdikləri əmrlərə və qadağanlara **"Din"** və **"Əhkami diniyyə"** deyilir. İnsanlar qədim şeyləri unutduğu üçün və hər zaman mövcud olan pis insanlar Peyğəmbərlərin (aleyhimüssaləvatü vəttəslimat) kitablarını və sözlərini dəyişdirdiklərinə görə, qədim dinlər unudulmuş, korlanmışdır. Pis insanlar uydurma dinlər də meydana gətirmişdirlər.

Hər şeyi yaradan uca Allah, insanlara rəhmi gəldiyi üçün qullarına son bir Peyğəmbər və yeni bir din göndərmişdir. Bu dini qiyamətə qədər qoruyacağını, pis insanlar hücum etsə də, dəyişməyə, pozmağa cəhd etsələr də, özü onu pozulmamış şəkildə hər yerə yayacağını müjdələmişdir.

Allaha şükürlər olsun ki, hələ kiçik yaşlardan bir olan yaradana inanmışıq. Onun adının **"Allah"** olduğunu, son Peyğəmbərinin **"Muhamməd"** əleyhissəlam olduğunu və onun bildirdiyi dinin **"İslamiyyət"** olduğunu öyrənmək səadətinə qovuşduq. Bu islam dinini doğru olaraq anlamaq istədik. Məktəbdə, universitetdə oxuyarkən onu öyrədəcək bir qaynaq axtardıq. Allaha yalvarmaqdan başqa çarə yoxdur. Uca Allahımız Əhli sünnət alimlərinin (rahimə-hümullahü təala) kitablarını oxumaq nəsib etdi. Lakin **"Fən fırıldaqçıları"**nın, yəni fənn bilgisində mütəxəssis olmadığı halda özünü fənn adamı və müsəlman göstərib, müsəlmanların dinini, imanını pozmağa, islamiyyəti içəridən yıxmağa çalışan şəxslərin fənn bilikləri adı altında və dini dünya mənfəətlərinə alət edən **"Din fırıldaqçıları"**nın Quran tərcüməsi adı altında zəhərləmiş olduqları səhv fikirlər ruhumuza işləmişdi. Allahü təalaya sonsuz şükürlər olsun ki, həqiqi din adamlarının xəbərdarlıq etməsi ilə yaxşını pisdən ayırmağa başladıq. Başımıza yerləşdirilənlərin elm deyil, bəzəklə örtülmüş zəhər olduqlarını, onların təsiri ilə qəlbimizin qaraldığını anlaya bildik. Əhli sünnət alimlərinin kitablarını görməsəydik, dostu düşməndən ayıra bilməyəcək, nəfsimizin və din düşmənlərinin hiylələrinə, yalanlarına aldanacaqdıq. Dinsizliyi, əxlaqsızlığı öncüllük kimi tanıdan xain düşmənlərin hiylələrindən qurtula bilməyəcəkdik. Xalis, təmiz müsəlman olan anamızla, atamızla və onlardan əldə etdiyimiz islam bilikləri ilə istehza edəcəkdik. Sevgili Peyğəmbərimiz (sallallahü təala aleyhi və səlləm) islam düşmənlərinin tələlərinə düşməməyimiz üçün bizi xəbərdar edir: **"Dininizi ricalin ağızlarından öyrənin!"**, buyurur. Rical, yəni həqiqi din alimi tapa bilmədikdə, onların kitablarından öyrənəcəyik. Bidət sahiblərinin, məzhəbsiz, cahil din adamlarının din kitabları kafirlərin kitabları kimi çox zərərlidir.

Qadınların, qızların başları, saçları, qolları, ayaqları açıq, kişilərin də dizləri ilə göbək arası açıq olaraq başqasının yanına çıxmaları haramdır. Yəni Allahü təala bunları qadağan etmişdir. Allahü təalanın əmrlərini və qadağalarını bildirən dörd haqq məzhəb, kişilərin övrət yerlərini, yəni baxması və başqasına göstərməsi qadağan edilmiş üzvlərini fərqli olaraq bildirmişdirlər. Hər müsəlmanın, aid olduğu məzhəbin bildirdiyi övrət yerini örtməsi fərzdir. Buraları açıq olanlara başqalarının baxması haramdır. **"Kimya-i səadət"**də deyilir ki, "Qadınların, qızların başı, saçı, qolları, ayaqları açıq küçəyə çıxmaları haram olduğu kimi, incə, bəzəkli, dar, xoş ətirli paltarla örtünərək çıxmaları da haramdır. Belə çıxmalarına icazə verən, razı olan, bəyənən anası, atası, əri və qardaşı da onun günahına və əzabına ortaq olurlar". Yəni Cəhənnəmdə birlikdə yanacaqlar. Əgər tövbə etsələr, əfv olunar, yandırılmazlar. Allahü təala tövbə edənləri sevər. Ağıllı, buluğ yaşına çatmış qızların və qadınların yad kişilərə görünməmələri hicrətin üçüncü ilində əmr olundu. İngilis casuslarının və onların tələlərinə düşmüş cahillərin, Hicab ayəti gəlmədən əvvəl olan örtünməməyi irəli sürərək, örtünməyi sonradan fiqhçilərin uydurduğunu demələrinə aldanmaq olmaz.

Təkrar bildirək ki, bir uşaq həddi-buluğa çatanda, yəni yaxşını pisdən ayıracaq və evlənəcək yaşa gəldikdə, dərhal imanın altı şərtini öyrənməsi, sonra **"Əhkami islamiyyə"**ni, yəni fərzləri, halal və haramları öyrənməsi və onlara uyması, ona fərz olur. Bir qız doqquz, bir oğlan on iki yaşına çatdıqda ağıllı və həddi-buluğa çatmış olur. Bu bilgiləri atasından, anasından, qohumundan, qonşusundan soruşub öyrənməsi fərzdir. Müsəlman olan bir kafirin də, dərhal bir din adamından bunları öyrənməsi, onların da öyrətməsi və ya həqiqi bir din kitabı hədiyyə edib oradan oxuyub öyrənməsini tənbeh etmələri fərzdir. Öyrətməsələr və ya kitab verməsələr fərzi yerinə yetirməmiş olurlar. Fərzi yerinə yetirməyən Cəhənnəmdə yanacaqdır. Din adamını və ya kitabını axtarıb tapana qədər öyrənməməsi üzrlü hesab edilir.

Oxuduğumuz doğru islam bilgilərini gənclərə çatdırmaq üçün və hər kəsin dünyada rahatlığa, hüzura, axirətdə sonsuz nemətlərə qovuşmalarına xidmət etmək üçün Əhli sünnət alimlərinin kitablarından seçmə, qiymətli yazıları nəşr etməyə inşəallah davam edəcəyik.

Məqsədlərə nail olmaq üçün **"Salətən tüncina"** oxumaq lazımdır: "Allahümmə salli alə seyyidinə Muhammədin və alə əli seyyidinə Muhammədin salətən tüncina bihə min cəmiil əhvali vəl-afət və taqdi lənə bihə cəmial hacaat və tütahhirunə bihə min cəmiisseyyiat və tərfəunə bihə aləddərəcat və tübəlliqunə bihə aksalqayat min cəmiil hayrat-i fil hayati və badəl-məmat".

Hər cür sıxıntıdan və təhlükədən qorunmaq, şeytanların, düşmənlərin zərər və hücumlarından xilas olmaq üçün **"İstiğfar"** oxumağın çox faydalı olduğu Hədisi-şəriflərdə bildirilmişdir.

*Canım qurban olsun sənin yoluna,*
*Adı gözəl, özü gözəl Muhamməd!*
*Gəl şəfaət eylə kəmtər quluna,*
*Adı gözəl, özü gözəl Muhamməd!*
*Mümin olanların çoxdur cəfası,*
*Axirətdə olar zevq-ü səfası.*
*On səkkiz min aləmin Mustafası,*
*Adı gözəl, özü gözəl Muhamməd!*

*Yeddi qat göyləri seyran eyləyən,*
*Kürsinin üstündə cevlan eyləyən,*
*Miracda ümmətin Haqqından diləyən,*
*Adı gözəl, özü gözəl Muhamməd!*
*Yunüs neylər iki cahanı sənsiz,*
*Sən haqq Peyğəmbərsən şəksiz şübhəsiz!*
*Sənə uymayanlar gedər imansız,*
*Adı gözəl, özü gözəl Muhamməd!*

**FİHRİST**


Abdülqani Nablüsi 83
Abdülhakim Əfəndi 3, 118
Abdullahi Dəhləvi 74, 169
Abdürrahman Sami paşa 164
Açıq gəzmək haramdır 136, 147, 159, 173
Adəm (əleyhissəlam) 7,9, 15, 16, 21, 31, 35, 90, 172
Adət 32, 36, 51
Adil olmaq 100, 123
Ağıllı və həddi-buluğa çatmaq 11, 33
Aişə (radıyallahü anhə) 24, 28, 109, 110, 141
Akaid bilgisi 9
Allahü təala sevgisi 18, 127, 140
Allahü təala vardır 7, 13
Allahü təalanın sıfatları (xüsusiyyətləri) 12, 13
Allaha inanmaq 20
Aməntünü öyrətmək lazımdır 36, 126
Ana-ata haqqı 140
Ana-ataya itaət 19
And içmək 26, 31, 34, 36
Ariflər 9
Astronomiya öyrənmək lazımdır 124, 172
Avropalılar, amerikalılar islamiyyətə uyğun çalışıb qazanırlar 39
Avtobusda namaz 86
Avtomobildə namaz 85
Axirətə iman 16
Aybaşı zamanı 49
Ayətəl-kürsi oxumaq 77
Ayisə olmaq 52
Ayn və deyn olan mal 115
Azana hörmət 19
Azanı Muhammədi 71
Azimətlə əməl etmək 134, 171
Bahıl (xəsis) olmaq 130
Başqa məzhəbi təqlid etmək caizdir 18, 32
Bayram günləri 48, 75
Bayram namazları 37, 99, 101
Bayram təkbirləri 70
Bayram və Cümə xütbələri 70, 97, 98
Bəlalardan qurtulmaq üçün 105, 119
Bəsmələ oxumaq 38, 139
Beytül-mal 72
Bidət işləmək 2, 10, 17, 21
Bığ qırxmaq 32
Birinci vəzifə nə olmalıdır 90, 108
Borc almaq 94
Buxara şəhərinin alimləri 171
Buxari kitabı 31, 106, 110
“Cavab verə bilmədi” kitabı 15
Cadu 19
Cahillər 17, 23, 40, 47
Çalğı çalmaq 114
Çalğı ilə Quran oxumaq 75
Camaat ilə namaz 37, 39, 75, 83
Çarşab sonradan meydana çıxdı 26, 136
Cəbrayıl 87, 90, 142
Cəhənnəm 9, 12, 16, 26, 29, 35, 37, 71, 74, 83, 89, 108
Cəhənnəm əzabı 37, 39, 132
Cənazə namazı 31, 36, 58, 72, 109, 153
Cənazə xidmətləri 36, 109
Cənnət 9, 16, 23, 29, 30, 83, 87, 88, 121, 136, 139, 148, 155, 158
Cənnət nemətləri 12, 67, 89, 162, 163, 167
Cilbab 26, 137
Çılpaq gəzənlər 41, 105, 135, 149
Cin zərəri 134
Cukiyyə kafirləri 170, 171
Cümə namazı 38, 65, 70, (97), 171
Cümə və bayram xütbələri 70, 97
Cünub gəzmək fəlakətdir, haramdır 36, 131
Dar-ül-hərb 11, 27, 115
Darvin nəzəriyyəsi 8
Davhəi kübra vaxtı 120
Dəfn 152, 160
Dərd, bəla çəkənlər 8
Dəstəmaz alma ədəbi
Dəstəmaz duaları 63
Dəstəmazı pozan şeylər 62
Dəstəmazın fərzləri 58
Dəstəmazın məkruhları 61
Dəstəmazın müstəhəbləri 61
Dəstəmazın sünnətləri 59
Dəvətə getmək 136, 146
Deyn olan mal 115
Din adamı 3, 11, 19, 40, 51, 84
Din bilgiləri 2, 10, 19, 24, 63, 113
Din bilgisi öyrənmək fərzdir 63
Din düşmənləri 74, 161, 173
Din fırıldağı 173
Din kitabları 3, 19, 40, 44, 151, 173
Din nədir 10
Din oğruları 171

Dinar deyilən pul 117
Dində reformçular 46, 47
Dirhəmi şəri 68
Dırnaq boyası istifadə etmək olmaz 45, 70
Diş doldurmaq və qüsl 47, 67
Diş örtmək, diş doldurmaq 48, 67
Donuz əti haramdır 35, 130
Dörd məzhəb 10, 18, 32
Dörd xəlifə 141, 154
Dostluq 22, 27, 30, 69, 139
Dövr və isqat 94
Dua etmək 23, 26, 42, 49, 63, 77, 81, 89
Dua necə edilir (78)
Dünya sevgisi 128, 144
Dünyaya düşkün olmaq 69, 170, 171
Düşməndən qaçmaq 129
Ehsan 2, 40, 139, 171
Ehtiyac əşyası 70, 116
Elementlər 7
Elm öyrənməyin savabı 139, 167
Elmihal kitabları 3, 20, 42, 71
Elmin və alimlərin qiyməti
Etiqad bilgiləri 10, 25
Etiqadda məzhəb 25, 29, 35
Evlənmək 51, 109, 133, (146)
Evlənməsi caiz olmayan qadınlar 150
Evlənmək savabı 149
Əbu Bəkr Sıddıq 27, 116, 142, 170
Əbu Cəhl 28, 31
Əbu Hənifə 25, 51, 154
Əbu Mansur Maturidi 25
Əcəl dəyişməz 154, 156
Ədəb 17, 22, 33, 77, 123
Ədilləi şəriyyə 17, 83
Əhkamı islamiyyəyə tabe olmaq 8, 20, 22, (36), 45, 111, 154
Əhkamı islamiyyəyə tabe olan hər kəs qazanar
Əhli qiblə 154
Əhli sünnət alimləri 3, 10, 18, 32, 98, 138, 143, 151, 160, 168, 170
Əhli sünnət etiqadı 10, 25, 29, 98, 107, 109, 128
Əhli sünnət məzhəbi 98, 143
Əhməd bin Hanbəl 18, 135, 165
"Əl fiqhu aləl məzahib-il ərbəa" kitabı 49, 68, 72, 100, 102, 117, 137, 167
Əlli dörd fərz (126)
Əməldə məzhəb 18, 25, 35
Əmri maruf 27
Əmri təklifi 144
Əmri təkvini 144
Əqiq qurbanı 125
Ər-arvad haqları 141
Əshabi-kiram 10, 17, 24, 108, (141)
Əxlaqı hasənə (gözəl əxlaq) 27, 79, 112, 140
Əyyamı-biyd orucu 125
Faitə namazlar 125
Faiz alıb vermək haramdır 19, 26, 31, 38, 114, 129
Falçıya inanmamaq lazımdır 130
Fasid qan 52, 57
Fasid təmizlik 51, 55
Fasiq imama uymaq olmaz 38, 101
Fasiq kimə deyilir 4, 38, 101
Fatimə-tüz-zəhra 24, 143, 149
Fən fırıldaqçıları 8, 173
Fənn bilgiləri 36, 173
Fənn təqlidçiləri 8, 173
Fərz namazlarından sonra ayət-əl-kürsi 77
Fərzlər 22, 25, 36
Fərzlərin əhəmiyyəti 26, 37
Feyz olmaq 171
Feyziyyə fitvaları 58, 147
Fidyə vermək 91, 96, 104
Filosoflar 17
Fiqh bilgisi lazımdır 2, 32, 117
Fiqh kitabları 31, 35, 48, 104, 117, 136
Firon 31, 108, 111
Fisq 41
Fisq məclisi 41
Fitnə çıxartmaq haramdır 27, 32, 46, 73, 133, 137
Fitrə 37, 113, 115, 119, 121, 124, 130
Fülus deyilən pullar 115, 116, 117
Gecə namazı 106, 111
Gəmidə namaz 82, 85
Gəncləri aldadanlar 8, 17, 40
Gözəl əxlaq 24, 27, 111, 138
Gülər üzlü, şirin dilli olmaq 20, 27, 111, 139, 140
Günah işləyənlər 4, 18, 35, 66, 75, 100
Günahı kəbair (böyük günahlar) 90, (129)
Halal yemək 26, 105, 127
Harac, məşəqqət 68, 92
Haram yeyənlər 97
Harama səbəb olan haramdır 100, 153

Haramdan çəkinmək 111, 113, 127, 128, 153, 147, 168
Haramlar 11, 22, 26, 38, 90, 93, 111, 128
Havf (qorxu) 140
Hayz (aybaşı) və nifas (doğuşdan gələn qan) (49), 50, 51
Həccə getmək 12, 36, 38, 91, (125)
Həddi-buluğa çatmaq 11, 21, 33, 48, 51, 59, 72
Hadəsdən təharət 41
Hədisi-şəriflər 3, 10, 26, 32
Hədiyyə 20, 95, 139
Hanbəli məzhəbi 18, 91, 109, 118, 138
Hənəfi məzhəbi 18, 25, 32, 61
Həsəd haramdır 19, 139
Həva 4
Həvayi-nəfs 22
Həvva anamız 7
Həya 22, 25
Hicrət etmək 39
Hissəi fəcr 122
Hiylə etmək haramdır 26, 27, 67, 143, 151
Hökmi təmizlik 51
Hökümətə üsyan etmək haramdır 27, 143
Hubbu fillah və buğdu fillah 129, 142
Huşu 71
İbadət 9, 21, 23, 26, 34, 38
İbadət savabı hədiyyə edilir 21
İbadətlərin qəbul olması 26, 47, 84, 143
İbrahim əleyhissəlam 16
İçki haramdır 19, 39, 110, 130, 140
İctihad 10, 47, 92
İftitah təkbiri 42, 76, 81, 84
İftitah təkbirinin savabı 87
İki namazı cəm etmək 87
İlham 4
İlk insan 7
İma (işarət) ilə namaz qılmaq 66
İmam necə olmalıdır 39, 101
İmama uymaq 47, 83
İmaməyn (iki İmam) 110
İmamı Azam Əbu Hənifə 25, 61, 98
İmamı Nəvəvi 41,
İmamı Rabbani 2, 26, 41, 61, 111, 113
İman 9, 12, 18, 19, 21
İmanın altı şərti 11, 12, 128
İmansız getməmək 19, 40, 157
İmsaq vaxtı 122
İnsan iradəsi 147
İnsan və meymun 8
İnsanlıq vəzifəsi 11, 42
İntihar etmək 156
İpək geyinmək kişilərə haramdır 20, 34, 133, 143
İslam düşmənləri 3, 8, 27, 42, 130, 138
İslam qadını 154
İslamiyyət 9, 12, 18, 26
İstibra (sidik yolunu sidikdən təmizləmək) 42, 50
İstiğfar (bağışlama) 78, 83, 106, 107
İstinca (təharətlənmək) 48, 65, 68
İstiqamət 79, 82
İstiqbali qiblə 42
İttihadçılar
İxlas 23, 26, 30, 38, 71
İzmirli İsmayıl Əfəndi
Kafir 3, 9, 17. 19, 21
Kafirə də zülm etmək olmaz
Kağız pul 118
Kağız pulun zəkatı 118
Kardavi məzhəbsizdir 139
Kasıbçılığa səbəb olan şeylər 85
Kəfən 114, 155
Kəffarə 95, 96, 115
Kəlimeyi-şəhadət 24
Kəlimeyi-təvhid 11, 78, 128
Kəramət 144
Kəşf 69
Kibr 125
Kibr haramdır
Kiçik günaha davam etmək böyük günah olar 36
Kişi kimi geyinən qadınlar 137
Kitablara iman 12
Kommunistlər
Küfr 9, (31)
Küfr əlaməti olan şeylər
Küfrə səbəb olan şeylər (31)
Küfri hökmi 31
Leş 39, 132
Livata hər dində haramdır 20, 36, 39
Mahnı oxumaq 74, 115, 133, 140, 146
Mai müstaməl 159
Mala-yani (faydasız) olan şeylər günahdır 71
Malı habis 115
Maliki məzhəbi 43, 46, 58, 61, 62, 170
Maliki və Şafii imama uymaq olar 47
Marifət 145
Matüridi məzhəbi 25

Mədəni olmaq 141
Merac gecəsi 18
Məhəbbət 16, 75, 84, 150
Mehr pulu 27, 130
Məhrəm olan və olmayan qohum 20, 110, 129, 131
Məkruh 33, 37, (40), 51, 59
Məktubat kitabı 2, 16, 111, 112, 171
Mələklər 4, 7, 12, 15, 18, 21, 24, 30, 31, 77
Məndub 58, 68
Məzhəbsizlər 4, 27, 39, 43, 99, 108, 111, 119, 130
Məsud olmaq üçün 3, 10
Meyid üçün namaz isqatı (95), 96, 97
Meyidin yuyulması 155
Məzhəb imamları 18, 25
Məzhəb təqlidi 45, 46, 47
Məzhəblər 18, 43, 47, 61
Mikrafon ilə azan və namaz 41
Mil uzunluq vahidi 65
Mushaf 9, 58
Misqal deyilən ağırlıq 115
Misvaqdan istifadə etmək 60
Mömin 9, 19, 21, 26, 29. 30
Möminin qəlbini qırmaq 132
Mövlid oxumaq 134
Müaviyə (radıyallahü anh) 72
Mucahidə 142
Müfsid olan şeylər 37, 40, 47
Muhamməd (əleyhissəlam) 3, 9, 13, 15, 16, 17, 20, 22, 23, 29, 32, 40, 128, 162
Muhamməd əleyhissəlamın babaları 18
Münafiqlər 20, 22, 31, 154, 158, 165
Münaqişə 8, 27, 69, 112, 141, 156
Mürşid 9, 154
Mürtədlər 11, 12, 37, 43, 47, 70
Musa əleyhissəlam 15, 16, 35
Müsəlman olmaq üçün 9
Müsəlman qanunlara qarşı çıxmaz 21, 27
Müsəlman xanım necə geyinər 138, 139
Musiqi 37, 58, 133, 134
Müslim kitabı 107, 109, 111, 135, 137, 138
Müstəhəb 37, 39
Mutəzilə firqəsi 146
Nəfəqə (ehtiyac) 70, 97, 110, 114, 153, 155
Nafilə ibadətlər 38, 39, 41
Nafilə namazlar və fərzlər 39, 48, 80, 86, 98, 100, 111
Nafilə və sünnətlər yerinə qəza qılınmalıdır 112, 113
Namaz isqatı (95), 96
Namaz necə qılınır 42, (69), 78
Namaz qılmayanlar 38
Namaz vaxtları 71, 74, 92
Namaza əhəmiyyət verməyənlər 19, (107)
Namazda tadili ərkan 19, 76, (85)
Namazdan sonrakı təsbehlər 77
Namazı pozan şeylər (81)
Namazın ədəbi 44
Namazın əhəmiyyəti (107)
Namazın məkruhları (79)
Namazın müstəhəbləri (77)
Namazın rüknləri 42, 83
Namazın şərtləri 42, 83
Namazdan sonra dua (78)
Namazın sünnətləri 38, (76)
Namazın vacibləri 76
Nəcasətdən təharət 42
Nəfsə uyanlar 171, 173
Nəmrud 31
Nəsh 16
Nəsihət 4, 27, 141, 142, 143
Ney çalmaq 78, 133
Nəzr 116, 120, 122, 125
Nifas (lohusalıq) 47, 49, 57
Nikah və evlənmə işləri 149
Nikahı haram olanlar 153
Nisab 114, 115
Niyyət etmək 4, 24, 26, 38, 46, 59, 121
Nuh əleyhissəlam 16
Oğurluq 18, 35, 39, 131, 151
Ölmək 85, 166
Ölüm halı 105, 157
Ömər-ül Faruk (radıyallahü anh) 17, 28, 87, 110, 112, 137. 144, 145
Oruc tutmaq 41, 55, 92, (121)
Orucu pozan şeylər 121, 122, 124
Orucun növləri 125
Osman Zinnureyn (radıyallahü anh) 87, 145, 165, 168
Osmanlı dövləti 10, 102, 146
Övlad tərbiyəsi 154
Övladını tez evləndirmək lazımdır 110
Övliya 19, 32, 95, 122, 135, 144
Övrət məhəlli 27, 42, 47

Övrət yerini açan və baxan lənətlənmişdir 28, 132, 135, 136
Oyunlar 28, 41, 42, 153
Peyğəmbərimizin babaları 18
Peyğəmbərlər 3, 15, 16, 20, 32, 71, 83
Pis dost 23, 146, 154
Pis yoldaş 4
Pivə içmək haramdır 19
Pozğun din adamları 3, 11, 41
Qadın kimi geyinən kişi 137
Qadın səsi övrətdir 134, 140
Qadınların açıq gəzməsi 136, 147, 159, 173
Qadınların hayz və nifas halları (49)
Qadınların səfərə çıxması 70, 153
Qadınların, qızların örtünmələri lazımdır 112, 129, (135)
Qanunlara qarşı çıxmaq olmaz 27, 129, 133
Qarğış etmək 35, 106
Qəbir 17, 30, 90, 134, 163
Qəbir əzabı 17, 134, 166
Qəbir sualı 163, 166
Qəbir ziyarəti (168)
Qəflət 4, 12, 133
Qəlbin qaralmaması üçün 12, 75, 112, 140, 172
Qəlbin qaralması 146
Qəlbin təmizliyi 172
Qənaət 129, 142, 148, 158
Qəsb edilən mal 26, 115, 131
Qeybdən xəbər verənlər 12, 132
Qeybət haramdır 132, 150
Qeyri müsəlmanlar 27, 33, 113
Qəza namazları 82, (90), 93
Qəza namazlarını ödəməyənlər 90
Qəza-qədər 12, 17, 143, 167
Qəzəb 8, 91, 141
Qiblə 29, 34, 43, 48
Qibləyə ayaq uzatmaq 34, 61
Qibləyə dönmək 43, 60, 82, 86
Qibtə 142
Qiyamət günü 17, 40, 83, 85, 88, 109, 123, 152, 170
Qızıl ilə gümüş pullar 95, 118, 120
Qızlar fasiqlər ilə görüşməməlidir 20
Qohum ziyarəti 20, 129
Qonşu haqqı 20, 27, 143
Qul haqqı 26, 123, 130, 143
Quran tərcüməsi 174
Qurani-kərim 3, 9, 10, 15, 24, 37, 43, 72, 73, 74, 162
Qurani-kərim oxumaq 24, 58, 83, 96, 99, 169
Qürbət 126, 127
Qüslün fərzi üçdür 44
Qüslün sünnətləri 48
Qüsl 37, (44)
Qüsldə dişlərin islanması şərtdir 44, 46, 48
Radio, televiziya, kino və qəzetlər 27, 72, 74, 75, 153, 172
Radioda azan və Quran oxumaq 72, 73
Ramazanı şərif 37, 41, 124, 125
Rəca (ümid) 22
Rəsulullahın ataları, babaları mömin idilər 18
Rəsulullahın övladları 25, 28
Rəsulullahın xanımları 25
Rıfk (yumşaq xasiyyətli) 142
Ruhsat ilə əməl 136
Rüku necə edilir 19, 43
Rüşvət 115, 132
Ruzi 13, 35, 78, 83, 129, 130, 157
Sa` deyilən həcm vahidi 95
Şafii məzhəbi 46, 47, 75
Salamlaşmaq 37
Salət nə deməkdir? 83
Salətən tüncinə 157
Saleh insan 3, 9, 47, 64, 72
Saqqal boyamaq 33
Saqqal təraşı 32
Saqqal uzatmaq 32
Sarğı üstünə məsh 66, 67
Savab hədiyyə edilir 170
Savab olan şeylər 18, 21, 39
Səadətə qovuşmaq 4, 8, 41, 106
Səadəti əbədiyyə kitabı 43, 47, 58, 73, 126, 131, 140, 154, 155
Səbəblər 37, 121
Səcdə 19, 38, 42, 43
Səcdə yerə edilir 43
Səcdəi-səhv 40, 76, 85
Səcdəi tilavət 38, 58, 73, 76
Şəfaət 9, 38, 88, 152
Səfəri olmaq 86, 94
Şəhid olmaq 29, 146, (164)
Səhih qan 51, 56, 57
Sələfi salihin 75
Səmən deyilən mal 116, 118
Şərab işmək haramdır 19, 35, 36, 39, 110, 130

Sətri övrət 42
Sevmək 4, 11, 17, 18
Səy göstərmək 24, 142, 143
Şeytan 4, 23, 31, 39, 60, 71, 97
Sıfatı sübutiyyə (141)
Sıfatı zatiyyə (140)
Sima 69
Şirin dil 20, 27, 112, 141
Şirk 30 35
Spirtli içkilər haramdır 39, 110, 115, 130 ,131
Spirtli mayelər 42
Stulda namaz 87, 105
Sular haqqında bilgi (59)
Süleyman əleyhissəlam 16
Sünnəti tərk etmək 17, 38, 92, 93, 94, 100
Sünnətlərin qiyməti 19, 34
Şükr 88, 127
Tadili ərkan 19, 76, 85
Tam mülk 115
Tam təmizlik 51, 56
Təbliğ 16
Təfsir 3, 24, 36, 43, 91, 140, 154
Təğənni 72, 74, 83, 133
Təğənni haramdır 71
Təkbiri təşrik 70, 76
Televiziyadakı imama uymaq olmaz 75, 83
Təlkin vermək 163
Təmiz olmaq 4
Təmkin zamanı 126
Təqva 39
Təriqətçilər 69, 78
Təsəttür (qadınların örtünməsi) (135)
Təslim 129, 137
Təvəkkül 22, 129, 143
Təvhid 23
Təyəmmüm 42, (63)
Təyəmmüm necə alınır? 63
Təyəmmümün fərzləri 64
Təyin etmək 15, 94, 116
Təyyarədə namaz 87, 105
Tövbə 9, 12, 20, 28, 40, 58, 91, 93
Tövrat kitabı 15
Türbələri ziyarət etmək 169
Tütün haram deyildir 36
Uşr 41, 115, 116
Üsyan etməmək lazımdır 27, 129
Üzr 45, 52
Üzr sahibi 52
Uzunluq ölcü vahidləri 95
Vacib 13, 21, 32
Vəhy 4, 9, 107
Vəhhabilər 17, 41, 99
Vəli 9, 16, 17, 41
Vəra və təqva 39, 71, 171
Vergi ödənilməlidir 27, 121
Vəsiyyət 21, 67, 92, 95, 96, 105
Vəsvəsə 4
Vurmaq qadağandır 102
Xəlvət etmək 24, 137
Xəstəlikdə dəstəmaz və namaz 62, 64, 66
Xəyanət 16, 26, 36, 67, 129, 132, 143
Xeyrat, həsənət 40
Xristianlar 15, 33, 168
Xütbə necə oxunur 98, 99
Yad qadına baxmaq 135, 136
Yad qadınla xəlvət etmək haramdır 135, 137
Yalan danışmaq 39, 132
Yalançı şahidlik 26
Yara üstünə məsh 67
Yaratmaq 7, 14, 15, 147, 157, 173
Yaxşılıq etmək 27, 78, 108, 112, 142, 144
Yemək ədəbi 34, 35, 97, 146, 147
Yemək ədəbi və duası 78, 146
Yemək hazırlamaq 149
Yetim malı yemək 131
Yetmiş iki firqə 17

# *Qeyd üçün*

# *Qeyd ùýúìn*

**MİZRAKLI ELMİHAL**

# CƏNNƏT YOLU ELMİHALI

**Muhamməd bin Kutbüddini İzniki**


Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 01.05.2011.
Çapa imzalanmışdır: 27.01.2012.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 11,5.
Sifariş: 11/12. Sayı: 500 ədəd.
Müqavilə qiyməti ilə.

NURLAR
NƏSRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com